AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

MÜASİR İNGİLİS DİLİNDƏ SADƏ CÜMLƏLƏRİN İNVARİANT MODELLERİ VƏ VARİATİVLİYİ

İxtisas: 5708.01 – German dilləri

Elm sahəsi: Filologiya

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş

DİSSERTASİYA

İddiaçı: _____ **Fəridə Məhəmmədəli qızı Allahverdiyeva**

Elmi məsləhətçi: _____ filologiya elmləri doktoru, professor
İlham Mikayıl oğlu Tahirov

Bakı – 2021

MÜNDƏRİCAT

GİRİŞ 6
I FƏSİL.SADƏ CÜMLƏNİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ..... 13
1.1. Sintaksisdə cümlə problemi və onun təsnifatı 13
1.2. Cümlə üzvlərinin təsnifatı 23
1.3. İngilis dilində söz sırası 28
1.4. Qədim ingilis dilində sadə cümlə modelləri 31
1.4.1. SP (Subject Predicate) modeli 35
1.4.2. SPO (Subject Predicate Object) modeli 37
1.4.3. SPC (Subject Predicate Compliment) modeli 38
1.5. Qədim ingilis dilində cümlə üzvləri və onların ifadə vasitələri 39
1.6. Qədim ingilis dilində söz sırası 46
1.7. Orta və erkən yeni ingilis dilinin sadə cümlə modellərində baş vermiş dəyişikliklər 50
1.7.1. SP cümlə modeli 52
1.7.2. SPO cümlə modeli 53
1.7.3. SPC cümlə modeli 53
1.8. Cümlənin kommunikativ tiplərində baş vermiş dəyişikliklər 57
1.9. Cümlə üzvləri və onların ifadə vasitələrində baş vermiş dəyişikliklər 62
1.10. Söz sırasında baş vermiş dəyişikliklər 69
II FƏSİL. MÜASİR DİLÇİLİKDƏ VARİATİVLİK PROBLEMİ 73
2.1. Variativlik probleminə yanaşmalar 73
2.2. Oxşar sintaktik strukturlarda sintaktik derivasiya 87
2.3. Sintaktik transformasiya 101
2.4. Sintaktik paradiqma və onun oxşar strukturlarda xüsusiyyətləri 114
III FƏSİL. LİNQVİSTİK MODEL ANLAYIŞI 124
3.1. Dilin modelləşdirməsi haqqında 124
3.2. Dilin modelləşdirilməsi probleminə dair 125
3.3. Linqvistik modeller 131

3.4. Sintaktik-struktur modellərin təhlil yolları 136
3.4.1. Funksional kateqoriyalar 141
3.5. Transformasion təhlil modelləri 144
3.6. Sadə cümlədə transformasiya qaydaları 155
3.6.1. BE olan cümlələrdə transformasiyalar 162
3.6.1.1. Nominallaşmanın transformasiyası 164
3.6.2. HAVE ilə olan transformasiyalar 168
3.6.4. Təsirli feilli cümlələrin transformasiyaları 172
3.7. Törədici modellər 175
3.8. Funksional amillər 180
IV FƏSİL.İNVARİANT MODELLƏR 189
4.1. After, before, since - söz önlüyü, bağlayıcı və ya zərflər rolunda 189
4.2. Modal feilli modellər (yarımmodal feillər) 200
4.2.1. *Shall* yarımmodal feili 200
4.2.2. *Should* yarımmodal feili 201
4.2.3. *Will* yarımmodal feili 201
4.2.4. *Would* yarımmodal feili 202
4.2.5. *Dare* yarımmodal feili 203
4.2.6. *Need* yarımmodal feili 204
Sxem 4.2. *Will* – köməkçi feil kimi 206
4.3. Əmr cümləli model 210
4.4. Nida cümləli model 210
4.5. Cümlə üzvlərinin işlənmə modelləri 211
4.5.1. Mübtəda 211
4.5.2. Xəbər 212
4.5.2.1. Feili xəbər 212
4.5.2.2. İsmi xəbər 214
4.5.2.3. Mübtəda-xəbər uzlaşması 215
4.5.3.Tamamlıq 215
4.5.3.1. Vasitəli tamamlıq 215

4.5.3.2. Vasitəsiz tamamlıq 216
4.5.3.3. Sözönlü vasitəli tamamlıq 216
4.5.4. Zərf birləşmələri 216
4.5.4.1. Yer zərfliyi 217
4.5.4.2. Zaman zərfliyi 217
4.5.4.2.1. Zaman zərfliyinin cümlədə yeri 218
4.5.4.3. Tərzi hərəkət zərfliyi 219
4.5.4.4. Hal-vəziyyət zərfliyi 219
4.5.4.5. Səbəb zərfliyi 219
4.5.4.6. Məqsəd zərfliyi 220
4.5.4.7. Nəticə zərfliyi 220
4.5.4.8. Şərt zərfliyi 221
4.5.4.9. Güzəşt zərfliyi 221
4.6. Elliptik strukturlar 221
4.6.1. Dialoqlarda elliptik cümlələr 223
V FƏSİL. NİTQ İNTONASİYASININ VARİATİV TƏBİƏTİ 226
5.1. Dilin fonetik sistemində və intonasiya strukturunda konstantlıq və variativlik məsələsi 226
5.2. Eksperimental tədqiqat metodu 235
5.3. İngilis dili intonasiyasının formal və funksional aspektləri 247
5.3.1. İntonasiyanın kommunikativ və diskursiv (mühakiməyürütmə) funksiyası 255
5.3.2. İntonasiyanın sintaktik (qrammatik) funksiyası 257
5.3.3. İntonasiyanın modal (münasibətbildirmə) funksiyası 258
5.3.4. İntonasiyanın məntiqi (vurğulayıcı) funksiyası 262
5.3.5. İntonasiyanın əsas tərkib ünsürləri 264
5.4. İngilis dili tonlarının bəzi funksiyaları 266
5.4.1. Ton vahidi və onun quruluşu 269
5.4.2. Səs tonu səviyyəsinin hüdudları 273
5.4.3. Mürəkkəb tonlarda səs yüksəkliyi dərəcəsi 275

5.5. İngilis dilində intonasiya tipləri 275
5.6. İngilis dilində təksintaqmlı cümlələrin melodiyası 279
5.7. Sadə nəqli cümlə növlərinin intonasiya variativliyi 282
5.7.1. Sadə nəqli cümlələrin intonativ variativliyini şərtləndirən əsas melodik konturlar (MK) 286
5.8. Sadə nəqli cümlənin emfatik intonasiya (emfazası) forması 289
5.8.1. Qüvvətləndirmə emfazası 291
5.8.2. Qarşılaşdırma emfazası 294
5.8.3. Tonardı işlənən enib-qalxma və qalxıb-enmə 299
5.8.4. Yüksək və alçaq səviyyəli şkalalar 301
5.8.5. İntonasiya konturunda tonal hecanın müəyyən edilməsi 303
5.8.6. Tonal hecanın sərhədləri 305
NƏTİCƏ 307
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI 311

GİRİŞ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Variativlik, variantlılıq dil vasitələrinin universal xüsusiyyəti olaraq dilin bütün səviyyələrində müşahidə edilir. Müasir dilçilik tədqiqatları üçün əsas səciyyəvi cəhətlərdən biri dil vasitələrinin variativliyinin ümumi tipologiyası və müxtəlif variantların mətndə funksional spesifikası kimi məsələlərə diqqət yetirilməsidir. Dilin digər səviyyələrindən fərqli olaraq, sintaksisdə variativlik problemi az tədqiq edilmişdir. Sintaksis sahəsində variativliyin tədqiqinin mürəkkəbliyi sintaktik vahidlərin ikili təbiəti, onların struktur-məzmun düzəni ilə şərtlənir. Sintaktik vahid olaraq cümlə tarixi təkamül prosesində struktur-məzmun düzənini və funksional yönünü dəyişir. Sadə cümlə ümumən qəbul edilmiş kommunikativ nitq vahidi və ümumən qəbul edilmiş sintaktik vahid kimi müasir dilçilik tədqiqatlarında müxtəlif yönlərdən geniş tədqiq edilmiş və indi də edilməkdədir. Cümlənin struktur növü olaraq sadə cümlə, başqa dillərdə olduğu kimi, müasir ingilis dilində də uzun inkişaf yolu keçmiş, cümlə modellərində, cümlə üzvlərinin ifadə vasitələrində, sadələşmə nəticəsində söz sırasında müəyyən dəyişikliklər vasitəsilə struktur-semantik cəhətdən təkmilləşərək bugünkü vəziyyətə gəlib çıxmışdır.

İndiyə qədər ingilis dilinin sintaktik quruluşunun təsviri verilən tədqiqatlarda sadə cümlənin bütün sintaktik modellərinin variativlik xüsusiyyətlərinin hərtərəfli təsviri verilməmişdir. Hələ də sintaksisdə sadə cümlə ilə bağlı mübahisəli məqamların olması səbəbindən onun struktur-semantik xüsusiyyətləri, tarixi inkişaf prosesində meydana çıxan variasiyaları önəmli məsələ kimi qeyd etmək olar ki, bu da mövzunun aktuallığına dəlalət edir. Bütün bunlar sadə cümlənin ingilis dilinin müxtəlif tarixi dövrlərindəki struktur-semantik düzənini təhlil edərək müqayisələr aparılmasını, sadə cümlə modellərində, cümlə üzvləri və onların ifadə vasitələrində, söz sırasında baş vermiş dəyişikliklərin üzə çıxarılmasını, həmin dəyişikliklərin səbəblərinin təhlil edilməsini aktual linqvo-metodiki məsələ kimi gündəmə gətirir.

Azərbaycan dilçiliyində müxtəlid növ cümlələrin variativlik problemini bir çox tədqiqatçılar (K.Abdullayev, S.Abdullayev, F.Veysəlli, D.Yunusov və başqaları)

araşdırmış və bu sahəyə dair dəyərli əsərlər ortaya qoymuşlar. Variativlik termini müasir dilçilikdə müxtəlif dil vahidlərinin funksionallığının təsviri və onun müşahidə olunmayan tərəflərinin aşkara çıxarılması zamanı tətbiq edilir. Son onilliklərdə fonologiyada möhkəmlənmiş variativlik anlayışı artıq dilçiliyin digər sahələrində, o cümlədən sintaksis sahəsində geniş tədqiqatların aparılmasına da rəvac vermişdir.

Müasir dilçilikdə sintaktik tədqiqatlar zamanı cümləyə struktur, praqmatik, kommunikativ və s. mövqelərdən yanaşılır. Cümlənin struktur dəyişmələrinə, onun paradiqmalarına olan maraq müasir qrammatik-sintaktik tədqiqatlarda mühüm yer tutur. Belə cəhdlər onunla izah olunur ki, müasir dilçilikdə əsas diqqət dilin dinamik tərəfinə yönəldilir. Bütün bunlar oxşar sintaktik strukturların, sadə cümlənin invariant modellərinin və modeldaxili variasiyaların təhlilini, onların minimal və maksimal sərhədlərini müasir ingilis dilinin materialları əsasında və mövcud dilçilik ədəbiyyatında əks olunan nəzəriyyələr fonunda aydınlaşdırılmasını, əldə olunan nəticə və qənaətlərin xarici dilin tədrisi prosesində dəyərləndirilməsini aktuallaşdırır.

Tədqiqatın nəzəri bazasını müxtəlif dillərin, o cümlədən ingilis dilinin qrammatik quruluşu, sintaktik strukturu, tarixi, kommunikativ, funksional, semantik, müqayisəli sintaksisi, universal və transformasion-generativ qrammatika, cümlənin aktual üzvlənməsi, mətn sintaksisi və s. ilə bağlı xarici və ölkə dilçi alimlərinin – E.Koseriu, L.Tenyer, U.Çeyf, N.Xomski, Z.Harris, O.Yespersen, C.Layons, A.M.Muxin, A.İ.Smirnitski, V.M.Solntsev, B.A.İliş, V.V.Rastorquyeva, N.A.Slüsareva, K.Brunner, V.Q.Qak, Q.Qlison, V.A.Zveginsev, K.Abdullayev, S.Abdullayev, F.Veysəlli, A.Məmmədov, D.Yunusov, Ə.Rəcəbli və b. elmi-nəzəri araşdırmaları, fikir və mülahizələri təşkil edir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti müasir ingilis dilində sadə cümlənin struktur tipləridir.

Tədqiqatın predmetini müasir ingilis dilində sadə cümlənin invariant modellərinin və variativliyinin müəyyənləşdirilməsi təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın əsas məqsədi müasir ingilis dilinin materialları əsasında sadə cümlənin strukturunda baş vermiş müxtəlif variativ, paradiqmatik, derivasion, sinonimik və transformasion dəyişmələri və invariant

modelləri müəyyənləşdirmək, sadə cümlənin strukturundakı dəyişmələrin səbəblərini ingilis dilinin tarixi inkişaf dövrləri üçün xas olan dəyişmələr fonunda şərh etmək, cümlənin şəkli dəyişmələri zamanı və semantik strukturlarının dəyişdiyi hallarda ümumi əlamət kimi variativliyi əsas götürmək, sadə cümlələrin sintaktik baxımdan transformasion və paradiqmatik əlaqələrinin yaranma səbəblərini müəyyən etməkdən ibarətdir.

Bu məqsədə çatmaq ücün aşağıdakı vəsifələrin həllinə diqqət yetirilir:

- ingilis dilinin ayrı-ayrı tarixi inkişaf dövrlərində sadə cümlənin səciyyəvi struktur-semantik xüsusiyyətlərini tədqiq etmək;
- orta və erkən yeni ingilis dili dövrləri üçün səciyyəvi sadə cümlə modellərində baş vermiş dəyişikləri üzə çıxarmaq;
- ingilis dilinin ayrı-ayrı tarixi inkişaf dövrlərində sadə cümlə strukturlarında cümlə üzvləri və onların ifadə vasitələrində baş vermiş dəyişiklikləri tədqiq etmək;
- müasir ingilis dilində sadə cümlənin sintaktik variantlarını və onların tiplərini müəyyənləşdirmək;
- ingilis dilində sadə cümlələrin variativliyini şərtləndirən əsas amilləri üzə çıxarmaq;
- müasir ingilis dilində sadə cümlələrin əsas invariant modellərinin sistemli semantik-sintaktik təsvirini müəyyən etmək;
- elmi-nəzəri ədəbiyyatın tənqidi təhlili əsasında müasir ingilis dilində sadə cümlələrin invariant modellərinin tipologiyasını yaratmağa cəhd etmək;
- ingilis dilində sadə cümlə modelləri üçün sintaktik paradiqmaları araşdırmaq;
- ingilis dilində sadə cümlənin oxşar sintaktik strukturlarında sintaktik derivasiya məsələsini aşkar etmək;
- ingilis dilində sadə cümlələrin müxtəlif linqvistik təhlil modelləri (transformasiya, törədici və ya törəmə) əsasında müəyyənləşdirmək;
- ingilis dilində sadə cümlələrin strukturunda cümlə üzvlərinin işlənmə modellərinin təsvirini vermək;
- ingilis dilinin sadə cümlələrinin intonasiya strukturuna və nitq

intonasiyasının variativ təbiətini üzə çıxarmaq;

- intonasiya strukturunda konstantlıq və variativlik məsələlərini eksperimental cəhətdən tədqiq etmək;

- ingilis dili sadə cümlələrinin intonasiyasının formal və funksional aspektlərini dəqiqləşdirmək.

Tədqiqat metodları. Tədqiqatda təsviri və müqayisə kimi ümumelmi linqvistik təhlil metodlarından istifadə edilmişdir. Faktik dil materialının təhlilində definisiya təhlili, komponentli təhlil, transformasiya, kontekstual təhlil, modelləşdirmə kimi üsul və metodlar tətbiq edilmişdir. Tədqiqat mövzusu ilə bağlı elmi-nəzəri mənbələrə istinad edilmişdir. Faktik dil materialı müasir ingilis və Amerika bədii ədəbiyyatından seçilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar:

1. Müasir ingilis dilində sadə cümlənin struktur tiplərinin təhlili belə qənaətə əsas verir ki, sadə cümlənin feili və ismi struktur tipləri qarşılaşdırıla bilər. Digər dillərdə olduğu kimi ingilis dilində də feili struktur tipləri üstünlük təşkil edir.

2. İngilis dilində sadə cümlənin struktur tiplərində cümlə üzvlərinin mahiyyətini müəyyənləşdirməkdə subyekt-obyekt və predikativ kateqoriyalarla şərtlənən predikativ münasibətlər həlledici önəm daşıyır.

3. İngilis dilinin tarixi inkişaf mərhələlərində sadə cümlə modellərində subyekt-predikat münasibətlərinin təkamülü ilə yanaşı, struktur-semantik genişlənmə də gedir, ikinci dərəcəli üzvlər formalaşır. Sadə cümlənin invariant modellərinin qarşılaşdırılması onu deməyə əsas verir ki, görünür, mahiyyətcə predikativliyə daha yaxın olan obyekt münasibəti ondan sonra təşəkkül tapmışdır. Obyekt münasibəti sadə cümlə strukturunda xəbərlə tamamlıq arasındakı semio-qrammatik assosiasiyaların qneseoloji əsasını müəyyən edir. Sadə cümlədə struktur-semantik genişlənməsində subyekt-predikat və obyekt münasibətlərindən sonra atributiv münasibət formalaşır ki, bu da ingilis dilində predmetlə təyin arasındakı əlaqələrin nominativ ifadəsi ilə səciyyələnir. İngilis dilində sadə cümlənin struktur-semantik genişlənməsində özünü göstərən bu hal, həm də tipoloji hadisə sayıla bilər, çünki predikativ, obyekt, atributiv münasibətlər bütün dillərdə tarixən bir-birini izləyir.

4. İngilis dilində sadə cümlənin strukturunun, həmçinin onun tərkib elementlərinin formalaşması mürəkkəb prosesdir. Sadə cümlənin struktur-semantik komponentlərinin formalaşması üçün aşağıdakılar mühüm rol oynayır: 1) cümlə komponentlərinin sintaktik mövqeyi; 2) bu mövqe-pozisiyanın kateqorial-leksik tutumu; 3) leksik və sintaktik semantikanın qarşılıqlı əlaqəsi.

5. Sadə cümlə sintaksisinə münasibətdə "subyekt // mübtəda", "predikat // xəbər", "obyekt // tamamlıq", "predikativlik", "variantlıq", "variasiya" və s. ümumqəbul edilmiş terminlərdən istifadə edilməsinin müəyyən dərəcədə şərti xarakter daşıması onların işarələdiyi anlayışların mahiyyətinin konkret dilin, bizim tədqiqatda ingilis dilinin qrammatik əlamətləri üzrə müəyyən edilməsi ilə şərtlənir.

6. Dil vahidlərində variantlıq və invariantlıq obyektiv kateqoriya sayılır. Variativlik dil strukturunun bütün səviyyələrinə xasdır. Variativlik bir-birilə kontakt və distant vəziyyətdə olan ifadə planında özünü daha parlaq şəkildə göstərən bir prosesdir;

7. Dilin müxtəlif səviyyələrinin variativliyi sistemdaxili qanunlarla nizamlanır və mövqe, kombinator, distribusiya ilə şərtlənən variantları özündə ehtiva edən strukturdaxili variativlik, sosial amillərlə şərtlənən variativliyə qarşı qoyulur. Variantlar bəzən kontekst və situasiya ilə şərtlənən və həmin funksional sistemdə onların realizasiyasına imkan verən dil vahidlərinin şəklinin dəyişilməsi kimi izah olunur;

8. İntonasiya variativliyi dil problemində variativliyin həllinə kömək edir. Konstantlıq və variativlik dil strukturunun əsas xüsusiyyətlərindən hesab olunur. Onlarsız dil nə mövcud ola bilər, nə də inkişaf edə bilər. Konstantlıq və variativlik dilin bütün aspekt və səviyyələrində dil vahidlərinin spesifikasına uyğun şəkildə təzahür edir;

9. Cümlə bitmiş fikir ifadə edir, bir və yaxud bir neçə sintaqm qrupundan təşkil olunur ki, onlar da normal olaraq sonda səs tonunun aşağı düşməsi ilə müşayiət olunur. Cümlənin sintaktik strukturu danışanın şüurunda ənənəvi işlənmiş forma şəklində assosiasiya olunursa, sintaqm, bu baxımdan müstəqil nitq elementi kimi başa düşülür. Komponentlərarası sintaqmatik üzvlənmə öz daimiliyi ilə xarakterizə olunur.

Tədqiqatın elmi yeniliyi özünü ingilis dilində sadə cümlə problemi ilə əlaqəli əvvəllər tədqiqatın dar istiqmətdə aparılması fonunda və predmetin kifayət qədər öyrənilməməsi ilə şərtlənən pərakəndəliyin aradan qaldırılmasında, sadə cümlə sintaksisinin məntiqi-kommunikativ aspektləri və formallaşdırılması mövqeyindən üzə çıxan qanunauyğunluqların ümumiləşdirilməsində özündə göstərir. Tədqiqat işində sadə cümlə tərkibində əsas feilin paradiqmatik, qismən də sintaqmatik əlaqələri sintaktik mövqedən tədqiqata cəlb edilir. Tədqiqatda ilk dəfə olaraq müasir ingilis dilindəki sadə cümlələrin invariant modelləri (SP cümlə modeli, SPO cümlə modeli, SPC cümlə modeli) və onlarda baş vermiş modifikasiya və dəyişikliklər üzə çıxarılır, həmin modellərin ingilis dilinin müxtəlif tarixi dövrlərində funksional olmuş eyni, oxşar sintaktik strukturlarla nisbəti nəzərdən keçirilir. Tədqiqatda həm də oxşar sintaktik strukturlarda variativlik probleminin işlənməsi, linqvistik model, törədici modellər, transformasiya modelləri, cümlə üzvlərinin işlənmə modelləri, sadə cümlə növlərində modal feillərin işlənmə modelləri, nitq intonasiyasının variativ təbiəti kimi məsələrər araşdırılmış və sadə cümlə modellərində nitq intonasiyasının eksperimental-fonetik təhlili aparılmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Sadə cümlənin strukturunun təhlili ümumilikdə german dillərinin, o cümlədən müasir ingilis dilinin sintaksisinin nəzəri planda öyrənilməsinə müəyyən töhfəsini verə bilər. Tədqiqatda istifadə edilmiş material və onun təhlili nəticələri Azərbaycan germanşünaslığında müasir ingilis dilində sadə cümlə sintaksisinin bir sıra məsələlərinə, məsələn, sadə cümlənin invariant modellərinin və həmin modellərdəki variativliyin dilin inkişaf qanunauyğunluqları ilə əlaqəsi, cümlə üzvlərinin struktur-qrammatik və kommunikativ semantikasının müəyyənləşdirilməsi, sadə cümlənin optimal nüvə modellərinin üzə çıxarılması kimi məsələlərinə aydınlıq gətirilməsi baxımından nəzəri əhəmiyyət daşıyır və ümumən, cümlənin strukturu və onun komponentlərinin semantikası ilə bağlı nəzəri fikrin zənginləşdirilməsində faydalı ola bilər. Dissertasiya işində sadə cümləyə modellərin variativliyi baxımından sərgilənən yanaşma, sadə cümlədə nitq intonasiyasının variativ təbiəti ilə bağlı aparılmış eksperimental təhlil və onun nəticələri digər dillərdə oxşar sintaktik strukturların təhlilində nəzəri və praktik

baxımdan faydalı ola bilər.

Müasir ingilis dili sintaksisinin kifayət qədər mürəkkəb və mübahisəli problemlərindən olan sadə cümlənin invariant modelləri, həmin modellərdə üzə çıxan variativlik və onunla bağlı sintaktik transformasiya, sintaktik variant, sintaktik paradiqma, sintaktik derivasiya kimi oxşar sintaktik strukturların şərh olunması ingilis dili sintaksisinin tədrisi zamanı xeyli çətinliklər törədir. Bununla əlaqədar olaraq hazırkı dissertasiyanın materiallarından və əldə edilmiş nəticələrindən filoloji istiqamətli ali məktəblərdə müasir ingilis dilinin sintaksisi, nəzəri qrammatikası, ingilis dilinin kommunikativ sintaksisi kursu üzrə dərsliklərin, dərs vəsaitlərinin hazırlanmasında, eləcə də ingilis dilinin öyrədilməsi üzrə praktik məşğələlərdə istifadə oluna bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin əsas nəticələri barədə "Xarici dillərin tədrisinin aktual problemləri" adlı I, II, III və IV Respublika Elmi Konfranslarında, I, II, III Beynəlxalq Elmi-Praktiki Konfranslarda, "Ulu öndər Heydər Əliyevin irsində multikulturalizm və tolerant dəyərlər" adlı Beynəlxalq Elmi Konfransında, Beynəlxalq Qlobal Elmi və İnnovasiyalar Konfransında məruzələr edilmişdir. Tədqiqatın materialları və nəticələri ölkəmizdə və xaricdə (ABŞ, Moskva) çap olunmuş elmi məqalələrdə öz əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Hind-Avropa Dilləri şöbəsində yerinə yetirilmişdir.

Dissertasiyanın strukturu. Dissertasiya işi giriş, 5 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 7 səhifə, I fəsil 60 səhifə, II fəsil 52 səhifə, III fəsil 66 səhifə, IV fəsil 37 səhifə, V fəsil 81 səhifə, Nəticə hissəsi 4 səhifə olmaqla, işarə ilə ümumi həcmi 459 723 simvoldur.

I FƏSİL

SADƏ CÜMLƏNİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

1.1. Sintaksisdə cümlə problemi və onun təsnifatı

İngilis strukturalisti C.Layons dilçiliyə tərif verərkən onu dilin dəqiq linqvistik tədqiqi ilə məşğul olan elm kimi müəyyənləşdirir. Elmilik dil strukturunun ümumi səviyyəsinə dair aparılan müşahidələri yoxlamaq və alınan nəticələri empirik yolla sübut etmək deməkdir [256, s.14].

Bir zamanlar fəlsəfənin tərkibində olan və tədricən müstəqil bir elm sahəsinə çevrilən dilçiliyin əsas məqsədi, dilin obyektiv varlığını dərk etmək, onu düzgün tədqiq edib açmaq və şərh etməkdən ibarətdir.

Qrammatika danışan və dinləyən arasındakı fikir mübadiləsinin hansı qaydalar əsasında qurulduğunu və ya düzüldüyünü öyrənən elm sahəsidir. Başqa sözlə desək, qrammatika mətnin yaranma qaydalarını və ya prinsiplərini öyrənən elmdir. Ümumilikdə qrammatika və qrammatik nəzəriyyə tarixi kateqoriya hesab oluna bilər. Bu o deməkdir ki, bir zamanlar nə qrammatika, nə də qrammatik nəzəriyyə mövcud olmuşdu. Qrammatika və qrammatik nəzəriyyənin yaranması da bilavasitə dilçiliyin müstəqil elmə çevrilməsi ilə bağlıdır.

Dilçilik tarixi göstərir ki, qrammatik nəzəriyyənin əsasını Aristotel qoymuşdu. Belə ki, o, cümlə və nitq hissələri nəzəriyyələrini inkişaf etdirdi. Qrammatika İsgəndəriyyə məktəbinin alimlərinin köməyi ilə daha da inkişaf etdi və o, tədricən filosoflar tərəfindən deyil, qrammatistlər tərəfindən tədris olunmağa başlanıldı. Bu dövrdə mövcud olan qrammatika daha sonra XIX əsrin dilçiləri tərəfindən "ənənəvi qrammatika" adlandırıldı.

Əksər dilçilər qrammatika deyəndə onu morfemlərin sözlər, sözlərin cümlələr əmələ gətirmək qaydalarını öyrənən elm kimi başa düşürlər. Məsələn, L.Blumfild morfemlərdən cümləyə qədər olan linqvistik formaların mənalı təşkilini "qrammatika" adlandırırdı [197, s.14]. H.Suit güman edirdi ki, ümumi faktları qrammatika, xüsusi faktları isə leksika öyrənir [281, s.21].

İngilis alimi C.M.Simpson yazır: *"Sözlərin qrammatik strukturunu öyrənən elm morfologiyadır, sözdən böyük strukturları isə sintaksis öyrənir"* [276, s.103].

Lap qədimdən tədqiqat metoduna görə formal, psixoloji və məzmun sintaksisini fərqləndirirdilər. Formal sintaksis cümlənin formal əlamətlərini aşkar edirsə, psixoloji metod cümlənin düzülməsini, ruhi proseslərin ifadəsi kimi götürürdü, məzmun sintaksisi isə danışıqda cümlənin yerinə yetirdiyi funksiyanı öyrənirdi. Belə ki, məqsəddən asılı olaraq tarixən sintaksisin təsviri, tarixi-müqayisəli və izahedici növlərini fərqləndirirdilər [40, s.294].

XIX-XX əsrlərdə dilçilikdə geniş yayılmış tarixi-müqayisəli metod fonologiya və morfologiyanı daha çox tədqiq etmiş, sintaksislə bağlı olan problemlər isə demək olar ki, elmi tədqiqat işlərindən kənarda qalmışdı. Vaxt keçdikcə sintaksisə olan maraq artmış və dilçilər onun problemləri ilə daha ətraflı məşğul olmağa başlamışdılar. Qrammatikanın şöbələrindən bəhs edərkən R.H.Robins *"Sintaksis qrammatikanın ən mühüm şöbəsidir"* [271, s.191] yazırdı. Amerika strukturalizminin banisi L.Blumfild yazırdı ki, morfologiya söz və söz hissələrinin, sintaksis isə frazaların düzəlməsini əhatə edir [197, s.295]. C.Qrinvuda görə, sintaksis cümlədəki sözlərin düzgün yerləşməsi və birləşməsi qaydalarını öyrənir [227, s.124].

L.Blumfildin ideyaları daha sonra Ç.Friz və Z.Harris tərəfindən davam etdirildi. Z.Harrisin layiqli davamçısı N.Xomskidən sonra qrammatikanın və o cümlədən, sintaksisin məqsəd və vəzifələri başqa aspektdən şərh olunmağa başlandı. N.Xomski qrammatika deyəndə dildə bütün sonu olan və olmayan cümlələrin şöbəsini başa düşür. O qeyd edir ki, dildə sayca sonu olan qaydalar mövcuddur ki, onların köməyi ilə saysız-hesabsız cümlələr yaranır. Bunu da törədici qrammatika adlandırırlar. Xomskiyə görə dilçinin vəzifəsi düzgün cümlələri düzgün olmayan-lardan seçməyi müəyyənləşdirməkdən ibarətdir [205, s.48]

Cümlələr iki baxımdan araşdırıla bilər. Sintaktik baxımdan cümlə söz, fonoloji baxımdan isə fonem ardıcıllığı kimi nəzərdən keçirilə bilər. Söz sırası isə cümlənin mənasını dəyişə də bilər, dəyişməyə də, məsələn:

1. *The dog bit a man.*

   The man beat a dog.

2.*I had an idea on my way home.*

On my way home I had an idea. (Evə gedərkən yolda bir ideyam var idi).

İngilis dili də daxil olmaqla hər bir dilin sintaksisində diqqəti cəlb edən problemli məqamlar vardır. Bunlardan biri də sintaksisin predmeti ilə bağlıdır. Latın qrammatikasının təsiri altında qədim ingilis sintaksisi yalnız söz qrupları, onların strukturu və elementləri arasındakı əlaqələri öyrənirdi. Bəzi alimlərə görə, (məsələn, C.Qrinvud) sintaksis bütün xüsusiyyətləri ilə yalnız cümləni öyrənir [227, s.125]. Lakin müasir dövrümüzdə qrammatistlər sintaksisin həm söz birləşmələri, həm də cümləni öyrənməsi fikrini dəstəkləyir. B.İliş yazır: *"Sintaksis qrammatikanın söz birləşməsi və cümləni öyrənən şöbəsidir"* [237, s.14].

İlk dəfə olaraq Braytland XVIII əsrdə çap olunmuş qrammatikasında cümlə konseptini ingilis dili sintaksisinə daxil etmişdi.

Müasir ingilis dilində cümlə ilə bağlı əsas problemlər bunlardır:

1.Cümlənin sözdən fərqi;

2.Cümlənin tərifi;

3.Cümlənin təsnifatı;

4.Cümlə üzvlərinin təsnifatı.

Onu da qeyd etmək lazımdır ki, ilk dəfə cümlənin təbiətini tədqiq edib onu ayrı-ayrı sözlərdən fərqləndirən sofist Platon olmuşdur. Ona görə ən kiçik cümlə "ad+feil" strukturuna malik olmalıdır.

Cümlə ilə bağlı dilçilər arasında fikir müxtəlifliyinə səbəb olan məsələlərdən biri də cümlənin tərifidir. Bu günə qədər dilçilər tərəfindən cümləyə bir-birindən fərqli 200-dən çox tərif verilmişdir. H.Suit, R.Stokvel, M.Bryant, Ç.Friz, M.Y.Blox, O.Yespersen və b. qrammatistlərin tərifərini nəzərdən keçirdikdə onlarda müəyyən çatışmazlıqların olduğunu görürük. Onlar cümlədə fikir bitkinliyinin olmasını xüsusi qeyd etmişdilər, halbuki fikir bitkinliyi mətndə olur, cümlə bitmiş fikri mətnə nisbətən bir qədər az ifadə edir. Bitmiş fikir mürəkkəb sintaktik bütövdə tam ifadə olunur. Bu dilçilərin verdikləri tərifərdən cümlənin struktur, üslubi və fonetik xüsusiyyətləri də nəzərə alınmamışdı. Bir sözlə, konkret dildən asılı olmayaraq cümlə: 1. müəyyən bir fikir ifadə etməlidir; 2. müəyyən sintaktik quruluşa malik

olmalıdır; 3. müəyyən intonasiyaya malik olmalıdır [35, s.225]. Belə ki, cümləyə aşağıdakı tərif daha uyğun gəlir:

Nisbətən bitmiş fikir ifadə edən, xüsusi qrammatik quruluşa və intonasiyaya malik olan nitq vahidinə cümlə deyilir.

Müasir amerikan dilçiləri isə L.Blumfild tərəfindən cümləyə verilən tərifi qəbul edirlər. L.Blumfildə görə, cümlənin mənası morfem düzümünün bir parçası olub cümlədəki sözlərdən, yəni leksik vahidin seçimindən asılı deyil və hər bir cümlə müstəqil linqvistik vahid kimi heç bir başqa linqvistik vahidin tərkibinə daxil ola bilmir [197, s.42].

Cümlənin təsnifatı da diqqəti cəlb edən məsələlərdəndir. Ünsiyyət zamanı istifadə etdiyimiz cümlələr fikri ifadə məqsədinə və quruluşuna görə müxtəlif olur. Buna müvafiq olaraq cümlə 1) ünsiyyətdəki məqsədinə; 2) malik olduğu quruluşuna görə təsnif olunur.

Cümlə ünsiyyətin bir parçasıdır və ona görə də onun təsnifatı hər şeydən əvvəl kommunikativ prinsipə əsaslanaraq aparılmalıdır. Cümlənin bu prinsip nəzərə alınaraq təsnif olunmasını ənənəvi qrammatikada cümlənin "ünsiyyətin məqsədinə görə" (purpose of communication) təsnifatı adlandırırlar. Ünsiyyətdəki məqsədinə görə cümlələr ənənəvi olaraq aşağıdakı qruplara bölünür:

1.Nəqli cümlə (The Declarative Sentence);

2.Sual cümləsi (The İnterrogative Sentence);

3.Əmr cümləsi (The İmperative Sentence).

Nida cümləsinin bu təsnifata daxil edilib-edilməməsi bir qədər mübahisə doğurmuşdu. Öz dövrünün dil xüsusiyyətlərini daha yığcam və adekvat şəkildə şərh edən amerikalı dilçi G.O.Kerm bu cümlə növünü xüsusi vurğulamış və onu ən qədim cümlə tipi adlandırmışdı. O, öz təsnifatından isə əmr cümlələrini çıxartmışdı [215, s.96]. Bir çoxları nida cümlələrinin ayrıca tip əmələ gətirmədiyini və göstərilən bütün cümlə tiplərinin iki variantda verilə bildiyini qeyd etmişlər: xüsusi intonasiya ilə ifadə olunan (exclamatory) variant, xüsusi intonasiya ilə ifadə olunmayan variant (non-exclamatory). Onu da qeyd etmək olar ki, nida cümlələri asanlıqla nəqli cümlələrə transformasiya oluna bilər. Məsələn:

What lovely weather it is! – It is lovely weather.

Maddi və ya mənəvi aləm haqqında əldə etdiyimiz məlumatları xəbər vermək üçün təsdiq və ya inkar formada işlətdiyimiz cümlə növünə nəqli cümlə deyilir. Bu növ cümlələrdə söz sırası belə olur: mübtəda + xəbər + II dərəcəli üzvlər. Nəqli cümlələr quruluşca sadə və mürəkkəb ola bilər. Məsələn:

The light from the shaded piano-candle fell on her neck, leaving her face rather was shadow (J.Galsworthy. The Forsyte Saga. In Chancery, s. 78).

Soames walked out of the garden door, crossed the lawn, stood on the path above the river, turned round and walked back to the garden door, without having realized that he had moved (J.Galsworthy. In Chancery, s. 243).

Transformasion qrammatikada nəqli cümlələrə özək cümlələr də (kernel sentences) deyilir. Bu cümlələr digər cümlə tiplərinə transformasiya oluna bilərlər. Amerikan dilçisi Z.Harris dilin bir qrup özək cümlələrdən və onların transformasiyalarından ibarət olduğunu qeyd etmişdi. O, 7 cür özək cümlə tipini qeyd etmişdi:.

1.N + V (John is reading)

2.N + V + P + N (John is reading about nature)

3.N + V + N (John is reading a book)

4.N + N (John is a student)

5.N + A (John is clever)

6.N + P + N (John is at home)

7.N + D (John is here) [232, s.98].

Bilmədiklərimizi öyrənmək və ya təxmini bildiklərimizi dəqiqləşdirmək məqsədi ilə işlətdiyimiz cümlələr sual cümlələri adlandırılır.

Elə cümlələr də var ki, nəqli cümlələrlə sual cümlələri arasında aralıq mövqe tutur. Məs: *The shape of Death is coming from her door?* (J.Galsworthy. In Chancery, s. 246) Struktur baxımdan bu, nəqli cümlədir, ancaq cavab tələb etdiyinə və intonasiyasına görə cümlə həm də sual cümləsidir. Belə cümlələr aralıq mövqe tutan cümlələr (semi-interrogative sentences) adlanır [237, s.186].

Ünsiyyət prosesində qarşıya qoyulmuş məqsəd baxımından suallar müxtəlif

olur. Buna görə müasir ingilis dilində suallar aşağıdakı 4 yarımqrupa bölünür.

1.Ümumi suallar:

Did you have a good crossing? (J.Galsworthy. In Chancery, s. 233)

2.Xüsusi suallar:

What do you think of London, Annette? (J.Galsworthy. In Chancery, s. 235)

3.Alternativ suallar:

Would she never make a friendship or take an interest in something? (J.Galsworthy. The Man of Property, s. 173)

4.Ayırıcı suallar:

You are so pretty, my dear; almost too young and pretty for dear Soames, aren't you? (J.Galsworthy. In Chancery, s. 234)

Bəzi mənbələrdə "close interrogative" (*Is she a good player?)* və "open interrogative" *(How good a player is she?)* cümlə tipinə rast gəlirik ki, bu da haqqında danışdığımız ümumi və xüsusi suallara uyğun gəlir [272, s.61].

Bəzən ümumi suallara "yes" – "no" (bəli – xeyr) sualları da deyilir. Çünki burada ümumilikdə cümləyə sual verildiyindən "bəli" və "xeyr" cavabları tələb olunur. Xüsusi suala isə informasiya sualı (və ya Wh-sualı) deyilir. Burada cümlənin bir üzvünə sual verilir, cavabda isə lazım olan məlumat alınır [185].

Başqa birinə bu və ya digər hərəkəti icra etdirmək məqsədi ilə işlədilən cümləyə əmr cümləsi deyilir. Modal sözlər, xüsusən güman bildirən modal sözlər, məsələn, *perhaps, maybe, possibly* əmr cümlələrində demək olar ki, işlənmir. Əmr cümlələrinə misal olaraq aşağıdakıları göstərmək olar:

Give her my love; the same to yourselves (J.Galsworthy. A Modern Comedy, The White Monkey, s. 259)

"*Talk to your son", said Soames* (J.Galsworthy. The White Monkey, s. 66)

Qeyd edək ki, nəqli, sual və əmr cümləsi qüvvətli emosiya bildirdikdə, öz əvvəlki sintaktik quruluşunu dəyişmədən nida cümləsinə çevrilə bilər. Məsələn:

Fifteen bob! But fifteen bob! Before her eyes, wild and mournful, came a vision: Of a huge dome, and a tiny Tony, with little, little balloons in a hand held out! (J.Galsworthy. The White Monkey, s. 157)

He said suddenly: "Stop! Don't move! He is down there in the street". (J.Galsworthy. The White Monkey, s. 136)

Müasir ingilis dilində mövcud olan bu növ nida cümlələri törəmə nida cümlələri adlandırılır. Əsl nida cümlələri isə özünəməxsus sintaktik quruluşa malik olurlar. Məsələn:

How awfully nice of you to come. (J.Galsworthy. The White Monkey, s. 143)

Ənənəvi qrammatikanın konsepsiyalarını qəbul etməyən deskriptivist alim Ç.Friz cümləni ünsiyyətdəki məqsədinə görə yox, ifadə etdiyi mənaya görə təsnif edirdi. Həmin təsnifata görə, Ç.Friz 3 qrup cümləni qeyd edir. Birinci qrupa salamlamalar, müraciət və suallar daxildir, Məsələn: *Hello! Dad! What are you going to do?* Ç.Friz xahiş və əmrləri cümlənin ikinci qrupuna aid edir, Məsələn: *Read that again, will you? Oh, wait a minute.* Üçüncü qrupa isə bildirişlər (statements) daxildir, Məsələn: *I have been talking with him in the purchasing department about our type – writer (- Yes?)*

Ç.Friz bu cümlə tiplərini ünsiyyət zamanı müəyyən dinləyiciyə istiqamətləndiyinə görə "kommunikativ" cümlələr (communicative sentences) adlandırır. Bir qrup cümlələr isə insanın hiss və həyəcanlarını ifadə edir və konkret bir şəxsə müraciətlə işlənmir. Bu tip cümlələri isə o, "noncommunicative utterances" adlandırır [219, s.132].

Qeyd etmək lazımdır ki, hələ XVIII əsrdə Braytland cümləni sintaksisin predmetinə daxil etməklə yanaşı onun strukturu məsələsinə də toxunmuş və strukturuna görə cümləni sadə və mürəkkəb olmaqla təsnif etmişdi (simple and composite).

Sadə bir fikri ifadə edən, bir predikata malik olan cümləyə sadə cümlə deyilir. Məsələn:

Fleur withdrew to the middle of the room (The White Monkey, s. 146)

Birdən artıq predikata malik olan cümlə isə mürəkkəb cümlə adlanır. Aydın məsələdir ki, sadə cümlə nəqli, sual və ya əmr cümləsi ola bilər. Ancaq söhbət mürəkkəb cümlələrdən gedirsə, burada işlər bir qədər çətinləşir. Əgər mürəkkəb cümləni təşkil edən sadə cümlələr nəqli cümlədirsə, deməli, ümumilikdə mürəkkəb cümlə də nəqli olacaqdır. Bu mürəkkəb cümləni əmələ gətirən cümlələrin ünsiyyətin

məqsədinə görə eyni bir tipinə aid olan da olur. Çətinlik o zaman yaranır ki, mürəkkəb cümləni əmələ gətirən cümlələr (clauses) ünsiyyətin müxtəlif tiplərinə aid olsunlar [237, s.188].

Sadə cümlənin də tipləri vardır. Sadə cümlənin tiplərinə keçməzdən əvvəl inkar cümlələr probleminə toxunaq. Qrammatistlər tərəfindən problem belə qoyulur: inkar cümlələr xüsusi qrammatik tipdir? Əgər elədirsə, onda onun hansı qrammatik xüsusiyyətləri var?

Fikrimizcə, problem öz mənbəyini müasir ingilis dilində mövcud olan inkarlıq bildirən ifadələrdən götürür. Heç də bütün inkarlıq ifadə edən cümlələr qrammatik vasitələrlə düzəlmir. Fikrimizi misallarla şərh edək:

(1) 'I'am not fit for it,' he thought; 'I mustn't I'm not fit for it.' (In Chancery, s. 213)

(2) Soames went quite close and bent over, but saw no one. (In Chancery, s. 250)

Bu sadə cümlələrin hər ikisində inkarlıq müxtəlif cür ifadə olunmuşdur. Birinci misaldakı inkarlıq qrammatik, ikinci misaldakı isə leksikdir. Eyni şeylər *'I found nobody'* və *'I found everybody'* cümlələri haqqında da deyilə bilər. Qrammatik cəhətdən fərqlənməyən bu cümlələrdə tamamlıq rolunda çıxış edən əvəzliklər fərqlənir. Bu baxımdan inkar cümlələr qrammatik tip hesab edilmir, onlar məntiqi tip hesab edilir ki, qrammatik strukturda öz əksini tapa da, tapmaya da bilər [237, s.188].

Qeyd etdiyimiz kimi, sadə cümlə özü də təsnif olunur. O, iki yarımqrupa bölünür:

1) Sadə müxtəsər cümlə (simple unextended sentence);

2) Sadə geniş cümlə (simple extended sentence).

Ancaq baş üzvlərdən ibarət olan cümlələrə sadə müxtəsər cümlələr deyilir, Məsələn: *Michael did not speak* (The White Monkey, s. 146)

Əgər cümlədə baş üzvlərlə yanaşı bir və ya bir neçə ikinci dərəcəli üzvlər iştirak edirsə, bu cümlələr sadə geniş cümlələr adlanır. Məsələn: *He smoked a cigarette in the carriage – one of his rare cigarettes* (In Chancery, s. 248)

Sadə müxtəsər cümlələr təktərkibli (one-member) və yaxud cüttərkibli (two-member) olur. Bu bölgü isə sadə cümlədə baş üzvlərin iştirakına əsaslanır. Əgər sadə cümlədə baş üzvlərdən ancaq biri iştirak edirsə bu təktərkibli, əgər hər iki baş üzv

iştirak edirsə, cüttərkibli adlanır. Məsələn: *'Soames pulled'* cümləsində *'Soames'* hərəkətin icraçısı olduğu üçün bu qrammatik mübtəda, *'pulled'* isə hərəkətin özünü bildirdiyinə görə qrammatik xəbər adlanır.

Bəzi cümlələrdə isə baş üzvlərdən yalnız biri iştirak edir. İştirak etməyən baş üzvün əlavəsinə isə heç bir ehtiyac olmur. Məsələn: *No future in anything but the air* (The White Monkey, s. 66)

Əmr cümlələrini də təktərkibli cümlələrə aid etmək olar. Məsələn: *Give me some of your complacency!* (The White Monkey, s. 149); *Reduce the world to a level of a pound!* (The White Monkey, s. 130)

Bu cümlələrdə mübtəda yoxdur, amma bu o demək deyil ki, əmr cümlələri həmişə belə struktura malik olurlar. Bəzən emosional nitqdə mübtəda işlənə bilər, yəni bu zaman o, cüttərkibli cümlə tipinə aid olur, Məsələn: *Don't you dare touch me!* (The White Monkey, s. 128)

A.A.Şaxmatov qeyd edirdi ki, təktərkibli cümlənin əsas hissəsi ya mübtəda olmalıdır, ya da xəbər [172, s.129]. V.V.Vinoqradov isə təktərkibli cümlə, yəni "one-member sentence" termininin əvəzinə əsas hissə, yəni "main part" terminini işlətməyi təklif etmişdir [89, s.201]. İngilis qrammatisti O.Yespersen isə bu tip cümlələri amorf ("amorphous") adlandırmışdı [240, s.122].

V.Kauşanskaya da sadə cümləni struktur baxımdan təktərkibli və cüttərkibli olduğunu qeyd etmişdir. Bu bölgüdə cüttərkibli cümlə tam və natamam (complete and incomplete) olmaqla iki yerə bölünür. Əgər sadə cümlənin həm mübtədası, həm də xəbəri varsa, o tam cüttərkibli cümlədir: *Michael reddened.* (The White Monkey, s. 131) Əgər cümlədə baş üzvlərdən biri və ya hər ikisi iştirak etmirsə, ancaq ümumi məzmundan başa düşülürsə, bu natamam, başqa sözlə yarımçıq cümlə (elliptical sentence) adlanır.

Daha çox emosional nitqdə istifadə olunan təktərkibli cümlələrdə əsas hissə isimlə ifadə olunubsa, bu "nominal" və ya "ismi təktərkibli" cümlə adlanır. Bu cümlələrdə ismin təyinləri də iştirak edə bilər. Məsələn: *Dreary poems – free verse, blank, introspective, all about the author's inside!* (The White Monkey, s. 174) misalı nominal təktərkibli cümlə sayılır [245, s.224].

Həm cüttərkibli, həm də təktərkibli cümlələr müxtəsər və geniş ola bilər: *Birds fly; Winter!; She is a teacher* – tipli cümlələrdə yalnız baş üzvlər iştirak etdiyindən müxtəsər cümlələr adlanır. *With her secret she could afford to be indifferent now to the stigma of gutter hawking.* (The White Monkey, s. 185) cümləsində isə həm baş, həm də ikinci dərəcəli üzvlər iştirak etdiyindən geniş cümlələr adlanır.

Təktərkibli cümlələri yarımçıq cümlələrdən (elliptical sentences) ayırmaq lazımdır. Formaca onlar bir-birinə oxşayırlar, çünki hər ikisi də bir sözdən ibarət ola bilər. Fərq isə ondan ibarətdir ki, yarımçıq cümlələrdə buraxılmış cümlə üzvünü asanlıqla bərpa etmək olur, ancaq təktərkibli cümlələrdə heç bir üzv buraxılmadığından onu bərpa etmək də mümkün olmur. Müasir ingilis dilində yarımçıq cümlələr Azərbaycan dilində olduğu kimi daha çox dialoqlarda işlənir, Məsələn: *How much more do you need, Mrs. Bicket? – Only another ten pound about, sir.* (The White Monkey, s. 194)

Diqqəti cəlb edən cümlə tiplərindən biri də təktərkibli cümlələrin bir növü olan məsdər cümlələridir (infinitive sentences). Məsdər cümlələrinin də iki növünü qeyd etmək olar. Bunlardan biri "to" ədatlı məsdərlə başlayan nida cümlələridir. Məsələn: *Oh, to be in England, now! To be alive! To have youth and the world before one!* (Dreiser)

Məsdər cümlələrinin digər növü isə "why" zərfi ilə başlayan sual cümlələridir. "Why" zərfindən sonra "to" ədatsız məsdər və ya "not" ədatı işlənə bilər, Məsələn: *Why not give your friend the same pleasure?* (Poutsma) [237, s.251].

Bu tip cümlələr cümlənin digər tipləri ilə müqayisədə daha az öyrənilmişdir.

Sadə cümlənin fərqli bir bölgüsünə David Kristalın ensiklopediyasında rast gəlirik. Burada göstərilir ki, cümlə strukturunu əmələ gətirən müxtəlif üzvlər vardır: "Subject (S), Verb (V), Complement (C), Object (O), Adverbial (A)". Həmin bu üzvlərin müəyyən qaydada düzülməsinin nəticəsində aşağıdakı tip cümlələr yaranır:

S + V	The dog + is running
S + V + O	The man + saw + a cow
S + V + C	The car + is + ready
S + V + A	A picture + lay + on the ground

S + V + O + O I + gave + John + a book

S + V + O + C He + called + John + a fool

S + V + O + A Mary + saw + John + yesterday [85, s.95].

1.2. Cümlə üzvlərinin təsnifatı

Cümlə ilə bağlı problemlərdən biri də cümlə üzvlərinin təsnifatıdır. İlk öncə qeyd etmək lazımdır ki, cümlə üzvləri nəzəriyyəsi XVIII əsrin ortalarında məntiqin təsiri ilə inkişaf etməyə başlamışdı. Ç.Kuper 1685-ci ildə çap olunmuş "Grammatika Lingual Anglicane" adlı kitabında ilk dəfə olaraq cümlə üzvlərindən danışmışdır. O, mübtəda ilə eyni olan nominativ halı, təsdiq və ya inkar ola bilən predikatı və təsirlik halda olan isimləri ayrı-ayrı cümlə üzvləri kimi qeyd etmişdi. Bu cümlə üzvlərinə müxtəlif asılı üzvlər də əlavə edilmişdi. Daha sonra isə qrammatistlər baş və ikinci dərəcəli üzvləri fərqləndirməyə başladılar [211, s.67].

Ümumiyyətlə, cümlənin tərkibinə daxil olan və müəyyən sintaktik funksiya daşıyan sözə və ya söz birləşməsinə cümlə üzvü deyilir. Müəyyən bir bütöv kimi cümlə, mürəkkəb struktur-sistem birgəliyidir və təbii ki, konkret tərkib hissələrə parçalanır və cümlənin hər hansı analizi, *"cümlə quruluşunun öyrənilməsi onun tərkibinin parçalanması, tərkib hissələrinə üzvlənməsi zərurətini meydana çıxarır"* [135, s.9]. Bununla əlaqədar İ.İ.Meşaninov yazırdı ki, cümlə quruluşundan istifadə edən hər bir dil sistemi cümlə üzvlənməsindən istifadə edir [129, s.233] Qeyd etdiyimiz kimi, cümlə müəyyən tərkib hissələrə bölünür. Sintaktik səviyyədə bu cümlə üzvləridir, leksik səviyyədə cümlə vahidləridir, morfoloji səviyyədə isə cümlə elementləridir [4, s.30].

Cümlə üzvünün əsas əlaməti onun funksional dəyərə malik olmasıdır. Məhz "funksional dəyər" bir qədər paradoksal olsa da, bəzi tədqiqatçıların fikrinə görə, əslində cümlə üzvü kimi tanıdığımız vahidi nitqin hissəsi, nitqin vahidi – nitq hissəsi kimi qəbul etməyimizə imkan yaradır. A.Qardiner başqa dilçilərin adətən "cümlə üzvü" adlandırdıqları vahidi "nitq hissəsi" adlandırır və çıxış nöqtəsi kimi onu əsas götürür ki, "məhz onlar nitq prosesində yaranırlar" [223, s.87].

Cümlə üzvləri müxtəlif səviyyəli olur; onlardan bir qismi daha vacib, digər qismi isə ikinci dərəcəli əhəmiyyət kəsb edir. Bu da, fikrimizcə, dilin kommunikativ funksiyası və eləcə də cümlənin quruluşundan asılıdır. Müvafiq olaraq, yuxarıda qeyd etdiyimiz kimi, qrammatistlər tərəfindən baş üzvlər (main parts of sentences) və ikinci dərəcəli üzvlər (secondary parts of sentences) fərqləndirilir.

Ənənəvi qrammatikaların demək olar ki, bütün müəllifləri cümlə tərkibinin üzvlərinə görə iyerarxik bölgüsünü apararkən belə bölgünün açıq məntiqi əsasından xəbər verən baş və ikinci dərəcəli üzvlərə bölməni hökmən tətbiq edirlər. Bu cür formalaşmış bölgü iyerarxiyası özünü həm də linqvistik baxımdan doğruldur [4, s.35].

Cümlənin baş üzvləri dedikdə mübtəda (the subject) və xəbər (the predicate) nəzərdə tutulur. İkinci dərəcəli üzvlərə tamamlıq (the object), təyin (the attribute) və zərflik (the adverbial modifier) daxildir. Baş və ikinci dərəcəli üzvlərlə yanaşı müasir ingilis dilində cümlənin onun strukturuna daxil olmayan müstəqil elementləri də mövcuddur. Burada söhbət xitab (the direct address), ara sözlər (the parenthesis) və nidalardan (the interjection) gedir. Onlar cümlənin məzmunu ilə əlaqədar olaraq işlə-dilir və cümlənin heç bir konkret üzvünə qrammatik cəhətdən bağlı olmur [36, s.254].

Mübtəda və xəbərin ikinci dərəcəli üzvlərdən fərqinin səbəbi odur ki, onlar cümlənin əsasını təşkil edirlər və onlar olmadan cümlə özü də mövcud ola bilməz. Məsələn: cümlədən ikinci dərəcəli üzvləri çıxartsaq belə, o cümlə olaraq qalır. Halbuki, baş üzvlər cümlədən çıxarıldıqda cümlə başdan başa pozulur.

Cümlədə aparıcı rola malik olan və kimin, yaxud nəyin haqqında danışıldığını bildirən cümlə üzvü mübtəda adlandırılır.

Michael *remained smoking above the porcelain effigies of Spanish fruits.* (The White Monkey, s. 153)

Müasir ingilis dilində Azərbaycan dilindən fərqli olaraq, şəxs şəkilçiləri olmadığına görə cümlədə mübtəda hər dəfə hökmən ayrıca leksem vasitəsilə ifadə edilməli olur, əks təqdirdə, hal və ya hərəkətin neçənci şəxsə aid olduğu naməlum qalır ki, buna da ünsiyyət baxımından yol vermək olmaz. Ona görə də ingilis dilində,

hətta şəxssiz cümlələrdə belə mübtəda ayrıca sözlə ifadə olunur. ***It*** *was cold* – tipli cümləni buna misal göstərmək olar.

Şəxs və kəmiyyətə görə mübtəda ilə uzlaşan xəbərdən fərqli olaraq bildiyimiz kimi, mübtəda digər cümlə üzvlərindən asılı olmur. B.Xaymoviç və B.Roqovskaya mübtədanın əsas (notional subject) və köməkçi (struktural subject) növlərini qeyd etmişdilər. Burada birinci növ mübtəda leksik məna yükünə malik sözlərlə ifadə olunduğu halda, köməkçi mübtəda leksik mənası olmayan sözlərlə, yəni "there, it, here" ilə ifadə olunur [246, s.154]. Məsələn: ***it*** *is difficult;* ***it*** *was cold;* ***here*** *comes my friend.*

Şəxs kateqoriyası baxımından mübtəda iki qrupa ayrılır: 1. şəxsli mübtəda; 2. şəxssiz mübtəda. Şəxsli mübtədaların özünü də müəyyən şəxsli və qeyri-müəyyən şəxsli olmaqla iki yerə bölmək olar [36, s.231].

Amerikan dilçisi G.O.Kurme pronominal mübtədanı ayrıca qrup kimi göstərir və onların aşağıdakı əvəzliklərlə ifadə olunduğunu qeyd edir: *it, one, we, you, there.* O, "there" ilə ifadə olunan mübtədanı yalançı mübtəda (the dummy subject) adlandırır. "İt" əvəzliyinin özü də müxtəlif vəziyyətlərdə mübtəda funksiyasında çıxış edə bilər [215, s.84]. Formal mübtəda olduqda üç cür "it" əvəzliyini fərqləndirmək olar:

1. şəxssiz "it" əvəzliyi (the impersonal "it")

How far is ***it*** *from your office to the bank?* (The White Monkey, s. 259)

2. xəbərdaredici "it" əvəzliyi (the anticipatory "it")

It *was a crime* ***to marry you.*** (In Chancery, s. 80)

3. emosional "it" əvəzliyi (emphatic "it")

It *was Uncle Nicholas, in a frock-coat and his special cutaway collar, with a black tie passed through a ring.* (In Chancery, s. 82)

Mübtədaya aid hal, hərəkət, vəziyyət və s. kimi məlumatları bildirən cümlə üzvünə xəbər deyilir. Müasir ingilis dilində mövcud olan xəbərlər iki baxımdan təyin edilir:

1.ifadə etdikləri məna baxımından;

2.ifadə vasitələri baxımından [36, s.234].

B.S.Xaymoviç və B.İ.Roqovskaya semantik cəhətdən xəbərin dörd növünü

qeyd edirlər:

1. əsas xəbər (notional predicate);

2. köməkçi xəbər (semi-notional predicate);

3. formal xəbər (structural predicate);

4. kommunikativ xəbər. Bu, əsas xəbərlə formal xəbərin birliyindən yaranır (the communicative predicate) [246, s.161].

Cümlənin mübtəda və xəbərdən başqa yerdə qalan üzvləri ikinci dərəcəli üzvlər adlandırılır. Ənənəvi olaraq burada tamamlıq, təyin və zərfliyin adı çəkilir. İkinci dərəcəli üzvlər cümlənin baş üzvlərini izah etmək, mənasını tamamlamaq, dəqiqləşdirmək, yaxud məhdudlaşdırmaq üçün istifadə olunur. Bunlar bəzən bir-birini izah etmək üçün də işlədilir.

İkinci dərəcəli üzvlərdən biri olan tamamlığın adətən dörd növünü fərqləndirirlər: vasitəsiz tamamlıq (the direct object), vasitəli tamamlıq (the indirect object), sözönülü tamamlıq (the prepositional object), koqneyt tamamlıq (the Cognate object) [36, s.243].

Bəzi feillər həm vasitəli, həm də vasitəsiz tamamlıq qəbul edə bilər. Bu da üç cür cümlə konstruksiyası yaratmağa imkan verir:

Intransitive	Monotransitive	Ditransitive
She smiled	*He washed the car*	*They gave me the key*
S P	S P O^d	S P O^i O^d

Şəxs və ya əşyanın əlamət və ya keyfiyyətini bildirən ikinci dərəcəli cümlə üzvünə təyin deyilir. Azərbaycan dilindən fərqli olaraq ingilis dilində təyin, təyin olunan sözdən həm əvvəl, həm də sonra gələ bilər.

Hərəkətin və ya vəziyyətin mənasını, zamanını, səbəbini, nəticəsini və s. bildirən ikinci dərəcəli cümlə üzvünə isə zərflik deyilir.

Biz cümlə üzvlərinin ənənəvi cəhətdən təsnifatını ümumi şəkildə qeyd etdik. Maraqlıdır ki, struktur dilçilikdə məsələyə necə yanaşılmışdır?

XX əsrin 40-cı illərindən başlayaraq dilçilikdə sintaktik təhlildə bilavasitə tərkib hissələrdən (immediate constituents – IC) çıxış edilirdi. Ç.Friz 1952-ci ildə yazırdı: *"In English a layer of structure has usually only two members"* (İngilis

dilində struktur qat adətən yalnız iki üzvə malikdir) [219, s.264]. Amerika deskriptiv dilçiliyi 50-ci illərin başlanğıcından etibarən cümləni tərkib hissələrinə bölərkən sözlər arasındakı əlaqələri əsas götürür. Məsələn: *The old man has gone to his son's house* (Qoca kişi (öz) oğlunun evinə getdi) cümləsində iki konstruksiya ayrılır: / The old man / və / has gone to his son's house /. Deməli, konstruksiya istənilən məna qrupuna deyilə bilər. Buna görə də bu cümlədə / the man house / konstruksiya ola bilmir, çünki onlar arasında birbaşa əlaqə yoxdur.

Bilavasitə tərkib hissələr bir, iki və ya daha çox tərkibdən ibarət olur ki, onlardan da bilavasitə bu və ya digər konstruksiyalar yaranır. Beləliklə, deskriptivistlərin konsepsiyasında sintaktik tərkib əsasən bilavasitə tərkib hissələrin və konstruksiyaların ardıcıl laylarının aşkarlanmasından, tərkiblər arasında olan münasibətlərin və onlara uyğun gəlməyən əlaqələrin müəyyənləşdirilməsindən ibarətdir. Bu zaman əsasən müqayisə və söz sırası çox mühüm rol oynayır.

L.Blumfild cümlənin bilavasitə tərkib hissələr üzrə təhlilini ön plana çəkirdi [197, s.115-139]. Onun tərəfdarları cümləni tərkib hissələrə görə bu cür təhlil edirdilər. Məsələn: "My friend will open the door" cümləsində üç belə tərkib var: / My friend /, / will open /, / the door /. Ağac şəklində isə dilçilər bunu belə verirlər:



Sxem 1.1.

Beləliklə, deskriptivistlər çox maraqlı bir təhlil üsulunu sintaksisə gətirməklə onu xeyli irəli aparmış oldular.

1.3. İngilis dilində söz sırası

Sözlər arasındakı qrammatik əlaqəyə "konkord" və ya uzlaşma deyilir. Bu zaman bir söz forması müvafiq başqa söz formasını tələb edir [208, s.95]. Düzdür, *konkord* termininə daha çox söz birləşmələrində rast gəlirik. Ancaq uzlaşma yalnız söz birləşmələrində deyil, söz və söz birləşmələrindən ibarət cümlə üzvləri arasında da mövcud olur. Burada söhbət xüsusilə cümlənin baş üzvləri olan mübtəda və xəbər arasındakı uzlaşmadan gedir. Azərbaycan dilindən fərqli olaraq müasir ingilis dilində xəbər, adətən, şəxsə və kəmiyyətə görə mübtəda ilə uzlaşır: *I tried to make a break only this morning.* (The White Monkey, s. 131)

J.Qrinberq dilləri təsnif edərkən söz sırasını əsas götürmüş, dilləri cümlənin strukturuna müvafiq olaraq üç hissəyə ayırmışdı:

1) predicate + subject + object (PSO) – xəbər + mübtəda + tamamlıq;

2) subject + predicate + object (SPO) – mübtəda + xəbər + tamamlıq;

3) subject + object + predicate (SOP) – mübtəda + tamamlıq + xəbər.

Həmin bu təsnifata əsasən demək olar ki, ingilis və rus dilləri ikinci qrup dillərə (SPO), Azərbaycan dili isə üçüncü qrup dillərə (SOP) aiddir.

Bəzi dillərdə tamamlıq cümlənin əvvəlində gəlir, Məsələn, amazon dillərində. Ancaq ingilis dilinin özündə də bu cür söz sırasına rast gəlmək olar. Bu daha çox üslubi variantlarda işlənir. Məsələn, U.Şekspirdən götürülən belə bir cümləyə fikir verək: "*What fools these mortals be"* [293, s.134].

İngilis dilində cümlənin əmələ gəlməsində söz sırasının böyük rolu vardır. Qədim ingilis dilindən fərqli olaraq müasir ingilis dilində söz sırası sabitdir. Qeyd etmək lazımdır ki, cümlədə söz sırasının sabitlik və ya sərbəstlik dərəcəsi həmin dilin qrammatik, konkret desək, morfoloji quruluşundan asılı olur; dildə morfoloji quruluş nə qədər zəngin olsa, söz sırası da bir o qədər sərbəst olur. Əksinə, dildə morfoloji quruluş nə qədər zəif və kasıb olsa, həmin dilə xas olan söz sırası da bir o qədər sabit olur (müasir ingilis dilində olduğu kimi).

Söz sırasının sabitliyi və sərbəstliyi məsələsi xüsusən ismin hal kateqoriyası ilə sıx surətdə əlaqədardır; ismin hal formaları zəif olan, yaxud heç olmayan dillərdə söz sırası sabitləşmək məcburiyyətində qalır, o ismin hal kateqoriyasının funksiyasını

daşımalı olur, sözlər arasındakı qrammatik əlaqələri ifadə edir. Bu xüsusiyyət analitik dillərdə, o cümlədən də müasir ingilis dilində qabarıq şəkildə özünü göstərir.

Onu da demək yerinə düşərdi ki, öz inkişafı tarixində ingilis dili sintetiklikdən analitikliyə doğru getməsinə baxmayaraq, hal-hazırda analitiklikdən sintetikliyə doğru inkişaf etməkdədir. Buna ən bariz misal dildə mövcud olan bir sıra sözlərin şəkilçiləşmə dövrü keçirməsidir. Bütün bunların hamısı ictimai bir hadisə olaraq dilin statik vəziyyətdə, donmuş halda qalmadığını, insan cəmiyyətinin bilavasitə məhsulu olan dilin cəmiyyətin inkişafı və dəyişməsi ilə paralel olaraq inkişaf etdiyini və dəyişdiyini göstərir.

İngilis dilində sözlərin sıralanma tərzi cümlənin kommunikativ növündən asılı olur. Fəslin əvvəlində ünsiyyətdəki məqsədinə görə cümlə tipləri və onların xüsusiyyətlərini qeyd etmişdik. Bu cümlə tipləri (nəqli, sual, əmr) həm də özünəməxsus sintaktik quruluşa malik olur. İndi isə bu cümlə tiplərinin hər birində söz sırasının necə olmasına nəzər yetirək. Məsələnin həllinə cümlədə baş və ikinci dərəcəli üzvlərin yerini müəyyənləşdirməklə başlamaq olar. Söhbət sadə cümlədə mübtəda və xəbərin yerindən gedirsə, burada iki mümkün variant ola bilər: mübtəda + xəbər (S + P); xəbər + mübtəda (P + S). Belə bir sual meydana çıxır: bu söz sıralarından hansını düzgün söz sırası, hansını inversiya adlandırmaq olar?

İngilis dili qrammatikalarında bu məsələyə iki cür yanaşma vardır. Birinci yanaşmaya görə bunlardan biri düzgün söz sırası, əks söz sırasına malik digər bütün hallar inversiya adlanır. Buna əsasən "mübtəda +xəbər" düzgün söz sırası, "xəbər + mübtəda" isə inversiyadır [74, s.338].

Daha çox qəbul olunan ikinci yanaşmaya görə isə hər tip cümlənin özünəməxsus söz sırası vardır: Məsələn: ingilis dilindəki nəqli və sual cümlələrinə nəzər salaq: "mübtəda + xəbər" nəqli cümlələr üçün, "xəbər + mübtəda" isə sual cümlələri üçün normal söz sırasıdır. Belə bir nəticə çıxara bilərik ki, sual cümlələrindəki bu söz sırasını inversiya adlandırmaq düzgün deyildir. Beləliklə, iki cür söz sırasını fərqləndirə bilərik:

1. Düzgün söz sırası – bu bir çox nəqli cümlələrdə "mübtəda + xəbər" şəklində, sual cümlələri və bəzi nəqli cümlələrdə isə "xəbər + mübtəda" şəklində özünü

göstərir.

Qeyd etmək lazımdır ki, sonuncu tip cümlələrə "there" formal sözü ilə başlayan cümlələri misal göstərmək olar. Bir çox qrammatika kitablarında "there" sözü ilə başlayan və "xəbər + mübtəda" söz sırasına malik olan cümlələri inversiya adlandırırlar. Belə cümlələr üçün bu söz sırası normaldır [237, s.240].

2. İnversiya edilmiş söz sırası – bu isə xüsusi tip nəqli cümlələrdə "xəbər + mübtəda" formasında, "xəbər + mübtəda" sırasına malik xüsusi tip cümlələrdə isə "mübtəda + xəbər" formasında ola bilər.

Qeyd edildiyi kimi, nəqli cümlənin baş üzvləri bir qayda olaraq belə düzülür: "mübtəda + xəbər", Məsələn: *Fleur stopped writing.* (The White Monkey, s. 41) Yer bildirən zərfliklərlə, emosional nitqdə, "scarcely, hardly, no sooner, never, up, in, out, over" kimi zərflərlə, "not" ədatı ilə, "such" işarə əvəzliyi və ya sifətlə ifadə olunmuş predikativlə başlanan nəqli cümlələrdə isə inversiya hadisəsi baş verə bilər.

Cümlədə tamamlıq bir qayda olaraq xəbərdən sonra gəlir: "mübtəda + xəbər + tamamlıq", Məsələn: *Fleur looked at him.* (The White Monkey, s. 35) Cümlədə eyni vaxtda həm vasitəli, həm də vasitəsiz tamamlıq işləndikdə, vasitəli tamamlıq sözönüsüz olduqda vasitəsiz tamamlıqdan əvvəl, sözönülü olduqda isə, vasitəsiz tamamlıqdan sonra durur.

İngilis dilində zərfliyin cümlədə yeri digər cümlə üzvlərinə nisbətən sərbəstdir. Ümumiyyətlə, adi nitqdə zərflik cümlənin axırında, əvvəlində, baş üzvlərin arasında, hətta vasitəsiz tamamlıqla sözönülü vasitəli tamamlıq arasında dura bilər. Həmçinin zərfliklərin cümlədəki yeri onların məna növündən, bəzən də ifadə vasitəsindən asılı olur. Təyinin isə cümlədəki yeri təyin olunan sözün mövqeyindən asılı olur. İngilis dilindəki təyinləri iki qrupa bölürlər:

1) təyin olunan sözdən əvvəl gələn təyinlər (Prepositive Attributes);
2) təyin olunan sözdən sonra gələn təyinlər (Postpositive Attributes);

Cümlənin digər növlərində söz sırasının necə olmasına nəzər yetirək.

Ümumi sual cümlələrində sözlər belə düzülür: xəbərin köməkçi hissəsi + mübtəda + xəbərin əsas hissəsi + ikinci dərəcəli üzvlər.

Xüsusi suallarda isə iki cür söz sırası ola bilər:

1.mübtəda + xəbər + ikinci dərəcəli üzvlər

2. sual əvəzliyi + xəbərin köməkçi hissəsi + mübtəda + xəbərin əsas hissəsi + ikinci dərəcəli üzvlər

İngilis dilindəki əmr cümlələrində adətən mübtəda işlənmir. Yerdə qalan cümlə üzvləri ilə belə düzülür: xəbər + ikinci dərəcəli üzvlər. Emosional nitqdə əmr cümlələri bəzən mübtədalı olur. Bir çoxları tərəfindən nida cümlələri ayrı cümlə tipi kimi götürülməsə də, onun da, özünəməxsus strukturu vardır. O.Musayev özünün "İngilis dilinin qrammatikası" kitabında əsli və törəmə nida cümlələrinin adını çəkir [36, s.269]. Ona görə törəmə nida cümlələrinin xüsusi sintaktik quruluşu, söz sırası olmur. Onlar hansı cümlədən törəmişlərsə, o növ cümlənin də söz sırasına malik olurlar. Əsl nida cümlələrində isə iki cür söz sırası ola bilər:

a) xəbər + mübtəda + ikinci dərəcəli üzvlər

b) nida sözü — what / və ya / how + məntiqi vurğu altına düşən söz + müb + xəbər

1.4. Qədim ingilis dilində sadə cümlə modelləri

Dil və onun qanunları, dilin sistem şəklində inkişafı həmin xalqın tarixi ilə ayrılmaz surətdə öyrənilməlidir. Əsas ünsiyyət vasitəsi olan dil cəmiyyətlə birlikdə yaranır və inkişaf edir. Hər bir xalqın həyatında, yaşayışında, şüurunda baş verən dəyişikliklər onun dilində öz əksini tapır. Məhz dilin tarixi də dilin leksik, qrammatik və fonetik quruluşunda baş verən dəyişiklikləri həmin dildə danışan xalqın tarixi ilə əlaqəli şəkildə öyrənir. Görkəmli alman alimi Yakov Qrimin fikrinə istinad edərək deyə bilərik ki, *"hər bir xalqın dili, həm də həmin o xalqın tarixidir"* [239].

İngilis dili tarixinin öyrənilməsi prosesində dilçiliyin ümumi prinsipləri ilə müasir ingilis dilinin faktları arasında bir üzvi əlaqə yaranır [37, s.5].

Müasir dilçilikdə dilin öyrənilməsinə iki cəhətdən yanaşılır: sinxronik, yəni dilin hal-hazırdakı vəziyyətinin öyrənilməsi və diaxronik, yəni dilin tarixi inkişafının öyrənilməsi.

Qədim ingilis dilinin tarixinin öyrənilməsi də diaxronik dilçiliklə məşğul olmaq deməkdir. Ənənəvi olaraq ingilis dilinin tarixi 3 dövrə bölünür: qədim ingilis dili dövrü (VII – XI əsr), orta ingilis dili dövrü (XI – XV əsr) və yeni ingilis dili dövrü (XV – bu günə qədər). Həmin bu dövrlər fonetik, leksik və qrammatik quruluşlarına görə bir-birilərindən fərqlənir. Dövrlər bir-birini əvəz etdikcə dil sistemində linqvistik və ekstralinqvistik amillərin təsirindən müxtəlif dəyişikliklər baş vermişdir. Dil sisteminin müxtəlif sahələrində baş vermiş bu dəyişikliklər əlaqəli şəkildə olur və biri digərini şərtləndirir. Məsələn, ingilis dilinin morfologiyasında olan dəyişikliklər öz növbəsində onun sintaktik sisteminə də təsir göstərmişdir. Morfologiya ilə sintaksisin əlaqəsini belə bir faktla izah etmək olar: qədim ingilis dilində mövcud olan sonluqların orta ingilis dili və sonrakı dövrdə yavaş-yavaş istifadədən çıxması qədim dövrdə sərbəst olan söz sırasının tədricən sabitləşməsinə səbəb olmuşdur.

Bildiyimiz kimi, sintaksis formanın vəzifəsindən, funksiyasından bəhs edir. Sintaksis üçün formanın müxtəlif, yaxud bir şəkilçi ilə ifadə olunmasının heç bir əhəmiyyəti yoxdur. Deməli, dilin sintaktik quruluşu cümləni hansı yollarla, hansı üsullarla yaratmaq məsələsi ilə məşğul olur. A.İ.Smirnitskinin göstərdiyi kimi, sintaksisdə əsas məsələ cümlə yaratmaq üsulunun, cümlənin müxtəlif növlərinin öyrənilməsidir. O, qeyd edir ki, cümlə yaratmaq üsulu söz birləşməsi üsulundan daha sabitdir. Məsələn: həm qədim, həm də müasir ingilis dilində cümlənin yaranmasında aparıcı rolu mübtəda və xəbər oynayır. Mübtəda həmişə adlıq halda işlənir, ondan əvvəl sözönü və s. gəlmir. Cümlə qurmağın əsas prinsipi, demək olar ki, ingilis dilində dəyişməz olaraq qalmışdır [147, s.288].

Belə bir nəticəyə gələ bilərik ki, söz birləşməsi ilə cümləni fərqləndirən cəhətlərdən biri də budur. Çünki A.İ.Smirnitskinin cümlə haqqında dediklərini, özünün də qeyd etdiyi kimi, söz birləşməsi haqqında demək olmaz. Sözlərin söz birləşməsi şəklində birləşməsi üsulunda da vacib dəyişikliklər olmuşdur. Məsələn: əgər qədim ingilis dilində sözlər bir-birilə əsasən şəkilçilər vasitəsilə birləşirdisə, sonralar bir çox sonluqlar istifadədən düşmüş, köməkçi sözlər, sözlərin sırası və s. mühüm rol oynamağa başlamışdır.

B.A.İliş göstərir ki, bir çox qədim dillərdə olduğu kimi, qədim ingilis dilinin sintaksisi də onun morfoloji sistemi ilə müqayisədə daha az tədqiq edilmişdir [110, s.14].

T.A.Rastorquyeva isə qədim ingilis dilinin sintaktik quruluşunun iki əsas şərtə - qədim ingilis dilinin morfoloji təbiətinə və dilin yazılı, şifahi formaları arasındakı əlaqəyə görə müəyyən olunduğunu göstərir. O, belə bir nəticəyə gəlir ki, cümlənin sintaksisi qədim ingilis dilində nisbətən sadə olmuş, tabesiz cümlələr tabeli cümlələrə nisbətən üstünlük təşkil etmiş və mürəkkəb sintaktik tərkiblər isə nadir hallarda işlənmişdir [137, s.124].

Müasir ingilis dilində olduğu kimi, qədim ingilis dilində də məqsəd və intonasiyasına görə cümlənin üç növünü fərqləndirmək olar:

1. Nəqli cümlə – bu özü də təsdiq və inkar formasında ola bilər. Məsələn:

Nu wille we secgan be suðan Donna pære ea ymbe Creca land… (Orasius)

(Now we will speak about Greece, on the south of the river Danube)

Hem liste nat to go to bedde sone. (They did not like to go to bed soon)

2. Sual cümləsi, Məsələn:

Hū mæg se ealda mann eft bēon ācenned? (How can the old man be born again?)

Qədim ingilis dilindəki sual cümlələrindən danışarkən Peter S.Baker feil + mübtəda (V + S) söz sırasının sual cümlələri üçün xarakterik olduğunu yuxarıdakı misalla izah etmişdir. O qeyd edirdi ki, bu tip cümlələr sual sözü ilə başlasa da, başlamasa da, V + S söz sırasına malik olurlar [267].

Başqa bir mənbədə də qədim ingilis dilində sual cümlələrinin mübtəda və xəbər inversiyasının nəticəsində əmələ gəldiyi qeyd olunur. Bu cür cümlələrdə “do” köməkçi sözü tələb olunmurdu [185].

Hwæt getacniað ðonne ða twelf oxan buton ða XII apostolas? (What signify then those twelve oxen except those XII apostles?).

Göründüyü kimi, hər iki mənbədə sual cümləsinin mübtəda və xəbərin yerdəyişməsi nəticəsində əmələ gəlməsi qeyd edilmişdir. Bununla belə, Peter S.Baker

bu cür söz sırasının (V + S) həm də nəqli cümlələrdə ola biləcəyini göstərmişdir. O, "Beowulf" əsərindən belə bir misal göstərir:

Eart pū se Bēowulf, se pe wið Brecan wunne [267, s.23].

Baker qeyd edir ki, bir çoxları bu parçanı sual cümləsi kimi tərcümə edirlər: *"Are you the Beowulf who contended with Breca?"* Lakin müəllif təkidlə bu cümlənin nəqli cümlə olduğunu söyləyir. *"You are that Beowulf, the one who contended with Breca!"* [267].

Qədim ingilis dilində sual cümlələri müxtəlif vasitələrin köməyi ilə əmələ gəlmişdir. Bu vasitələrə sual əvəzliklərini və zərflərini, yuxarıda haqqında danışdığımız cümlənin baş üzvlərinin inversiyasını (burada xüsusi sualların yaranması nəzərdə tutulur) və ya sadəcə inversiyanı (burada isə ümumi sualların düzəldilməsi nəzərdə tutulur) aid eləmək olar. O dövrdə sual cümlələrində işlənən əvəzliklərə *hwæt* (what), *hwā* (who), *hwyle, hwilc* (which) və b. göstərmək olar: Məsələn: *Hwā is sē mann?*(Who is that man?); *Hwæt sceal ic sinʒan?* (What shall I sing?); *Hwylc is mīn mōdor?* (Which is my mother?).

Bununla yanaşı qədim ingilis dilində xüsusi suallar üçün *hwanne* (when), *hū* (how), *hwȳ* (why), *hwæder, hwider* (where) və s. sual zərflərindən də istifadə olunmuşdur: Bu zərflərdən sonra da baş üzvlərin inversiyası olur. Məsələn: *Hwīder hweorfað we?* (Where do we set out?) [106, s.268-269].

Suzan Pintzuk qeyd edir ki, "Helsinki corpus"-da *þonne* (then) zərfinin daxil olduğu 43 "wh-sual"ından birində wh-tərkibi ilə təsriflənən feil arasında zərf işlənir: *Forhwy* ***þonne*** *sceal anegum men ðyncean to reðe oððe to unieðe?* (Why **then** shall it seem too severe or hard to any man?)

Göstərilir ki, 42 sual cümləsində zərf təsriflənən feildən sonra işlənir. Məsələn: *Bið he* ***þonne*** *buton swylce stan oþþe treow?* (What is it **then** but like stone or log?); *Hwær bēoþ* ***þonne*** *his welan and his wista?* (Where are **then** his riches and his feasts?) [269, s.164].

3. Əmr cümləsi: cümlənin bu tipinə gəldikdə isə müasir ingilis dilində olduğu kimi qədim ingilis dilində də əmr cümləsi feillə başlamışdır. Bu da onun feil əsasında qurulduğunu göstərir. Məsələn: *Brinʒ þā þinʒ* (Bring those things); *Beðð ʒē on sælum*

(Be you happy); *Brinʒ mē twā þā betstan tyccenu* (Bring me two, the best kids). Misallardan göründüyü kimi, burada II şəxsin təkinə və yaxud cəminə müraciət olunur [106, s.251].

Qədim ingilis dilində də yuxarıdakı cümlə növləri yüksək hiss və həyəcanla ifadə edildikdə nida cümləsi kimi işlədilmişdir. Məsələn: *and cwæð: "Fæder mīn!"* (and said: "My Father!"); *Cedmon, sinʒ me hwæt - hwuʒu!* (Cedmon, sing me something!)

Qədim ingilis dilində struktur cəhətdən nida cümləsi əmr cümlələrindən demək olar ki, fərqlənməmişdir. Onlar yalnız tonun dəyişməsi və emosionallıq dərəcəsinə görə bir-birindən seçilirdilər. Belə bir misala nəzər salaq: *Ðaet wæs ʒōd cyninʒ!* (That was a good king!) [106, s.274].

Qədim ingilis dilindəki cümlələri quruluşuna görə iki yerə bölmək olar: sadə və mürəkkəb cümlələr. Qədim ingilis dilində sadə cümlənin təktərkibli, cüttərkibli, geniş və müxtəsər növlərini fərqləndirə bilərik.

İ.P.İvanova qədim ingilis dilində sadə cümlənin üç modelinin olduğunu qeyd etmişdir: SP modeli, SPO və SPC modeli. Qeyd etmək lazımdır ki, sadə cümlənin ancaq cüttərkibli cümlə növü bu modellərə malik ola bilər. Bu modellərin hər birinin yaranmasında cümlənin baş üzvləri olan mübtəda (S) və xəbər (P) iştirak edir [106, s.244].

Qədim ingilis dilində sadə cüttərkibli cümlənin hər bir modelinin də bir neçə variantları mövcud olmuşdur. Bu sadə cümlə modellərindən yalnız biri (yəni, SP modeli) müxtəsər, digərləri (yəni, SPO, SPC) isə geniş cüttərkibli cümlələrdir.

1.4.1. SP (Subject Predicate) modeli

Bu modeli xarakterizə edən cəhətlər xəbərin təsirsiz feillə ifadə olunması və onun obyektlə uzlaşmasının olmamasıdır. SP modelinin üç variantını fərqləndirmək olar.

Variant 1. Mübtəda və xəbərdən ibarət olan sadə cüttərkibli cümlənin bu variantında mübtəda əşya və şəxslə referent əlaqəyə malikdir. Müxtəsər cümlənin bu

tipinə daha çox poetik əsərlərdə rast gəlinir. Aşağıdakı misalları SP cümlə modelinin I variantına misal göstərmək olar:

Strēāmas styredon (Stream Strengthened).

Windas wēōxan (Wind blew out).

SP modeli cümlənin bu variantına aid olan cümlələrdə bəzən təsirsiz xəbər yönlük halda olan şəxs əvəzliyini idarə edir. Bu isə "yönlük hal" (dativus eticus) adlanır: *Gewāt* ***him*** *þāsē æþelinʒ* (Then come to himself that noble man).

Bu cümlədə yönlük halda işlənən əvəzlik feilin bir hissəsi kimi götürüldüyündən cümlənin ayrıca bir üzvünə çevrilmir. O, funksiya baxımından qayıdış konstruksiyasında təsirlik hala bərabər olur. Fərq ondadır ki, yönlük hal təsirsiz feildən sonra işlənir, buna görə də bir növ "hərəkət subyektə qayıtmır". Bu halın özü isə təsirlik hal üçün xarakterikdir. Beləliklə, yuxarıdakı misalda olduğu kimi yönlük halda işlənən əvəzlik ayrıca cümlə üzvü olmamaqla yanaşı, feilin "medial" mənasının sintaktik göstəricisi kimi özünü göstərir [106, s.245].

Variant 2. SP cümlə modelinin II variantı isə I variantdan fərqli olaraq mübtədanın əşya və şəxslə referent əlaqəsi olmur. "Hit" (it) əvəzliyi ilə başlayan bu cümlələr III şəxsin təkində işlənir və formaca bu cür cümlələr cüttərkibli olsalar da, məzmunca şəxssiz cümlədirlər. Məsələn:

Hit hagalode seofon niht (Seven night hailed).

Bu tip cümlələrdə ən çox işlənən feillər aşağıdakılar olmuşdur ki, bunların özünü də iki qrupa bölmək olar:

1) *frēōsan* (to freeze) *rinan* (to rain)

hagalian (to hail) *slītan* (to freeze)

snīwan (to snow) *wederian* (to change)

2) *līhtan* (to light)

æfenlæcan (to grow dark)

frumlȳhtan to dawn)

dægian (to begin)

Bu cür struktura malik cümlələri yarımçıq cümlələrə də aid etmək olar, çünki "hit" əvəzliyi bu cür cümlələrdə buraxıla da bilər.

Variant 3. SP cümlə modelinin III variantına isə öz ilkin mənasını müəyyən mənada itirmiş *þær* (there is) zərfi ilə başlayan cümlələr daxildir.

"Orosius" əsərindən belə bir cümləyə nəzər salaq: *Ne bið* ***ðær*** *nænig ealo gebrowen mid Estum...* (There is no ale brewed by the Esthonians) [258].

Gördüyümüz kimi, burada *bēōn* (to be) feilinin III şəxs tək forması *ðær* (there) sözündən əvvəl işlənmişdir. Bu yerdəyişmənin səbəbini qədim ingilis dilindəki inkar cümlələrinin strukturu ilə izah etmək olar.

1.4.2. SPO (Subject Predicate Object) modeli

Bu modelə daxil olan cümlələrdə feil həmişə tamamlıqla ya birbaşa, ya da müəyyən vasitələrlə əlaqədə olur. Feilin qrammatik əlaqəliliyinə görə bu modelin daxilində də üç variantı fərqləndirə bilərik:

Variant 1. Mübtəda, xəbər və vasitəsiz tamamlıqdan ibarət sadə cüttərkibli cümlə (SPO_1) variantı.

Variant 2. Mübtəda, xəbər və vasitəli tamamlıqdan ibarət sadə cüttərkibli cümlə (SPO_2) variantı.

Variant 3. Mübtəda, xəbər, vasitəli və vasitəsiz tamamlıqlardan ibarət olan sadə cüttərkibli cümlə (SPOO) variantı ingilis dilində daha çox təsadüf olunur: *Hī hine forbærnaþ* (they burn him); *Hē þā þās andsware onfenʒ* (he then received this answer). Bu modelli cümlələrdə tamamlıq təsirlik halda olur.

SPO modelinin II variantı qeyd etdiyimiz kimi, mübtəda, xəbər və vasitəli tamamlıqdan ibarətdir. Bir halda ki, təsirlilik və təsirsizlik qədim ingilis dilində feilin semantik-morfoloji kateqoriyası idi, o halda deyə bilərik ki, təsirli feillər kimi təsirsiz feillər də obyektlə birbaşa olmasa da, dolayı yolla əlaqəli olmuşdur. SPO cümlə modelinin I variantından fərqli olaraq bu tip cümlələrdə tamamlıq daha çox yönlük halda işlənmişdir (sözönülü və ya sözönüsüz).

Isaac cwæð tō his suna (Isaac said to his son)

(sözönü + yönlük halda olan tamamlıq)

SPO_2 modelinin üzərində qurulmuş cümlələr əksər hallarda ikinci dərəcəli cümlə üzvləri (yəni təyin, zərflik və əlavə) ilə genişlənə bilərlər.

Müasir ingilis dilində olduğu kimi qədim ingilis dilində də bir cümlədə həm vasitəli, həm də vasitəsiz tamamlıq işlənə bilərdi. Bu isə, İ.P.İvanovanın fikrincə, SPO cümlə modelinin üçüncü variantıdır. (SPOO) [106, s.247]. Sadə cümlədə eyni zamanda işlənən bu tamamlıqlar bir-birindən hallarına görə fərqlənmişdirlər. Belə ki, vasitəsiz tamamlıq təsirlik halda, vasitəli tamamlıq isə yönlük və yiyəlik hallarında olur. Məsələn: *Fella spella him sædon þā Beormas* (The Permians told him many stories).

Qədim ingilis dilində elə sadə cümlələrə də rast gəlmək olur ki, burada iki vasitəli və ya iki vasitəsiz tamamlıq işlənirdi. Məsələn:

Hīȝ hine acsodan þæt bigspell.

Müasir dövrdə: *There is no profit of hiring.*

1.4.3. SPC (Subject Predicate Compliment) modeli

Sadə cümlənin bu modeli isə mübtəda, xəbər və predikativ üzvdən ibarət olmuşdur. Belə cümlə modelində feil sərbəst formada cümlə üzvü səviyyəsində olmur. Bu zaman feil ismi xəbərin bir hissəsi kimi özünü göstərir. Məsələn: *Ðā hē þær tō ȝefaren wæs* (Then he had gone there).

Modellər haqqındakı fikirləri ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, SPC modeli SPO cümlə modelindən fərqlənir. SPC modeli üzərində qurulmuş sadə cümlənin üzvləri arasında iki cür sintaktik əlaqə olur. Bunlardan biri mübtəda və xəbər arasında olan predikativ əlaqə, digəri isə tamamlıqla xəbər arasındakı tabelilik əlaqəsidir. Eyni zamanda bu cümlə modelindəki feillər də semantikasına görə fərqlənirlər.

Qədim ingilis dilində belə sadə cümlələrdəki mübtəda bəzən buraxılırdı. Çünki belə yarımçıq cümlələrdə mübtəda iştirak etməsə də, feil özü şəxsi və kəmiyyəti bildirmək üçün kifayət edirdi. Bunu onunla izah etmək olar ki, qədim ingilis dilində cümlə üzvləri arasındakı əlaqəni göstərən cins, şəxs, kəmiyyət və hal kateqoriyalarının formal vasitələri olmuşdur. Sonrakı dövrlərlə müqayisə etdikdə görürük ki, bu dövrdə uzlaşma və idarə əlaqəsi istər söz birləşmələrini təşkil edən sözlər arasında, istərsə də cümləni təşkil edən cümlə üzvləri arasında aparıcı rol oynamışdır. Məhz

qədim ingilis dilində formal göstəricilər zəngin olduğu üçün müasir ingilis dilindən fərqli olaraq mübtəda cümlədə işlənməyə də bilərdi. Bir neçə misala nəzər salaq: *Ðā cwōm þær micel snāw* (Then there snowed a lot); *Norþan snȳwde* (It snowed in the north).

Qədim ingilis dilində cüttərkibli cümlələrlə yanaşı təktərkibli cümlələr də olmuşdur. Əsasında feilin şəxsli formasının olduğu və mübtədasız işlənən bu cümlələrin iki tipini fərqləndirmək olar: a) şəxssiz cümlə. Məsələn:

Hine þurste hwȳlun and hwȳlum hingrode (At times he wanted to drink and at times to eat).

b) Əmr cümləsi: *Ārwurða fæder and mōdor* (Honor (your) father and mother).

Qədim ingilis dilindəki sadə cümlənin təktərkibli və cüttərkibli növləri də müxtəsər və geniş ola bilərdi. Sadə müxtəsər cümləyə *Cwæð* (he said) cümləsini, sadə geniş cümləyə isə *Hæfde se cyning his fierd on tū tōnumen* (The king had divided his army in two) cümləsini misal göstərmək olar. Qeyd etmək lazımdır ki, qədim ingilis dilində ən çox sadə geniş cümlə işlənmişdir.

1.5. Qədim ingilis dilində cümlə üzvləri və onların ifadə vasitələri

Qədim ingilis dilini müasir ingilis dili ilə müqayisədə xarakterizə edən cəhətlərdən biri söz və cümlələrin avtosemantikliyidir. Burada söhbət ondan gedir ki, qədim dövrdə cümləni təşkil edən üzvlərin qrammatik və leksik mənaları onları əhatə edən sözlərdən demək olar ki, asılı olmamışdır. Cümlə üzvləri ilə bağlı qədim ingilis dilinə xas olan cəhətlərdən ikincisi isə o olmuşdur ki, bir cümlə üzvünün bir neçə sözlə ifadə olunması qədim ingilis dili üçün tipik deyildir [106, s.271].

Cümlə üzvləri məsələsinə ənənəvi cəhətdən yanaşsaq, müasir ingilis dilində olduğu kimi qədim ingilis dilində də cümlə üzvlərini iki hissəyə bölə bilərik: iki baş üzv – mübtəda, xəbər və bir neçə ikinci dərəcəli üzvlər – tamamlıq, təyin, zərflik, əlavə. Bu cümlə üzvləri ilə yanaşı cümlədə xitab və ara sözlər də ola bilərdi. Məsələn: *Iā, lēof, ic hit eom* (Yes, my dear, it is I); *Næfde hē þēah mā þonne twentiȝ hryðera* (He had, however, no more than twenty cattle).

German dilləri üçün xarakterik olan sintaksisin bəzi əlamətləri tarix boyu ingilis dilində sabit olaraq qalmışdır. Bütün dövrlərdə ingilis dili cümlələri üçün xas olan sintaksisin həmin bu tip dəyişməyən xüsusiyyətlərinə nominativlik və feillilik xüsusiyyətlərini aid etmək olar. Cümlənin nominativ quruluşunu onunla izah etmək olar ki, qədim ingilis dilində mübtəda xəbərin xarakterindən asılı olmayaraq əsasən adlıq halda işlənən isimlə ifadə olunurdu. Bu xüsusiyyəti ilə ingilis dili erqativ quruluşlu dillərdən fərqlənir. Həmin dillərdə, ingilis dilindən fərqli olaraq, xəbərin xarakterinə görə cümlənin mübtədası müxtəlif formalarla işlənə bilər [149, s.201].

Cümlədə aparıcı rol oynayan, adətən əlamətləri xəbərlə müəyyənləşən əşyanı göstərən cümlənin baş üzvü mübtəda hesab edilir. Müasir ingilis dilində olduğu kimi, qədim ingilis dilində də mübtədanın şəxsli və şəxssiz formaları mövcud olmuşdur. Şəxsli mübtədanın özü bir neçə tipə bölünür: müəyyən şəxsli və qeyri-müəyyən şəxsli, ümumi şəxsli, inkar və sual mübtədaları. Mübtədanın qeyd olunan növləri müxtəlif struktura malik cümlə tiplərində işlədilə bilər. Cümlənin struktur-semantik tipini təyin edərkən mübtədanın bu növləri mütləq nəzərə alınmalıdır [106, s.271].

Qədim ingilis dilində mübtədanın ifadə vasitələri müxtəlif olmuşdur. Əksər hallarda adlıq halda olan isimlə ifadə olunan müəyyən-şəxsli mübtəda qədim ingilis dilində həm də əvəzlik, substantivləşmiş isim və ya zərflə ifadə edilmişdir. Bir neçə misalı nəzərdən keçirək: *Ðā* ***Finnas*** *and þā* ***Beormas*** *spræcon nēah ān ʒeþēōde* (The Finns and the Berms spoke nearly the same language); ***Hē*** *ne mihte nān þing ʒesēon* (He could not see anything); ***Sē ærra*** *wæs of Brytton ofsleʒen* (That farmer was killed by Britons).

Qədim ingilis dilində müəyyən şəxsli mübtədalar həm də əvəzliklərlə ifadə oluna bilərdilər. Əvəzliyin bəzi növləri adlıq hala cümlənin mübtədası vəzifəsində çıxış edirdi. Bunlar aşağıdakılardır:

1) şəxs əvəzlikləri, məsələn: ***Hē*** *þās andsware onfenʒ* (He received this answer);

2) işarə əvəzlikləri: məsələn: ***Ðæt*** *wæs ʒōd cyninʒ!* (That was a good king!);

3) sual əvəzlikləri: məsələn: ***Hwā*** *is ʒōd cyninʒ?* (Who is a good king?) [110, s.142].

Qeyri-müəyyən şəxsli mübtəda tipi qeyri-müəyyən əvəzliklərlə ifadə olunmuşdur: *æniȝ (æniȝ man, æniȝ þing),āwiht (ōwiht, āht), sum (sum þing, sum man), ælc (æfre ælc), āhwæðer.* Məsələn:

Sum *man hæfde twēȝen suna* (A certain man had two sons).

İnkar bildirən mübtədalar inkar əvəzlikləri ilə ifadə edilmişdir: *nān (nān þing), næniȝ, nāwiht, nōwiht (nāht, nōht).* Məsələn:

Nāht *me wana biþ* (Nothing will be necessary for me).

Şəxsli mübtədanın bir variantı da sual əvəzlikləri ilə ifadə olunan mübtədadır. Qədim ingilis dilində *hwā* (who), *hwæt* (what), *hwylc, hwilc* (which) kimi sual əvəzlikləri mübtəda vəzifəsində işlənmişdir, məsələn:

Hwyle *is mīn mōdor?* (Which is my mother?)

Qədim ingilis dilində qeyri-müəyyən şəxsli mübtəda "man (mon)" əvəzliyi ilə ifadə olunurdu. Bu əvəzliyi "man" ismindən fərqləndirən isə onun hal formalarının olmamasıdır.

Şəxssiz mübtədaların özləri də iki yerə bölünmüşdür:

1) referent əlaqəliliyə malik olmayan şəxssiz mübtəda, məsələn:

Hit *haȝolade stānum* (It hailed with stones).

2) qabaqlayıcı xarakterə malik şəxssiz mübtəda, məsələn:

Hit *is gōd godne* ***to herainne and yfelne to leānne*** (It is good to praise the good and to blame the evil) [106, s.272].

Peter S.Baker qeyd etmişdi ki, müasir ingilis dilində olduğu kimi, qədim ingilis dilində də mübtədanın quruluşca sadə və müəkkəb növləri olmuşdur [267]. Qədim ingilis dilində cümlə aşağıdakı qaydada qurulurdu:

My shield protects me and my sword.

Qədim ingilis dili cümlələrinin strukturuna görə bu cümləni belə şərh edə bilərik ki, "my shield and my sword" cümlənin mürəkkəb mübtədasıdır. Lakin müasir ingilis dili nöqteyi-nəzərindən "and my sword", "me and my sword" mürəkkəb tamamlığının bir hissəsi kimi götürülməlidir.

Cümlənin digər baş üzvü olan xəbər isə mübtəda ilə ifadə olunan şəxs və ya əşyanın əlamətini göstərir. Qədim ingilis dilində xəbərin aşağıdakı növləri olmuşdur:

Feili və ismi xəbər. Feili xəbərin özü də quruluşuna görə sadə feili xəbərə və mürəkkəb feili xəbərə bölünmüşdür. Xəbərin bu növləri haqqında qısaca məlumat verək:

1) Xəbərin növlərindən biri feilin şəxsli forması ilə ifadə olunan sadə feili xəbərdir. Məsələn: *Ðā **dælde** hē him his æhta* (Then he gave him his property).

2) Xəbərin digər bir növü olan mürəkkəb xəbərin özü də 4 yarım növə ayrılır:

a) Mürəkkəb feili xəbər: bu halda xəbər modal feillə, məsdər və köməkçi feillə feili sifətin birləşməsi ilə ifadə edilirdi. Qeyd etmək yerinə düşər ki, o zaman modal və ya köməkçi feillə məsdər və feili sifətin birləşməsi hələ sadə xəbər hesab edilə bilməzdi [37, s.109]. Misallara nəzər salaq: *Hwæðre þū **meaht sinʒan*** (Nevertheless you can sing); *Ne **con** ic nōht **sinʒan*** (I cannot sing); *Hiora cyninʒ **wæs ʒewundod*** (Their king was wounded).

b) Mürəkkəb ismi xəbər: qədim ingilis dilində ismi xəbər həmişə mürəkkəb formaya malik olurdu. Bu dövrdə mürəkkəb ismi xəbərin birinci hissəsini bağlayıcı feil vəzifəsində işlənən *"wesan (bēon), weorþan"* (to be, to become) feilləri, ikinci hissəsini predikativ üzv təşkil edirdi. Predikativ üzv vəzifəsində başqa nitq hissələri ilə yanaşı ən çox isim və sifət işlədilirdi. Məsələn: *Ðæt lānd **is swȳðe mycel*** (That land is very big); *Hē **wæs swȳðe spediz mann*** (He was a very rich man).

c) Sözönülü mürəkkəb ismi xəbər: Bəzən qədim ingilis dilində predikativ üzv kimi sözönülü isim işlədilirdi. Məsələn: *Burgenda land **wæs us on brecbord** ...* (We had, on our left, the land of the Burgundians...).

ç) Mürəkkəb zərfi xəbər: predikativ üzv kimi zərf də işlədilirdi. Məsələn: *Sē mān **is hēr*** (The man is here).

Bēōn (wesan) və *weorþan* kimi bağlayıcı feillərdən sonra gələn predikativ üzv aşağıdakılarla ifadə oluna bilərdi:

1. adlıq halda olan isimlə, məsələn:

*Ðæt wæs gōd **cyninʒ**!* (That was a good king!)

2. sözönü ilə birlikdə adlıq haldan başqa digər hallarda işlənən isimlə, məsələn:

*Ælc blēstunʒ is **of Gōde*** (Any blessing is from God).

3. sözönüsüz yiyəlik halda olan isimlə, məsələn:

Ælc hæþen man biþ ***dēōfles*** (Any pagan belongs to the devil).

4. isimləşmiş sifətlə, məsələn:

Þeȝnas wurdan ***acolmōde*** (Warriors were frightened).

5. adlıq halda olan şəxs və ya işarə əvəzlikləri ilə, məsələn:

He ***hyt*** *is* (He is it).

6. yiyəlik halda olan şəxs əvəzliyi ilə, məsələn:

Ealle mīne þyng synt ***þine*** (All my things are yours).

7. məsdərlə, məsələn:

Hit is gōd gōdne ***to herainne*** ... (It is good to praise the good).

8. feili sifətlə, məsələn:

Hīē wæs ***cumene*** (They were come).

Qeyd etmək lazımdır ki, qədim ingilis dilində predikativ üzv mübtəda ilə daim hal, cins və kəmiyyətə görə uzlaşmışdır [106, s.277].

Qədim ingilis dilində, müasir ingilis dilində olduğu kimi, tamamlığın vasitəsiz, vasitəli və sözönü ilə işlənən növü mövcud olmuşdur. Qədim ingilis dilinin morfoloji sistemi çox inkişaf etmiş olduğundan sözönü ilə işlədilməyən vasitəli və vasitəsiz tamamlığa daha çox təsadüf edilir. İsim və ya əvəzliklə ifadə olunan tamamlıq qədim ingilis dilində təsirlik, yönlük və yiyəlik halda olan isim və əvəzliklərlə ifadə olunurdu. Məsələn: *Hē þā* ***þās andsware*** *onfenȝ* (He then received this answer); *Hī* ***hine*** *forbænaþ* (They burn him).

Bu cümlələrdəki tamamlıqlar vasitəsiz tamamlıqlardır. Vasitəli tamamlığa isə aşağıdakı cümləni misal göstərmək olar. Məsələn:

Hē þær bād **westanwindes** (He wait for the western wind).

Qədim ingilis dilində bir cümlədə iki tamamlıq (vasitəli və vasitəsiz) işlənə bilərdi. Onlar isə hallarına görə bir-birlərindən fərqlənirdi. Vasitəsiz tamamlıq təsirlik halda, vasitəli tamamlıq isə yönlük halda işlənirdi. Misallara nəzər salaq: ***Fella spella him*** *sædon þā Beormas* (The Permians told him many stories); *Sinȝ* ***mē hwæthwuȝu*** (Sing me something).

Tamamlığın bir növü də sözönülü tamamlıqdır. Məsələn: *Nū hæbbe we scortlīce ȝesæd* ***ymb Asia londȝemære*** (Now we have briefly spoken about the land

of Asia).

Qədim ingilis dilində əvəzliklə ifadə olunan mübtəda buraxıldığı kimi, vasitəsiz tamamlığın da buraxıldığı hallar olurdu. Peter S.Baker bununla bağlı "Beowulf" əsərindən belə bir misal çəkir: *Ðā gȳt hie him āsetton segen gyldenne, hēah ofer hēafod, lēton holm beran, gēafon on gārsecg* (Then further they set up for him a golden standart, high over head, let the sea bear (him) gave (him) into the sea) [267, s.15].

Qədim ingilis dilində adətən sifət və başqa nitq hissələri (əvəzlik, say, feili sifət, ismin yiyəlik halı, "sözönü + isim" birləşməsi və s.) ilə ifadə olunan təyin, təyin etdiyi sözlə hala, cinsə və kəmiyyətə görə uzlaşırdı. Məsələn: ... *hē meahte on* ***þæm ōþrum þrim daʒum*** *ʒesiʒlan* (... he might swim the other three days). Gördüyümüz kimi, "þæm ōþrum" və "þrim" təyinləri isimlə kişi cinsi, yönlük hal və cəm formasına görə uzlaşıb.

Qədim ingilis dilinə xas olan səciyyəvi xüsusiyyətlərdən biri də sifət və digər təyinedici sözlərin isimlə iki cür – zəif və qüvvətli hallanmaya görə uzlaşma formasına malik olması idi. Bəzi hallarda qədim ingilis dilində təyin "sözönü + isim" birləşməsi ilə ifadə edilirdi. Məsələn: *Mann* ***mid ānum ēāʒe*** (Man with one eye).

Qədim ingilis dilində yerinə görə təyinin üç növünü fərqləndirmək olar: prepozitiv, postpozitiv və distant [186, s.89]. Prepozitiv təyin, təyin etdiyi sözdən əvvəl gələrək təyin olunan sözlə uzlaşma və idarə əlaqəsində olmuşdur. Bu vəziyyətdə işlənən təyin sifət, yiyəlik halda olan isim və ya əvəzliklə, işarə, inkar, qeyri-müəyyən əvəzlikləri və sayla, bəzən də feili sifətlə ifadə olunurdu: ***Wīsa*** *fenʒel ʒende* (The wise prince came).

Brinʒ mē ***twā þā betstan*** *tyccenu* (Bring me two, the best kids).

Qədim ingilis dilində postpozitiv təyinlər təyin etdiyi sözdən sonra gələrək daha çox feili sifət tərkibləri, budaq cümlə, sifət və önlüklü isimlərlə ifadə olunurdu. Bu nitq hissələri ilə ifadə olunmadığı hallarda belə, cümlədə üslubi çalarlığa nail olmaq, xüsusən də poeziyada ritm yaratmaq məqsədilə qədim ingilis dilində təyin, təyin etdiyi sözdən sonra işlənə bilərdi.

K.Brunner göstərir ki, yiyəlik halda olan söz təyin etdiyi sözdən sonra gəlirsə,

o, adətən xüsusi üslubi yükə və güclü vurğuya malik olur [81, s.71].

Təyinin bir növü də distant təyindir. Müasir ingilis dili qrammatikalarından "əlavə" kimi tanıdığımız bu təyin, təyin etdiyi sözdən xüsusi intonasiya ilə ayrılaraq onun haqqında əlavə məlumat verir. Qədim ingilis dili yazılı mətnlərində isim və ya əvəzliyi təyin edən bu cür əlavələrə rast gəlmək olar. Məsələn: *Wæs hē,* ***sē mon,*** *in woruldhāde ȝeseted* (He, the man, was a layman); *Sē unsceððiȝa æþeliȝ,* ***Āpelrædes sunu cinȝes,*** *hider inn* (The innocent nobleman, son of king Etheland, arrived here).

Bundan əlavə qədim ingilis dilindəki təyinlər həm də üç sintaktik növə ayrılırdı: xüsusiləşməmiş, xüsusiləşmiş və predikativ təyin [106, s.283]. Qədim ingilis dilində xüsusiləşməmiş təyinlərlə müqayisədə xüsusiləşmiş təyinlərə nadir hallarda rast gəlinirdi. Məsələn: ***Godes enȝel,*** *hwīt on heofne.*

Müasir ingilis dilində: *The angel is known by her hair.*

Mübtəda və tamamlıq kimi predikativ təyinlərdən də qədim ingilis dilində geniş istifadə olunmuşdur və bunlar əsasən sifət və feili sifətlərlə ifadə edilmişdir. Predikativ təyinlər bir tərəfdən mübtədanın təyini rolunda, digər tərəfdən isə zərflik rolunda çıxış edir. V.N.Yartseva qeyd edirdi ki, bu cür təyinlər qədim ingilis dilində xəbərdən daha çox mübtədaya meyilli olmuşdur [183, s.79].

Həmcins təyinlər isə təyin etdikləri sözdən əvvəl gəldikdə "and" bağlayıcısı ilə bağlanmış, lakin poeziyada həmcins təyinlərdən biri prepozitiv, digəri isə postpozitiv vəziyyətdə işlənmişdir. Məsələn: ***ȝōd*** *and* ***ȝeatlīc*** *ȝeweorc* (good and excellent work); ***twēȝen*** *sæmen oðde* ***þrȳ*** (two sailors or three).

Zərfliklərə gəldikdə isə, qədim ingilis dilində feillə olan əlaqəsinə və cümlədəki vəziyyətinə görə onun bir neçə struktur tipi mövcud olmuşdur. Zərflərin əlaqəlilik tipi asılılığı, cümlədəki vəziyyətinə görə tipi isə fakültətivliyi göstərir [106, s.288].

Zərfliklər qədim ingilis dilində iki formada çıxış edirdi:

1) əsasən zərflərlə;

2) adlıq haldan başqa digər hallarda işlənən sözönülü və sözönüsüz isimlərlə.

Hər iki formaya aid nümunə göstərək:

Ðā *wearð breahtm hæfen* (Then a cry was raised).

Þonne ***wīð norþan Donua*** *æwielme and be ēastan Rīne sindon Eastfrancas* (Then to the north of the Danube river and to the east of the Rhine are the East Franks).

Zərfin leksik mənalarından asılı olaraq müsir ingilis dilində olduğu kimi qədim ingilis dilində də zərfliyin bir neçə semantik tipləri (səbəb, zaman, yer, tərzi-hərəkət və s.) olmuşdur.

1.6. Qədim ingilis dilində söz sırası

Müasir ingilis dili ilə müqayisədə qədim ingilis dilinin söz sırası nisbi mənada sərbəst olmuş və sintaktik əlaqənin ifadə vasitəsi kimi ikinci dərəcəli rol oynamışdır. Bunun səbəbini belə izah etmək olar ki, qədim ingilis dilində sintetiklik əlamətləri üstün olduğundan sözün qrammatik funksiyası əksərən onun öz forması ilə xarakterizə olunurdu. Bu da o dövrdə cümlədə söz sırasının müasir ingilis dili ilə müqayisədə sərbəst olmasına səbəb olmuşdur. Belə ki, məsələn, mübtəda qədim ingilis dilindəki sadə cümlələrin əvvəlində, ortasında və sonunda işlənə bilərdi. Bu zaman mübtədanın cümlədəki yerindən asılı olmayaraq sintaktik funksiyası da dəyişmirdi. Bir sözlə, qədim ingilis dilində cümlədəki sözlərin yeri qrammatik asılılıqlardan daha çox məntiqi və üslubi cəhətlərlə müəyyənləşirdi. Buna görə də qədim ingilis dilində müxtəlif növ söz sırasından müəyyən üslubi məqsədlər üçün istifadə olunmuşdu.

Müasir ingilis dilində olduğu kimi qədim ingilis dilində də sözlərin cümlədəki yeri cümlənin kommunikativ tipindən asılı idi. Bildiyimiz kimi, hər bir cümlə tipinin özünəməxsus xüsusiyyətləri, quruluşu olduğu kimi, spesifik söz sırası da olur.

Cümlənin kommunikativ tiplərindən biri olan nəqli cümlələr təsdiqdə və inkarda olur. Qədim ingilis dilində inkarlıq müasir ingilis dilindən fərqli olaraq iki və daha çox sayda inkarlıq bildirən sözlə ifadə olunurdu. Yəni, qədim ingilis dili üçün çoxinkarlılıq xarakterik olmuşdur. Bu xüsusiyyət yalnız ingilis dilinə deyil, bütün qədim german dillərinə də xas olmuşdur. Qədim ingilis dilində inkar cümlələrini düzəltmək üçün “ne” inkar ədatı, inkarlıq bildirən əvəzliklər, inkar zərfləri və inkarlıq bağlayıcılarından istifadə olunurdu. Məsələn:

Ne mæȝ nān þinȝ his willan wiðstandan (Nothing can withstand his will).

İnkar cümlələrində "ne" inkar ədatı cümlənin əvvəlində işlənmiş və bir qayda olaraq da xəbər və mübtəda onu izləmişdir. Məsələn: *Ne con ic nōht singan* (I can not sing (anything)).

Sual cümlələrinə gəldikdə isə, nəqli cümlələrdən fərqli olaraq onlar xəbərlə başlayırdılar. Sual cümlələrində inversiya qrammatik məqsədlər üçün istifadə edilmişdi; belə ki, sadə xəbərlə işləndikdə tam inversiyadan, bağlayıcı feilin və modal feilin daxil olduğu mürəkkəb xəbərlə işləndikdə isə natamam inversiyadan istifadə olunurdu. Məsələn: *Eart þū Ēsau, mīn sunu?* (Are you Esau, my son?); *Hwæt sceal ic sinȝan?* (What shall I sing?).

İndi isə təsdiq bildirən nəqli cümlələrdə baş və ikinci dərəcəli üzvlərin hansı sıra ilə işləndiyinə nəzər yetirək. German dillərinin qərb yarımqrupuna aid qədim ingilis dilinin sintaksisi müasir alman və holland dillərinin sintaksisinə çox yaxın olmuşdur. VIII əsrdə qədim ingilis dili öz əcdadı olan qərbi german dilinə çox oxşayırdı. Bu dövrdə, qərbi german dilində olduğu kimi, ingilis dilində söz sırası "OV" (tamamlıq + feil) konstruksiyasına əsaslanırdı. Qərbi german (1) və qədim ingilis dilinə (2) aid aşağıdakı misallara nəzər salaq:

(1) <u>*ek Hlewagastiz Holtijaz*</u> <u>*horna*</u> <u>*tawido.*</u>

S O V

(I Hlewagastiz Holtijas [this] horn made).

(2) *Āðred me ah Eanred mec agrof.*

(Alfred me owns; Eamed me carved).

Müəyyən vaxt keçdikdən sonra isə "VO" konstruksiyası (feil + tamamlıq) normaya çevrildi, "OV söz sırası isə məhdud çərçivələrdə, yəni *þæt* (that) ilə başlayan budaq cümlələrində, ən əsası da tamamlığın əvəzliklə ifadə olunduğu hallarda istifadə olunmağa başlandı (məsələn, *hē hine geseah* (he him saw > he saw him)) [238, s.32].

Digər bir tərəfdən "VO" konstruksiyası sərbəst söz sırasına malik qədim ingilis dilində əsas söz sırasına çevrilirdi. Buradan da aydın olur ki, bu sərbəstlik nisbi xarakter daşımışdır. "VO" konstruksiyalı söz sırasına qədim ingilis dili nəsr

əsərlərində və “Bibliya”ya aid olan tərcümələrdə, xüsusən də *þa* (then) zərfliyi ilə başlayan cümlələrdə tez-tez rast gəlmək olar. Bu halda cümlənin mübtədası feildən əvvəl və sonra işlənərək, V(S)O və (S)VO modellərini bizə verir [238, s.88]. Hər iki söz sırasına aid misallara nəzər salaq:

OV söz sırası:

Ðā æfter fēawum dāgum ***ealle his þing gegaderode se gingru sunu***

Then after a few days all his things gathered the younger son

Object (O) Verb (V) Subject (S)

VO söz sırası:

On ðām sixtan ðæge ***hē gescēop eal dēorcynn***

On the sixth day he made all kinds of animals

S V O

Ðā ***dælde hē him his æhta***

Then gave he him his property

V S O

Pintzuk, Halberli və Haegeman qədim ingilis dili mətnlərində hər iki struktura (OV və VO) rast gəlindiyini qeyd etmişdilər. Müəllifin fikrincə, sanki onlar arasında “yarış” gedirdi. Bu söz sıralarından ikincisi, yəni feilin ortada işləndiyi hal zaman keçdikcə birincidən çox işlənməyə başlamışdır. Pintzuk hər iki struktura aid aşağıdakı misalları verir:

… ðeah hit ær upahæfen ***wære***

... although it before up-raised was

2) feilin ortada işlənməsi:

Ðā Sundor-halfan ***eodun*** *þa ut soþlice*

The Pharisees went then out certainly

Qeyd edək ki, qədim ingilis dilinin sonlarına yaxın yuxarıda haqqında danışdığımız ikinci struktura malik cümlələr daha çox üstünlük təşkil etməyə başlamışdır [269, s.6].

Qədim ingilis dilində cümlənin əvvəlində ikinci dərəcəli üzvlərin işlənib-işlənməməsi cümlədə mübtəda və xəbərin yerinə də təsir etmişdir. Buna əsasən nəqli

cümlədə söz sırası ilə bağlı iki cür vəziyyəti qeyd etmək olar:

1) cümlənin əvvəlində ikinci dərəcli üzvlərin işlənmədiyi vəziyyət;

2) cümlənin əvvəlində ikinci dərəcli üzvlərin işləndiyi vəziyyət.

Belə ki, qədimdə əgər cümlənin əvvəlində ikinci dərəcəli üzv gəlmirdisə, belə halda əksərən düzgün söz sırası (mübtəda + xəbər) işlədilirdi. Məs: *Ælfred cyninȝ hātep ȝrētan Wærferþ ærcebiscop his wordum* (King Alfred greets archbishop Warferth with his words). Gördüyümüz kimi, bu cümlədə *Ælfred* mübtədası *cyninȝ* təyini ilə birlikdə *hātep* xəbərindən əvvəl işlənmişdir. Qədim ingilis dilində cümlənin əvvəlində zaman zərflərindən *þa, þonne* (then), yer zərflərindən *þær* (there), *hēr* (here), həmçinin inkar ədatı *ne* (not) işlənəndə cümlədə inversiya hadisəsi baş vermiş, yəni xəbər mübtədadan əvvəl işlənmişdir: Məsələn: *Ðā seȝlede hē þanon norþryhte* (Then sailed he thence northward). Bu cümlədə isə *hē* mübtədası *seȝlede* xəbərindən sonra işlənmişdir. Qədim ingilis dilində bəzən sadə cümlə ikinci dərəcəli üzvlə başlanmasına baxmayaraq sabit söz sırasına malik olurdu, Məsələn: *Hēr Æþelbald cynȝ forþferde* (Then died king Athelbald).

B.A.İliş qeyd edir ki, "Beowulf" əsərində əks söz sırası ilə müqayisədə (37%) düzgün söz sırasından (63%) daha çox istifadə olunmuşdur [110, s.145].

Qədim ingilis dilində sintetik və analitik adlandırılan söz sırasının hər ikisi də işlədilirdi. Poetik mətnlərdə, tabeli mürəkkəb cümlələrdə sintetik söz sırasına tez-tez təsadüf edilirdi. Belə cümlələrdə mübtəda və xəbərin arasında ikinci dərəcəli üzvlər xəbərdən sonra gəlirdi. Məhz hesablamalara görə, "Beowulf" əsərindəki cümlələrin 70%-i söz sırası əsasında qurulmuşdur. Zaman keçdikcə sintetiklik analitikliklə əvəz olunmağa başlamışdır [110, s.146].

Qədim ingilis dilində tamamlıq, xəbər, yaxud cümlədə tamamlığın aid olduğu digər feili özündən əvvəl və ya sonra işlənirdi. Məsələn: *Hīe ðā fromlice lētan forð flēoȝan flāna scūras* (They then bravely let forth fly showers of arrows); ... *ȝāras sendon in heardra ȝemanȝ* (spears sent into the band of the hard ones). Birinci cümlədəki *scūras* tamamlığı *flana* təyini ilə birlikdə *lētan forð flēoȝan* xəbərindən sonra, ikinci cümlədə isə *ȝāras sendon* xəbərindən əvvəl, eyni zamanda birinci cümlədəki *ðā* və *fromlīce* zərfləri *hīe* mübtədası ilə *lētan forð flēoȝan* xəbərinin

arasında işlənmişdir.

Təyin adətən təyin etdiyi sözdən əvvəl gəlirdi. Məsələn:

enȝlisc *ȝewrit* (English text); *onȝemanȝ ōðrum* ***mislīcum*** *and* ***manīȝ fealdum bisȝum*** (among other various and manifold affairs).

Kəmiyyət bildirən təyin çox zaman təyin olunandan sonra işlənirdi, məsələn:

his sūna ***tweȝen*** (his two sons); *ðone naman* ***ānne*** (the name alone).

Yiyəlik halda olan isim də təyin etdiyi sözdən həm əvvəl, həm də sonra gələ bilirdi, məsələn:

Norþmanna *land* (The northmen's land).

On ōðre healfe ðære ***ēā*** (On the other side of the river).

Müraciət formasında da əksərən təyin, təyin olunandan sonra işlənirdi. Məsələn: *Eart þū Ēsau,* ***mīn sunu?*** (Are you Esau, my son?).

1.7. Orta və erkən yeni ingilis dilinin sadə cümlə modellərində baş vermiş dəyişikliklər

Bildiyimiz kimi, ingilis dilinin tarixində orta ingilis dili dövrü XI-XV əsrləri, erkən yeni ingilis dili dövrü isə XV-XVII əsrləri əhatə etmişdir. Qədim ingilis dilindən orta ingilis dilinə və bu dövrdən də yeni ingilis dili dövrünə keçid mərhələsində ingilis dilinin sistemində bir çox dəyişikliklər olmuşdur. Dövrlər bir-birini əvəz etdikcə onun həm fonetik, həm lüğət tərkibində, həm də qrammatikasında fərqli xüsusiyyətlər ortaya çıxmağa başlamışdır.

Qədim ingilis dilindən başlayaraq sonrakı mərhələlərdə ingilis dili sintaksisinin inkişafı bilavasitə onun morfoloji sistemində olan dəyişikliklərlə əlaqədar olmuşdur. Bir çox alimlər isə tarixi inkişafı boyu ingilis dilinin morfoloji quruluşunda olan bu dəyişməni və sadələşməni onun başqa dillərlə olan qarşılıqlı əlaqəsi ilə izah etmişlər. X-XIII əsrlərdə ölkənin şimal-şərqində skandinavların məskunlaşması və normanların işğalı həm sosial-iqtisadi vəziyyətin dəyişməsinə, həm də əhalinin dilinə böyük təsir göstərmişdir. Bu nəzəriyyənin tərəfdarları X-XIII əsrləri ingilis dilinin tarixində böyük "qrammatik dəyişikliklər dövrü" adlandırmışdırlar.

Bir qrup dilçi ingilis dilinin qrammatikasında olan dəyişikliklərin yeganə səbəbini danışıq səslərində olan dəyişikliklərdə (fonetik nəzəriyyəyə görə), A.Hornbi, H.Lehnert və başqa dilçilər isə bunu sonluqların itməsi və analitik formaların yaranmasında (funksional nəzəriyyəyə görə) görmüşdürlər [235, s.239].

İngilis dilinin tarixində baş verən qrammatik dəyişikliklərin səbəbini izah etməyə çalışan məşhur nəzəriyyələrdən biri də O.Yespersenin irəli sürdüyü "inkişaf nəzəriyyəsi"dir. O, bütün Hind-Avropa dillərinin qrammatik tarixinin ümumilikdə şərhinə qarşı çıxaraq ayrılıqda ingilis dilinin struktur inkişafının öyrənilməsinin tərəfdarı olmuşdur.

O.Yespersenin irəli sürdüyü bu nəzəriyyə istisna olmaqla yuxarıda qeyd olunan nəzəriyyələr təktərəfli olmaları ilə seçilir. Yəni onların hər biri ingilis dilinin qrammatikasında olan dəyişiklilərin ancaq bir tərəfini göstərmişdir. Ona görə də O.Yespersenin irəli sürdüyü qrammatik dəyişiklilərin bir sıra səbəblərini işıqlandıran "inkişaf nəzəriyyəsi" bir çox dilçilər tərəfindən qəbul olunmuşdur [242, s.292].

İngilis dilinin qrammatikasında baş verən mühüm dəyişikliklərə nəzər salaq. Dilin morfoloji quruluşunda baş verən mühüm dəyişikliklərdən biri qədim ingilis dili üçün xarakterik olan fleksiyanın orta ingilis dilində get-gedə pozulması olmuşdur. Dildəki bu hadisə isə öz növbəsində ingilis dilinin sintaksisinə də təsir göstərmişdir. Təsiri onda görmək olar ki, qədim ingilis dilində sözlər arasındakı sintaktik münasibətlərin ifadə vasitəsi olan uzlaşma və idarə əlaqəsinin rolu orta ingilis dili dövründə azalır. Bu dövrdə sintaktik münasibətlərin yeni ifadə vasitələri ortaya çıxır. Buraya, sözlər arasındakı yanaşma əlaqəsini və söz sırasını aid etmək olar [106, s.252]

Qədim ingilis dili sintaksisi ilə orta və erkən yeni ingilis dili sintaksisi arasındakı diqqəti cəlb edən fərqlərdən biri bu dövrdə qrammatik kateqoriyaları ifadə etmək üçün analitik formalardan və müxtəlif sözönülərdən daha çox istifadə edilməsi, digəri isə cümlədə söz sırasının sabitləşməyə başlaması olmuşdur. Qədim dövrdə sintetik quruluşa malik olan ingilis dilində analitikliyin ilk əlamətləri məhz orta ingilis dili dövründə özünü göstərməyə başladı. Analitikləşmə hadisəsi sonrakı dövrlərdə daha da inkişaf edərək ingilis dili qrammatikasının vacib bir xüsusiyyətinə çevrildi.

Bundan başqa, qədim ingilis dilindən orta ingilis dilinə keçid dövründə ingilis dilinin morfoloji sistemində, xüsusən isim və sifətin qrammatik kateqoriyalarında ortaya çıxan dəyişikliklər ilk növbədə cümlənin sintaktik quruluşuna böyük təsir göstərmişdir. Məsələn, sərbəst söz sırasına malik qədim ingilis dilində hallanma xüsusiyyəti olan, isimlə kəmiyyətə, hal və cinsə görə uzlaşan sifət, təyin etdiyi sözdən ayrıla bilərdi. Ancaq zaman keçdikcə sifət özünün qrammatik hal və kəmiyyət kateqoriyasını itirir. Beləliklə, orta ingilis dilində sifətin cümlədəki yeri sabitləşir, yəni o, təyin etdiyi sözdən ayrıla bilməyib ondan əvvəl və ya sonra işlənməyə başlayır. Həmçinin qədim dövrlə müqayisədə orta və erkən yeni ingilis dilində cümlənin strukturu daha da mürəkkəbləşir: cümlənin yeni mürəkkəb üzvləri və mürəkkəb cümlənin isə müxtəlif kombinasiyaları meydana çıxır. Bunun özü də orta ingilis dilinin sonları, erkən yeni ingilis dili dövründə ədəbi dilin yüksəlişi, elm və mədəniyyətin inkişafı ilə bağlı olmuşdur. Yəni ədəbi dilin çiçəklənməsi ingilis dili sintaksisinin mürəkkəbləşməsinə, cümlə və söz birləşmələrinin strukturlarının stabilləşib standartlaşmasına səbəb olmuşdur.

Sadə cümlənin SP, SPO, SPC kimi modelləri də orta və erkən yeni ingilis dili dövründə inkişaf edir (Bax: II fəsil).

1.7.1. SP cümlə modeli

Orta və erkən yeni ingilis dilində SP cümlə modelinin xəbəri feilin təsirsiz forması ilə ifadə olunmuşdur. Orta ingilis dili dövründə bu növdən olan feillərin quruluşunda heç bir dəyişiklik olmadığından SP modelli cümlələr olduğu kimi qalmışdır. SP modelli cümlənin I variantında (yəni şəxsli mübtədalı cümlələrdə) “medial” (orta) mənalı konstruksiyalar itmiş və “yönlük hal” isə orta ingilis dili dövrünün əvvəllərindən başlayaraq istifadədən çıxmışdır.

SP modelinin II variantında (yəni, şəxssiz mübtəda ilə düzələn cümlələrdə) isə “hit” (it) formal mübtədası ilə başlayan cümlələrin istifadə dairəsi genişlənmişdir. Qeyd edək ki, dövrün sonuna qədər mübtədasız cümlələr yalnız bəzi feillər vasitəsilə düzələ bilərdi, məsələn, *befellen* (to become).

Bu modelin inkişafında əsas məqam III variantın əmələ gəlməsidir. Buraya *"ther"* ilə başlayan və baş üzvlərin inversiyası ilə düzələn cümlələr aid olmuşdur. Məsələn:

They *was a knight ful worthy in his lordes werre.*

1.7.2. SPO cümlə modeli

Orta və erkən yeni ingilis dilində bu cümlə modelinin variantları da inkişaf etməyə başladı. Bu cümlələrdə tamamlıq sözönüsüz və ya sözönülü işlənə bilərdi. Orta ingilis dili dövründə SPO cümlə modelinin sözönüsüz tamamlıqla əmələ gələn variantının istifadə dairəsi genişlənmişdir. Belə ki, fleksiya itmiş və əvvəlki vasitəli tamamlıq vasitəsiz tamamlığa çevrilmişdi. SPO cümlə modelinin II variantının tərkibi isə qədim ingilis dilində mövcud olan təsirlilik-təsirsizlik kateqoriyasının pozulması nəticəsində dəyişmişdir. Orta ingilis dili dövrünün başlanğıcında bu varianta özündə sözönülü tamamlıqla işlənən feili-obyekt birləşmələri ehtiva edən bütün cümlələri aid etmək lazımdır. Məsələn: *thei sent* ***on the bischop of Lincoln.***

SPO cümlə modelinin III variantı (SPOO) nəzərə çarpan dəyişikliyə məruz qalmışdır. Düzdür, burada dəyişikliklər modelin yenidən formalaşmasına gətirib çıxartmasa da, onun tərkibi dəyişmişdir. İsmin hal şəkilçilərinin itməsi və idarə əlaqəsinin pozulması orta ingilis dili dövründən başlayaraq bu modelin iki variantla məhdudlaşmasına gətirib çıxartmışdır:

1) iki sözönüsüz vasitəsiz tamamlığın birləşməsi;

2) iki sözönüsüz – vasitəli və vasitəsiz tamamlığın birləşməsi.

1.7.3. SPC cümlə modeli

Modellər arası dəyişikliklərə ən çox məruz qalan model SPC cümlə modelidir. Belə ki, bu dəyişikliklər SPC cümlə modelinə iki müxtəlif təsir göstərir: birinci təsir tərkibin dəyişməsinə səbəb olur, ikinci təsir isə tərkibi dəyişmədən onu yeni sintaktik vahidlərlə, məsələn, bağlayıcı feillərlə zənginləşdirir.

Qədim ingilis dilinin SPC cümlə modeli orta ingilis dilinə keçərkən tərkib cəhətdən daha bircins olmuşdur. Eyni zamanda onun funksionallığı da sıxılmışdır. İlk

növbədə bu dəyişikliklər bir sıra sintaktik formaların morfoloji formalara keçməsi ilə əlaqədar olmuşdur: yəni, bəzi ismi xəbərlərin feilin analitik formalarına keçməsi.

Qədim ingilis dilinin "to be" və təsirli feillərin keçmiş zaman feili sifətindən ibarət olan ismi xəbər məchul növün analitik formasına çevrilmişdir. Bu çevrilmədən sonra SPC cümlə modelinin tərkibində yalnız "to be" və vəziyyət bildirən keçmiş zaman feili sifəti qalmışdır. Əvvəllər mövcud olmuş *bēōn* (wesan) və təsirsiz feillərin keçmiş zaman feili sifəti ilə formalaşan ismi xəbər isə bitmş zaman feilinin analitik formasını əmələ gətirmişdir. Sonradan isə bu növ feillər "to have" ilə birləşib bitmiş zaman formasını əmələ gətirməyə başlamışdır. "To be" və təsirli, yaxud təsirsiz feilin indiki zaman feili sifəti vasitəsilə düzələn ismi xəbər qədim ingilis dili dövrü ərzində davamlılıq mənası vermiş, orta ingilis dilində isə bu məna tədricən itmişdir. Eyni zamanda ismi xəbərin də yeni forması: "to be + sözönü və feildən əmələ gələn isim" yaranmışdır. Bu birləşmə də elə həmin mənanı ifadə etmişdir: məs, *he* ***was on huntinge.*** Bu forma XIV əsrdə ortaya çıxmışdır. Erkən ingilis dili dövrünün başlanğıcında isə artıq bu forma feilin davamedici zaman formalarını əmələ gətirmişdir.

Əvvəldə də qeyd etdiyimiz kimi, qədim ingilis dilində təktərkibli cümlənin iki növü: şəxssiz cümlələr və əmr cümlələri var idi. Orta və erkən yeni ingilis dilini qədim ingilis dili ilə müqayisə etsək, görə bilərik ki, qədim dövrdə sadə cümlənin strukturu sərbəst olduğundan cümlədə bəzən mübtəda işlənməyə də bilirdi. Ancaq şəkilçilərin köməyi ilə hərəkətin neçənci şəxs tərəfindən icra olunduğunu müəyyənləşdirmək çətin deyildi. Orta ingilis dili dövründə sonluqların neytrallaşması və ya düşməsi nəticəsində sözlərin cümlədəki yeri mühüm əhəmiyyət kəsb etməyə başladı. Bu dövrdə cümlədə hər bir yerin öz funksional əhəmiyyəti var idi. Bu zaman artıq mübtədanın cümlədə işlənməsi məcburi olmuşdur. Cümlədə əsli mübtəda olmadıqda belə onun yerinin boş qalmaması üçün formal mübtədadan istifadə olunmağa başlandı.

Orta ingilis dili dövründə təktərkibli cümlələr yavaş-yavaş istifadədən düşməyə başlayır. Belə ki, qədim ingilis dilindəki *him þuhte, mē þynkeð* tipli şəxsi-obyekt təktərkibli cümlələr orta ingilis dili dövründən başlayaraq cüttərkibli cümlə tipinə çevrilir. Bunun üçün bu tip cümlələrdə "hit" (it) əvəzliyi III şəxsin təkində formal

mübtəda kimi işlənməyə başlanır. Qeyd edək ki, mübtədanın formasına əsasən bu tip cümlələr şəxssiz cümlələr qrupuna daha yaxın olmuşdur. Əksər hallarda da "hit" əvəzliyi cümlədə məna etibarı ilə baş verəcək hadisədən öncə məlumat vermək xüsusiyyətinə malik olmuşdur. Məsələn:

Hit *me of þincð, forgyf hit him.* (It seems to me, forgive him for it)

Qədim ingilis dilində də "hit" formal mübtədasının işləndiyi cümlələr olmuşdur. Buraya bəzi şəxssiz cümlə tiplərini, xüsusən də, hava haqqında məlumat vermək üçün işlədilən cümlələri misal göstərmək olar (Məsələn: *Hit hagolode* (It hailed)). Lakin orta ingilis dilində "it" formal mübtədası bütün tip şəxssiz cümlələrdə işlənirdi. Məsələn:

For ***it*** *reynyd almoste every othir day.* (Brut)

(For it rained almost every other day)

Of his falshede ***it*** *dulleth me to ryme.* (Chaucer)

(Of his falsehood it annoys me to speak)

Eyni zamanda bu dövrdə təktərkibli cümlə modelini də yeni struktur-semantik tip tamamlayır: bu cür cümlələrin əsasında isə qeyri-müəyyən şəxs mənası olan feilin məchul forması dayanırdı. Orta ingilis dilində bir çox nitq hissələrinin qrammatik kateqoriyalarında dəyişikliklər olduğu kimi, feilin növ kateqoriyası da bu dövrdə daha da inkişaf edir. Bu dövrdə feilin məchul növü isə yalnız *"ben"* köməkçi feili və keçmiş zaman feili sifətinin köməyi ilə düzəlirdi. Məsələn: *and wascried loude* (and they cried loudly). Bu cümlədə icraçı formal şəkildə göstərilmir və belə hesab edilir ki, icraçı qeyri-müəyyəndir. *"Man"* əvəzliyinin yox olmasının nəticəsində orta ingilis dili dövrünün sonlarına yaxın bu tip cümlələrin rolu da artmağa başladı. Onu da qeyd edək ki, hələ o dövrdə "one" əvəzliyi qeyri-müəyən şəxs mənasını ifadə etmirdi.

Haqqında danışdığımız qeyri-müəyyən şəxsli təktərkibli cümlələr cümlənin xüsusi struktur tipi kimi ancaq XVIII əsrdə yox olur. Hətta müəyyən vaxt ərzində qeyri-müəyyən şəxs mənalı təktərkibli və cüttərkibli cümlə tiplərinin funksional paralelizmlərindən də istifadə olnmuşdur [106, s.263]. Belə ki, orta ingilis dilinin sonlarında *me liketh* tipli şəxssiz konstruksiyalar *I like* tipli konstruksiyalarla əvəz

olunmasına baxmayaraq, hər iki formanın paralel işlənməsinə də rast gəlmək olardı. Çoserin aşağıdakı misallarına nəzər salaq:

My God, ***me mette*** *I was in swich mischief.*

(My God, I dreamed I was in such grief.)

And eek I seyde, ***I mette*** *of him al night.*

(And also I said, I dreamt of him all night.)

C.Çoser *me mette / I mette* formalarından sinonim və ya sintaktik variant kimi istifadə etmişdir. Tədricən şəxsli konstruksiya başqa feillərdə də üstünlük təşkil etməyə başladı. Bu formalardan birinin üstün gəlməsi, şəxssiz konstruksiyanın isə yavaş-yavaş yox olmasını da ingilis dilində baş verən morfoloji və sintaktik faktorlarla izah etmək olar. Məsələn: orta ingilis dili dövründə isimdəki sonluqların düşməsinin nəticəsində mübtəda və tamamlığı fərqləndirmək çətin olmuşdur. C.Çoserin əsərlərindən belə bir cümləyə nəzər salaq: *This man mette in his bed, ther as he lay ...* (This man dreamt in his bed, where he lay ...)

Bu cümlədəki *man* sözü sonundakı *e* şəkilçisini itirərək əvəzliyin obyekt halından daha çox onun adlıq halına yaxın olmuşdur. "Man" sözünün cümlənin mübtədası kimi çıxış etməsinin səbəbini onun yalnız öz sonluğunu itirməsi ilə izah etmək olmaz. *Man* sözü cümlənin mübtədasıdır, həm də ona görə ki, o, feili xəbərdən əvvəl işlənmişdir. Beləliklə də, müəyyən vaxt ərzində *me liketh* konstruksiyası öz yerini *man liketh* və *I like* tipli cümlələrə vermişdir. Məhz müasir ingilis dilində rast gəldiyimiz *methinks* və *meseems* sözləri də qədim ingilis dilini əks etdirərək onların əvvəllər hansı konstruksiyaya malik olduğunu göstərir.

Qədim ingilis dilindən müasir dövrə kimi öz təktərkibli strukturunu qoruyub saxlayan yeganə cümlə tipi əmr cümləsidir. Orta və erkən yeni ingilis dilində əmr cümləsi ilə bağlı dəyişikliklər daha çox morfoloji xarakter daşımış və feilin əmr formasının inkişafı ilə əlaqədar olmuşdur [106, s.148-151].

Orta ingilis dilində əmr formasının şəxsə görə diferensiallaşması baş verir. Bunu belə izah etmək olar ki, həm III şəxsin təki və cəminə, həm də I şəxsin cəminə müraciət forması yaranır. Nəticədə də əmr cümlələrinin işlənmə dairəsi genişlənir. Əlbəttə, qədim ingilis dilində olduğu kimi, orta ingilis dilində də II şəxsə müraciətlə

işlədilən əmr cümlələrindən istifadə olunurdu. Məsələn: *Ne lete ʒe nenne mon slepen.* (Don't let anyone sleep)

1.8. Cümlənin kommunikativ tiplərində baş vermiş dəyişikliklər

Orta ingilis dili və erkən yeni ingilis dili dövründə cüttərkibli cümlənin kommunikativ tiplərinin strukturunda da müəyyən dəyişiklilər baş verir. Orta ingilis dilində cümlənin kommunikativ tiplərindən olan sual cümləsinin qurulmasında elə bir əhəmiyyətli dəyişiklik baş vermir. Bu dövrdə sual cümlələrinin ümumi və xüsusi tiplərində feilin analitik formaları ilə əlaqədar olan natamam inversiya halları daha da artmışdır.

Sual cümlələrinin yaranmasında əsaslı dəyişikliklər isə məhz erkən yeni ingillis dili dövrünə təsadüf edir. Bu yeniliklər cümlədə sabit söz sırasının yaranması ilə bağlı olmuşdur. Dövrün ilk vaxtlarından cümlədə sintaktik münasibətlərin əsas ifadə vasitəsi söz sırası olmuşdur. Bu dövrdə sual cümləsindəki sıraya əsasən sözönüsüz tamamlıq feildən sonra işlənmişdir. Məhz elə bu vəziyyət də sözönüsüz işlənən tamamlığın əsas sintaktik əlamətinə çevrilmişdir. Lakin bununla belə XVI əsrin əvvəllərində bəzi sual cümlələrində xəbərlə sözönüsüz tamamlığın arasında mübtədanın işləndiyi hallar da olurdu. Məs: *Eat **cats** mice?* Orta ingilis dilində sual cümlələri ilə bağlı qarışıqlıq tam inversiyanın olduğu hallarda ortaya çıxmışdır. Belə ki, tam inversiya zamanı köməkçi feildən istifadə olunmadan indiki və ya keçmiş zamandakı xəbər cümlənin əvvəlində işlənmişdir. XVI əsrin əvvəllərində indiki və ya keçmiş qeyri-müəyyən zamanda olan cümləyə istər ümumi, istərsə də xüsusi sual verərkən tam inversiya baş vermişdir. Məsələn: *Call you? What find I here?*

Sual cümlələrinin bu cür işlənməsi erkən yeni ingilis dili dövrünə qədər davam etmişdir. Tədricən erkən yeni ingilis dilində indiki və keçmiş qeyri-müəyyən zamanların analitik formaları olan "do" və "did" köməkçi feillərindən istifadə olunmağa başlanmışdır. Qeyd etmək lazımdır ki, "perifrastik" (yəni, semantik yükə malik olmayan) "do" ilk dəfə XIII əsrdə meydana gəlmiş, ancaq o dövrdə onun nə inkarlıq, nə də inversiya ilə heç bir xüsusi əlaqəsi olmamışdır.

Köməkçi feil kimi "do" sözündən XV əsrdən başlayaraq həm sual, həm də inkar cümlələrinin qurulmasında istifadə olunmağa başlanmışdır. Xüsusən də, sual cümlələrində "do" köməkçi feilindən istifadə olunması cümlədə mübtəda və xəbərin yerinin sabitləşdiyini göstərirdi. Qeyd edək ki, erkən yeni ingilis dilinin sonlarına yaxın "do" və "did" analitik forması xüsusi sual cümlələrinin yaranmasında istifadə edilirdi. Məsələn: *Why **did** you not speak to him?*

Bu dövrün görkəmli siması U.Şekspirin əsərlərində həm "do" ilə, həm də onsuz işlənən xüsusi suallara da rast gəlmək olur: Məsələn:

*What means this, my Lord?; How like you this play?; What **do** you call this play?* və s.

Ümumi sualların düzəldilməsində isə hələ uzun müddət qədim quruluş tipindən istifadə olunmuşdur. Belə ki, XVIII əsrin ortalarına qədər ümumi suallar tam inversiyanın köməyi ilə (yəni, köməkçi feildən istifadə olunmadan feilin cümlənin əvvəlinə keçməsi ilə) qurulmuşdur. Məsələn: ***Seemed** he a gentleman?; **Know** you to whom you speak?* Ümumi sual cümlələrinin müasir dövrdəki quruluşu isə ancaq 1750-ci ildən sonra formalaşmağa başlamışdır [106, s.270].

"Do" köməkçi feilindən danışarkən Kroç məsələnin funksional izahını verməyə çalışmışdır. O qeyd edir ki, cümlədə işlənən "do" dinləyiciyə mübtəda və tamamlığı fərqləndirməyə kömək edir. O, "V+NP+NP" modelli cümlə ilə "Do+NP+V+NP" modelli cümləni fərqləndirir. Kroç fikrini bununla əsaslandırır ki, ikinci modeldəki "do" sözünün köməyi ilə ondan sonra işlənən birinci NP-in mübtəda olmasını söyləmək çətin deyildir [249, s.72].

Müəllif öz araşdırmasında beş cümlə tipinin həm qədim, həm də müasir dövrdəki strukturlarını fərqləndirmiş və diqqəti də "do" köməkçi feilinin işlənməsinə yönəltmişdir. O, bu cümlə tiplərinə nəqli inkar (negative declarative), sual inkar (negative question), təsdiqdə olan təsirli sual (positive question transitive), təsdiqdə olan təsirsiz sual (positive question intransitive) və təsdiqdə olan "wh-object" suallarını (positive wh-object) aid etmişdir. Bu cümlə tiplərinin həm qədim, həm də yeni dövrdə hansı struktura əsasən qurulduğunu müəyyənləşdirmək üçün aşağıdakı cədvələ nəzər salaq:

Cədvəl 1.1.

Cümlə tipləri	Qədim	Yeni
Negative declarative	He went not.	He did not go.
Negative question	Went he not?	Didn't he go?
Positive question transitive	Saw he the dragon?	Did he see the dragon?
Positive question intransitive	Went he?	Did he go?
Positive wh-object question	What saw he?	What did he see?

Bundan başqa "do" sözü nəinki köməkçi feil kimi sual cümlələrinin yaranmasında, həmçinin feil əvəzləyicisi kimi nəqli cümlələrdə də istifadə edilmişdir. "Do" sözünün bu mənada işlənməsi əsas feil olmadan işlənən modal və köməkçi feillər kimi, cümlədə xəbərin yerinin də boş qala bilməyəcəyini göstərmişdir. Məsələn:

*Helpeth me now, as **I dyde** yow whileer* (Chaucer)

(Help me now as I did (help) you formerly.)

*Stand! So **I do,** against my will ...* (Shakespeare)

İngilis dilinin tarixində diqqəti cəlb edən məsələlərdən biri də müəyyən dəyişikliklərə məruz qalmış inkarlıq olmuşdur. Qədim ingilis dilinin sintaksisindən məlum olduğu kimi, o dövrdə inkar cümlələrinin yaranmasında iki və daha çox inkarlıq bildirən elementdən istifadə olunurdu. "Ne" ədatı qədim dövrdə *bēōn* (to be), *habban* (to have), *willan* (to want), *witan* (to know) kimi feillərlə birləşib cümlədə inkarlığı bildirmək üçün işlənirdi: ne + is > nis; ne + wæs > næs; ne + wæron > næron; ne + hadde > nadde; ne + hað > nað və s. [186, s.90].

Bundan başqa qədim ingilis dilində "ne" ədatının əvəzlik və zərflə birləşmələrinə də (ne + ān > nān; ne + æfre > næfre; ne + ā > nā və s.) rast gəlmək olar.

Qədim ingilis dilinin sonlarına yaxın başqa qüvvətləndirici inkar ədatı olan *(noht)* inkar cümlələrinin düzəldilməsində istifadə olunmağa başlayır.

İnkarlığın ifadə vasitələrindəki əsaslı dəyişikliklər məhz orta ingilis dili dövründə baş vermişdir. Bu dövrdə qədim dövrdəki *nawiht* əvəzliyindən yeni bir inkar ədatı "not (nat)" inkişaf edib, qədim inkarlıq bildirən "ne" ədatının işlənmə

dairəsini azaldır. Artıq orta ingilis dilinin əvvəllərindən "ne" demək olar ki, müstəqil şəkildə işlənmirdi; yəni o, həmişə "noht (not)" ədatı ilə birlikdə işlənirdi. (ne ... noht (naht)) XIV əsrdən "not" ədatı inkar cümlələrində aparıcı rol oynamağa başlayır. Məsələn: *The Longabardis whech dwelled* ***not*** *thanne in Italie.* (The Longabards which didn't dwell then in Italy).

XVI əsrin ortalarından isə feilin əvvəlində işlənən "ne ... noht (not)" formasındakı "ne" ədatı tamamilə istifadədən çıxır. XVI əsrin sonlarına qədər "not" inkar ədatı daha çox feilin şəxli formasından əvvəl işlənmişdir. Məsələn: *My sunne* ***I not defende.***

Buna baxmayaraq Şekspirin dilində "not" ədatının feildən sonra işlənməsi hallarına da rast gəlmək olar. Məsələn: ***I know not*** *which is which.*

Sual cümlələrindən danışarkən qeyd etdik ki, XV əsrin əvvəllərindən indiki və keçmiş qeyri-müəyyən zamanların analitik formaları (do, did) yarandı. Bu analitik formalar nəinki sual cümlələrinin qurulmasında, eyni zamanda bu dövrdən başlayaraq tədricən inkar cümlələrində də istifadə olunmağa başladı. Məsələn: *I see you* ***do not*** *mean to part with her; Thou* ***dost not*** *love her.*

Qeyd edək ki, XVI-XVII əsrlərdə bütün cümlə tiplərində işlənən perifrastik "do" məhz XVII əsrin sonlarına yaxın daha çox sual və inkar cümlələrinin qurulmasında istifadə edilmiş, təsdiq bildirən cümlələrdə isə sintetik formalara üstünlük verilmişdir. Elə bu vaxt "do-parafrazı" indiki və keçmiş qeyri-müəyyən zamanda olan inkar və sual cümlələrinin analitik formasına çevrilmişdir.

XVII əsrin ikinci yarısında isə ingilis dilində qısaldılmış formalar yaranır (don't, haven't, won't və s.). Məsələn: *Your divisions don't come within the reach of the law for a divorce.*

Orta ingilis dilinin əvvəllərində hələ də çox inkarlılıq üstünlük təşkil etmişdir. Məsələn: *He* ***nolde no*** *raunsoun* (He did not want any ransom); ***Ne*** *sæh ich* ***nauere*** *ær swulche cnihtes* (I had never seen such knights).

Zaman keçdikcə ingilis dilindəki bu polineqativlik mononeqativliklə əvəz olunmağa başlayır. Artıq orta ingilis dilinin sonlarına yaxın*"non man i-cumen"* (nobody came) tip cümlələrə rast gəlmək olardı. Bununla belə, onu da deyə bilərik ki,

hələ tam mononeqativlik formalaşmamışdı. Çünki erkən yeni ingilis dilində bir neçə inkari sözün işləndiyi cümlələrə rast gəlmək olar. U.Şekspirdən götürülmüş misallara nəzər salsaq, dediyimiz fakt daha aydın olacaqdır: *that can* ***not*** *be so* ***neither****; love* ***no*** *man in good earnest.*

Təqribən XVII əsrin ortalarından ikili inkarlıq tədricən dialekt və qeyri-ədəbi dilin xüsusiyyətinə çevrilir. XVII əsrdə dilin normaya salınması dövründə bir qrup alim çoxinkarlığı məntiqsiz hesab etmişdilər. Onların fikrincə, riyaziyyatda olduğu kimi dildə də "iki mənfi müsbət edər". Ona görə də inkar cümləsində təkinkarlılıq olmalıdır. Beləliklə, o dövrdən inkarlıq məsələsindəki bu məntiqi məhdudiyyət ingilis ədəbi dilinin ciddi qaydasına çevrildi. Təkinkarlılıq bir qaydaya çevrilsə də, sonrakı dövrlərin əsərlərində qeyri-ədəbi nitqin bir parçası kimi ikili inkarlıqdan istifadə olunmuşdur və olunur. Buna misal olaraq Ç.Dikkensin "The Posthumous Papers of the Pickwick Club" əsərinin qəhrəmanı böyük Uellerin nitqindən götürülmüş cümlələri göstərə bilərik:*"Wot I like in that 'ere style of writin", said the elder Mr.Weller, "is, that there ain't no callin' nam,es in it, no Wenuses, nor nothin'o' that kind", "That ain't no part of the present condiseration, Sammy", replied Mr.Weller.*

İnkar cümlələrinin inkişafında yeni mərhələ erkən yeni ingilis dili dövrü ilə bağlı olmuşdur. Belə ki, bu tip cümlələrin strukturunda baş verən dəyişiklik "ne" ədatının istifadədən düşməsi oldu. Məsələn: *This my in nothinge restrane the kynges pover.* Bu dövrdə belə mononeqativ cümlə ilə yanaşı başqa tip inkar cümlələrindən də istifadə edilirdi: bu tip cümlələr feildən əvvəl işlənən inkarlıq bildirən sözdən və təsdiqdə olan ümumiləşdirici üzvdən ibarət olmuşdur [106, s.266]. Məsələn: *I can not charge you with any thing.*

Bu tip cümlələrin yaranmasının nəticəsində erkən yeni ingilis dili dövründə həm inkar, qeyri-müəyyən əvəzliklər və inkar zərfi arasındakı sərhəd müəyyənləşdi, həm də xüsusi tip inkarlıq olan predikativ inkarlıq yaranıb inkişaf etdi. Artıq XVI əsrdən predikativ və predikativ olmayan cümlələr bir-birindən fərqlənirdi. Predikativ inkar cümlələrində inkarlıq bildirən söz mübtəda və xəbərdən əvvəl, predikativ olmayan inkar cümlələrində isə ikinci dərəcəli üzvdən əvvəl işlənmişdir. Bu cümlələr arasındakı sərhəddin müəyyənləşməsinə bu dövrdə söz sırasının sabitləşməsi

prosesinin davam etməsi və sual cümlələrində "do" sözündən istifadə olunması böyük təsir göstərmişdir. Əgər cümlədə bir neçə qeyri-müəyyən əvəzlik (any) işlənərdisə, inkarlıqdan bir dəfə, ya mübtəda, ya da xəbərdən əvvəl istifadə olunurdu. Məsələn: *There was **none** such in the army of any fort.*

İnkarlıq bildirən sözün ikinci dərəcəli üzvdən əvvəl işləndiyi cümlələr təsdiq cümlələri kimi qəbul edilə bilər, çünki burada inkarlıq predikativ əlaqəyə heç bir şəkildə təsir etmir, bir sözlə bu halda cümlə tipinin dəyişməsi də müşahidə olunmur. Beləliklə, erkən yeni ingilis dili dövrünün sonu və yeni ingilis dili dövründəki inkar cümlələr iki tipə bölünür:

1) mübtədanın tərkibində inkarlıq bildirən sözün işləndiyi inkar cümləsi. Məsələn: ***Nothing** could prevent him from going there.*

2) xəbər tərkibində inkarlığın işləndiyi inkar cümləsi. Məsələn: *She **should not go** there.*

Nida cümlələrinə gəldikdə isə, qədim ingilis dilindən fərqli olaraq orta ingilis dilinin sonu və erkən yeni ingilis dilində nida cümlələrinin strukturunda müəyyən dəyişiklilər oldu. Bu dövrlərdə də "What (what a)" və ya "how" sözləri ilə başlayan nida cümlələrinə rast gəlmək olar. Məsələn: ***How** sweet the moonlight sleeps upon this bank!* (Shakespeare)

Cümlənin digər kommunikativ tipləri də xüsusi intonasiya ilə deyildikdə nida cümləsi əmələ gəlirdi, Məsələn: *Hold up thy tayl, thou Sathanas!* (Hold up your tail, Satan!) (Chaucer)

1.9. Cümlə üzvləri və onların ifadə vasitələrində baş vermiş dəyişikliklər

Qeyd etdiyimiz kimi orta ingilis dilində sözlərin morfoloji strukturunda baş verən dəyişikliklər cümlənin də strukturuna təsir edib, hər bir cümlə üzvünün yerinin tədricən sabitləşməsinə səbəb oldu. Eyni zamanda qədim dövrlə müqayisədə onların ifadə vasitələri də artmağa başladı.

Orta ingilis dili dövründə mübtəda həm mənasına, həm də ifadə vasitələrinə görə fərqlənirdi. Mübtədanı daha çox xarakterizə edən onun cümlədəki yeri olmuşdur. Belə ki, mübtəda feilin şəxsli formasından əvvəl işlənirdi. Mübtədanın

ifadə vasitələrinə gəldikdə isə istər orta, istərsə də erkən yeni ingilis dilində o, daha çox isim və əvəzliklərlə ifadə olunurdu. Məsələn: ***Hauelok*** *was a ful god gome* (Havelok was a very brave man); *He was þe wichteste man at nede* (He was the bravest man at need)

Mübtədası "man (men, me)" qeyri-müəyyən şəxs əvəzliyi ilə ifadə olunan cümlə tiplərinə (hansı ki, məchulluq bildirirdi) XIV əsrdən sonra təsadüf edilmir.

Orta ingilis dilinin əvvəllərindən mübtəda həm məsdərlə, XIV əsrdən isə həm də cerundla ifadə olunmağa başlayır. Məsələn: ***to seche hine*** *is lihtlich thing* (to look for him is a light thing); *there is* ***no getting rid of him.***

Qeyd etmək lazımdır ki, mübtəda vəzifəsində çıxış edən məsdər həm "to" ədatı ilə, həm də onsuz işlənə bilərdi, Məsələn: *Any wyteth welw, that bothe too ben vices, mystrusten alle ellis alle leve* (anybody knows well that both are vices: to mistrust everybody or else to believe everybody); *to ben slayn it were a gretter joye to me, than kyng of Grece be and Troye.* (to be slain it would be a greater joy to me than to be king of Greece and Troy)

Bu dövrdə mübtəda yiyəlik hal konstruksiyası ilə də ifadə oluna bilərdi. Həmin konstruksiya adlıq halda olan isim, yiyəlik əvəzliyi və başqa bir isimdən ibarət olmuşdur. Məsələn: ***Edwald his mother*** **(**Edwald's mother); *Thar were* ***Arthur his men*** (Arthur's men were there). Qeyd edək ki, erkən yeni ingilis dili dövrünün sonlarına yaxın bu tip konstruksiyalar artıq işlənmirdi [106, s.274].

Erkən yeni ingilis dili dövründə həm də mübtədanın yeni ifadə vasitələri meydana çıxır:

1) XVI əsrdə "one" qeyri-müəyyən şəxs əvəzliyi yaranmış və geniş istifadə olunmağa başlanmışdır. Məsələn: ***One*** *should not be put to so contynuall laboure.*

2) mübtəda həm də cerund tərkibi ilə ifadə oluna bilərdi, Məsələn: ***Nor their lyvynge*** *is not muche worse.*

3) erkən yeni ingilis dilinin sonlarında "for ... to" məsdər tərkibi də mübtəda vəzifəsində çıxış edə bilərdi, Məsələn: ***For them to provide for their families*** *was impossible.*

Baş üzvlərdən digəri olan xəbərin strukturu da orta və erkən yeni ingilis dilində istər formaca, istərsə də mənaca daha dəyişkən olmuşdur. Qədim ingilis dilində olduğu kimi xəbərin tipləri bu dövrdə əsasən dəyişməmişdir. Belə ki, quruluşuna görə xəbər sadə və mürəkkəb, mənasına görə isə ismi və feili ola bilərdi.

Bu dövrdə sadə xəbər keyfiyyət dəyişikliklərinə məruz qalmışdır. Bunun səbəbini isə analitik formaların yaranmağa başlaması ilə izah etmək olar. Artıq bundan sonra sadə xəbər tək sözdən ibarət olmaya da bilərdi. Məsələn: ***I have told*** *hit yow* (I have told it to you). Misaldan da göründüyü kimi, sadə xəbər feilin mürəkkəb zaman forması ilə ifadə olunmuşdur. Aydın olduğu kimi "have told" tipli sadə xəbərlərdə əsas leksik yükü daşıyan ikinci hissədir. Beləliklə, morfologiya sahəsindən başlayan bu əsaslı dəyişiklik tez bir zamanda sintaksisə də öz təsirini göstərmişdir. Belə ki, bu tendensiya əvvəlki müstəqil üzvlərin cümlənin bir üzvünə - xəbərə bağlanmasında ifadə olunmuşdur. Misal olaraq, "habban" sadə xəbərinin predikativ təyinlə birləşməsindən feilin bitmiş zaman formasının yaranmasını göstərmək olar ki, bu, cümlənin sadə xəbəri kimi çıxış etmişdir və edir. Digər tərəfdən sadə feili xəbər həm də "to have" (və ya to get, to make, to do, to give, to take) sadə feili ilə sözönüsüz vasitəsiz tamamlığın birləşməsindən əmələ gələn sabit söz birləşmələri ilə ifadə oluna bilərdi. Məs: *he ne shal yeve of it a rekening.* (he shall not remember it)

Erkən yeni ingilis dilində analitizm istiqamətində ingilis dilinin inkişafı davam edir. Bu dövrdə davamedici və bitmiş davamedici zaman formaları analitik yolla ifadə olunmağa başlayır. Həmçinin feilin lazım formasının analitik formaları da meydana çıxır. Bütün bu sadalananlar orta və erkən yeni ingilis dilində mürəkkəb feil formaları ilə ifadə olunmuş sadə feili xəbərin kəmiyyət artımını göstərmişdir. Eyni zamanda erkən yeni ingilis dili dövründə sabit feili söz birləşmələri ilə ifadə olunan sadə xəbərin formasında da intensiv artım nəzərə çarpmışdır. Bu dövrdə "to have a smoke", "to take offence" tipli söz birləşmələri cümlənin sadə feili xəbəri kimi çıxış etmişdir.

Beləliklə, sadə feili xəbər haqqındakı fikrimizi ümumiləşdirərək deyə bilərik ki, orta və erkən yeni ingilis dilində sadə xəbərdə aktiv qrammatikləşmə və leksikləşmə prosesi baş vermişdir.

İsmi xəbərlər isə bir qayda olaraq "bağlayıcı feil + predikativ isim və ya sifət" birləşməsi ilə ifadə olunmuşdur. Məsələn: *He was* ***a ful god gome.*** (He was a very brave man) Qeyd edək ki, məhz elə bu dövrdəki bağlayıcı feillərin intensiv inkişafının nəticəsidir ki, bu gün onlar ingilis dili quruluşunun əsas xüsusiyyət-lərindən birinə çevrilmişdir. Belə ki, qədim ingilis dilində istifadə olunan *"weorþan"* bağlayıcı feili XIV əsrin əvvəllərində öz əhəmiyyətini itirərək istifadədən düşür. Buna baxmayaraq, orta ingilis dilinin ilk dövrlərindən bir qrup yeni bağlayıcı feil meydana çıxır. Heç şübhəsiz, bu qrup içərisində əsas yeri *"becumen"* bağlayıcı feili tutmuşdur. Bununla yanaşı *waxen, fallen, gon, runnen, groven, turnen* kimi bağlayıcı feillərdən də istifadə olunmuşdur. Erkən yeni ingilis dilində bu qrupa *"to get"* bağlayıcı feili də əlavə olunmuşdur. Bu dövrdən başlayaraq *"to wax"* dildən tədricən çıxmağa, onun sinonimi olan *"to grow"* isə geniş istifadə olunmağa başlamışdır.

Biz mürəkkəb ismi xəbərin birinci hissəsi, yəni bağlayıcı feillərin inkişafı haqqında qısa da olsa məlumat verdik. İsmi xəbərin ikinci hissəsinə gəldikdə isə, qeyd etdiyimiz kimi o, predikativ isim və ya sifətlə ifadə olunmuşdur. Orta ingilis dilində predikativin qədim dövrdə rast gəlmədiyimiz yeni ifadə vasitəsi ortaya çıxır. Bu isə müxtəlif sözönülü birləşmələr olmuşdur [137, s.124]. Məsələn: ***Of twenty yeer of age*** *he was.* (He was twenty years old).

İllər keçdikcə sözönülü mürəkkəb birləşmə öz yerini saxlaya bilməmişdir.

Mürəkkəb feili xəbər isə orta və erkən yeni ingilis dili dövründə aşağıdakılarla ifadə olunurdu:

1) "modal feil + məsdər" birləşməsi ilə; Məsələn: *well coude he singe* (well could he sing).

2) hərəkətin inkişafda olduğunu göstərən "beginnen + məsdər", "continuen + məsdər" birləşməsi ilə, Məsələn: *He stired the coles til relente gan the wex* (he stirred the coals till the wax began to melt).

Mürəkkəb feili xəbərin II ifadə tərzi müasir dövrdə dilçilər arasında bir sıra ziddiyyətli fikirlərin yaranmasına səbəb olmuşdur. Onların bir qismi bu konstruksiyanı mürəkkəb feili xəbər, başqa bir qismi isə "sadə feili xəbər + məsdərlə ifadə olunmuş tamamlıq" kimi qəbul edirlər.

Sintaktik əlaqənin tipində olan dəyişiklik orta ingilis dili dövründə tamamlığın tiplərinin də dəyişməsinə səbəb olmuşdur. Qədim ingilis dilindəki vasitəsiz və vasitəli tamamlığın yerinə sözönülü və sözönüsüz tamamlıq yaranmışdır [106, s.282]. Məsələn: *his resons he spak ful solemnely; but al that he myghte of his freendes hente, ...*

Orta ingilis dilində sözönülü və sözönüsüz tamamlıq arasında kəskin sərhəd yox idi. Bunu belə izah etmək olar ki, bəzən eyni bir feil həm sözönülü, həm də sözönüsüz tamamlıqla işlənə bilirdi. Erkən yeni ingilis dilində isə müasir ingilis dilindəki feillərin idarəsi hələ tam formalaşmamışdı. Məsələn: indi sözönüsüz tamamlıqla işlənən bəzi feillər qrupu erkən yeni ingilis dilində sözönülü tamamlıqla işlənmişdir və ya tərsinə. Məsələn: *need may insult upon a man (müas.* to insult a man), *he may look his dog (müas.* to look for a dog)

Qədim ingilis dilində mövcud olan isim və əvəzliklərin təsirlik və yönlük halları tədricən istifadədən düşdüyünə görə orta ingilis dili dövründə vasitəsiz və vasitəli tamamlıqları fərqləndirmək heç də əvvəlki kimi asan olmamışdır. Hərəkətin kimin və ya nəyin üzərində icra olunduğunu bildirən vasitəsiz tamamlıq cümlədə feilin şəxsli formasından sonra işlənmişdir. Məsələn: *and smale foweles maken* ***melodye*** (and small birds sing song). Hərəkətin kimin üçün icra olunduğunu bildirən vasitəli tamamlıq isə cümlədə xəbərlə vasitəsiz tamamlığın ortasında işlənmişdir. Məsələn: *he yaf* ***the sicke man*** *his boote* (he gave the sick man his relief)

Əgər cümlədə vasitəli və vasitəsiz tamamlıqlar işlənsə və nadir hallarda da olsa hər ikisi şəxsi bildirərdisə söz sırasına əsasən birinci vasitəli, sonra isə vasitəsiz tamamlıq gəlmişdir. Məsələn: *I will restore this* ***man his wife.***

Hər iki tamamlıq əvəzliklə ifadə olunan hallarda vasitəli tamamlıq birbaşa feildən sonra, vasitəsiz tamamlıq isə vasitəli tamamlıqdan sonra işlənmişdir. Məsələn: *Go yowselfe to Bregys to my brother and deliver* ***hym them.***

Orta ingilis dilində tamamlıq əsasən isim və əvəzliklərlə ifadə olunmuşdur. Erkən yeni ingilis dilindən tamamlıq həm də məsdər və cerund tərkibləri ilə ifadə olunmağa başlanmışdır. Məsələn: *Excuse* ***his throwing*** *into the water* ***(his being thrown).***

Orta ingilis dili dövründə təyinin inkişafını xarakterizə edən əsas məqamlar aşağıdakılar olmuşdur:

- ad bildirən söz qrupunda sabit söz sırasının qurulması;
- ifadə tərzinə görə prepozitiv və postpozitiv təyinlərin sərhədlərinin müəyyənləşməsi;
- təyini ifadə edən morfoloji vasitələrin kəmiyyət etibarı ilə artması;
- təyin vəzifəsində sintaktik konstruksiyaların işlənə bilməsi;
- həm prepozitiv, həm də postpozitiv təyinlərin sintaktik perspektivinin dərinləşməsi [106, s.286].

Orta ingilis dilindən başlayaraq "təyin edən + təyin olunan" söz sırası meydana gəlmişdir. Eyni zamanda təyinin ifadə vasitələri də müəyyənləşir. Artıq prepozitiv mövqedə əvəzlik, sifət, yiyəlik halda olan isim, adlıq halda olan bəzi isimlər, say, feili sifət; postpozitiv mövqedə isə sözönülü qrup, məsdər, feili sifət tərkibi, həmcins sifət, budaq cümlələr işlənə bilərdi. XIII əsrin əvvəllərindən prepozitiv təyin vəzifəsində yiyəlik əvəzlikli konstruksiyalar işlənməyə başlanmışdır. Məsələn: *that weren of-slage the Brittes alle of Arthur his board.*

Bu dövrdə təyin vəzifəsində, O.Yespersenin "yiyəlik hal qrupu" adlandırdığı yiyəlik halın *-es* şəkilçisi ilə formalaşmış söz birləşmələri də çıxış etmişdilər [240, s.141]. Məsələn: *the king**es** daughter of Wales.*

Təyinlə təyin olunan arasındakı münasibətin daha da müəyyənləşməsi erkən yeni ingilis dili dövründə baş vermişdir. Bu, dildəki söz sırasının orta ingilis dili ilə müqayisədə daha da sabitləşməsi ilə əlaqədar olmuşdur. Bu dövrdə isimdən sonra gələn və onunla sözönü vasitəsilə əlaqədə olan istənilən söz qrupu postpozitiv təyin kimi, isimdən əvvəl gələn və "s" vasitəsilə onu təyin edən söz qrupu isə prepozitiv təyin kimi çıxış etmişdir.

Cümlədə təyin vəzifəsində çıxış edən əlavələr bu dövrdə qədim dövrdə olduğu kimi tək sözlə, yaxud da söz birləşməsi ilə ifadə oluna bilərdi. Məsələn: *The rym is marked of Hauelok,* ***a stalworpi man in a flow.*** (This tale is about Havelok, a valuable man in a troop)

Orta ingilis dili dövründə zərflə feil arasındakı sintaktik münasibətin məzmununda isə dəyişiklik olmamış, yanaşma əlaqəsi ikisi arasındakı əsas əlaqə tipi olaraq qalmışdır. Yəni bu dövrdə qədim ingilis dilində olduğu kimi zərflər cümlədə zərfliyin müxtəlif semantik növləri kimi çıxış edə bilərdilər. Məsələn: ***Nu*** *bigon Paul to wepen wunderliche.* (Now Paul began to weep bitterly)

Bu dövr ərzində zərflik həm də sözönülü isim qrupu ilə ifadə olunmuşdur. Belə ki, əgər qədim ingilis dili dövründə xəbər və isimlə ifadə olunmuş zərflik arasındakı əlaqə yanaşma və idarənin köməyi ilə ifadə olunurdusa, orta ingilis dili dövründə onlar arasındakı qrammatik münasibətin əsas göstəricisi sözönü olmuşdur. Bu isə heç şübhəsiz ismin hal şəkilçilərinin istifadədən çıxmasının nəticəsi idi. Hətta bu dövrdən adlıq haldakı isim də cümlənin zərfliyi funksiyasında çıxış etmişdir. Sözönülü qrupa gəldikdə isə qədim dövrlə müqayisədə orta ingilis dilində zərflik kimi onlara daha çox rast gəlmək olar. Onlardan demək olar ki, zərfliyin bütün semantik tiplərinin ifadə olunmasında istifadə olunmuşdur. Məsələn: ***at Alisaundre*** *he was* (at Alexandria he was)

Erkən yeni ingilis dili dövründə isə zərflik vəzifəsində cerund tərkibi də işlənə bilərdi. Məsələn: *... that alle their tyme they ocupyed* ***in lernung of phylosophye.*** Dövrün sonlarına yaxın zərflik sözönülü məsdər, cerund tərkibi və budaq cümlələrlə də ifadə olunmuşdur. Sözönülü məsdər tərkibi ilə ifadə olunmuş zərfliyə aşağıdakı cümləni misal göstərmək olar:

I opened the door ***for her to come in.***

Orta ingilis dilinin sonu, erkən yeni ingilis dilində cümlənin mürəkkəb üzvü kimi götürülən sintaktik və ya predikativ konstruksiyaların ilk nümunələrinə isə qədim ingilis dilindəki latın dilindən olan tərcümələrdə və bəzi ingilis mətnlərində rast gəlmək olar. Məsələn:

Ðonne hē ȝeseah þā hearpan him naelēcan.

(When he saw the harp approach him).

Orta ingilis dilinin sonu, erkən yeni ingilis dili dövründə meydana çıxan predikativ konstruksiyalara aşağıdakılar aid olmuşdur:

- "adlıq hal + məsdər" tərkibi. Bu konstruksiya cümlənin mürəkkəb mübtədası olmuşdur. Həmin tərkibdə məsdərin əvəzinə indiki və keçmiş zaman feili sifətlərindən biri də işlədilə bilərdi. Məsələn:

He was reported to be a very uncontended person.

- "obyekt hal + məsdər" tərkibi. Cümlənin mürəkkəb tamamlığı olan bu konstruksiyaya misal olaraq aşağıdakını göstərmək olar:

I would desire you to draw your knife and grave your name.

- feili sifət tərkibləri (həm indiki, həm də keçmiş zaman feili sifətləri). Məsələn: *My flesh being troubled, my heart dothhear thye spear.*

Onu da qeyd edə bilərik ki, feili sifət tərkibləri müxtəlif sözönüləri ilə də işlənə bilərdi, zaman keçdikcə isə "with" sözönü bu konstruksiyada sabitləşməyə başlamışdır:

... and with hym mette a shippe callyd Nicolas of the Towre, with other shippis wayting on him.

- cerund tərkibi, məsələn:

... the very next day after his coming home departed out of this world to receive his reward in the Spiritual court of Heaven.

- for ... to məsdər tərkibi, məsələn:

It is best for him to be men of priuat religion.

Ümumiyyətlə, bu konstruksiyalar içərisində for ... to məsdər tərkibi və cerund tərkibi digərləri ilə müqayisədə daha çox üstünlüyə malik olmuşdur. Çünki məhz elə bu predikativ konstruksiyalar digərlərindən fərqli olaraq sintaktik baxımdan daha az məhdudlaşmışlar.

1.10. Söz sırasında baş vermiş dəyişikliklər

İngilis dilində orta və erkən yeni dövrdə baş verən morfoloji dəyişikliklər cümlədə söz sırasına böyük təsir göstərmişdir. Orta ingilis dilində sonluqların neytrallaşması və ya düşməsi ilə əlaqədar olaraq cümlədəki söz sırasının funksional yükü də dəyişmişdir. Sözlər arasındakı əlaqə məhz sözönüləri və söz sırasının köməyi ilə verilmişdir. Artıq orta ingilis dili dövründən hər bir cümlə üzvünün cümlədəki yeri

sabitləşməyə başlayır. Məsələn, əgər isim feildən əvvəl və ya sonra işlənirsə, bu onun mübtəda, yaxud cümlənin tamamlığı olmasından xəbər vermişdir. Onu da qeyd edə bilərik ki, orta ingilis dili dövründəki söz sırası qədim dövrlə müasir dövr arasında sanki orta mövqe tutmuşdur. Belə ki, bu dövrdə qədim dövrdəki kimi sözlərin cümlədəki yeri elə də sərbəst deyildi. Digər tərəfdən isə, müasir ingilis dili ilə müqayisədə o, hələ o qədər də sabit olmamışdır. Bu da təbiidir, çünki ingilis dilində söz sırasının sabitləşməsi tədricən baş vermişdir. Yüz illər davam edən bu hadisə orta ingilis dilinin əvvəllərindən başlamış və XV-XVII əsrlərə qədər davam etmişdir. Bu ləngimənin səbəbi bir tərəfdən orta ingilis dili qrammatik sisteminin hələ də formalaşmasının davam etməsi ilə və digər tərəfdən isə, Norman işğalından sonra yazı ənənələrindəki qırılmalarla əlaqədar olmuşdur.

Əgər qədim ingilis dilində düzgün söz sırası S + P qrupunda olmuşdursa, orta ingilis dilində bu S + P + O və Attr + N söz qruplarında üstünlük təşkil etmişdir. [106, s.242]. Xəbərdən öncə işlənmək tədricən mübtədanın xarakterik cəhətinə çevrilmişdir. Mübtəda ilə xəbərin yer dəyişdiyi söz sırasına çox az hallarda rast gəlinirdi.

B.İliş qeyd etmişdir ki, hətta XIII əsrin əvvəllərinə aid olan “King Horn” şeirində zərfliklə başlayan cümlələr istisna olmaqla digər cümlələrdə inversiya hadisəsini görmək olmur [236, s.217].

Xəbərin xarakterik cəhəti isə söz sırasında onun mübtədadan sonra işlənməsi olmuşdur. Xəbərin cümlənin sonunda işləndiyi sintetik söz sırasına isə qədim dövrdən fərqli olaraq orta ingilis dilində nadir hallarda rast gəlmək olar. Nadir hallarda da olsa, bu söz sırasından orta ingilis dilinin sonuna qədər istifadə olunmuşdur, Məsələn: *She hir love him graunted* (She granted him her love); *In his armes he hem alle up hente* (He caught them all in his arms)

Orta ingilis dilində sifətlə ifadə olunan təyin qədim ingilis dilində olduğu kimi daha çox təyin etdiyi sözdən əvvəl işlənmişdir. Burada bəzi fransız mənşəli birləşmələr istisna təşkil etmişdir. Məsələn: *heir* ***male,*** *cour* ***martial,*** *cousin* ***german*** və s. [210, s.159].

Cümlədə birdən çox sifət işlənirdisə, onlardan biri, bir qayda olaraq, təyin olunandan əvvəl, digəri (və ya digərləri) ondan sonra işlənmişdir [238, s.123]. Məsələn: *He **milde** man was and **soft** and **god*** (he was a gentle man and soft and good)

Bu dövrdə cümlə zaman, tərzi-hərəkət və yer zərfləri ilə başlayanda və ya cümlə əmr cümləsi olduqda mübtəda və xəbərin inversiyası baş vermişdir. Məsələn: *Here **lieþ counforte*** (Here lies comfort)

Söz sırasının sintaktik əhəmiyyəti erkən yeni ingilis dili dövründə daha da artır. Bu dövrdə cüttərkibli cümlənin bütün kommunikativ tiplərində (nəqli, sual və nida cümlələrində) söz sırasının sabitləşməsi prosesi güclənir. Erkən yeni ingilis dilində söz sırası nəqli cümlələr üçün normaya çevrilməsinə baxmayaraq, inversiya hadisəsində də rast gəlmək mümkün idi.

Nəqli cümlələrdə söz sırasının pozulması iki cür olur:

1) cümlənin baş üzvlərinin inversiyası;

2) söz birləşmələrində əsas və asılı tərəfin yerlərinin dəyişməsi.

Baş üzvlərin inversiyası erkən yeni ingilis dili dövründə aşağıdakı hallarda ola bilərdi:

a) qədim və orta ingilis dilində olduğu kimi, cümlə yer və ya zaman zərfləri ilə başlayanda, Məsələn: *Here comes she to me; Now shalt thou be mooved.*

b) "that, this" işarə əvəzlikləri ilə ifadə olunmuş vasitəsiz tamamlıqdan sonra, Məsələn: *That did my man, sir; This did I fear.*

c) bağlayıcı zərfdən sonra, Məsələn: *Thus have I shunned the fire for fear of burning; Yet can I not but worthily admire.*

ç) məhdudlaşdırıcı və inkar zərf və zərf birləşmələrindən sonra, Məsələn: *Never had lady more watchful officers.*

Yeni ingilis dilinin özündə də sadalanan bütün bu hallarda inversiya hadisəsi baş verir. Fərq yalnız ondan ibarətdir ki, erkən yeni ingilis dilində indiki və keçmiş zaman feillərinin tam inversiyası olmuşdur. Bildiyimiz kimi, köməkçi "to do" feilindən ancaq XVII əsrin sonlarından bu cür cümlələrdə istifadə olunmağa başlanmışdır. Məsələn:

Not a syllable did she utter.

Bu dövrdə ikinci dərəcəli cümlə üzvlərinin sırasının pozulması aşağıdakı hallarda olmuşdur:

1) "təyin + təyin olunan" qrupunda

a) sifətdən sonra yiyəlik əvəzliyi işlənəndə, Məsələn:

Good my saucie companion.

b) "of" sözönülü postpozitiv təyinin distant yerləşdiyi halda, məsələn:

Canst thou shew me, of a gentleman, one signor Bobadilla, where his lodging is (=where the lodging of a gentleman, one signor Bobadilla, is)

2) "xəbər + tamamlıq" qrupunda

a) pronomial tamamlıq mübtəda ilə xəbər arasında gələndə, məsələn:

I me recommend right humbly unto your good grace.

b) pronominad tamamlıq qoşmadan sonra işlənəndə, məsələn:

I bad them take away you.

3) "xəbər + zərflik" qrupunda: müasir ingilis dilində olduğu kimi erkən yeni ingilis dilində də *ever, never, just, always* kimi zərflər feilin analitik formalarının arasında işlənmişdir. Ancaq bu cür sıranın pozulduğu hallara da rast gəlmək olardı. Məsələn: *It is not only the best that ever you heard* (=you ever heard); *He always will be entitled to my respect* (=he will always be entitled)

Beləliklə, söz sırası haqqında deyilənlərdən belə bir nəticəyə gələ bilərik ki, erkən yeni ingilis dili dövründən başlayaraq ingilis dilinin sadə cümlələri tədricən müasir dövrdəki quruluşunu almağa başlamışdır.

II FƏSİL

MÜASİR DİLÇİLİKDƏ VARİATİVLİK PROBLEMİ

2.1. Variativlik probleminə yanaşmalar

Son dövrlər dünya, o cümlədən Azərbaycan dilçiliyində variativliklə bağlı bir sıra tədqiqatlar aparılmış, maraqlı monoqrafiyalar və məqalələr yazılmış, aparılan araşdırmaların elmi obyekti xeyli genişlənmişdir. Bır sıra dilçilər, məsələn, Q.P.Torsuyev, N.İ.Krılova, A.Martine və başqaları variativliklə konstantlıq problemini dialektik vəhdətdə götürərək, tədqiqatları da bu istiqamətdə aparmağı təklif edirlər. Problemin bu aspektdən tədqiqi keçmiş sovet dilçilik elminin tanınmış nümayəndələrinin əsərlərində geniş yer tutur. Q.P.Torsuyev "Константность и вариативность в фонетической системе" adlı tədqiqatında dilin semantik strukturunda fonem çalarlarının, variativliyin linqvistik harmoniyasının xüsusi yeri olduğunu yazır. Alimin fikrincə, çoxvalentlik inkişaf edib dilin kommunikativ funksiyasının bütün sahələrində işlənmə tezliyini genişləndirir. Fonetik, leksik, sintaktik və s. dil vahidlərinin variantlarının diferensiasiya prosesi sürətləndikcə, dilin spesifik qanunauyğunluqları əsasında variantlıq və invariantlığın inteqrasiyası da dil sistemində özünü göstərir ki, bu da ədəbi normaların sabitləşməsi ilə səciyyələnir. Q.P.Torsuyevin dil strukturunda variativlik və konstantlıqla bağlı aşağıdakı qeydləri maraq doğurur: *"Konstantlıq və variativlik dil strukturunun ən vacib xüsusiyyətlərindəndir, bunlarsız dil nə mövcud ola, nə də inkişaf edə bilər. Konstantlıq və variativlik dilin bütün səviyyələrində özünü göstərə bilər ki, bu da hər bir səviyyənin özünəməxsus səciyyəvi xüsusiyyətləri ilə təzahür edir"* [165, s.3].

Q.P.Torsuyevin bu mülahizələri L.V.Şerba və onun davamçılarının fikirləri ilə üst-üstə düşür. Ümumiyyətlə, dil sistemində variativlik müəyyən mənada normativ səciyyəsi ilə diqqəti cəlb edir. Bu baxımdan rus dilçiliyində dil sistemi ilə bağlı bəzi mülahizələrə nəzər yetirmək vacibdir. İlk öncə göstərmək lazımdır ki, dilin sistem təşkil etməsi onun vahidlərinin, variant və invariantlarının bir-biri ilə möhkəm əlaqəsi əsasında gerçəkləşir. Dilin strukturunda qeyd olunan ünsürlər arasındakı əlaqələr və

transformasiyalar bütöv bir linqvistik modeli əmələ gətirir. Dil sisteminin mücərrəd bir ünsürü kimi invariantlılıq maraqlı xüsusiyyətlərə malikdir. Fikri fəaliyyət yolu ilə əldə edilən invariant abstrakt anlayışları əhatə etməklə, həm də işarəvi təbiətə malikdir. Müxtəlif işarə formaları variantlıq funksiyası qazandıqca invariantların da yaranmasına səbəb olur. Başqa sözlə, invariant variantlar əsasında formalaşır və işarəvilik funksiyasının müəyyən ünsürlərini özündə təzahür etdirir. Buradan təbii olaraq belə bir sual doğur: Dil sistemində işarəvilik hansı mövqedə dayanır, başqa sözlə, dil, onun ayrı-ayrı məna komponentləri işarələr sistemi kimi qəbul oluna bilərmi? Bu suala dilçilikdə müxtəlif cavablar verilmişdir.

Məlumdur ki, dilin işarələr sistemi olması haqqında ilk tədqiqatlar İsveçrə dilçisi Ferdinand de Sössürə (1857-1913) məxsusdur. Görkəmli alimin ölümündən üç il sonra, 1916-cı ildə onun şagirdləri İ.Bali və A.Şeşe tərəfindən hazırlanıb nəşr edilən "Ümümi dilçilik kursu" əsəri strukturalizmin əsasını təşkil edir [274]. F.de Sössür dil sistemində mənalılıq anlayışına, dil işarələrinin ictimai və psixi əlamətlərinə dilin daxili mahiyyətini müəyyənləşdirən amillər kimi yanaşmışdır. Əslində mənalılıq dilçilik termini kimi variantlığın işarəsinin anlamı kimi qavranılır [158, s.39]. Bu məsələ ilə bağlı A.Axundovun mülahizələri maraqlıdır. Alim işarələr sisteminin ixtiyariliyini, onların həm məzmun, həm də ifadə formasına malik olduğunu elmi dəlillərlə əsaslandıraraq yazır: *"Dil işarələr sistemi kimi, onlarla (piktoqrafik yazılar, işıqforlar, yol işarələri və s. nəzərdə tutulur) bir kateqoriyaya daxil olur, lakin öz mühümlüyü və mürəkkəbliyi ilə fərqlənir. Dilin işarələr sistemi kimi mahiyyətini, ümumiyyətlə işarəvi təbiətini aydınlaşdırmağa ehtiyac vardır"* [7, s.84].

İngilis alimi U.L.Çeyf dilin quruluşu və məna cəhətlərini tədqiq edərkən formal məntiqə və təsəvvür psixologiyasına əsaslanmışdır. Buna görə də onun araşdırmalarında dil vahidinin məna və məna çalarları, başqa sözlə, variantları daha çox sözün xarici qabığını özündə əks etdirir [204, s.63].

N.Xomskinin generativ (törədici) qrammatikasına görə, fonem, morfem və leksemlər dil vasitələri kimi fikrin ifadəsində, cümlələrin qurulmasında aktiv şəkildə iştirak edə bilər [207, s.92]. Lakin Xomskinin dilçilik görüşlərində semantikanı (mənanı) dildən təcrid etmək ideyası özünü doğrultmadığına görə Xomski və

ardıcılları sonralar bu fikirdən daşınmalı oldular. Mənanı dilçilikdən qovmaq ideyası əslində Amerika dilçisi L.Blumfildin nəzəri görüşlərindən qaynaqlanmışdır. *"Blumfildin biheviorist nəzəriyyəsinə görə, formal təsvirə imkan verməyən məna dilçilikdən kənar edilməlidir. Əslində Blumfild mənanı rədd etmir, bəlkə, elmi təsvirdə ona əsaslanmır. Bu isə ABŞ-da dilçiliyin sonrakı inkişafına öz təsirini göstərmişdir"* [197, s.21].

A.Axundov N.Xomski və onun həmfikirlərindən fərqli olaraq fonemləri dil işarəsi kimi qəbul etmir. Alim fonemlərin akustik və semantik xüsusiyyətlərini təhlil edərək onları siqnal işarələri kimi səciyyələndirir. Onun fikrincə, *"fonemlər ona görə siqnal işarələr hesab olunur ki, onların məna cəhəti yoxdur. Deməli, onlar əslində dil işarələri deyil. Dil işarələri iki cəhətə malik olduğundan, yalnız morfemlər, sözlər, cümlələr həqiqi dil işarəsi hesab edilə bilər"* [6, s.85)]. Görkəmli dilçi iki cəhət dedikdə, həm məzmun, həm də ifadə planına malik işarələri nəzərdə tutur.

Göründüyü kimi, dil işarələrinin yaratdığı funksional məna, dil sistemindəki variativlik dilçilik elmində fərqli mövqelərdən izah olunmuşdur. Bəzi dilçilər belə hesab edirlər ki, mənanı abstrakt təfəkkürlə yox, müşahidə etməklə öyrənmək olar. Beləliklə, həm N.Xomskinin, həm də U.L.Çeyfin nəzəri görüşlərində dil və onun işlədilməsi, praktik cəhətdən istifadəsi müştərək cəhət kimi mühafizə edilmişdir.

Məlumdur ki, müxtəlifsistemli dillərin qrammatik strukturundakı inkişaf bəzən ötəri xarakter daşıyır, keçici səviyyədə təzahür edir, bəzən isə daha əhatəli mahiyyəti, ümumiləşdirici səviyyəsi ilə funksional mənanın tamlığını nümayiş etdirir. Başqa sözlə desək, istənilən dildə, məsələn, rus və ya Azərbaycan dilində baş verən bəzi dəyişmələr, ayrı-ayrı qrammatik-semantik təzahürlər bir qayda olaraq eyniyyət təşkil edir və təkrarlanır. Bəzi məqamlarda isə, qeyd etdiyimiz kimi, təsadüfi məzmun daşıyır, mahiyyətcə təkrarlanmır. Ona görədir ki, dil sistemində ən önəmli və zəruri proseslər vairantlıq yaradır, müəyyən qanunauyğunluğu və inkişaf dinamikası ilə digər dil hadisələrindən seçilir. Onu da qeyd etmək yerinə düşər ki, hər bir elmdə olduğu kimi, ayrı-ayrı dillərin qayda-qanunlarını öyrənən dilçilik elmində də dilin özünəməxsus qanunları fəaliyyət göstərir, bu və ya digər şəkildə özünün mühafizə edir [189, s.40].

Məsələyə bu aspektdən yanaşdıqda müxtəlifsistemli dillərin yuxarıda qeyd etdiyimiz spesifik cəhətləri, nitqin inkişafının törəmə variantları, söz və ya sözlər qrupuna görə müəyyənləşən invariantlar və s. kimi məsələlər ortaya çıxır. Buna görə də semantik variantların mahiyyətini dərindən anlamaq üçün onların komponentleri haqqında tənqidi mülahizələri nəzərdən keçirmək vacibdir. Variantların formalaşmasında semantik komponentin mühüm rol oynadığı məlumdur. Bu məsələ uzun müddət dil sistemində qrammatik struktur baxımından da öz yerini tapmamışdır.

Semantik variantların komponentlərinin assosiativ modelinin tənqidi ciddi sübutlar əsasında bir çox mütəxəssislərin diqqətində olmuşdur. N.Xomskinin bu barədəki şərhləri maraq doğurur. Nitq zəncirində bir sözdən digərinə keçid ehtimalı həmin düzülüşdəki sözlərin qrammatik düzgünlüyü ilə bağlı deyil. O, belə bir misal gətirir: *Colorless green ideas sleep furiously* (Rəngsiz yaşıl fikirlər hiddətlə yatır). Sözlərin burada birləşməsi ehtimalı sıfra bərabərdir. Başqa misal: Küçə boyu düzülmüş binalar yavaş-yavaş göyə uçurdular. Bu cümlə qrammatik cəhətdən düzgündür, lakin semantik baxımdan yox; burada sözlərin semantik deyil, qrammatik əlaqələnməsi vardır. Belə misalların sayını artırmaq olar. Deməli, semantik variantların komponent modeli qrammatik nəzəriyyəyə adekvat deyil [208, s.98].

Ümumi şəkildə demək olar ki, bəzi hallarda bir sıra elementlərin seçilməsi, cümlədə təzahür edilməsindən qabaq başqa elementlərdən asılı olur, variantların formalaşmasında qrammatik modellərin yaranmasına zəmin yaradır.

Generativ qrammatikanın əvvəlki ənənəvi və struktur qrammatikadan iki mühüm fərqi vardır. Əvvəla, törədici qrammatika ona deyilir ki, o, implisit olur, yəni dildə nə qədər mümkün cümlələr müvcuddur, onları gizlin, implisit şəkildə göstərir. Bu qaydalara uyğun olaraq, o bütün cümlələri törədir, lakin bu o halda mümkün olur ki, həmin qaydalar bütövlükdə implisitdir, heç bir şeyi oxucunun ixtiyarına buraxmır, onun dil bilgisinə güzəştə getmir. İkincisi, törədici qrammatika dildəki cümlələrin aktual şəbəkəsi ilə əlaqələnmir, lakin mümkün olan cümlə şəbəkəsi ilə əlaqədə olur.

N.Xomskidən sonra isə sintaksis cümlənin yaranmasının özülündə duran qaydaları müəyyənləşdirməklə, cümlə modeli və onun ifadə imkanlarını öyrənməyə başladı. Cümlənin üzvləri arasındakı əlaqəyə dair dilçilikdə müxtəlif fikirlər

mövcuddur.

Rus dilçiliyində xəbəri tamamilə mübtədadan asılı sayırlar. Onlar həmçinin mübtəda və xəbəri koordinasiya əlaqəli üzvlər hesab edirlər. Bu konsepsiyaya görə xəbər əsasdır, mərkəzdir. L.Tenyerin sintaktik təliminə görə, feil cümlənin mərkəzi olmaqla, mübtəda və xəbəri ifadə edir və bunlar "aktantlar" adlanır. Feili müşayiət edən yardımçı sözlər isə "sirkonstantlar" hesab edilir [164, s.312].

Yuxarıdakı mülahizələr göstərir ki, cümlə dil sistemində daha mürəkkəb vahiddir. Onun mürəkkəbliyi, hər şeydən əvvəl, tərkib hissələrinin çoxluğundan asılıdır ki, onların da miqdarı struktur cəhətdən sərhədsizdir. Cümlə istənilən qədər böyük ola bilər, hər bir cümləni istənilən qədər davam etdirmək olar. Lakin cümlənin tərkib hissələrini təşkil edən elemenlər sonsuz deyildir. Cümlənin mürəkkəbliyi onu təşkil edən elementlərin sonsuz olması deyildir. Cümlənin mürəkkəbliyi onu təşkil edən elementlərin qarşılıqlı əlaqəsinin çoxplanlılığı ilə əlaqədardır. Bu həmin münasibətdir ki, cümlənin üzvlərini xarakterizə edir, cümlənin elementlərinin xətti ardıcıllıqla əlaqəsini yaradır, ayrı-ayrı komponentlərin cümlə üzvlərinin semantik cəhətdən formalaşmasında rolunu müəyyənləşdirir, onların emfatik xüsusiyyətlərini göstərir, bir sözlə, cümlənin bütöv kimi formalaşmasını şərtləndirir. Nəhayət, cümlənin mürəkkəbliyi bir də onlara xas olan məzmun və forma arasındakı çoxlu mümkün əlaqənin müəyyənləşdirilməsi ilə şərtlənir. Məlumdur ki, dil və işarələr vahidi olan cümlə forma və məzmunla xarakterizə olunmalıdır. Cümlədə forma spesifikdir. Cümlənin çoxkomponentliliyi o deməkdir ki, cümlə sadə sözlərin toplusundan nə iləsə fərqlənir. Cümlənin bu aspekti məhz struktur aspekt adlanır.

Cümlənin strukturunun təşkili ilə yanaşı, onun qrammatik mənalarında formal göstəricilərinin öyrənilməsi də tələb olunur. İfadə fərqinin formal göstəriciləri də cümlənin struktur aspektinə aiddir.

Cümlənin ikinci aspekti semantik aspektdir ki, yuxarıda bu məsələnin şərhinə toxunduq. Cümlənin ifadə və məzmun cəhətlərindən söhbət getdikdə, elə onun semantik aspekti nəzərdə tutulur. Semantik cəhətlərə cümlənin komponentləri, başqa sözlə desək, budaq cümlələr və cümlə üzvləri aiddir. Cümlənin elementlərinin funksional-semantik mənası ilə yanaşı, tamamlıq, yaxud zərflik, "agens", yaxud

“ pasiens” tiplərinin semantik mənaları da mövcuddur. Cümlə dil vahidi olduğundan, o struktur xarici funksional məqsəd üçün də çox vacibdir. Yəni cümlə nitq kommunikasiyasının əsas vahidinə xidmət edir. Buradan cümlələr arasında kommunikativ planda fərqlər meydana çıxır ki, bu fərq praqmatik cəhətdən cümlələr arasındakı mürəkkəb əlaqə sistemi, hətta tam əvəzlənmələrə qədər davam edə bilir.

Sintaktik səviyyədə dilin ən az öyrənilən sahələri semantik və praqmatik aspektlərdir.

Həm xaricdə, həm də ölkəmizdə struktur aspektdə yerinə yetirilən tədqiqat işlərinə maraq durmadan artır. Dilçilikdə mövcud olan struktur, semantik və praqmatik aspektlər göstərilmiş “trixotomiya”dan, yəni cümlənin forma, məna və işlədilməsindən kənara çıxa bilmir . Müasir hind-Avropa dillərində yeddi aspektin (1. Məntiqi-qrammatik; 2. Modal; 3. Cümlənin dolğunluğu; 4. Nitqdə digər cümləyə münasibətdəki rollar; 5. Danışanın anlam çərçivəsi, yaxud cümlənin üzvlənməsi; 6. Kommunikativ vəzifə; 7. Emosionallıq) irəli sürülməsinə baxmayaraq, diqqətlə izlədikdə onların sözügedən üç aspektdən kənara çıxmadığının şahidi olarıq.

Struktur, semantik və pragmatik aspektlər dilin üç əsas tərəfini – forma, məzmun və manifestasiyasını əhatə etdiyindən, əsas aspektlər hesab olunur.

Artıq qeyd etdiyimiz kimi, variativlik termini ilk dəfə dilçilik tədqiqatlarına tətbiq edilməsə də, Praqa dilçilik məktəbi nümayəndələrinin tədqiqatlarında geniş yer tutmuş, xüsusilə də dilçiliyin fonologiya bəhsində möhkəmləndikdən sonra müxtəlif dil yaruslarına tətbiq edilməyə başlamışdır. Hal-hazırda sırf dil vahidlərinə, onların variant və invariantlarının araşdırılmasına tətbiq edilməklə bərabər dilçiliyin sosial dilçilik bölməsində də geniş işlədilir. Sosial dilçilik bölməsində variativlik ümumi normadan uzaqlaşma, kənara çıxma kimi başa düşülür.

Variativlik və ya variantlıq və onunla bağlı olan variant, invariant, şəkli dəyişmələr (варьирование) terminləri və onların törəmələri sintaktik baxımdan çox yaxın məna kəsb etsələr də, onları hər birinin öz konkret linqvistik mənası vardır və dilçilik elminə tətbiq edilərkən onların hər birinin məzmununu dəqiqləşdirmək tələb olunur. O.S.Axmanovanın fikrincə, variativlik termini müxtəlif işlənmə şəraiti, eləcə də danışan şəxslərin ictimai və ərazi mənsubiyyətlərindəki fərqlərlə müəyyən olunan

nitqin cürbəcürlüyünü, müxtəlif növlülüyünü bildirir [70, s.75].

D.E.Rozental və M.A.Telenkovanın lüğətində isə variativlik termininə aid izahat verilməmişdir [141].

Dilçilik ədəbiyyatında variativlik (variantlıq) anlayışı üç cür təsvir edilir: Birincisi, hər cür dəyişkənlik, təkamül prosesi nəticəsində yaranan modifikasiya, oxşar və ya eyni hadisələri bildirmək (ifadə etmək) üçün işlədilən müxtəlif dil vasitələri və ya digər səbəblərin nəticəsi kimi. Variativliyin bu şəkildə irəli sürülməsi variantlıq-invariantlıq oppozisiyası ayrılığına lüzum qoymur, variativliyin məzmununun həcmini təkcə variantlıqla məhdudlaşdırır. Variativlik anlayışına bu cür yanaşma A.M.Kamçatnova məxsusdur [113, s.122].

İkincisi, bir qrup tədqiqatçı belə hesab edirlər ki, dildə baş verən dəyişikliklər onun məxsusi əlamətidir və variantlıq nitqin açıq-aşkar xüsusiyyətlərindən biridir [119, s.377]. Dilin sistemli səciyyəsindən çıxış etsək və sistemi M.M.Quxman, V.N.Yartsevanın ardınca yarımsəviyyələrin toplusu kimi təsvir etsək, onda eynitipli obyektlər kimi ədəbi dil və ayrıca dialekti verilən dilin variantları kimi qəbul etmək olar. Ədəbi dil ilə dialekt arasındakı fərqlər şərti olaraq kəmiyyət nöqteyi-nəzərindən aşkarlana bilər: dialektdə tabeli mürəkkəb cümlələr tam mövcudluq tapmır, feillərin formalarının hamısından (zaman formaları, modal feil formaları) istifadə etmir [94, s.96; 183, s.127].

Dilin ictimai variativliyi funksional mövqedən baxıldıqda üç hadisə ilə səciyyələnir: üslubi-funksional fərqləndirmə (üst qat – alt qat; mədəni-primitiv səviyyə). Sosial dialektlər dilin funksional sistemində məhdud da olsa, müəyyən yer tuturlar. Onları üslubi-funksional sahəyə aid etmək olar; bununla belə onları üslubi-funksional sahənin mərkəzinə qoymaq olmaz. Dilin funksional-üslubi üzvlənməsi onun zahiri funksional sisteminin əsasını təşkil edir. Funksional üslubları nə qədər çox fərqləndirsək də, onların əksəriyyəti (ərazi dialektləri, sosial dialektlər, şivələr və s.) ədəbi dilin funksional-üslubi sisteminə münasibətdə əlavə distribusiya mövqe-yində dururlar. Butun hallarda ədəbi dilin tərkib hissələri kimi onun variantlarının hər biri ayrılıqda bir dil yaratmır. Onların hər biri vahid bir dilin bir hissəsi olub ədəbi dilin variativliyini xarakterizə edirlər.

Üçüncüsü, variativlik termini dil vahidlərinin sinxron planda mövcudluq və fəaliyyət vasitələrinin səciyyəsi kimi işlədilir [156, s.104]. Bu halda variativlik anlayışı, xüsusilə də fonoloji tədqiqatlarda, invariantlıq anlayışı fonunda çıxış edir. Burada "variant" termini "invariant" termini ilə müşayət olunur.

Dilçilik ədəbiyyatında variativlik anlayışı sinxron planda dil vahidlərinin mövcudluq vasitəsi və fəaliyyəti kimi səciyyələndirilir. Bu halda variativlik anlayışı, xüsusilə də fonoloji tədqiqatlarda, invariantlıq, yəni dəyişməyən, daimi olan bir anlayış zəminində çıxış edir. Variativlik terminin bu şəkildə işlədilməsi sonralar fonologiya bölməsindən dilçiliyin digər sahələrinə keçmiş, artıq onun başqa bölmələrində də geniş şəkildə tətbiq edilir.

Bütünlükdə elm aləmində, eləcə də dilçilikdə dəyişkənlik, variativlik, variantlıq anlayışları invariant terminindən qabaq işlədilməyə başlanmışdır. Ümumi-fəlsəfi baxımdan "invariant" termini altında *"kəmiyyətin, bərabərləşdirimənin, qanunların dəyişilməz qalması xassəsi, koordinat və vaxtın müəyyən şəkli dəyişmələri zamanı onların bütöv qalması"* başa düşülür [169, s.164].

İnvariantın bu xassəsi verilən zaman kəsiyində hər hansı qrupu və ya hər hansı obyektlər sinfini səciyyələndirən ümumi mücərrəd mahiyyəti əks etdirməyə əsas verir. Böyük obyektlər qrupunun invariantını seçməklə biz, mücərrədliyə – bütünlükdə obyektlər qrupunu əhatə edən ümumiləşdirilmə məfhumuna gəlib çıxırıq [113, s.90].

Dilçilikdə isə invariant termini *"dil sisteminin konkret reallaşmadan uzaq olan mücərrəd elementi"* [70, s.176] kimi başa düşülür. Hər hansı qrupu və ya sinfi təşkil edən konkret obyektlər və onların əsasında invariant çıxarıla bilən obyektlər variant hesab edilirlər. İnvariant və variantın bu cür başa düşülməsi onların bir-birini tələb etməsini və birinin digərindən ayrı mövcudluğunu mümkün hesab etmir.

Variativlik ideyasının özü hər hansı obyektin mahiyyətinin xassələrini saxlamaq şərtilə onun dəyişikliklərini, modifikasiyasını nəzərdə tutur. Deməli, variativlik sadəcə olaraq dəyişiklik olmayıb elə dəyişmələri və ya modifikasiyaları nəzərdə tutur ki, onların nəticəsində yeni mahiyyət meydana gəlmir. Beləliklə, variativlik həm dəyişikliyi, həm də sabitliyi (dəyişməzliyi, daimiliyi) şərtləndirir,

dəyişkənliyin və sabitliyin vəhdəti kimi görünür.

Variativlik anlayışının yuxarıda nəzərdən keçirdiyimiz ikitərəfli izahını tutuşdurduqda onların bir-birindən o qədər də fərqli olmadıqlarını müşahidə etmək xüsusi çətinlik törətmir. Birinci halda variativlik anlayışının invariant anlayışından ayrı təsviri zamanı bu və ya digər şəkildə olsa da variativlikdən (dəyişiklikdən) ötrü hər hansı bir "çıxış nöqtəsi" seçilir. Elə həmin çıxış nöqtəsinin özü də bu və ya digər halda daimi və ya sabitdir. İkinci halda variativlik anlayışının invariant anlayışı ilə vəhdətdə izahı zamanı isə birinci halda aparılan təsvirin daha dərindən, daha yaradıcı şəkildə baxılmasının, variativlik-invariativlik nəzəriyyəsinin ümumi prinsiplərinin dilçiliyə şamil edilməsinin şahidi oluruq. Bu nəzəriyyəni həyata keçirən struktur dilçiliyin bəzi istiqamətləri nümayəndələrinin xidmətləri də məhz bundan ibarətdir. Linqvistik variativlik nəzəriyyəsinin hələ açıq qalan, həllini gözləyən, dəqiqləşdirilməli və araşdırılmalı olan bir çox məsələləri isə xüsusi dilçilik tədqiqatlarının problemləridir.

Variativlik nəzəriyyəsinin əsas məqamlarından biri bundan ibarətdir ki, invariant həmişə mücərrəddir, yəni bu məfhumun tərkibində müəyyən zaman kəsiyində verilən sinfə məxsus olan obyektlər sinfinin ümumi xassələri əks olunur, invariant ayrıca götürülmüş konkret bir cisim kimi mövcud deyildir. O, hər hansı bir sinfin nümayəndəsi deyildir, əyar və ya etalon da deyildir. İnvariant nisbətən həmcins (oxşar) obyektlər sinfinin qısaldılmış adıdır [156, s.32].

Bizi əhatə edən maddi aləmdə öz-özlüyündə invariantlar mövcud deyildir. Əşyalar qrupunda ümumi xassələr mövcuddur ki, belə xassələr əsasında obyektlər qruplaşdırılır və onlara təsnifat verilir və bunlar da invariant adlanan bir məfhumda əks olunur [17, s.29].

Hər hansı sinfi təşkil edən və invarianta münasibətdə (bütünlükdə sinfə münasibətdə) variantlar kimi çıxış edən obyektlər yalnız verilən obyekt üçün səciyyəvi olan ümumi və əlahiddə əlamətlərə malikdir. Başqa sözlə, obyektlər ümumi əlamətlərinə görə bir sinfin tərkibində birləşirlər və nisbətən az əhəmiyyətli təfərrüatlarına görə bir-birindən fərqlənirlər.

Konkret obyektlər – variantlar eyni mahiyyət daşısalar da onların hər birinin

ayrıca mövcudluğu vardır və ətraf aləmlə nisbətən müstəqil surətdə qarşılıqlı əlaqə yaradırlar. Məhz bu xüsusiyyətlər bir sıra obyektlər – variantlardan ötrü daxil olduqları sinifdən (variant cərgəsindən) ayrılmaq və yeni mahiyyət kəsb etmək üçün zəmin yaradır. Bu isə artıq eyni mahiyyətin dəyişməsi deyil, dönməz dəyişmədir. Deməli, variativlik hadisəsinin özündə dəyişmə və inkişaf imkanları vardır.

Hər bir variant hər hansı variant cərgəsinin üzvü kimi özündə ümumi sinfə məxsus olan xassələrə malik olduğundan, ümumi və əlahiddə əlamətləri, variantlıq və invariantlıq keyfiyyətlərini özündə birləşdirdiyindən müəyyən şəraitdə invariantlıqla variantlığın tutuşdurulmasından (müqayisə edilməsindən) yayınmaq mümkündür. Bir çox dilçilik tədqiqatlarında invariantla variantın qarşılıqlı müqayisəsindən yan keçilməsini də, görünür, yuxarıda dediyimiz həmin mümkünlüklə izah etmək olar. Bununla belə dilçilikdə variativlik problemi aşağıdakı hallarda tam kəskinliyi ilə durur:

a) variantlı-invariantlı adlandırıla bilən dil quruluşunun mexanizmini öyrənərkən;

b) dilin fəaliyyətini öyrənərkən, dildən nitqə keçidi müəyyənləşdirərkən;

c) dildaxili dəyişikliklər və inkişaf faktorlarını (variativlik və variantın yeni mahiyyət kəsb etməsi) tədqiq edərkən;

d) eyni dil vahidinin müxtəlif zahiri görünüş və formasını aydınlaşdırarkən;

e) norma dəyişikliklərini və eyni vahidlərin müxtəlif üslubi, ekspressiv və normayaradıcı məqsədlərdən ötrü təzahür variantlarını işlətmək üçün dilin sosial-linqvistik baxımdan tədqiqi və s. prinsipal əhəmiyyət kəsb edir.

Dilin variantlı-invariantlı quruluşu dünyanın variantlı-invariantlı quruluşunu modelləşdirir [156, s.33].

İnsanı əhatə edən aləmdə əşyalar (obyektlər) obyektiv siniflər və ya çoxluqlar şəklində ən ümumi keyfiyyətləri, əlamətləri, xassə və xüsusiyyətləri əsasında qruplaşdıqları kimi dilin vahidləri də ümumi xassələrinə görə müəyyən siniflər və ya çoxluqlar şəklində qruplaşırlar. Bu obyektiv çoxluqlar dünyanı dərk edən insanların şüurunda mücərrəd anlayışlar kimi əks olunurlar. Məsələn, “ağac” (“ümumiyyətlə ağac”), “at” (“ümumiyyətlə at”), “ev” (“ümumiyyətlə ev”) və s. Bu minvalla da dil

vahidləri (obyektləri) insanların şüurunda mücərrəd şəkildə əks "fonem" ("ümumiyyətlə fonem"), "morfem" "söz" ("ümumiyyətlə söz") və s. konkret at "ümumiyyətlə at'ın növü (növ müxtəlifliyi, variantı) olduğu kimi dildəki ayrı-ayrı sözlər də (kitab, stol və s.) "ümumiyyətlə söz"ün növüdür (variantıdır). Variant-invariant nəzəriyyəsinə görə "ümumiyyətlə at" mücərrəddir, invariantdır və hər bir konkret at həmin invarianta münasibətdə (nisbətdə) variantdır. Elə bu minvalla da dilçilikdə "ümumiyyətlə söz" invariantdır, sözün ümumi keyfiyyətini əks etdirir (məsələn, söz – "sintaktik müstəqilliyə malik ikitərəfli dil vahidi"dir [156, s.34]) və hər bir konkret sözdə (variantda) təmsil olunur.

Eyni dil vahidinin müxtəlif formalarda mövcudluğu dilin variativliyinin spesifik xüsusiyyətini təşkil edir. Dil ayrı-ayrı vahidlərinin varlığı onun variativliyi, onun saysız-hesabsız variantlarının yanaşı mövcudluğudur. Dil vahidlərinin variantlığı dairəsində bütünlükdə dil sistemi quruluşunun variantlığı-invariantlığı təzahür edir.

Dilin vahidləri, məsələn, fonem, morfem, söz (leksem) əslində bir çox real variantların (nüsxələrin) mövcud olduqları şəkildə qısa adlarını təmsil edirlər. Göstərilən vahidlər (eləcə də digər dil vahidləri) mücərrəd olub, qavranıla bilən konkret obyektlər deyildirlər. Öz-özlüyündə fonemi, morfemi, sözü hələ heç kəs eşitməyib və ya tələffüz etməyib. Yalnız ayrı-ayrı fonemlərin, morfemlərin, sözlərin konkret variantları (nümunələri, məsələn, "a" fonemi, "qır" morfemi, "ev" sözü) tələffüz edilir və eşidilir. Şifahi dil vahidlərinin xüsusiyyətləri ondan ibarətdir ki, biz eyni bir sözlə həm mücərrədliyi (məsələn, ümumiyyətlə "meyvə", "bar"), və həm də duyulub qavranıla bilən konkret predmeti, obyekti (məsələn, gavalı, alma və s.) ifadə edə bilirik. Real sözün özü allomorflardan ibarət olmasına baxmayaraq, biz morfem terminindən konkret sözün məna kəsb edən hissələrə ayrılması zamanı istifadə edə bilərik. Eləcə də söz allofonlardan (və ya real səslərdən) ibarət olmasına baxmayaraq biz konkret sözün səs qabığının fonem tərkibindən danışarkən fonem terminindən istifadə edirik və s. Deməli, fonemin variantı hər şeydən qabaq konkret fonemdir, morfemin variantı konkret morfemdir və s. Ona görə də fonem və fon, morfem və morf və s. müxtəlif səviyyələrin vahidləri deyil, eyni səviyyənin vahidləri olub gah

mücərrəd vahid şəklində (sinfin qısaldılmış adını ifadə etmək üçün "invariant" termini ilə), gah da konkret vahid – variant (sinfin bir nümayəndəsi kimi) şəklində şərh edilirlər. Dilçilikdə emik (mücərrəd olan, invariant) və etik (konkret olan, variant) terminlərin qarşılaşdırılmasını çox vaxt dil və nitqin qarşılaşdırılması ilə əlaqələndirirlər. Belə müddəanı başqa şəkildə ifadə etsək, onda deyə bilərik ki, nitq variantlardan ibarətdir, dil isə invariantlardan ibarətdir. Bu fikrin həm mübahisəsiz, həm də şübhəli tərəfləri vardır. Mübahisəsiz hesab edilən odur ki, nitq öz təbiətinə görə həmişə variantlıdır. F. de Sössürün təbirincə *"ifadə edən öz təbiətinə görə duyulub qavranılan olmaqla yalnız zaman-zaman inkişaf edir və zaman keçdikcə aşağıdakı əlamətləri müştərək şəkildə qəbul etməklə xarakterizə edilir: a) onun məsafəsi vardır və b) bu məsafənin bir ölçüsü vardır – bu da düzxəttilikdir... bütün dil mexanizmi bundan asılıdır"* [158, s.103].

Beləliklə, hər bir dilin müasir vəziyyətində hər şey əlaqələrə əsaslanır. *"Bir tərəfdən sözlər nitqdə bir-birinə birləşərək öz aralarında dilin düzxətli xarakterinə əsaslanan əlaqələrə girirlər ki, bu da iki elementin birlikdə tələffüz olması imkanını istisna edir. Bu elementlər nitq axınında bir-birinin ardınca cərgəyə düzülürlər"* [158, s.155].

Deməli, nitq həmişə düzxətlidir və buradan aydın görünür ki, nitq axınında bir mövqe (pozisiya) yalnız bir nümunə ilə, yəni bir variantla tutula bilər. Çünki nitq zəncirində bir yerə (pozisiyaya) fonemin iki müxtəlif variantını və yaxud iki müxtəlif morfem variantını bir morfem tərkibində birləşdirib yerləşdirmək olmur. Məsələyə bu baxımdan yanaşdıqda dilin mücərrədliyi (invariantlığı) məqbul sayıla bilməz. Əgər dil həqiqətən də real ünsiyyət vasitəsidirsə (dil doğrudan da real ünsiyyət vasitəsidir), onda dilin duyulub qavranıla bilən olması da həqiqətdir və dilin mücərrədliyini istisna edir. Dilin mücərrəd vahidlərdən təşkil olunduğu fikrini qəbul etmək yalnız dilin təsnifat sistemi, təsnifat ölçüləri çərçivəsində mümkündür. Real dil isə ünsiyyət vasitəsidir və nitq isə bu vasitədən istifadə edir, onu tətbiq edir. Nitq fəaliyyət göstərən, funksiyanı yerinə yetirən dildir. Ona görə də dilin hansı tərkibdən ibarət olması nitqin hansı tərkibdən ibarət olması ilə eynidir. Başqa sözlə, onların tərkibi konkret dil vahidləri nümunələrinin (variantlarının) çoxluq, topluluq şəklində təqdim

edilməsindən ibarətdir. Dil vahidləri tam konkret və qavranılan vahidlər sinfidir. Sadəcə olaraq, nitq axınında belə vahidlər sinfinin birindən (bir vahidindən) istifadə edilir. Mücərrəd vahidlərə gəldikdə, onu demək lazımdır ki, onlar belə siniflərin yalnız adlarıdır, dilin təsnifat meyarıdır. Belə adlar dil sistemlərinin təsvirində linqvistik yenidən yaradılma və ya linqvistik modelləşdir(il)mə zamanı lazımlıdır. Bütün nitq aktlarında öz əksini tam şəkildə tapan obyektiv dil sisteminin yenidən yaradılması üçün ümumiləşdirmələr (yəni mücərrədliklər yaratmaq) və təsnifatlar vermək gərəkdir.

Variativliyin bir sıra mənbələri və növləri vardır. Dildə variativlik dil sisteminin paradiqmatik quruluşu ilə sıx şəkildə bağlı olub dil vahidlərinin müxtəlif paradiqmalara və ya siniflərə birləşdirilməsi ilə əlaqədardır. Bu baxımdan siniflər və ya qruplar dilin ən aşağı, mərkəzi paradiqmasını yaradan paradiqmatikanın xüsusi bir halı kimi meydana çıxır. Belə ki, ayrıca bir vahidin nümunələr çoxluğu, bir növ, aşağı və yaxud kiçik paradiqmanı, funksional cəhətdən oxşar vahidlər sinfini təşkil edir. Bu cür sinif və ya qrup ayrıca dil vahidini (fonemi, morfemi və s.) əmələ gətirir. Məsələn, ayrı-ayrı fonemlər toplusu fonemlər sinfini (deyək ki, sait fonemlər və samit fonemlər sinfini) yaradır. Göstərilən siniflərin adları "samit fonemlər" və "sait fonemlər" terminləri ilə ifadə edilir və onlar bu siniflərin invariantı kimi çıxış edirlər. Müvafiq olaraq ayrı-ayrı samit fonemlər variantlar olub samit fonemlər sinfini və ya paradiqmanı təşkil edirlər. Eləcə də sait fonemlər ayrı-ayrılıqda variantlar olub sait fonemlər paradiqmasının tərkib hissələrini təşkil edirlər. Hər iki sinif birlikdə dilin bütünlükdə fonem invariantını yaradır. Onu böyük sinif və ya baş paradiqma kimi müəyyənləşdirmək olar və qısa şəkildə bütün ayrı-ayrı fonemlərin böyük sinfinin invariantı kimi çıxış edən "ümumiyyətlə fonem" adlandırmaq olar. Verilən invarianta münasibətdə dilin hər hansı fonemi variant hesab edilə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, invariantlar dilin real vahidləri kimi mövcud olmur. Onlar sözlərlə ifadə edilən məfhumlardır ki, tərkiblərində hissi qavranılan vahidlərin (nümunələrin) ümumi əlamətləri əks olunur. Məhz belə konkret nümunələrin özləri dilin maddi varlığını təşkil edir. Bütün səviyyələrdə invariantlar sadəcə olaraq ideal üst qatdır, insan düşüncəsində ayrıca konkret vahidin müxtəlif,

həm də real xüsusiyyətlərini əks etdirir. İnvariantlar dilin öyrənilməsi prosesində çıxarılır. Ona görə də eyni konkret dil vahidi əsasında belə vahidlər toplusu barəsində müxtəlif mücərrədlik dərəcəsinə malik invariantlar çıxartmaq olar. Variantlardan birinin köməyi vasitəsilə invariantı aydınlaşdırarkən, əslində, bizim işimiz invariantla deyil, variantlardan biri ilə bağlı olur. Çünki hər bir variantın özündə invariant xassələri vardır. Konkret olaraq Mənim stolumun üstündə məndən sol tərəfdə qələm vardır cümləsində qələm sözü: (a) konkret nümunəni-variantdır (leksem və ya alloleksem); (b) bu sözün bütün nümunələrinin adıdır (mücərrədliyin birinci dərəçəli invariantı); (c) "isim" kimi tərifi verilən bir isim nümunəsi (mücərrədliyin ikinci dərəcəsi); (d) "ümumiyyətlə söz" adlandırılan ümumi söz nümunəsi (mücərrədliyin üçüncü dərəcəsi). Deyilənlərə qələm sözünün paradiqmasının (qələmin, qələmə, qələmi və s.) formalarından biri kimi "qələm"in variantı olduğunu da əlavə etmək olar. Dilçilikdə, eləcə də digər elm sahələrində invariant elə bir məfhumdur ki, insanlar (tədqiqatçılar) bu məfhum vasitəsilə konkret obyektləri (və yaxud obyektləri təşkil edən vahidləri kateqoriyalara (və ya dərəcələrə) bölür və nizama salırlar. Vahidlərin siniflər şəklində qruplaşdırılması və bu siniflərə adlar verilməsinin özü əslində invariantların çıxarılması əməliyyatıdır. "İsim", "feil" və s. anlayışlarını irəli sürənlər invariant terminindən istifadə etməsələr də, artıq invariantın özünü irəli sürmüşlər, onu aşkara çıxarmışlar.

Variant-invariant əlaqələri bütöv siniflər və onların siniflərinin bütün üzvləri kimi paradiqmatik əlaqələri (mühüm ümumi xassələri olan obyektlərin paradiqmatik əlaqələrini) səciyyələndirir, eləcə də həcminə görə müxtəlif paradiqmaların bir-biri ilə əlaqələrini (kiçik paradiqmaların daha böyük paradiqmalara daxil olmasını) xarakterizə edir.

Paradiqmatik əlaqələr variant-invariant əlaqələri şəklində mövcudluq tapırlar. Bir paradiqmanın üzvləri arasındakı əlaqə variantların arasındakı əlaqələr deməkdir. Bir bütöv kimi paradiqmanın paradiqma üzvləri ilə olan əlaqəsi isə invariant və variantların əlaqələridir.

İnvariantların müəyyən edilməsi üçün dil vahidlərinin hansı xüsusiyyətləri əsas götürülür, yəni hansı xassələrinə istinad etməklə onları qruplaşdırmaq olar və yaxud

onların təsnifatını vermək olar? Bunun üçün dil vahidlərinin malik olduqları ən ümumi xassələr əsas götürülür. Buraya səslənmə, məna və funksiyalar daxildir. Göstərilən xassələr dilin birtərəfli və ikitərəfli vahidləri arasında müxtəlif cür bölüşdürülürlər. Təktərəfli vahidlərin yalnız səslənməsi və funksiyası vardır. İkitərəfli vahidlərin isə səslənmə və funksiyadan savayı semantik mənası da vardır. Əgər fonem səviyyəsində vahidin funksiyası (yəni sözün fərqləndirilməsi və mənanın ifadə edilməsi üçün işlədilməsi), eləcə də qeyri vahidlərə qarşı qoyulması bilavasitə bu vahidin maddi xassələrindən asılıdırsa, onda ikitərəfli vahidlər səviyyəsində vahidin funksiyası onun maddi, səs tərəfi ilə deyil, o vahidin mənası ilə bağlıdır və mənanın xarakteri və tipi ilə müəyyən edilir (məna dedikdə vahidin yiyələndiyi müxtəlif mənalar kompleksi başa düşülür). Səslənməyə gəldikdə deməliyik ki, bu səviyyələrdə vahidlərin funksional xassələri üçün o, qeyri relevantdır və vahidlərin funksiyası ilə yalnız bilvasitə (dolayısı ilə) bağlıdır. Morfem səviyyəsində vahidin funksiyası bilavasitə məna ilə bağlıdır. Söz səviyyəsində məna ilə funksiyanın əlaqələri qrammatik forma (səslənmə və qrammatik mənanın vəhdəti) vasitəsi ilə ifadə edilir; qrammatik formanın özü bilavasitə konkret sözlərin siniflər üzrə qruplaşmasının əsası kimi çıxış edir, yəni invariantların çıxarılmasının əsasını təşkil edir. Qrammatik forma sözün mənsub olduğu məna və ya mənaların zahiri təzahürüdür. Onun hökmən mənası vardır ki, o da həmin (qrammatik) formanın funksiyasını və bununla da sözün funksiyasını müəyyən edir. Qrammatik forma yalnız bir faktın üzərinə kölgə salır ki, söz kimi ikitərəfli vahidlər səviyyəsində vahidin (həm sintaktik, həm də morfoloji) funksional xüsusiyyətini məhz məna tənzimləyir.

Dil sisteminin səviyyəsi yüksəldikcə vahidləri siniflər üzrə birləşdirməyin əsası da çətinləşir.

2.2. Oxşar sintaktik strukturlarda sintaktik derivasiya

Elmi tədqiqatın hər hansı bir sahəsi kimi dilçilik araşdırmaları da müxtəlif nöqteyi-nəzərdən, müxtəlif tərəflərdən, aspektlərdən, səviyyələrdən aparılır, onlardan hər biri və yaxud yalnız biri elmi çıxış mənbəyi kimi əsas götürülərək tədqiq edilir. Hər bir nöqteyi-nəzərin özünün bu və ya digər kriteriyası, dil hadisələrinin əsas

tərəflərinin aşkar edilməsinə imkan verən parametrləri vardır. Belə parametrlərin toplusu tədqiq edilən linqvistik obyektin quruluşunun müəyyən edilməsinə xidmət göstərir və həmin sahənin perspektiv tədqiqini müəyyən edir.

Mövzunun adından da göründüyü kimi, tədqiqatımızın obyektinin müəyyənləşdirilməsinin əsasında oxşar sintaktik strukturların fərqli cəhətlərinin, nisbi struktur ayrılıqlarının və məna çalarlarının dəyişmələrini müəyyənləşdirmək gərəkdir. Ənənəvi aspektlərə diaxronik-sinxronik, dil-nitq, forma-məzmun, paradiqmatik-sintaqmatik və s. kimi əlaqələr aiddir. Son illərdə dilçilikdə aydın şəkildə daha bir aspekt ayrılır və onu derivasion aspekt adlandırırlar. Dilin bütün aspektlərini əhatə edən derivasiya anlayışı bütünlükdə dilçilikdə təzə olmasa da, onun sintaktik tədqiqatlara sirayət etməsi müqayisədə təzədir və oxşar sintaktik strukturların fərqləndirilməsi zamanı mühüm əhəmiyyət kəsb edir.

"Dilçilik terminləri lüğəti"ndə derivasiya termini yalnız söz yaradıcılığı ilə əlaqələndirilir və "söz yaradıcılığı modellərinə müvafiq olaraq affikslərin köməyi ilə yeni sözlərin yaranması" kimi izah edilir [70, s.129].

Göründüyü kimi, burada sintaktik derivasiya məfhumu barəsində heç bir məlumat verilmir. Lakin sonuncu onilliklərdə dilçiliyin inkişafı derivasiyanın sintaktik baxımdan təhlilini əsaslandırmış və bu sahədə müəyyən tədqiqatlar aparılmışdır.

Derivasion aspektin aydın olan tərəflərindən biri budur ki, hər hansı səviyyənin vahid(lər)i məlumdur və bilavasitə mətndə əks olunur. Derivasiya (törəmə) nəticəsində müəyyən qaydalara riayət edilməsi sayəsində nisbətən sadə vahidlərdən daha mürəkkəb vahidlər yaranır. Cümlə səviyyəsində belə yanaşma öz əksini N.Xomski və ardıcıllarının "törədici " (generativ) qrammatikasında tapmışdır [209, s.123].

Derivasiya nəzəriyyəsi səviyyələrarası yanaşmanı (azı iki səviyyə arasındakı yanaşmanı) əks etdirir və nisbətən sadə vahidlərdən daha mürəkkəb vahidlərin yaranması mexanizmini aşkara çıxarmağa şərait yaradır. Beləliklə, derivasiyanın hər hansı nəzəriyyəsi dilin aşağıdakı "funksional blok"larının qarşılıqlı əlaqəsini təsvir (tədqiq) etməlidir: (1) derivasiya prosesinin ilkin materialı kimi aşağı səviyyənin verilən (və ya müşahidə olunan) vahidlərinin toplusu; (2) həmin ilkin (müşahidə

olunan) vahidlərin kombinator əlaqə qaydaları; (3) belə ilkin vahidlərin seçimini təmin edən və kommunikativ vəzifəyə uyğun gələn qaydaların təsviri.

Dilin derivasion aspektinin ümumi - dixotomik aspektlərlə uyğunluğuna diqqət yetirək:

1) Derivasion aspektin sintaqmatik aspektlə (qarşılıqlı) əlaqəsi. Aşağı səviyyənin vahidlərindən yuxarı səviyyələrin vahidlərinin yaranması bu səviyyələr arasında müəyyən sintaqmatik əlaqələrin yaranmasını, təşəkkül tapmasını nəzərdə tutur. Ona görə də derivasion aspekt sintaqmatik aspektin bir yarımnövü hesab edilir. Sintaqmatik ölçülər sistemində derivasion aspektin yerini müəyyənləşdirməkdən ötrü onların aşağıdakı növlərini fərqləndirmək gərəkdir; (a) analitik-sintetik sintaqmatika. Analitik cəhətdən sintaqmatik tədqiqat yuxarı səviyyənin vahidlərindən aşağı səviyyənin müvafiq vahidlərinə doğru aparılır. Sintetik cəhətdən isə əksinə, aşağı səviyyənin vahidlərindən yuxarı səviyyənin vahidlərinə doğru aparılır; (b) statik-dinamik sintaqmatika. Dinamik yanaşmadan fərqli olaraq statik yanaşma birsəviyyəlidir; hər hansı səviyyənin vahidlərinə qarışıq olan yuxarı və ya aşağı səviyyənin vahidlərindən kənarda baxılır.

Müasir dilçilik problemlərinin əksəriyyəti kimi derivasion aspekt həm geniş, həm də dar mənada başa düşülə bilər. Geniş mənada derivasion aspekt dilin dinamik cəhəti ilə üst-üstə düşür, dar mənada isə sintetik və dinamik aspektlərin məntiqi birliyi kimi başa düşülür. İkinci halda derivasion yanaşma daha sadə vahidlərdən daha mürəkkəb vahidlərin əmələ gəlməsi prosesini təsvir etməyə imkan yaradır və beləliklə, nitqin subyektinin (danışanın) nöqteyi-nəzərini əks etdirir. Analitik-dinamik cəhətdən yanaşma adresatın (dinləyənin) nöqteyi-nəzərindən mürəkkəb vahidin tərkib hissələrini təşkil edən strukturun aşkara çıxarılması prosesini təsvir etməyə şərait yaradır.

2) Derivasion aspektin “dil - nitq” dixotomiyası ilə əlaqəsi. Nitq derivasiyası prosesi dil vahidlərindən (əsas, söz forması və s.) nitq vahidlərinin (cümlələrin) yaranması prosesi ilə bağlıdır. Cümlənin sintaqmatik quruluşu sintaksis bəhsində tədqiq edildiyindən nitq derivasiyası nəzəriyyəsi “sintetik sintaksis” kimi müəyyən edilə bilər (çünki “analitik sintaksis” verilən cümlələrin tərkib hissələrinə -

komponentlərinə ayrılması qaydaları və yollarını təsvir edir).

Derivasiya nəzəriyyəsindən bəhs edərkən Q.Q.Silnitski cümlənin qrammatik və leksik-semantik səviyyələrini, eləcə də müvafiq olaraq sintaksisin qrammatik və leksik-semantik səviyyələrini ayırmağı təklif edir [144, s.5].

Birinci halda söz formaları sinfindən və funksional qrammatik mövqelərdən (cümlə üzvlərindən) cümlənin qrammatik quruluşunun yaranması qaydalarından bəhs edilir və ikinci səviyyədə isə sözlərin əsaslarından cümlənin leksik-semantik quruluşunun yaranması qaydalarından bəhs edilir. Göstərilən səviyyələr bir-birilə qismən kəsişir. Ona görə ki, sözün əsasları təkcə leksik-semantik səviyyənin leksik substratı deyil, həm də onun qrammatik valentliyidir. Belə ki, məsələn, feilin əsası onun iki növlü sintaktik əhatəsini təşkil edən həm qrammatik, həm də semantik mövqelərinin (pozisiyalarının) toplusunu müəyyən edir.

Dildəki derivasiya prosesi dil vahidlərinin (əsaslar, söz formaları) daha sadə dil elementlərindən (leksik və qrammatik morfemlərdən) formalaşması ilə bağlıdır. Bu qəbildən olan mürəkkəb vahidlərin sintaqmatik quruluşu morfologiya bəhsində tədqiq edilir. Deməli, dilin derivasiya prosesi bilavasitə morfologiya bölməsi ilə bağlıdır.

Sintaktik səviyyədə derivasiya termini bir cümlənin o biri cümləyə elə çevrilməsini bildirir ki, burada törəmə cümlə (başqa sözlə, derivasiyaya uğrayan cümlə) öz qrammatik statusuna və mənasına görə ilkin cümlədən fərqlənir. Məsələn, aşağıdakı cümlələr bir-birinə münasibətdə derivasion əlaqələrlə birləşirlər:

Jane opened the window. - Grandmother made Jane open the window.

The child is sleeping. - The child wanted to sleep.

The hostess washed the floor. - The hostess began to wash the floor.

İlkin cümləni “opened”, törəmə cümləni “derivat” adlandırsaq, törəmə cümlənin qrammatik və məna statusunda baş verən dəyişiklikləri ilkin cümlə ilə müqayisədə derivasiyanın formal və məna “operator”ları adlandırmalı oluruq. Burada cümlənin məna statusunun (semantik quruluşunun) həm derivasiya prosesində, həm də transformasiya prosesində dəyişməz qaldığının şahidi oluruq.

Əgər transformasion əlaqələr əsasında bu və ya digər məna məsələsi dildə ifadə olunursa, onda derivasion əlaqələr dildə bir məna tapşırığının digər məna tapşırığını

ifadə etmək məsələsinin həyata keçirilməsinə xidmət edir. Əlbəttə, derivasion əlaqələr ilkin qanunauyğun əlaqələrlə bağlı olur. Lakin bir növ klassik hesab edilən transformasiya nəzəriyyəsi çərçivəsi daxilində transformasion əlaqələrlə derivasion əlaqələr arasında çox ciddi çəkilmiş bir sərhəd yoxdur. Məsələn, Z.Harrisdən ötrü nəqli cümlələrdən sual cümlələrinin və kauzativ cümlələrdən qeyri-kauzativ cümlələrin qurulması eyni tipli hadisələr olsalar da, nəqli cümlələrdən sual cümlələri qurarkən (məsələn, *John went on a business trip - Did John go on a business trip?*) xarici məna statusu dəyişir və deməli, belə dəyişiklik transformasiya adlanır. Lakin qeyri-kauzativ konstruksiyalardan kauzativ cümlələr quraşdırdıqda (məsələn, *Jane opened the window. - Her grandmother made Jane open the window)* daxili məna statusu dəyişir və nəticədə ortaya çıxan dəyişiklik derivasiya adlanır. Başqa sözlə, törəmə cümlənin məna quruluşunda kauzativ məna meydana çıxır ki, belə məna aparıcı cümlənin məna strukturunda yoxdur. Hər iki növdən olan əlaqələrin qarışdırılması səbəbi aydındır. Bu, yalnız onunla bağlıdır ki, belə quruluşlu cümlələr bir-birindən əsaslı surətdə fərqlənən və tamamilə müxtəlif komponentlərdən ibarət olan strukturların kifayət qədər qiymətləndirilməməsindən ibarətdir.

Əgər belə bir nöqteyi-nəzərlə razılaşsaq ki, sintaktik sistem daxilində derivasion əlaqələr transformasion əlaqələr kimi əhəmiyyətli yer tutur, onda dilçiliyin əsas məsələsini yalnız mənanın öyrənilməsinin modelləşdirilməsi deyil, həm də ilkin qanunauyğun əlaqələrlə bağlanan və bir mənadan digərinə keçmə prosesinin modelləşdirilməsindən ibarət olması ilə də razılaşmalı oluruq.

Sintaktik səviyyədə derivasion əlaqələr, demək olar ki, təsadüfdən-təsadüfə öyrənilir. Ona görə də biz burada derivasion əlaqələrin səciyyəvi xüsusiyyətlərinə diqqət yetirməyə çalışacağıq və bizim əsas parametrlər hesab etdiyimiz məqamlara əsaslanaraq onların təsnifatını verməyə cəhd göstərəcəyik.

Bununla əlaqədar olaraq ilk növbədə cümlənin məna tərəfinə, daha dəqiq desək, cümlənin məna statusuna, onun hansı elementlərdən təşkil olunması məqamlarına diqqət yetirmək lazımdır.

Bəzi müəlliflərin fikrincə, cümlənin daxilə məna statusunu konkret leksik mənaların mücərrədləşmiş elementar mənalar yaradır [109, s.15-21].

Sintaksis bəhsində ayrı-ayrı sözlərin mənası deyil, daha yüksək mücərrəd-ləşmənin nəticəsi olan semantik kateqoriyalar "işləyir". Sözün kateqorial-semantik mənası onun morfoloji forması ilə birlikdə cümlələrin bu və ya digər modelinin struktur məna komponentini formalaşdırır ki, mənasına uyğun gəlir [109, s.68].

Cümlənin elementar mənasını təsvir etməkdən ötrü bir sıra terminlərdən istifadə olunur. Onları ayrı-ayrılıqda şərh etməyə çalışsaq, situasiya və situasiya iştirakçıları terminlərinin burada əsas rol oynadıqlarının şahidi olarıq. Situasiya olan, mövcudluq tapan, baş verənlərin hamısının toplusudur. Təbii dillərdə situasiyanı feillər, sözönülər (məsələn, *till, until – "anticipate", due to – "reason")*, bağlayıcılar *(if – "condition")*, sifətlər, toplu isimlər (məsələn, *Fire!,* eləcə də *love, attack, honesty* və s.), söz birləşmələri (məsələn, *to take measures, to bear losses*) və bütöv cümlələr (məsələn, *It is raining*) situasiyanın adları ola bilər. Situasiya burada dildən kənar hər hansı prinsiplər əsasında ayrılan sadəcə olaraq fiziki reallığın fraqmenti deyil, tədqiq edilən "kəsilən" leksik vahidin "parçası"nı təsəvvür etmək deməkdir.

Hər bir situasiya fərdidir, lakin öz xüsusi əlamətləri ilə situasiyanın iştirakçıları "fərdi xüsusiyyətlər üzərində" situasiyanın iştirakçılarının ümumiləşmiş anlama kodunu qurmağa imkan verir.

Bu da, əslində, ənənəvi dilçilikdə subyekt, obyekt, adresat, instrument, agens, pasiens, çıxış nöqtəsi, son nöqtə kimi terminlərlə ifadə olunan və yaxşı məlum olan terminlərdir. Bu koddan istifadə edərək, məsələn, *to cut, to split* kimi feillərlə adlanan fərdi situasiyaların təsdiqini cümlələrlə ifadə etmək olar:

(1) A man splits wood with an axe.

(2) The girl cuts bread with a knife.

Bunların eyni iştirakçıları vardır: subyekt, obyekt, instrument; və buna görə də onlar ümumiləşdirilmiş əhəmiyyətli situasiyanın ifadəçiləridirlər.

Cümlənin daxili məna statusunu (məna quruluşunu) məna elementindən və elementar mənasından fərqləndirmək lazımdır. Cümlənin daxili məna statusu məna elementlərini, onlar arasında əlaqələri və elementar mənaları yaradır. Elementar məna elə bir funksiyadır ki, onu digər məna elementinə münasibətdə bir məna elementi yerinə yetirir. Təbiidir ki, əgər bir məna elementi digər məna elementləri ilə əlaqəyə

girirsə, onda həmin məna elementi bir neçə elementar mənaları ifadə edə bilər.

Deyilənləri aydınlaşdırmaq məqsədilə misallara müraciət edək. Məsələn, *Jenny lay (down)*. Cümlənin məna strukturunda iki məna elementi vardır. Bu elementlərdən hər biri mənanın daşıyıcısıdır, çünki istənilən iki element bir-biri ilə yalnız bir əlaqə ilə bağlanır ki, bu əlaqənin bir tərəfi elementar mənadır. *"Lay"* sözü ilə ifadə olunan məna situasiyanı adlandırır, lakin *"Jenny"* sözü ilə ifadə olunän məna elementi situasiyanın subyektini adlandırır. Baxdığımız cümlə ilə bu və ya digər dərəcədə bağlı olan digər bir cümləyə diqqət yetirək: *The grandmother urged Jenny to lie down.*

Bu misaldakı cümlənin məna quruluşu dörd məna elementindən ibarət olub hər bir söz yalnız bir məna elementini ifadə edir. Həmin elementlərin indi bir-biri ilə hansı əlaqələrə girdiyini izləyək: *"urged"* sözü ilə ifadə edilən məna elementi *"grandmother"*, *"Jenny"*, *"to lie"* sözləri ilə ifadə edilən məna elementləri ilə əlaqəyə girir. Bu məna elementini (*urged*) "kauzativlik", *"grandmother"* sözü ilə ifadə edilən məna elementini "agent" (kauzativliyin agenti), *"Jenny"* sözü ilə ifadə edilən məna elementini *"iştirakçı"* (kauzativliyin iştirakçısı) və *"to lie"* sözü ilə ifadə edilən məna elementini situasiyanın kauzativliyi adlandırırlar. Bununla birlikdə, *"to lie"* sözü ilə ifadə edilən məna elementi *"Jenny"* sözü ilə ifadə edilən məna elementi ilə də əlaqəyə girir, *"to lie"* sözü ilə ifadə edilən məna elementinə münasibətdə belə məna elementini situasiyanm "subyekti" adlandırırlar. Beləliklə, *"Jenny"* sözü ilə ifadə edilən məna elementi təkcə bir elementlə deyil, iki məna elementi ilə əlaqəyə girir və elə bunun sayəsində də iki elementar mənanı özündə daşıyır: "iştirakçı" (kauzativliyin iştirakçısı) və "subyekt" (vəziyyətin, şəraitin subyekti). Buraya sxem şəklində dörd məna əlaqəsi, dörd məna elementi və beş elementar məna daxildir.

Derivasiya prosesində alınan törəmə cümlələr öz daxili məna statuslarına görə ilkin cümlələrdən fərqlənirlər. Bir qayda olaraq, onların daxilinə derivasiyanın məna operatorları kimi mövcudluq tapan məna elementləri yeridilir. Deyilənlərlə əlaqədar olaraq, bir tərəfdən, hər hansı cümlədə istər ilkin, istərsə də törəmə cümlədə, təmsil edilə bilən məna elementlərin qısa səciyyəsini vermək, digər tərəfdən, derivasiyanın operatoru rolunda çıxış edən belə məna elementlərinin səciyyəvi xüsusiyyətlərini

nəzərə çarpdırmaqdır. Qeyd etmək lazımdır ki, hər hansı ilkin cümlədə situasiya adlanan məna elementinin möcudluğudur. İlkin cümlədə təqdim edilən bu məna elementi digər məna elementlərinə münasibətdə aparıcı rol oynayır. Başqa sözlə, burada aparıcı və yardımçı məna elementləri vardır. Deməli, *Jenny lay down* cümləsində *lay down* məna aparıcısı (situasiyası) olduğu halda, *Jenny* cümlənin yardımçı elementidir və situasiyanın subyekti adlanır.

Derivasiyanın operatoru vəzifəsində çıxış edən məna elementlərinin xüsusiyyətləri ondan ibarətdir ki, onlar elementar mənaların daşıyıcılarıdır. (məsələn, kauzativlik, modallıq və s.) Elementar mənalar isə məna strukturunda artıq situasiya adlandırılan mənalardır. Derivasiyanın həyata keçirilməsi zamanı buraya daxil edilən məna elementi törəmə cümlənin məna strukturunda mütləq aparıcı yer tutur; lakin situasiya adlandırılan məna elementi ilkin cümlədə onun yardımçısı kimi çıxış edən elementlərə münasibətdə aparıcı rol oynayan məna elementi təzə daxil edilən məna elementinə yardımçı kimi çıxış edir, yəni artıq həmin məna elementi eyni zamanda həm aparıcı, həm də yardımçı elementə çevrilir.

Deyilənlərdən çıxış edərək *Jenny lay down* cümləsinin modal derivatı olan *Jenny wanted to lie down* cümləsində derivasiyanın mahiyyəti ondan ibarətdir ki, ilkin cümlənin məna strukturuna elementar modal məna ifadə edən məna elementi daxil edilir ki, bu da situasiyanın mütləq aparıcısı olur.

İngilis dilində, eləcə də hər hansı digər dildə aşağıdakı iki tipdən olan cümlələri müşahidə etmək olar:

1. Cümlə üzvləri səviyyəsində birinci tipdən olan cümlələr xəbər və mübtədadan ibarətdir, lakin nitq hissələri səviyyəsində (morfoloji baxımdan) xəbər funksiyasında çıxış edən və situasiya adlanan tam mənalı feildən və mübtəda funksiyasında çıxış edən və situasiyanın subyekti adlanan isimdən ibarətdir. Bü qəbildən olan cümlələr bunlardır:

Jenny lay down;

The lamp was stirring, və s.

Cümlə üzvləri səviyyəsində ikinci tipdən olan cümlələr xəbər, mübtəda və tamamlıqdan ibarətdir, lakin nitq hissələri səviyyəsində xəbər funksiyasında çıxış

edən və situasiya adlanan tam mənalı feildən və mübtəda funksiyasında çıxış edən və situasiyanın subyekti adlanan isimdən və tamamlıq funksiyasında çıxış edən və situasiyanın obyekti adlanan isimdən (addan) ibarətdir. Bu qəbildən olan cümlələrə aşağıdakıları misal göstərmək olar:

The grandmother cleaned fish.

The boy split wood və s.

Hələlik bu iki cümlədə baş verən derivasion əlaqələr üzərində dayanaq. Hər hansı cümlə ilkin cümlədən məna statusuna görə fərqlənən cümlələrlə müqayisədə adətən, ifadə planında müəyyən göstəriciyə – daxili məna statusunda baş verən derivasiyanın formal dəyişikliklərini qeydə alır. Məsələn,

The boy split wood.

The boy wanted to split wood.

Bu derivasiya zəncirini cümlə üzvləri səviyyəsində xəbər və mübtədadan, nitq hissələri səviyyəsində isə xəbər funksiyasında işlədilən və situasiyanı adlandıran tam mənalı feil və situasiyanın subyektini adlandıran addan ibarət olan və mübtəda işlənən isimdən ibarətdir. Daxili məna statusu səviyyəsində bu derivasiya zəncirində və nitq hissələri səviyyəsində ilkin cümlənin quruluşundan fərqlənmir. Daxili məna statusu səviyyəsində fərq ondan ibarətdir ki, cümlənin strukturuna elə bir element daxil edilir ki, o, elementar mənanı ifadə edir və bu məna da derivasiyanın məna operatorudur. İlkin və törəmə cümlələrin daxili məna statusu arasındakı fərqi müəyyən edir. Cümlə üzvləri səviyyəsində törəmə cümlənin strukturu ilkin cümlənin strukturundan fərqlənmir. Lakin cümlə üzvləri səviyyəsində artıq fərqlər müşahidə olunur. Əgər ilkin çümlənin strukturunda bir şəxsli feil vardırsa, törəmə cümlənin strukturunda iki feil: şəxsli və məsdər formasında olan feil vardır ki, onlar bir-birilə həm formal, həm də məna baxımından əlaqəlidirlər. Daxili məna statusu səviyyəsində isə bunlar arasındakı fərqlər ondan ibarətdir ki, cümlənin məna quruluşuna "modallıq" elementar mənasını ifadə edən element daxil edilir ki, o da derivasiyanın məna operatorudur. Derivasiyanın formal operatoru şəxsli formada olan *"to want"* feili və əsas feilin məsdər formasıdır.

İndi isə universal təbiətli cümlələrin bəzi sintaktik derivasiya xüsusiyyətlərinə

nəzər salaq. Yuxarıda qeyd etdiyimiz kimi, özü-özlüyündə sintaktik derivasiya prinsip etibarilə çoxdərəcəli bir prosesdir. Bu prosesi müəyyən edən məna operatorları ya eyni elementar mənanı, ya da müxtəlif elementar mənaları ifadə edə bilər. Beləliklə, derivasiya zəncirində:

(1) Jenny lay down.

(2) Grandmother laid Jenny down.

(3) The doctor asked grandmother to lay Jenny down.

(4) These circumstances made the doctor ask grandmother to lay Jenny down.

Hər bir derivasiya mərhələsində eyni elementar məna "kauzativlik" məna operatoru vəzifəsini yerinə yetirdiyi halda, digər derivasiya zəncirindəki:

(1) Jenny lay down.

(2) Grandmother laid Jenny down.

(3) Grandmother wanted Jenny to lie down.

Birinci derivasiya mərhələsində "kauzativlik" elementar mənasının operatoru vəzifəsini yerinə yetirir, ikinci derivasiya mərhələsində isə "modallıq" elementar mənanı ifadə edir.

Birmərhələli sintaktik derivasiyanı müşahidə etdiyimiz: *(1) The girl danced; (2) The girl began dancing* kimi hallar çoxmərhələli sintaktik derivasiyanın xüsusi halıdır.

Prinsip etibarilə sintaktik derivasiya müxtəlif istiqamətli bir prosesdir, yəni derivasiya prosesində iştirak edən hər bir cümlədən müxtəlif məna operatorlarının köməyi ilə bir neçə müxtəlif derivatlar (törəmələr) qurmaq olar. Məsələn:

(1) Jenny danced!

(2) Jenny wanted to dance.

(3) Grandmother asked Jenny to dance.

(4) Mother ordered grandmother to ask Jenny to dance.

(5) Grandmother started to ask Jenny to dance.

Burada ilkin cümlə olan (1) *Jenny danced* cümləsindən iki derivat qurulur: *(2) Jenny wanted to dance* "modallıq" məna operatoru vasitəsilə və *Grandmother asked Jenny to dance* "kauzativlik" məna operatoru vasitəsilə. Öz növbəsində 3-cü

cümlənin də iki derivatı qurulur: *(1) Mother ordered grandmother to ask Jenny to dance* "kauzativ" məna operatorunun köməyi ilə, və *(2) Grandmother started to ask Jenny to dance* - "mərhələ" məna operatoru vasitəsilə baş verir. Hər hansı derivasiya zəncirində icra olunan bir istiqamətli sintaktik derivasiya müxtəlif istiqamətli derivasiyanın xüsusi halıdır. Məsələn:

(1) Jenny lay down.

(2) Jenny wanted to lie down.

(3) Jenny would like to lie down.

Hər bir ilkin cümlə öz derivatlarının hamısı ilə birlikdə cümlə yuvası yaradır. Bu yuvaya daxil olan bütün cümlələr derivasiya ağacını yaradır ki, bu da ən sadə vəziyyətdə düzxətli derivasiya zəncirinə gətirib çıxarır. Buradan belə bir nəticəyə gəlmək olar ki, hər bir derivasiya mərhələsində baş verən törəmə dərəcəsini və daxili məna və formal statusunda icra edilən bütün dəyişiklikləri açıq-aydın şəkildə təsvir etmək olar.

Bir məsələni də qeyd etmək yerinə düşərdi. Bu da ondan ibarətdir ki, hər bir cümlə sintaktik paradiqma yaradan transformlardan ibarətdir. Paradiqmanın bütün üzvləri eyni məna statusuna malikdir, yəni elementar mənaların eyni kombinasiyasını ifadə edir.

Müxtəlif transformer arasında, məsələn derivasiyanın:

(1) Jenny lay down.

(2) Grandmother laid Jenny down.

(3) Grandmother wanted to lay Jenny down aşağıdakı transformlarına diqqət yetirək:

(1) Did Jenny lie down?

(2) As far as Jenny was concerned, she lay down.

Eyni tipli transformaların aşağıdakı tipləri müşahidə olunur:

(1) Did grandmother want to lay Jenny down?

(2) As far as grandmother was concerned she laid Jenny down.

(3) Do you think that grandmother wanted Jenny to lie down?

(4) As far as grandmother was concerned she wanted to lay Jenny down.

Beləliklə, sintaktik derivasiyanın real gedişində ilkin cümlənin transformasion paradiqmasından cümlənin paradiqması qurulur. Belə paradiqmanı iki cür təsvir etmək olar:

I. *(1) Jenny lay down.*

(2) Did Jenny lie down?

(3) As far as Jenny is concerned she wanted to lie down.

(1) Grandmother laid Jenny down.

(2) Did grandmother lay Jenny down?

(3) As far as grandmother was concerned, she laid Jenny down.

II. (1) Grandmother wanted to lay Jenny down.

(2) Did grandmother want to lay Jenny down?

(3) As far as grandmother was concerned, she wanted to lay Jenny down.

Qeyd etmək lazımdır ki, transformasion sintaktik paradiqma müəyyən dərəcədə sözdəyişdirici və morfoloji paradiqma ilə eyniyyətə yaxınlaşdığı halda, derivasion sintaktik paradiqma morfoloji sözdüzəldici paradiqma ilə eyniyyət təşkil edir. Bütün söz formaları üçün ümumi olan bir cəhət ondan ibarətdir ki, onların eyni daxili məna statusu vardır, yəni onlar eyni leksik tərkibə malikdirlər. Söz formaları arasındakı fərq müəyyən qrammatik kateqoriyaların olub-olmaması səviyyəsində və kateqorial mənaların dəyişməsi səviyyəsində, yəni xarici məna statusu səviyyəsindədir. Xarici məna statusundakı fərqlər adətən formal plandakı fərqlərlə müşayət olunur. Misal olaraq *to ask* feilinin formalarına nəzər yetirək: *asks, asked, will ask*. Göstərilən söz formaları zaman kateqoriyasında bir-birinə qarşı oppozisiyadadırlar; digər tərəfdən, belə söz formaları şəxs kateqoriyası nöqteyi-nəzərindən, eləcə də cins kateqoriyası nöqteyi-nəzərindən fərqlənirlər: *asked* forması, məsələn, özü-özlüyündə şəxsi və ya cinsi ifadə etmir.

Vahid sözdəyişdirici paradiqmanın xarici məna statusu üzvləri arasındakı fərqlər adətən hər bir söz formasının morfoloji baxımdan formalaşmasından ibarətdir. Lakin formal cəhətdən olan fərqlər, bir qayda olaraq, ya ümumiyyətlə sözün əsasına aid olmur, ya da leksik informasiyanın daşıyıcıları kimi onun komponentlərinə aid olmur. Beləliklə, sözdəyişdirici paradiqmanın bütün üzvlərinin daimi leksik statusu

əsasın dəyişməz qalması ilə bağlıdır. Leksik mənanın dəyişməz mənasından çıxış edərək morfoloji sözdəyişməni formal morfologiya adlandırmaq olar. Deyilənlərdən görünür ki, bir sözün formaları elə bil cümlənin transformalarını xatırladır. Bizə artıq məlumdur ki, ifadə planında eyni cümlənin transformalarının daxili məna statusu bir-birindən fərqlənir. Söz yoxdur ki, hər bir transformasiya izah oluna bilər, lakin transformasiyanın izahı eyni cümlənin bütün transformalarında dəyişməz qalan elementar mənaların birgəliyinə münasibətdə xarici motivlərdir. Əgər, məsələn, cümlə iki transforma ilə - *(1) Jenny lay down və (2) Did Jenny lie down?* ifadə olunursa, onda hər iki transformasiyada daxili məna statusu eynidir: situasiyanı və situasiyanın subyektini adlandiran iki məna elementi vardır.

Deməli, transformasiya motivi cümlənin məna quruluşuna münasibətdə xarici bir əlamətdir. Nitq hissələri səviyyəsində isə artıq fərqlər müşahidə olunur. Əgər ilkin cümlənin quruluşunda bir şəxsli feil vardırsa, törəmə cümlənin quruluşunda iki feil vardır: biri şəxsli feil, digəri isə məsdər formasında olub bir-biri ilə həm məna, həm də formal cəhətdən bağlıdırlar. Cümlənin daxili məna statusu səviyyəsində fərqlər ondan ibarətdir ki, onun məna strukturuna "modallıq" elementar mənasını ifadə edən element daxil edilir ki, bu da derivasiyanın elementar mənası adlanır.

Əgər apardığımız müqayisənin əsası vardırsa, deməli, biz cümlənin transformasion paradiqmasını nəzərdə tutaraq sintaktik forma düzəlişindən danışa bilərik.

Söz yaradıcılığı prosesində forma düzəlişi prosesindən fərqli olaraq sözün leksik mənası dəyişir, yəni onun daxili məna statusu dəyişir. Sözün leksik mənasının dəyişməsi əksər hallarda sözün əsasının formal statusunun dəyişməsinə gətirib çıxarır. Sözdüzəltmə zamanı baş verən dəyişikliklər açıq-aydın leksik səviyyəyə aid olur və bunun sayəsində sözdüzəltmə morfologiyasını leksik morfologiya adlandırmaq olar. Sözdüzəldici morfoloji paradiqmanın üzvləri arasındakı əlaqələrin derivasion sintaktik paradiqmanın üzvləri arasındakı əlaqələrlə eyniliyini müşahidə etmək o qədər də çətin deyildir, çünki hər iki halda əsas mahiyyət ondan ibarətdir ki, daxili məna statusu qanunauyğun surətdə dəyişir və formal statusun qanunauyğun formal status dəyişiklikləri üzərində üstünlük təşkil edir. Əgər uyğunluq düzgün

müəyyən edilmişdirsə, onda cümlənin derivasion paradiqmasını nəzərdə tutaraq sintaktik sözdüzəltmə haqqında danışa bilərik.

Yuxarıda deyilənlər O.Yespersenin nöqteyi-nəzəri ilə uyğunlaşır: *"ənənəvi dilçilik terminləri ilə sintaksisin transformasion cəhətdən təsviri paradiqmatik əlaqələrin morfologiyaya köçürülməsi deməkdir; başqa sözlə, bu sintaktik konstruksiyaların nizamlanması və konstruksiyaların paradiqmatik cərgəsinin qurulması deməkdir"* [241, s.67]. Çıxarılan nəticə cümlənin sintaktik strukturunda derivasiya prosesində baş verən dəyişikliklərin təsnifatından irəli gəlir. Birincisi, törəmə cümlə ilkin cümlədən həm cümlə üzvləri səviyyəsində, həm də cümlə üzvlərinin formal qruplaşması səviyyəsində fərqlənir, yəni ilkin cümlədəki elementlərdən biri törəmə cümlədə öz qrammatik statusunu dəyişir. Bu qəbildən olan cümlələrin derivasiyası iki cürdür: 1) törəmə cümlədəki cümlə üzvlərinin miqdarı ilkin cümlədəki cümlə üzvlərinin miqdarı ilə müqayisədə artır. Bu cür tiplər kauzativ derivasiya üçün səciyyəvidir. Məsələn: *Jenny lay down – Grandmother lay down Jenny*. Bu zəncirdə törəmə cümlələrdəki ilkin cümlənin mübtədası dərəcə etibarilə zəifləyir və törəmə cümlədə tamamlıq statusunu kəsb edir və müvafiq olaraq öz morfoloji statusunu dəyişir. Törəmə cümlədə mübtəda vəzifəsində çıxış edən yeni söz ortaya çıxır; xəbərin formal təşkil olunması mürəkkəbləşir. Bununla belə, xəbərin formal cəhətdən mürəkkəbləşməsi belə derivasiya zamanı heç də mühüm əhəmiyyət kəsb etmir. Daha bir misal:

(1) Water boils.

(2) My mother boils water.

İkincisi, törəmə cümlədə cümlə üzvlərinin sayı ilkin cümlə ilə müqayisədə azalır. Bu cür hadisələr passiv derivasiyalar üçün səciyyəvidir. Məsələn:

(1) Mother cleaned fish.

(2) Fish was cleaned.

Bu zəncirdə törəmə cümlədə ilkin cümləyə nisbətən tamamlıq azlıq (yoxluq) təşkil edir. İlkin cümlənin mübtədası törəmə cümlədə öz əksini tapmır, lakin ilkin cümlənin tamamlığı dərəcə etibarilə artır, mübtəda statusu əldə edir və müvafiq olaraq öz morfoloji formasını dəyişir. Bundan əlavə, törəmə cümlələrdə xəbərin

formal təşkili dəyişir.

Üçüncüsü, cümlə üzvləri səviyyəsində törəmə cümlə ilkin cümlədən fərqlənmir, lakin nitq hissələri səviyyəsində fərqlər müşahidə olunur. Bu qəbildən olan derivasiya zamanı törəmə cümlədəki bütün cümlə üzvləri ilkin cümlədəki cümlə üzvləri sayına bərabər olur.

Birinci qəbildən olan və cümlənin quruluşunda üzvlərin dəyişməsi ilə səciyyələnən derivasiyanı invariant və ya paradiqmatik derivasiya adlandırmaq olar. Göstərilən növdən olan derivasiya prosesində bir sintaktik invariant quruluşundan digər sintaktik invariant quruluşuna keçid baş verir. Cümlə üzvlərinin miqdarının artırılması ilə bağlı olan derivasiyanı yüksələn invariant-derivasiya adlandırır və cümlə üzvlərinin miqdarının azalması ilə bağlı olan derivasiyanı isə enən invariant - derivasiya adlandırırıq.

İkinci qrupdan olan və ilkin cümlədəki cümlə üzvlərinin statusunun törəmə cümlədə saxlanması ilə bağlı olan derivasiyanı isə sintaqmatik derivasiya adlandırırıq. Bu cür derivasiya prosesi zamanı sintaktik quruluş dəyişmir, lakin, sadəcə olaraq quruluşun ilkin variantından törəmə variantına keçid reallaşdırılır.

Sintaktik transformasiya və sintaktik derivasiya ilə bağlı bir məsələni də qeyd etmək lazımdır ki, konkret cümlənin sintaktik quruluşu, haqqında danışdığımız derivasion proseslərlə nəticələnir.

2.3. Sintaktik transformasiya

Transformasion metod əvvəlcə deskriptivizmin ən görkəmli nəzəriyyəçilərindən Z.Harris tərəfindən irəli sürülmüşdür. Onun tələbəsi N.Xomski də törədici qrammatikanın transformasion modelini yaratmaq üzərində çalışmışdır. Deskriptivizmin bir sıra müddəalarına əsaslansa da, N.Xomskinin qrammatika nəzəriyyəsi deskriptiv dilçilikdən qəti surətdə fərqlənir. O həm Amerikada, həm də digər ölkələrdə çox məşhur olmuşdur. ABŞ-da həm əvvəlki deskriptivistlər, həm də antropoloq dilçilər N.Xomski ideyalarını mənimsədilər.

Transformasion qrammatika ideyalarının təbliği deskriptiv nəzəriyyələrin və təhlil üsullarının kəskin tənqidi ilə müşayət olunur. Yeni ideyalar o qədər sürətlə

yayıldı ki, bu yayılmanın səbəbini izah etməyin özü bir zərurətə çevrildi. Dilçilikdəki belə dönüşü R.Uellz ictimai elmlərin inkişaf istiqamətinin dəyişməsi ilə əlaqələndirir. R.Uellz göstərir ki, 30-40-cı illərdə faktları yalnız qeyd etməklə kifayətlənirdilərsə və onları izah etmirdilərsə, 50-60-cı illərdə faktları izah etmək zərurəti meydana çıxdı ki, bu özü transformasion – törədici qrammatikanın başlıca məqsədi idi [168, s.137].

Transformasion qrammatikanın uğurlarını başqa səbəblərlə də izah edənlər vardır. Bu sahədə göstərilənlərdən başlıcası törədici qrammatikanın ənənəvi qrammatikaya yaxınlığıdır. Deməli, yayılan uğurların səbəbi transformasion qrammatikanın qüvvəsindən daha çox deskriptiv modelin imkanlarının tükənməsi idi. Maraqlı cəhət burasındadır ki, deskriptivistlərin izah etmədiyi və ya izah edə bilmədiyi məsələlər transformasion qrammatikanın diqqət mərkəzində durur. Transformasion metod sintaktik strukturları hər şeydən əvvəl paradiqmatik aspektdə təhlil edir ki, bu, deskriptiv yanaşma ilə mümkün deyildir. N.Xomski yazırdı ki, cümlənin komponentlər üzrə təhlili metodu kifayət etmədiyi üçün o, transformasion metodunu irəli sürmüşdür [206, s.57]. Digər tərəfdən Z.Harris deskpiptivizmin ən görkəmli nümayəndələrindən biri kimi transformasiyanı deskriptiv dilçiliyə əlavə kimi təklif etmiş, onu əvəz edən bir metod kimi təqdim etməmişdir [170, s.12]. N.Xomski də deskriptiv metodikanın kifayətləndirici olmaması üzündən transformasiya metodundan istifadə etmişdir.

Transformasion qrammatika həm metodları, həm də öz məqsədinə görə deskriptiv modeldən fərqlənir. Deskriptiv qrammatika belə bir suala cavab verir: daha xırda hissələrdən hansı üsulla cümlə düzəldilir? Transformasion qrammatika isə başqa bir suala cavab verir: söyləm struktur dəyişmələr yolu ilə hansı cümlədən və ya cümlələrdən alınmışdır?

Ümumnəzəri görüşləri baxımından da transformasion qrammatika deskriptiv dilçilikdən fərqlənir. N.Xomskiyə görə, dil heç də statik işarələr toplusu olmayıb, bəlkə bir mexanizmdir, bir növ törədici cihazdır ki, düzgün cümlələr “istehsal edir”. Dilçi isə bu cihaz üçün xammal hazırlamalı və onun hərəkət prinsipini müəyyənləşdirməlidir [206, s.36].

Transformasion model əsasən aşağıdakı kimi qurulur: tərkibinə görə bu model iki hissəyə və ya komponentə (sintaktik və fonoloji komponentə) bölünür. Öz növbəsində sintaktik komponent də iki subkomponentdən ibarət olur. Bunlardan birincisi cümlənin ünsürlərinin təsnifi və öz aralarında birləşməsi qaydalarıdır. Bu bölmə bütünlükdə deskriptivizm prinsipləri əsasında qurulur. İkinci subkomponent mürəkkəb əməliyyatlardan ibarətdir; bu əməliyyatlar cümlənin qrammatik strukturunun dəyişdirilib başqa şəklə salınmasıdır. Bu əməliyyatların köməyi ilə daha sadə cümlələr daha mürəkkəb sintaktik strukturlara transformasiya edilir. Fonoloji komponent morfoloji və fonoloji qaydalardan ibarətdir. Bu qaydalar morfemlərin və fonemlərin birləşmə qaydalarıdır.

Beləliklə, transformasion qrammatikada birinci yerdə cümlənin konstituyent səviyyədə təhlili durur ki, onun üzərində transformasion yarus ucalır və bunun ardınca da morfoloji və fonoloji səviyyələr gəlir. Transformasiya nəzəriyyəsinə görə, dildəki bütün cümlələr iki bərabər olmayan kateqoriyaya bölünür. Bunların bir qismi strukturca çox sadə olub miqdarca azdır. Bunlar nüvə cümlələr adlanır. Ona görə bu cümlələr belə adlanır ki, onlar qrammatikanın nüvəsinə aid olur. Belə cümlələrin düzəlmə qaydaları sintaksisin birinci bölməsinin məzmununu təşkil edir. Digər kateqoriya nüvə cümlələrin qrammatik strukturu üzərində dəyişdirmə əməliyyatı aparmaqla əldə edilən düzəltmə cümlələr və ya derivatlardır. Dilin bütün cümlələri bir neçə nüvə cümlə üzərində müxtəlif əməliyyatlar aparmaqla düzəldilmiş olur.

Transformasion modeldə əməliyyat üsulu başlıca yer tutur. Dilin qrammatikası, üzərində müxtəlif əməliyyatlar aparılması mümkün olan ən sadə strukturlar şəklində təzahür edir. Bu sadə strukturlardan müxtəlif üsullarla çoxlu düzəltmə strukturlar alınır. Sadə struktur (nüvə cümlələr) üzərində mürəkkəb cümlə almaq üçün aparılan əməliyyat transformasiya adlanır, burada alınan düzəltmə cümlələr isə transformlar adlanır. Transformasiya qaydaları əsasında cümlənin strukturu dəyişdirilir, o, yığcamlaşdırılır və ya genişləndirilir, cümlələr öz aralarında birləşdirilir. Bütün bu dəyişmələr ilkin (nüvə) cümləni təşkil edən ünsürlər toplusunu dəyişmir, onun yalnız qrammatik strukturunu dəyişir. Geniş yayılmış transformasiya qaydaları əsasında aparılan başlıca əməliyyatlar aşağıdakılardır:

1. Permutasiya (tərkib hissələrinin yerinin dəyişdirilməsi), məsələn:

She bought the book. - Did she buy the book?

2. Substitusiya (bir ünsürün digəri ilə əvəz edilməsi), məsələn:

I saw him walking along the river. -I saw him.

3. Adyunksiya (əlavə), məsələn:

Leonard did not see anybody. - Leonard saw nobody.

4. Ellipsis və ya ünsürlərin atılması, məsələn:

I tell you that you should return my book - I tell you to return my book.

Transformasiya qaydaları elə düzülür ki, onların hər biri maksimum dərəcədə sadə olsun, yəni mümkün qədər az əməliyyatdan ibarət olsun. Buna baxmayaraq transformasiyaların çoxu birləşmiş və kompleks şəkildə olur. Hər transformasiya ayrı-ayrı əməliyyatlar toplusundan ibarətdir. Bu əməliyyatın düzgün aparılması üçün ilkin cümlənin strukturu təhlil olunur. Sintez mərhələsindən əvvəl analiz mərhələsi icra olunur. Analizin mahiyyəti belədir ki, cümlə onu təşkil edən hissələrə bölünür və bu ünsürlər arasında sintaqmatik əlaqələr müəyyənləşdirilir. Ellipsis haqqında danışarkən K.Abdulla onu dəyərə malik vahidin yoxluğu kimi səciyyələndirərək ellipsis dil təsəvvüründə yox olmağa doğru gedən və daha dərində gizlənmiş tam bütöv variantla əvəz edilə bilən vahid adlandırmışdır [18, s.159]. Cümlənin komponentlər üzrə təhlili, adətən, sintaktik "ağac" kimi təsvir olunur ki, bu ağacın budaqları müxtəlif vasitəsiz iştirakçılara müvafiq gəlir. Beləliklə, bu bütövlük vasitəsiz iştirakçılar üzrə təhlilin bütün mərhələlərini bütöv bir sxemdə birləşdirir. Cümlənin derivasiya tarixinin təsvirinə transformasion modeldə "transformasiya strukturunun göstəricisi" adı verilir.

Transformasion qrammatika üçün əvvəlcə transformasiyanın tətbiq edilmə sahəsi müəyyənləşdirilməlidir, yəni cümlənin paradiqmatik sırası müəyyən edilməlidir. Cümlələr arasında formal əlaqələr müəyyən edilməli, bir cümlə strukturunun başqa cümlə strukturu transformu olduğunu müəyyən edə bilən formal əlaqələr tapılmalıdır. Transformasiyada əsas tələb ondan ibarətdir ki, bütün dəyişmə növlərində sintaktik əlaqələrin invariantı, habelə məna invariantı qorunmalıdır, dəyişməməlidir. İnvariant sabit kəmiyyətdir. Bu dəyişməz kəmiyyətin formal əlaməti

Z.Harrisin irəli sürdüyü "fərdi əhatə prinsipi"dir. Həmin prinsipin mahiyyəti isə belədir: o cümlələrdə ki xüsusi, fərdi ünsürlər var, onlara transformasiya tətbiq edilmir, o cümlələr transformasiya edilə bilməz. Prinsip etibarilə ilkin cümlədə işlənə bilməyən heç bir söz transformda da işlənməməlidir. Z.Harrisə görə, transformasiya "eyni miqdarda fərdi əhatə toplusu olan iki struktur arasındakı əlaqə" hesab edilir. Z.Harrisin verdiyi qaydalar faydalı olsa da, transformasiya sahəsini dəqiq cızmaq üçün kifayət qədər universal deyildir. Cümlələrin paradiqmatik sırasının əsasını təşkil edən invariantı müəyyənləşdirmək üçün dəqiq meyar olmadığından tədricən transformasiya sahəsi genişləndirilmişdir. Substitusiya metodu ilə əldə edilən cümlə törənişi də buraya daxil edilmişdir. Halbuki, substitusiya yenidən qurulmuş, yeni şəkildə, başqa cür təşkil edilmiş cümlələri deyil, bəlkə sintaktik invariantlığı saxlamaqla bir ünsür formasının dəyişməsi ilə başqa ünsür formasının da dəyişməsini nəzərdə tutur.

Transformasiyanın belə geniş mənada anlaşılmasında məqsəd nüvə cümlələrin miqdarca çox az olduğunu göstərməkdir. Əslində, Z.Harrisə görə, ingilis dilində cəmi yeddi nüvə cümlə vardır. Bu yeddi nüvə cümlədən transformasiya yolu ilə saysız-hesabsız transformer törəyir [170, s.178].

Transformasion qrammatika heç də analitik yolla dil materialı əsasında tərtib olunmayıb, emprik şəkildə tərtib edilir, sonra isə onun obyektə adekvat olub-olmadığı yoxlanır. Modelin düzgünlüyü onun "məhsulu" ilə müəyyənləşdirilir. Bu cəhətdən törədici qrammatika nəzəriyyəsi deskriptiv qrammatikalardan qəti şəkildə fərqlənir. Çünki deskriptivizmdə təhlilin adekvatlığı həmin təhlilin ilkin qəbul olunmuş postulatlara və ya aksiomlara uyğunluğu ilə ölçülür. Ona görədir ki, deskriptivistlər təhlilin formal metodlarını işləyib hazırlamağa, transformasion qrammatika tərəfdarları isə əksinə, yalnız nəzəriyyənin emprik tərzdə yoxlanması üsullarına diqqət yetirmişlər. Belə yoxlama üsullarının əsas ölçülərindən biri modelin dilə məxsus düzgün cümlələrini törətməkdir. Başqa sözlə, söyləmlər çoxluğundan törədici model yalnız və yalnız o söyləmləri seçir ki, onlar müvafiq dilə məxsusdur və bu dilin daşıyıcıları tərəfindən işlədilir. Deməli, transformasion qrammatika üçün qrammatik düzgünlük anlayışı mühüm əhəmiyyət kəsb edir. Bu düzgünlük anlayışını

əsaslandırarkən N.Xomski göstərir ki, cümlənin qrammatik cəhətdən mövcudluğu onun tərkibindəki leksik sözlərdən və onun nitqdə işlənməsinin statik ehtimallığı dərəcəsindən asılı deyildir. N.Xomski bu göstərilən anlayışı "qrammatikanın müstəqilliyi prinsipi" adlandırır. Bu müstəqillik, yəni cümlənin öz tərkibindəki sözlərdən və nitqdə işlənməsinin ehtimallıq dərəcəsindən asılı olmaması konkret cümlələrə deyil, sintaktik konstruksiyalara aiddir. N.Xomskiyə görə, qrammatikanın digər bir mühüm adekvatlığı ölçüsü onun tamlığıdır. İdeal olaraq ən yaxşı model odur ki, dildəki bütün cümlə tiplərini əhatə etsin, onları törətmiş olsun. Qrammatikanın üçüncü keyfiyyəti onun izahetmə gücünə malik olmasıdır. N.Xomskinin fikrincə, izah etmək müvafiq terminlər əsasında həmin modelin struktur təsvirini vermək deməkdir. O model ən çox adekvat hesab olunur ki, sintaktik strukturlar arasında ən çox məna fərqləri müəyyənləşdirə bilər. Bəzən də transformasion qrammatikanın bu izahetmə gücünü həddən artıq şişirdirlər. N.Xomski göstərir ki, ön güclü dilçilik nəzəriyyəsi qrammatika tərtib etməyin avtomatik metodlarını təmin etməlidir. Bu tələbi bir az azaltmış olsaq, deməliyik ki, qrammatikanın müvafiq dil üçün həqiqətən ən əlverişli olması dilçilik nəzəriyyəsindən tələb edilir. N.Xomskiyə görə, nəzəriyyə ən yaxşı qrammatikanı seçmək işinə kömək etməlidir. Bu baxımdan dilçilik nəzəriyyəsi bir növ metaelmdir, elm haqqında elmdir, müxtəlif dilçilik nəzəriyyələri haqqında nəzəriyyədir. Burada əsas məsələ qrammatikanın qiymətləndirilməsidir [206, s.57].

Z.Harrisin klassik tərifinə görə transformasiya bir cümlənin o biri cümləyə elə dəyişdirilməsi (döndərilməsi) deməkdir ki, burada törəmə cümlə leksik tərkibinə və mənasına görə ilkin cümləyə ekvivalentdir [170, s.540]. Beləliklə, transformasion əlaqələr münasibətində olan cümlələrin müxtəlif qrammatik statusları vardır, lakin onların leksik tərkibləri eynidir və eyni elementar mənaların toplusunu ifadə edir. İlkin cümlənin operand (dəyişməz), törəmə cümlənin transform adlandırılması artıq qəbul olunmuşdur və törəmə cümlədə müəyyən edilən qrammatik statusun dəyişməsi (əlbəttə, ilkin cümlə ilə müqayisə olunduqda) isə transformasiyanın operatoru adlandırılır. Transformasion əlaqələrlə bağlanan cümlələrin invariantının öyrənilməsi dildə əsas mənalı leksemlərin köməyi ilə elementar mənaların ifadə olunması

imkanlarının ifadə olunmasına şərait yaradır. Dildəki transformasion əlaqələrlə bağlanan və eyni məna yükünü yerinə yetirməyə xidmət göstərən və kifayət qədər çox olan cümlələrin miqdarı bu mövcudluğun səbəbləri barədə məsələnin qoyuluşunu bir növ qanunauyğunlaşdırır. Əlbəttə, bu məsələnin həlli kifayət qədər çətindir və geniş tədqiqat tələb edir. Bizim məqsədimiz isə cümlələr arasındakı transformasion əlaqələrin bəzi yaranma səbəblərini göstərməkdir. Bununla belə, qeyd etmək istərdik ki, dil işarəsi kimi cümlənin iki cür məna informasiyası vardır və müvafiq olaraq iki tərkib hissəsindən ibarətdir; onlar daxili məna və xarici məna statuslarıdır. Daxili məna statusu dedikdə cümlənin məna quruluşunu yaradan elementar mənalar və onların arasındakı əlaqələr nəzərdə tutulur. Cümlənin məna (semantik) quruluşu dedikdə bu quruluşun köməyi ilə təsvir olunan müəyyən denotativ məna situasiyası başa düşülür. Transformasion əlaqələrlə bağlanan cümlələr eyni məna yükünü icra edirlər deyərkən, bu cümlələrin eyni daxili məna statusuna və eyni semantik quruluşa malik olduqları nəzərdə tutulur. Transformasiyanın gedişi zamanı dəyişilməyən daxili məna statusu, semantik quruluş yalnız derivasiya prosesində dəyişikliyə məruz qalır.

Xarici məna statusuna aid edilən xarakterik cəhətlərə cümlədə təsvir olunan məna situasiyasının iştirakçıları daxildir. Daxili məna strukturları uyğun gələn cümlələrin xarici məna strukturlarından fərqləndirilməsi bəzi dillərdə heç bir çətinlik törətmir. Lakin ingilis dilində sual və nəqli cümlələrin struktur fərqləri olduğuna görə onların daxili və xarici mənaları da aşkar müşahidə olunur [61, s.62]. Sonra məna situasiyasını bir bütöv kimi səciyyələndirmək olar *(She answered well)*, hətta belə situasiyanın komponentlərindən birini ön plana çəkmək və digər komponentləri ikinci planda saxlamaq olar. (məsələn, *As far as she is concerned, she answered well)* Bunların daxili məna strukturları eyni olsa da, xarici məna strukturları fərqlənir. Bu da, görünür, cümlədə təsvir olunan məna situasiyasına aid edilən ümumi (universal) əlamətlərin toplusudur. Bu əlamətlər toplusu içərisində danışanın hər hansı konkret əlaməti seçmək səlahiyyəti vardır. Məhz bu əlamətlərin sərbəst surətdə seçilməsinin əsas səbəblərindən biri budur ki, dildə transformasion əlaqələr mövcuddur və buna müvafiq olaraq cümlənin xarici məna strukturlarının dəyişməsi sayəsində transformasiya sinifləri ayrılır.

Dildə transformasion əlaqələrin mövcudluğunun daha bir mühüm səbəbini onda görürük ki, informasiya mübadiləsi təkcə kontekstdən asılı olmayan cümlələrin köməyi ilə deyil, ümumi kontekstin elementləri kimi çıxış edən ardıcıl cümlələr sırası vasitəsilə həyata keçirilir. Kontekstdən asılı olmayan cümlələrin təşkil olunmasına xidmət göstərən məhz elə transformasiyadır. Əlbəttə, dildə transformasion əlaqələrin mövcudluğunu şərtləndirən digər amillər də vardır. Lakin məqsədimiz heç də bu şərtlərin hamısını tədqiq etmək və sadalamaq deyil, çünki bütün mövcud transformasiyalar bu və ya digər dərəcədə izah oluna bilir. Funksional izahı olmayan heç bir transformasiya dildə mövcud ola bilməzdi, o, mənadan təcdid olunardı.

Bununla belə, nəzərə çatdırmaq lazımdır ki, transformasiya zamanı cümlənin daxili məna statusu dəyişməz qalır, başqa sözlə, ilkin cümlə ilə transformasiyaya məruz qalmış cümlə arasında daxili məna statusunun eyniliyi müşahidə olunur.

Transformasiya nəzəriyyəsi sonrakı inkişafını parafraza nəzəriyyəsində tapır. Bu nəzəriyyəyə görə, dilçiliyin əsas məsələsi olan mənanın dərk olunmasıdır. Transformasion əlaqələrlə bağlı olan cümlə ilə məhdudlaşmaqla bu məsələ tam həll edilə bilməz. Məsələnin tam həllindən ötrü cümlənin leksik statusundakı güclü oxşarlığın aradan qaldırılması gərəkdir. Parafraza nəzəriyyəsinin ixtiyarında hər hansı cümlə ola bilər və bu cümlənin daxilində ifadə olunan eyni elementar mənalar, o cümlədən müəyyən dərəcədə leksik tərkibinə görə fərqlənən elementlər ola bilər. *"Cümlənin leksik tərkibinin tam saxlanılması transformasiya zamanı vacib ola bilməz"* [52, s.42].

Məsələn: *1) G.Cons bu məqaləni tərcümə etdi. 2) Bu məqalə G.Cons tərəfindən tərcümə edildi. 3) Bu məqalənin tərcüməsi G.Consa məxsusdur. 4) G.Cons tərəfindən məqalənin tərcüməsi.*

1) G.Jones translated this article. 2) This article was translated by G.Jones. 3) The translation of this article belongs to G.Jones. 4) Translation of this article by G.Jones.

Transformasiya nəzəriyyəsi belə dəyişikliklərdən yan keçir. Ona görə ki, belə cümlələrin leksik məna statusu tam dəqiqliyi ilə uyğunlaşmır.

İndiyədək haqqında danışdığımız transformasion əlaqələrin bir çoxu ənənəvi

qrammatikaya bəllidir; çünki onlar yalnız XX əsrin ikinci yarısından sonra transformasion-generativ qrammatikanın predmetini təsvir etmək üçün açıq-aydın şəkildə tətbiq edilməyə başlanmışdır. Cümlənin daxili quruluşunu, daxili əlaqələrini və onların törətdikləri yeni cümlələri araşdıran qrammatika, atributundan asılı olmayaraq, transformasion qrammatika adlandırıla bilər.

Transformasion qrammatikanın banilərindən hesab olunan N.Xomskinin misallarına fikir versək bəzi məsələlərin aydınlaşmasına nail ola bilərik [206, s.99]. Məsələn, *Flying planes* söz birləşməsi *(Flying planes can be dangerous)* bir mənalı deyildir. Bu səbəbdən də *the love of God* birləşməsi eyni deyildir. Bu birləşməyə (söz birləşməsini nəzərdə tuturuq) cümlə nöqteyi-nəzərindən yanaşsaq, *planes* - cümlənin subyekti, *fly* və ya *are flying* feillərinin subyekti, digər cümlədəki *fly* feilinin obyekti ola bilər. Müqayisə et:

(1) Planes fly.

(2) John flies planes.

Bu cəhətdən aşağıdakı iki cümlənin müqayisəsi (subyektlə feilin uzlaşması yuxarıda adı çəkilən birləşmələrdə birmənalı olmadığı halda) feili sifət və cerund arasındakı fərqi, bir növ, izah edir:

(1) Flying planes are dangerous.

(2) Flying planes is dangerous.

Birinci cümlədəki *"are"* formasındakı feil cəm şəklindədir, ona görə ki, onun subyekti cəm halında olan "planes" subyektidir ki, bu da endosentrik sözbirləş-məsinin *(Flying planes)* baş üzvüdür. Bundan əlavə, birinci cümlədəki *flying* bölgü yerinə görə sifətlə ekvivalentlik təşkil edir. İkinci cümlədən *Flying planes* birləşməsindən isə baş üzvü və ya modifikatoru tapmaq çətinlik yaradan məsələlər-dəndir. Bununla belə *flying* öz-özlüyündə ad bildirir, bütünlükdə birləşmə isə mübtədanı işarələyir. Əgər müqayisəni davam etdirsək: *Flying is dangerous* – Uçmaq təhlükəlidir. Feili sifət və cerundun ənənəvi izahının özü, əslində, transformasion baxımdan (baxmayaraq ki, ənənəvi qrammatikada transformasion termini işlədilmir) aparılır. Bizim şərhimiz onunla bağlıdır ki, müəyyən bir söz bir cümlədə feil və transformasion uyğunluq tapan birləşmələrdə sifət və yaxud bir cümlədə feil, digər

transformasion uyğunluq tapan cümlələrdə isim kimi fəaliyyət göstərə bilər. Bu əlaqələrin təbiətinə varmadan belə hesab edək ki, birinci birləşmədə *"Flying planes" (1) Planes are flying* tipli cümlələrin əsasında duran quruluşların transformasiya edilməsi nətiçəsində sifət + isim törəmə strukturu almır; lakin ikinci cümlədəki *"Flying planes" (2) John flies planes* tipli cümlələrin əsasında duran strukturlardan transformasion qaydalarla əldə edilə bilər. Əgər təsəvvür etsək ki, qrammatik qaydalar əsasında (1) və (2)-ci cümlələr kimi strukturlar yaradır və onlar daxili məna strukturunda əsas yer tutur, bu da, əslində, *Flying planes* adlıq birləşməsində subyekt və obyekt təsvirlərinin açıq-aşkar ortaya çıxmasıdır.

Daha bir birləşməyə - *eating apples* birləşməsinə diqqət yetirək: bu birləşmə də birmənalı deyildir. Bir tərəfdən quruluş etibarilə bu birləşmə *flying planes* birləşməsi ilə müqayisə oluna bilər. Lakin digər tərəfdən,

Eating apples cost more than cooking apples cümləsinin izahı onunla bağlıdır ki, *cost* feili cəm halında çıxış edir. Deməli, cümlənin subyekti kimi yalnız *apples* çıxış edə bilər; *eating* və ya *cooking* cümlənin subyekti ola bilməz. *(eating apples costs more than cooking apples)* Əlbəttə, 3-cü cümlədəki adlıq qrupların semantik cəhətdən qeyri-uyğunluğu aydındır. Bu məsələyə başqa cür yanaşsaq, 3-cü cümlənin daxili strukturunda *apples* və *eating* bir-birilə subyekt əlaqəsi ilə bağlanmışdır. *Eating apples* birləşməsində subyektin şərhi yalnız kifayət qədər qeyri-standart situasiyalarda və əgər ənənəvi terminlərə müraciət etsək, *apples* sözü "canlandırılır". Bu cür situasiyalarda mümkündür ki, aşağıdakı cümlə də işlədilsin:

(4) Apples eat with hearty appetite.

Bir faktla razılaşmalıyıq ki, qrammatik (formal) cəhətdən düzgün hesab oluna biləcək 4-cü cümlə semantik cəhətdən normal hesab edilə bilməz. Bu qeyri-normallığı hansı tərəfdən təsvir etsək də təhlilimiz *eating apples* birləşməsinin "subyektli" şərhinin qeyri-normal aparıldığı qənaətinə gətirib çıxarır.

V + ing + N qəbildən olan bir çox birləşmələr vardır ki, onlar nəinki ikimənalı, hətta çoxmənalıdırlar. Doğrudan da, *flying planes* birləşməsini *planes for flying* perifrastik formasında şərh etməyə əsas vardir. Lakin *flying planes* birləşməsinin üçüncü halda şərhi təkrar və mənasız bir məşğuliyyətdir. Bununla belə *eating apples*

birləşməsini müəyyən edən və onun azı iki variantda şərhini (təsvirini) verən hər hansı qrammatika onun daxili məna şərhinin azı üç variantını aşkara çıxara bilər. Belə birləşmələr yalnız qrammatik baxımdan normal birləşmələr adlana bilər; semantik baxımdan isə çatışmamazlıqlarını geniş şərhinə ehtiyac qalmır.

The shooting of the hunters misalını nəzərdən keçirsək, görərik ki, birləşmə birmənalı deyildir; *shoot* həm təsirli, həm də təsirsiz feil kimi işlənir, *hunters* isə *shoot* feili ilə (təsirsiz fei kimi) cümlənin subyekti ilə birləşə bilər. Məsələn: *The hunters shoot. Hunters* həm də təsirli feilin obyekti kimi çıxış edə bilər. Məsələn:

John shot the hunters.

Birləşmənin obyektlə bağlı tərəfi məchul konstruksiyalarla möhkəm əlaqəlidir. Muq.et: *The hunters were shot (by John).*

V + ing + of NP tipli birləşmələr adətən subyektlə birgə şərh olunmurlar. Çünki burada "tam təsirli" feilin açıq-aşkar ifadə edilən obyekti vardır. Onları NP obyekti ilə (məsələn, *the shooting of the hunters of the deer)* genişləndirmək olmaz. Bunun əvəzinə NP subyekti kimi yiyəlik hal şəkilçisi, NP obyekt kimi isə of sözönünü qəbul edir. Müq.et: *The hunter's shooting of the deer.*

Bu zaman ingilis dilində təsirli feilin obyekti ilə təsirsiz feilin subyekti arasında məxsusi əlaqə olması faktını müşahidə etmək o qədər də çətin deyildir.

Haqqında danışdığımız hallar *the eating of the apples* birləşməsi ilə də uyğunlaşırmı? *Eat* feili (məsələni sadələşdirmək üçün *eat* feilini həm təsirli, həm də təsirsiz feil hesab etsək) eyni feilin müxtəlif işlənmə məqamları ilə birləşir (baxmayaraq ki, yuxarıdakı fikri təsdiq etmək üçün bir sıra nəzəri məsələləri həll etmək lazım gələrdi). Müq.et:

(1) John eats the apples və

(2) John is eating.

The eating of the apples birləşməsi obyektli birləşmə hesab edilə bilər. Onun sintaktik nöqteyi-nəzərdən "subyektli" olub-olmaması qrammatikanın *The apples are eating* kimi cümlələr törədəcəyindən və ya belə cümlələri inkar edib-etməyəcəyindən asılıdır. Məsələnin mahiyyəti ondan ibarətdir ki, *the eating of the apples* birləşməsi *apples* və *eat* arasındakı cümlə əlaqəsi kimi dərin əlaqələr aşkara çıxarır: *The apples*

are eating. Başqa sözlə, həm subyektli birləşmə *the eating of the apples* və cümlə olan *The apples are eating* hər ikisi qrammatik cəhətdən düzgün hesab edilməli (çünki onlar bir-biri ilə daxili struktur nöqteyi-nəzərindən bağlıdırlar) və yaxud hər ikisi qrammatik cəhətdən düzgün hesab edilə bilməz. Onların qrammatik düzgünlüyü və ya qeyri-düzgünlüyü leksik tərkibdəki müvafiq yarımtəsnifatdan asılıdır.

Transformasion qaydaların təbiətini tam izah etməkdən ötrü, ilk növbədə, ingilis dilində məchul növlü cümlələrin törənməsinə müraciət etmək lazımdır. Məchul növ nəzəriyyəsinin ən yaxşı izahı belə transformasiya qaydasının mahiyyətini izah etmir.

Transformasiya qaydasının ən əsas əlamətlərindən biri onların müxtəlif cür təzahürüdür. Hər hansı bir dilin transformasion qrammatikasını qismən qurmağın özü son dərəcə çətin bir məsələdir və dilçinin hər hansı bir dil xüsusiyyətini transformasiya qaydası ilə şərh etməsinə çox müxtəlif faktorlar təsir göstərə bilər. Lakin bir şey aydındır ki, hər hansı transformasiya öz-özlüyündə elə transformasiya qaydasının tətbiq edilməsidir. Bu baxımdan transformasion qaydaları müəyyən edən iki müxtəlif transformasion məqama fikir verək. Birinci qaydanı qısaca olaraq belə şərh etmək olar: "tərkib hissələrini təşkil edən qrammatika"nın şərtlərinə cavab verə bilməyən hər cür qaydalar transformasion qrammatikaya aiddir. Əgər transformasion qrammatika komponenti üzərinə müəyyən məhdudiyyət qoyularsa, onda əmin olmaq olar ki, qrammatik nüvə zənciri məxsusi transformasion qaydalar çərçivəsində müvafiq şərtlərə uyğun olaraq yarımzəncirlərə ayrıla bilər.

İkinci qayda bir qədər fərqlidir. Burada nüvə zəncirinin bütün komponentləri dəyişkəndir. Sabit qalan əsas feildir. Deməli, "tərkib hissələrinə görə" qrammatikaya nisbətən transformasion qaydalar daha güclüdür. Əlbəttə, "güclü" terminini müəyyən etmək kifayət qədər çətindir. Biz burada onunla məhdudlaşırıq ki, bir qayda o biri hər hansı qaydadan daha təsirli və güclü ola bilər; heç olmasa ona görə ki, güclü qaydaların köməyi ilə dilin daha çox faktlarını, həm də düzgün təsvir etmək olar. Aydındır ki, ingilis dilinin daha tam şəkildə izah olunan qrammatikasında məchul transformasiya adi qrupların müxtəlif cür yerdəyişməsini tələb edir. Müqayisə et:

(1) The man who was here yesterday read thousand books last year.

(2) Thousand books were read last year by the man who was here yesterday.

Əgər qrammatik qaydaların hamısı generativ sistemdə öz yerini tutarsa, onda *the man who was here yesterday* və *thousand books* daimi üzvlər kimi qiymətləndirilər və məchul transformasiyanın nəticəsi düzgün olmazdı. Digər qaydalar isə *last year* birləşməsinin mümkün olan pozisiyalarını təsvir etməli olardı. Digər mümkün mülahizələrdən əlavə, dəyişkən xüsusiyyətli qaydalar bütöv cümlələr sinfini təsvir etmək iqtidarına malikdir. Əks halda, tərkib hissələrini təşkil edən qrammatika qaydaları tələb olunardı ki, onların da bir-biri ilə əlaqəsi olmazdı.

Beləliklə, transformasion metodun nailiyyəti kimi qeyd etmək olar ki, o, ayrılmaları "obyektivləşdirir" və müxtəlif struktur tərkibə malik konstruksiyaların təsvirini formal şəkildə aparır. Transformasiyanın köməyi ilə elə strukturları təhlil etmək və onlar arasında elə fərqlər aşkara çıxartmaq mümkündür ki, onlar adi linqvistik təhlil zamanı müşahidələrə tabe olmur. Bununla da transformasion metodun köməyi ilə sintaktik konstruksiyaların struktur-semantik təsnifatını vermək və onları daha adekvat şəkildə təsvir etmək olur.Transformasion metod sintaktik konstruksiyalar arasında, o cümlədən cümlələr arasmda transformasion əlaqələrin mövcudluğunu aşkara çıxarmağa imkan verir. Deməli, dil vahidləri arasında hələ öyrənilməmiş struktur əlaqələr sahəsi müqayisədə təzə tədqiqata cəlb edilmiş geniş bir şöbədir. Ənənəvi metodlardan fərqli olaraq, sintaksis artıq transformasiya nəzəriyyəsinin gətirdiyi yeni problematika ilə zənginləşmişdir ki, bu da əsasən, cümlələr arasındakı struktur əlaqələrin öyrənilməsi ilə bağlıdır. Transformasion qrammatikanın irəli sürdüyü bir çox yeni və maraqlı ideyalar içərisində "sintaktik törəmə" xüsusi yer tutur. "Sintaktik istehsal" ideyası sintaksis bəhsində önəmli yer tutan "sintaktik proses" anlayışını yeni mövqedən şərh etməyə şərait yaradır. Transformasion metod özünün yeni orijinal ideyaları ilə bərabər qüsurlardan da xali deyildir.Məsələn, transformasion metod dilin strukturunu təsvir edərkən dil faktlarını məntiqi nöqteyi-nəzərdən şərh etməyə çalışır. Bu da faktların linqvistik mahiyyəti ilə bəzən ziddiyyət təşkil edir. Bunu biz "nüvəli cümlələr", "ingilis dilində nüvəli cümlələrin növləri" timsalında görə bilərik. Nüvəli cümlələr, transformasion qrammatikada təsvir edildiyi kimi, təbii cümlələrə iki yolla keçirlər: bilavasitə və

bilvasitə. Bilvasitə dedikdə onların transformaları, yəni məchul növ nəzərdə tutulur. Yalnız birinci halda nüvəli cümlələr təbii cümlənin komponentini təşkil edir. İkinci halda isə onlar təbii cümlələr haqqında təsəvvür yaradır, çünki onlar təbii cümlələrin tərkibinə keçmir. Quruluşlarının fərqlərinə baxmayaraq, məchul növlərdə də transformasion şəkildə olsa da məlum növlər kimi nüvəli cümlələrin mövcudluğu onların məntiqləşdirilməsi kimi görünərdi.

2.4. Sintaktik paradiqma və onun oxşar strukturlarda xüsusiyyətləri

Cümlənin struktur dəyişiklikləri məsələsi birbaşa sintaktik paradiqmatika ilə bağlıdır. Sintaktik paradiqmatika isə mövcudluq tapdığına görə transformasion qrammatikaya borcludur. Ona görə də transformasion qrammatika çərçivəsində sintaktik paradiqmatikanın bəzi əmələ gəlmə məqamlarına nəzər saldıqda oxşar sintaktik struktur dəyişmələri bu və ya digər dərəcədə aydınlaşar.

Transformasion qrammatikada struktur cəhətdən fərqlənən lakin semantik baxımdan uyğun konstruksiyaların, cümlələrin, söz birləşmələrinin sırası sintaktik paradiqma kimi başa düşülür. Semantik cəhətdən uyğunluq isə leksemlərin və situasiyanın ümumiliyi kimi başa düşülür. Situasiyanın ümumiliyi onun üzvləri arasındakı dəyişməz əlaqələr kimi başa düşülür. Məsələn:

(1) The dog bit the man.

(2) The man beat the dog.

Cümlələrinin eyni leksemləri (semantemləri) vardir, lakin müxtəlif situasiyaları təqdim edirlər və ona görə də bir-birinin transformaları adlandırıla bilməz.

Transformasion paradiqma semantik ekvivalentliyə əsaslanır. Transformasion qrammatikanın banilərindən olan Z.Harris ekvivalent əvəzlənmələr fikrinə (sintaktik cərgənin ekvivalent əvəzlənmələri nəzərdə tutulur) substitusiya metodu vasitəsilə gəlmişdir. İkimənalı konstruksiyanı eyniləşdirərək o, bu ekvivalenti eyniləşdirilən konstruksiyanın yerinə qoyur [170, s.145].

Sonra isə sintaktik cərgə semantik ekvivalentliyin dayağı kimi funksional ekvivalentlə əlaqəni itirir.

Sintaktik paradiqmatikada funksional ekvivalent anlayışı periferik (mərkəzdən uzaq) səciyyə daşıyır. Əslində, qarşı-qarşıya qoyulan ekvivalentlər bir-birindən fərqlənirlər. Funksional ekvivalent mənanın "yığılmasına", "yığcamlaşmasına" imkan verir. Məsələn:

I see that the train is coming - I see that.

Ümumiləşdirici komponent sintaktik-semantik paradiqmanın üzvü ola bilmir. Semantik ekvivalent, funksional ekvivalent kimi, semantik cəhətdən bir-birinə yaxın olan konstruksiyalarda həmişə öz korelyatının mövqeyini tuta bilmir:

The student is reading a book və *Reading of the book by the student.*

Hər iki konstruksiya qarşılıqlı surətdə bir-birini əvəz edirlər. Bununla belə sintaksis sahəsində paradiqmatik konsepsiyanın formalaşması xüsusiyyətlərini izləyərək semantik cərgəyə bu və ya digər dərəcədə təsir göstərən funksional uyğunluq ideyasından yan keçmək olmaz.

Transformasion paradiqmanın təqdimatı bir sıra problemlərlə bağlıdır. Daha aktual hesab olunan mənanın invariantlığı və minimal nüvə strukturunun təyin olunmasıdır. Semantik invariantı, qrupun mərkəzinə hansı mövqedən baxmaq lazımdır? Hansı sintaktik strukturu ilkin, hansını törədici hesab etmək lazımdır? Paradiqmatik cərgə ilə nüvəli strukturlar arasındakı münasibət tərs mütənasibdir. Nüvəli strukturlar nə qədər az olarsa, paradiqmatik cərgə o qədər geniş olar və əksinə. Bir sıra tədqiqatçılar nüvəli strukturları və nüvəli cümlələri fərqləndirməyi təklif edirlər. Onlar arasındakı əlaqə həm konstruktiv səciyyəli, həm də semantik invariant əlaqəli ola bilər.

Transformasion qrammatikada ilkin strukturun yayılma sərhədinin müəyyən edilməsi əsas hesab edilir. Çoxkomponentli, kifayət qədər geniş cümlə paradiqmanın qurulması üçün əsas ola bilməz; çünki cümlənin mümkün olan dəyişiklikləri (həm struktur cəhətdən, həm də onun ayrı-ayrı komponentlərinin dəyişiklikləri) bir çox cəhətlərlə, onların çoxluğu ilə ifadə edilir. Faktiki olaraq cümlənin dəyişikliklərinin, variantlarının sayı hesaba gəlmir. Məsələn, The parents forgive their son his behaviour. Bu cümləni müəyyən mənada (əgər feilin valentliyi nəzərə alınarsa) nüvəli cümlə hesab etməklə Fillmore on beş cür qayda tətbiq etməklə dəyişikliyə məruz

qalan 200 yeni (törəmə) cümlə almışdır. Cümləni azı bir komponent genişləndirməklə törəmə strukturların sayı kifayət qədər artır. Ona görə də dilin sintaktik sistemində nüvəli cümlələrin sayının çox böyük kəmiyyətlə təqdim edilməsinin əleyhinə çıxılır. Burada nüvəli cümlələrin variantlarını genişlənmə və substitusiya qaydaları ilə təmin etmək lazımdır [218, s.98].

Tədqiqatçılar paradiqmanın (cümlənin variantlarının, dəyişikliklərinin) iyerarxik quruluşuna diqqət yetirirlər. Bu iyerarxiyadan kənarda qalan bu və ya digər dərəcədə qeyri-qənaətbəxş hesab olunmalıdır. Aşağıdakı konstruksiyalar arasındakı uyğunluğu müəyyən etmək kifayət qədər mürəkkəbdir:

The boy writes.

Why doesn't the boy write?

Boy, write!

Boy, you shouldn 't have written.

Let the boy write!

The boy must wtite.

It goes without saying that the boy is writing.

This boy writes.

Yuxarıda verilən konstruksiyaların bir sıraya qoyulmasi birinci halda, formal-qrammatik faktorla, ikinci halda, leksik faktorla, üçüncü halda, intonasiya, dördüncü halda, bu faktorların hər hansı kombinasiyası ilə bağlıdır. Çex dilçisi R.Mrazek göstərir ki, uyğun olan konstruksiyaları iyerarxik (bir-birindən asılı) şəkildə təsəvvür etmək zəruridir. Həm aparıcı, həm də törəmə konstruksiyalara "növ" terminini tətbiq etməklə öz işini bir qədər də çətinləşdirir. Belə növlərin miqdarı bu və ya digər slavyan dillərində bir neçə yüzə çatır [264, s.68].

1. Cümlənin dəyişiklikləri, yəni sintaktik paradiqması D.S.Uortun əsərində transformasion nəzəriyyəyə əsaslanır [291, s.120-140].

D.S.Uortun paradiqmatik konsepsiyası aşağıdakı əsas müddəalara əsaslanır.

2. Dilin sintaktik səviyyəsi təkcə morfoloji və semantik terminlərlə təsvir oluna bilməz. Sintaksis bəhsi üçün relevant olsalar da morfoloji vasitələr və semantik əlaqələr onun (sintaksisin) mərkəzindən aralı – periferiyada dururlar.

3. Əsasını nüvəli cümlələr təşkil edən (sayı çox olmayan) sintaksis daxili əlaqəli, iyerarxik cəhətdən nizamlı bir sistemdir.

4. Sintaksisin sistemli səviyyəsinin aşkar edilməsini transformasion metod öz üzərinə götürməlidir. Lakin transformasion metod sintaksisi sistemli təsvir etməkdən ötrü mümkün olan metodlardan biridir. Bu metod hələ işlənmə mərhələsindədir və bir sıra dillərə tətbiq edilməklə sınaqdan çıxarılmalıdır.

5. Sintaktik paradiqma bir-birindən ən azı bir morfem ilə fərqlənən, aralarında uyğunluq olan kompleks sintaktik strukturlardan ibarətdir. Ən sadə paradiqmalar müvafiq morfoloji paradiqmadan cümlə daxilində fərqlənmirlər; daha mürəkkəb paradiqmalar isə morfoloji səviyyənin çərçivəsindən çıxır.

Paradiqmalar sadə və kompleks olurlar. Sadə paradiqmaların tərkibində isə düzxətli və əyri xətli paradiqmalar mümkündür. Sadə düzxətli paradiqmalarda dəyişikliyə məruz qalan yalnız o qrammatik mənalardır ki, onlar bir-biri ilə uzlaşma əlaqəsinin şərtləri ilə bağlıdırlar. Məsələn:

I saw him.

You saw him.

He saw him.

We saw him. və s.

Zaman formasını və obyekti dəyişməklə çoxsaylı paradiqma almaq olar. Lakin onların hamısı düzxətli olacaqdır.

Sadə əyrixətli paradiqmada komponentlər arasında daha möhkəm rabitə vardır. Belə ki, bəzi dillərdə, məsələn, serb dilində paradiqma şəxs formasının dəyişməsi ilə məhdudlaşmır, hətta üçüncü şəxsdə söz sırasının dəyişməsini tələb edir. Üçüncü şəxs qadın cinsində olan əvəzliklə ifadə olunduqda məsələ bir qədər də mürəkkəbləşir. Üçüncü şəxsə keçid təkcə söz sırasının dəyişməsini deyil, obyekt halındakı əvəzliyin formasının da dəyişməsini tələb edir. Rus dilində zaman formasına görə dəyişmələr predikativin halının dəyişməsinə gətirib çıxarır. Məsələn:

Он профессор.

Он был профессором.

Он будет профессором.

Adlıq hal ilə təsirlik halı zaman formalarına görə dəyişirlər. İngilis dilində isə bu dəyişiklik yalnız bağlayıcı feilin dəyişməsi ilə məhdudlaşaraq predikativə aid edilmir, Məsələn:

He is a professor.

He was a professor.

He will be a professor.

Buradan belə bir nəticə çıxartmaq olar. Dillər arasındaki struktur fərqlər bu dillərin ayrı-ayrı cümlələrinin müqayisə olunması ilə deyil, onların paradiqmalarının müqayisəsindən aşkar olur.

Kompleks paradiqmada bir sıra qrammatik mənalar dəyişikliyə uğrayır, Məsələn:

He is a teacher.

I consider him my teacher.

He is acknowledged (to be) the best teacher. və s.

Kompleks paradiqmada baş verən dəyişikliklər kifayət qədər sərbəstdir. Belə paradiqmanı bir dəstəyə bənzətmək olar. Bu dəstənin tərkibindəki hər bir qanad yeni bir dəstə yaradır. Dəstənin mərkəzində paradiqmalarin paradiqmasını başlayan hibrid paradiqma durur. Hibrid paradiqma taqmaları, taqmapar öz xüsusi paradiqmalarını - allotaqmaları yaradır, və s. Məsələn: hibrid paradiqma: *The student reads a book.*

Taqma: *(1) The students read books.*

(2) Books are read by the students.

(3) The book which is read by the student.

(4) The student is reading books.

(5) The books that are read by the students.

(6) Reading of the book by the students.

(7) The books that the students read. və s.

Allotaqma: (a) *(1) The students read the book.*

(2) The students read the book yesterday.

(3) The students will read the book.

(b) (1) The student reads a book.

(2) The student is reading a book.

(3) The student has read a book. və s.

Kompleks paradiqma transformasion cərgə təşkil etdiyi halda, sadə düzxətli və əyrixətli paradiqma modellərarası dəyişiklikdən kənarda qurulur. Deməli, sintaktik paradiqmatika transformasion qrammatikadan asılı deyildir. Lakin sintaktik paradiqmatikanın elmi cəhətdən əsaslandırılmasında transformasion-generativ (törədici) qrammatikanın rolunu inkar etmək olmaz.

Sintaksisin əsas vahidi olan cümlə bir neçə paradiqmatik cərgənin üzvüdür. Bu cərgəyə daxil olmağın əsasında aşağıdakı kateqoriyalardan azı biri ilə qarşı-qarşıya qoymaq durur: zaman, modallıq, şəxs, kəmiyyət. Bütün dəyişikliklər verilən modelin daxilində baş verir. Modellər arasındakı fərqlər sintaqmanın strukturu, onun üzvlərinin kateqorial mənsubiyyəti, modelin paradiqmalarının xarakteri və miqdarı ilə müəyyən edilir. Cümlənin paradiqmasını feilin morfoloji paradiqması ilə eyniləşdirmək olmaz. Belə ki, *I write, You write, She writes* eyni feilin şəxslər üzrə dəyişməsi olub cümlənin paradiqması ilə əlaqəsi yoxdur.

Cümlənin forması sözün qrammatik formalarının sadəcə olaraq cəmindən ibarət deyildir. Cümlənin tərkibini təşkil edən söz formaları sintaqmatik əlaqələrə girərək keyfiyyət etibarilə yeni linqvistik vahid yaradırlar [142, s.71].

Göstərilən kateqoriyalar arasında fərq qoyulmur, iyerarxik asılılıqdan yan keçilir. Onlar hamısı (zaman, modallıq, kəmiyyət, eins və s.) faktiki olaraq cümlə strukturunun səciyyəsi üçün eyni dərəcədə qiymətli hesab edilir. Bu baxımdan yanaşmaqla müxtəlif modeller qurulur.

(1) He reads.

(2) The boy reads.

Yuxarıdakı cümlələr müxtəlif modellərin təzahür formaları kimi qəbul edilir. Birinci cümlədən fərqli olaraq ikinci cümlə şəxs kateqoriyasına görə qarşılığa malik deyildir. Bundan əlavə, bu cümlələrin mübtədaları müxtəlif nitq hissələri ilə ifadə edilir. Cümlənin daxili dəyişiklikləri xarici (transformasion) dəyişikliklərlə tamamlanır.

Bəzi müəlliflər, məsələn, T.P.Lomtev paradiqma anlayışını həm cümlənin müxtəlif modelləri arasındakı əlaqə kimi semantik invariantla bağlayır, həm də müxtəlif söyləmlər arasındakı əlaqə kimi qrammatik cəhətdən eyniləşdirir [121, s.36]. Məsələn:

(a) (1) The builders built the house.

(2) The house was built by the builders.

(b) (1) Peter liked Ivan.

(2) Feodor hated Sergey.

(3) Pavel disguised Sergey.

Paradiqmatik cərgədən ötrü daimi olan mənadır, dəyişkən olan isə formadır; paradiqmatik seriyadan ötrü isə daimi olan forma, strukturdur, dəyişkən olan isə mənadır.

Paradiqmatikaya dair N.Y.Şvedovanın nəzəriyyəsi ona əsaslanır ki, cümlə təkcə nitqin funksional vahidi deyildir, o, həm də sözdən və söz birləşmələrindən onu fərqləndirən xüsusi formal əlamətlərə malikdir. Qrammatikanın öyrənilməsində müstəqil bir obyekt olan cümlə formal səciyyəvi xüsusiyyətlərin toplusundan ibarətdir. Buraya cümlənin struktur (ilkin) sxemi, formadəyişmə (paradiqma) sistemi, müntəzəm reallaşma (sintaqmatik dəyişmələr) daxildir [173, s.169].

Cümlənin struktur sxemi dedikdə mücərrəd nümunənin konkret leksik tərkibdə sərbəst surətdə fəaliyyət köstərməsi başa düşülür. Mücərrədlik və sərbəstlik cümlənin struktur sxeminin ən mühüm əlamətlərindən biridir. Cümlənin müntəzəm reallaşmasını müəyyən edən faktorlar bunlardır: sxemin tam və yarımçıq aşkara çıxarılması, cümlənin baş üzvlərinin bağlılıq səciyyəsi (bağlayıcı feillərin iştirakı, yarımçıq feillərin buraya daxil edilməsi imkanı), predikatın əvəzlənməsi imkanı və s. Sərbəst və kontekstlə şərtləndirilən müntəzəm reallaşma növləri də fərqləndirilir.

Predikativlik anlayışı altında bir-biri ilə qarşılıqlı əlaqədə olan modallıq və zaman kateqoriyaları ilə ifadə olunan söyləmin gerçəkliklə uyğunluğu başa düşülür. Predikativlik cümlənin qrammatik mənasını təşkil edir. Predikativlik meyarına istinad etmək daxili struktur dəyişmələrinin modallıq və zaman əlamətləri çərçivəsində sıranın məhdudlaşmasına gətirib çıxarır. Şəxs, kəmiyyət, cins əlamətlərinə görə

qarşılaşdırılmaqla aparılan dəyişikliklər cümlənin struktur əsasını səciyyələndirmək üçün əsas deyildir. Burada cümlənin formaları və paradiqmaları müəyyən olunmalıdır. Cümlənin formaları dedikdə, onun struktur əsasını dəyişməyən və bu və ya digər sintaktik mənaya malik olan hər cür növ dəyişiklikləri başa düşülür. Cümlənin paradiqması isə dil sistemində müntəzəm mövcudluq tapan cümlənin bütün növ dəyişmələrinin toplusudur ki, bunlar da obyektiv modallıq və sintaktik zaman kateqoriyalarının ifadə olunması ilə bağlıdır. Cümlənin formasının dəyişməsində feil, ədat, söz sırası iştirak edir. Cümlənin paradiqması indikativ və qeyri-real növ formalarından toplanır. İndikativ daxilində zaman formaları fərqləndirilir. Qeyri-real növlər daxilində zaman qeyri-müəyyən şəkildə ifadə edilir. Lakin hər bir halda zaman və modallıq kateqoriyaları mürəkkəb yekdilliklə paradiqmanın əsasını, dayağını təşkil edir. Qeyri-predikativ komponentlərə əsaslanan paradiqmadan predikativ cərgənin fərqi məhz bundan ibarətdir. Məsələn, tam paradiqma:*(1) The sky is clear. (2) The sky was clear. (3) The sky will be clear. (4) If the sky were clear. (5) Had the sky been clear. (6) Let the sky be clear.* və s.

N.Y.Şvedovanın fikrincə, göstərilən dəyişikliklər sintaktik səciyyə daşıyır və heç də feilin morfoloji paradiqmasına aidiyyəti yoxdur [173, s.169].

F.Daneşin nəzəriyyəsinə görə cümlənin paradiqması morfoloji paradiqma formaları olub cümlənin strukturuna daxil olur. Mümkün olan paradiqmatik dəyişmələrin sayı yalnız sintaktik və dəyişkən kateqoriyalarla müəyyən edilir; sintaktik kateqoriya kimi isə indikativ, kondisional, mövqeyindən asılı olmayaraq zaman, şəxs, kəmiyyət, və mövqeyindən asılı olaraq sifətlərin halları hesab edilir. Sonra isə feilin paradiqmasına daxil olmayan bir kateqoriya kimi imperativ paradiqmatik dəyişmələr sırasından çıxarılır [216, s.6].

Predikativ cümlə kimi cümlənin paradiqmasını onun morfoloji paradiqması ilə R.Mrazek və R.Adams eyniləşdirirlər. V.S.Yurçenko isə rus dilindəki *быть* bağlayıcı feilinin sıfır formasının yalnız feilə aid olduğunu əsas götürərək onun sintaktik quruluşa, cümlənin paradiqmasına heç bir aidiyyəti olmaması tezisini irəli sürür [182, s.63-65].

Bu tezis sintaktik zaman anlayışının çoxmənalılığından (morfoloji zaman

formasının birmənalı olmasına baxmayaraq), feilin paradiqması ilə cümlənin paradiqmasının uyğun gəlməməsi (feilin paradiqmasında şərt və təhrik növlərini əmələ gətirən formalar yoxdur), paradiqmanın ayrı-ayrı formalarında feilin iştirak etməməsi ilə müdafiə edilir. Morfoloji kateqoriyalarla sintaktik kateqoriyaların uyğun gəlməməsi məsələsini digər tədqiqatçılar da qeyd etmişlər.

Dil ideal sistem deyildir, onun tərkibində qüvvələrin tam bərabərliyinə nail olmaq, demək olar ki, mümkün deyildir. Ona görə də həddindən artıq məntiqi və qrammatik quruluşun sadələşdirilməsi heç zaman inandırıcı olmazdı [128, s.42].

Cümlənin paradiqması modallıq və zaman kateqoriyalarına görə struktur daxili dəyişmələr kimi onun üzərinə düşən məhdudiyyətlərdən asılı olaraq çoxşaxəli variantlar yaradır. Başqa sözlə, paradiqma birüzvlü və çoxüzvlü ola bilər. Paradiqmanın üzərinə düşən məhdudiyyət həm sintaktik, həm də qeyri-sintaktik səciyyəli ola bilər. Sonuncular leksik səviyyə ilə sintaktik səviyyənin sərhəddində daha çox leksik məhdudiyyətlə bağlıdır. Sintaktik səviyyənin məhdudiyyəti isə ilkin formanın strukturu və onun ümumi mənası ilə şərtləndirilir. Məsələn:

Train!

Fire!

Explosion, və s. tipli cümlələrin paradiqması sıfıra bərabərdir.

Sintaktik paradiqmatika nəzəriyyəsi mövcud sintaktik müddəalara yenidən baxılmasını, onların dəqiqləşdirilməsini tələb edir. Söhbət formal və funksional xarakterlərin daha ciddi fərqləndirilməsindən gedir, prinsipial, paradiqmatik təsnifatdan gedir. Burada təklif olunan kompleks metod, formal və obyektiv meyara istinad edilməsi, cümlənin struktur keyfiyyətləri kimi relevant və qeyri-relevant əlamətlərin fərqləndirilməsi meyli diqqəti cəlb edir.

R.Adams paradiqmanın adi transformasion təsəvvürünü bir qədər dəyişdirir. Müəllif söz birləşməsini sintaktik paradiqmaya daxil etmir və bunu onunla əsaslandırır ki, söz birləşməsinin aparıcı komponentinin paradiqması ilə morfoloji paradiqma üst-üstə düşür. Mahiyyət etibarilə düzgün sual qoyulur: cümlənin strukturu, onun üzvləri hansı həddə qədər açıla və dəyişdirilə bilər? Onların leksik tərkibi nə dərəcədə nəzərə alınmalıdır? Müəllifin fikrincə cümlənin genişləndirilməsi

onun quruluş sxemi ilə məhdudlaşdırılmalıdır. Cümlənin struktur sxeminə subyekt və predikatdan başqa obyekt və zərfliklər (komplimentlər) də daxil edilir ki, onlar da feilin və ya predikativin valentliyi ilə şərtlənirlər. Qrammatik vahid kimi cümləni formalaşdıran aşağıdakı amillər hesab edilir:

1) cümlənin struktur əsası (subyekt + predikat + kompliment);

2) feilin və ya predikativin valentliyi ilə şərtlənməyən determinativlər;

3) birinci və ikinci amilləri konkretləşdirən atributlar [187, s.98].

İndiyədək biz sintaktik paradiqmatika məsələlərinə, o cümlədən cümlənin tərkibində, struktur sxemində baş verən dəyişikliklərdən bəhs etdik. Burada əsas mövqe transformasion qrammatikaya, onun paradiqmatik mövqeyinə verilmişdir. Transformasion qrammatikada paradiqmatik dəyişmələrin miqyası çox genişdir. Bu genişlik, hər şeydən əvvəl, sintaktik vahidlərin arasmda fərq qoyulmadan onların sintaktik paradiqmaya daxil edilməsinə aiddir. Söz birləşməsi ilə cümlənin sintaktik paradiqmaya eyni statusla daxil edilməsi struktur səviyyədə cümlə ilə söz birləşməsi arasında təkcə semantik invariantın ümumiliyindən başqa bir şey deyildir. Bununla belə sintaktik səviyyədə hər iki vahidin – söz birləşməsi və cümlənin sintaktik paradiqmasını şərh etməyin əsasları yetişmişdir. Lakin linqvistik ədəbiyyatda göstərildiyi kimi, söz birləşmələrinin paradiqması, onun paradiqmatik variantları yaranarkən söz birləşməsinin aparıcı elementinin deyil, ona tabe olan elementlərin variativliyinə diqqət yetirmək lazım olardı. Burada feili söz birləşmələri nəzərdə tutulur ki, onların paradiqması feilin valentliyi ilə şərtləndirilir. Sintaktik mənanın cüzi dəyişməsi ilə struktur invariant dəyişmir.

Cümlənin struktur dəyişmələrinə, onun paradiqmasına olan maraq müasir qrammatik tədqiqatlarda mühüm yer tutur. Belə bir cəhd onunla izah olunur ki, müasir dilçilikdə əsas diqqət dilin dinamik tərəfinə yönəldilir. Sinxron dinamikanın dili proses kimi anlaması, dilin sinxron statikası kimi anlaşılmasının əleyhinə getmir. Dilçiliyin hal-hazırkı vəziyyətində isə sintaktik paradiqmatika problemi, o cümlədən cümlənin paradiqması problemi öz həllini tam tapmamışdır.

III FƏSİL

LİNQVİSTİK MODEL ANLAYIŞI

3.1. Dilin modelləşdirməsi haqqında

Dilçilik ədəbiyyatında model və modelləş(dir)mə anlayışları ilə bağlı verilən izah və şərhlər onların dərk olunmasında çətinliklərə səbəb olur. Başqa sözlə, modelləş(dir)mə anlayışı yalnız dilçiliyə aid olmadığı üçün "Model və modelləş(dir)mə nədir?" sualı verilən zaman bir sıra fərziyyələr, assosiasiya və mənalar ortaya çıxır onların da izahına ehtiyac vardır.

Ümumilikdə, *model* sözü latın mənşəli "modulus" sözündən götürülüb, *tərz, ölçü, nümunə* kimi başa düşülür.

N.Xomskinin və onun ardıcıllarının nəzəriyyələri ilə tanış olan istənilən dilçi modeli dərhal cümlə və söz birləşməsi yaratma ilə əlaqəli olan sintaktik strukturlarla əlaqələndirir. N.Xomskiyə görə, cümlənin qurulmasında model funksiyası yerinə yetirən müəyyən bir sintaktik nümunəyə tabe olur [207, s.241].

Lakin bütün bu linqvistik proseslərdə modelləşdirmənin və modelin rolunu dərk etmək üçün ilk öncə model anlayışının ümumi izahını vermək vacibdir. Model elmi dərketmə vasitəsi kimi real mövcud olan obyektin xassələrini özündə saxlayan və onun öyrənilməsi üçün xüsusi yaradılan obyektdir. Modelləşdirmə isə modelin yaradılması, ifadə edilməsi prosesidir. Modelləşdirmə zamanı xüsusi yaradılmış obyekt, yeni model prototiplə oxşarlığı olan və təsvir vasitəsinə xidmət edən və ya prototipin davranışını proqnozlaşdıran obyekt kimi başa düşülür. Dilçilikdən uzaq olsa belə, belə bir misal yuxarıdakıları anlamaq üçün yaxşı nümunədir: Qlobus yerin modelidir.

Dilçilik ədəbiyyatında qeyd olunur: *"Dilin modelləşdirmə nümunələrinə şifahi və yazılı şəkildə rast gəlmək olur. Məsələn, dəniz bayraqları, morze əlifbası, teleqraf və s. modelləşməyə ilkin nümunə kimi göstərmək olar. Praqa dilçilik məktəbinin nümayəndəsi Yelmslevin fikrinə görə, işıq siqnalları, morze əlifbası və bu kimi modelləşdirmə nümunələrinin öyrənilməsi dilçiliyə xeyir verə bilər, çünki təbii dilə*

məxsus mürəkkəbliklərdən məhrum olan bu strukturlar ibtidai modellər şəklində təzahür edir" [40, s.132].

Dilin modelləşdirməsi ilə bağlı linqvistik işlər göstərir ki, tədqiqatçı əsasən modelin mətni tədqiqata tətbiqinin mümkünlüyünün öyrənilməsinə səy göstərir. Təsvirin formal dili çox zaman mürəkkəb olur və dilin struktur nəzəriyyəsinin müzakirəsini mürəkkəbləşdirir. Beləliklə, linqvistik modellərin qurulmasında məqsəd və vəzifələri yadda saxlamaq lazımdır.

3.2. Dilin modelləşdirilməsi probleminə dair

Modelləşdirməyə ehtiyac elmin öz obyektini müşahidə edə bildiyi bütün elmlərdə ortaya çıxır. Obyekti öyrənməyin yeganə yolu isə ilkin və son məlumatları müqayisə yolu ilə obyektin obrazının qurulmasıdır, yəni onun quruluşu haqqında fərziyyənin irəli sürülməsidir. Dilçinin üzərində işlədiyi yeganə ünsür mətndir, onu maraqlandıran insanın nitq fəaliyyətinin əsasını təşkil edən dil mexanizmini dilçi müşahidə edə bilmir. Ona görə də dilçilikdə obyekti dərk etmək üçün lazım olan vasitələrdən biri də modellərin qurulmasıdır.

Bir sıra dəqiq elmlərin istifadəsi və inkişafı müxtəlif növ modellərin geniş istifadəsi ilə bağlıdır. Dəqiq və mexaniki elmlərdən fərqli olaraq humanitar elmlər olan psixologiya, pedaqoqika, sosiologiya, o cümlədən dilçilik elmində modellərdən nadir hallarda istifadə olunmuşdur.

Modelləşdirmə elmin universal metodudur. Modellərin istifadəsi öyrənilən obyektdən deyil, onu anlamanın səviyyəsindən asılıdır. Geniş planda modelləşdirmə müşahidə və təcrübə kimi anlama metodları ilə əlaqəli mövqeyə malikdir.

Humanitar elmlərdə təbii şəraitdə müşahidə aparmaq üçün baza sıfıra yaxındır, bu elm sahələrində əsas rol mücərrəd və fikri təcrübəyə əsaslanır.

Son illərə qədər dilçiliyin fonetikadan başqa bütün şöbələri demək olar ki, modelləşdirmə metodlarından kənarda qalmışdır. Struktur dilçiliyin meydana gəlməsi və inkişafı sintaksis və morfologiyanın modelləşdirməsinə gətirib çıxardı. Dilçilikdə strukturalizmin yaranması F.de Sössürün adı ilə bağlıdır. Strukturalizm öz yaranması üçün dilin sistemliliyi prinsipinə borcludur. Dilin sistemliliyi dedikdə, dilin bütün

ünsürlərinin öz aralarında əlaqədə olan işarələr sistemi kimi fəaliyyəti nəzərdə tutulur.

Bəzi mənbələrdə dilin modelini faktların ümumiləşdirilməsinin nəticəsi kimi meydana çıxan və məlumatların bəzi ünsürlərini verən mətn materialının təsviri adlandırırlar. Bu mənada hər hansı bir lüğət və qrammatikanı dilin modeli hesab etmək olar.

Çox vaxt modeli mətnin verilənlərinin yaranması üsulu ilə bağlayırlar. Bu vaxt model dilin kiçik vahidlərinin təsviri zamanı istifadə olunan rəmz, sxem və və şəkillərlə əlaqələndirilir. Burada modeli səslərin yazılması və sonrakı təhlilinin rahatlığı üçün vasitə olan transkripsiya ilə müşahidə etmək olar. Bu mənada model metadil kimi çıxış edir.

Lakin əsas mənada model anlayışına başqa cür yanaşılmalıdır. XX əsrin 60-70-ci illərində fransız dilçiliyinin məşhur nümayəndəsi Andre Martine yazır: *"Əsas mənada model dilin strukturunun nəzəriyyəsi və ya daha dar mənada dilin funksiyalaşdırma mexanizmi kimi başa düşülməlidir. Belə ki, modelin vacib hissəsi onun dilidir, struktur dilçilikdə model təbii dilin təbiətində olan strukturunun semiotik analoqu kimi çıxış edən müəyyən nəzəriyyənin rəmzi aparatıdır"* [261, s.192].

Formal və riyazi metodların istifadə olunduğu elmlərdə nəzəriyyə sırf elmi anlayış daşıyır. Onun məqsədi bizim empirik biliklərimizə və hadisələri qavramağımıza izahat verməkdir. Müasir dilçiliyə görə, formalaşdırılmış və ya yarımformalaşdırılmış nəzəriyyələr formalaşdırılmamış nəzəriyyələri modellər adlandıraraq onlardan ayrılmağa çalışır. Deməli, modeli formalaşdırılmış və yarımformalaşdırılmış nəzəriyyənin sinonimi kimi başa düşürlər.

Ə.Rəcəbli yazır: *"Model anlayışının şərti digər anlayışlardan fərqlənir. Modelləşdirilmiş obyekti göstərmə əhəmiyyətli məqamdır. Əgər modeli, məsələn, tiplə onun təsviri üçün istifadə edilmiş cümlə və ya sxemlə eyniləşdirsək, onda onun üçün orjinal məhz həmin cümlə olacaq. Dil vahidləri əyani surətdə hissi təmsil etməyə malik olduğundan cümlənnin strukturunun tədqiqi bu modelləşdirməyə müraciətə haqq qazandırır. Onda bu zaman orijinal təkcə bir mülahizədə deyil, bütün*

məlum olan mülahizələrdə bilavasitə müşahidə edilməmiş fenomen olacaq" [38, s.342].

Dilin modelləşdirilməsi ilə bağlı dilçilik tədqiqatları göstərir ki, modelin, əsasən, mətni materiala tətbiqinin mümkünlüyünün öyrənilməsinə səy göstərmək lazımdır. Təsvirin formal dili çox zaman mürəkkəb olur və dilin struktur nəzəriyyəsinin müzakirəsini mürəkkəbləşdirir. Bununla belə linqvistik modellərin qurulmasında məqsəd və vəzifələri yadda saxlamaq lazimdır.

Modellərin aşağıdakı xüsusiyyətlərinə nəzər yetirərək öyrənilməsi daha səmərəli şəkildə ola bilər. Modellərin müxtəlif xüsusiyyətləri vardır:

a) Elə hadisələri modelləşdirmək olar ki, əsas xüsusiyyətləri onların struktur xüsusiyyətləri ilə bitsin, fiziki xüsusiyyətləri ilə bağlı olmasın. Obyektin təkcə funksional xüsusiyyətləri əhəmiyyətli olduğu üçün funksiyasına görə ona oxşayan hər hansı bir tərtibat obyektin modeli hesab edilə bilər. Modeldən tələb olunur ki, onun davranışı obyektin davranışına oxşasın. Məsələn, Azərbaycan dili feillərinin təsriflənmə modeli və obyektin özü. Yəni azərbaycanlıların beyninin sinir hüceyrələrində kodlaşdırılması eyni bir substansiya ilə həyata keçirilsin. Bütün bu hallarda onun ifadə etdiyi qaydalar Azərbaycan dili feillərinin təsriflənməsi üçün düzgün qaydalar kimi qəbul edilməlidir.

b) Model həmişə obyektin ideallaşdırılmasıdır. Real hadisələr mürəkkəb olur. Mürəkkəb hadisələri anlamaq üçün isə ən primitiv, sadə və ümumi hadisələri anlamaq vacibdir. Bu üsul hələ məktəb dərsliklərində, laboratoriya işlərində fizika və kimya dərslərində praktikada təmiz halda rast gəlinməyən ideal hadisələri təsvir edən süni və asanlaşdırılmış məntiqi məsələlər kimi qarşıya çıxır.

Dilçilikdə də obyektin ideallaşdırılmasından istifadə edilir. Belə ideallaşdırılma canlı varlığın kodlaşdırılması və faktların sxemləşdirilməsinə gətirib çıxarır. Dilçilkdə "əvəzetmə" və "gümanetmə" prinsipi mövcuddur ki, linqvistik obyektlərin ideallaşdırılmasının sadə üsulunu özündə təcəssüm etdirir. "Əvəzetmə" prinsipi çox vaxt sintaksisdə müxtəlif tip cümlələri təsvir etmək üçün istifadə olunur.

"Əvəzetmə" prinsipi nitqdə rast gəlinməyən, lakin bəzi nitq faktlarının izahında lazım olan söz birləşmələrinin qurulması prinsipinin tərkib hissəsidir. Məsələn: *Mən*

istəyirəm ki, yeyim və ya *Mən əmr edirəm ki, o gəlsin* dildə normal birləşmələr olsa da, nitqdə onlar təbiilikdən məhrumdurlar. Bu da başqalarının qarşısında dil materialının təmizliyinin əlamətidir. Bununla əlaqədar düzgün dil materialında nəyin deyildiyini və nəyin deyilə bilmədiyini fərqləndirmək çox vacibdir.

c) Adətən model real obyektlər haqqındakı anlayışlarla deyil, konstruksiyalarla, yəni təcrübə əldə edilmiş nəticələrlə deyil, müşahidələrin məcmusu və bəzi ümumi fərziyyələr əsasında sərbəst tərtib edilmiş anlayışlarla əməliyyat aparır. Hər hansı bir model müəyyən riyazi aparatın köməyi ilə fərziyyədən məntiqlə hasil edilmiş konstruksiyadır. Nisbilik nəzəriyyəsinin tədqiqi zamanı Eynşteyn yazır: *"Mən əminəm ki, məhz riyazi konstruksiyalar təbiət hadisələrinə açar verən anlayışlar və onları birləşdirən qanunları tapmağa imkan verəcəkdir. Təcrübə bizə lazım olan anlayışları seçməkdə kömək edə bilər, lakin o heç cür mənbə ola bilməz. Mən qədim adamların arzu etdiyi kimi xalis fikrin reallığı tutmağa qabil olduğunu həqiqət hesab edirəm"* [180, s.276].

Dilçilikdə, məsələn, rus dilçiliyində *дело, шоссе* tipli sözlər üçün sıfır fleksiya tipik konstruksiyadır. Bu sıfırlar bilavasitə müşahidə edilmir, lakin tədqiqatçı tərəfindən müşahidə olunan faktların izahında, əsasən, sözlərin sifətlə cins, kəmiyyət və hala görə uzlaşması faktının izahında işlədilir. Bu sahədə müasir struktur dilçilik klassik dilçiliyə yad olmayan prinsipləri inkişaf etdirir. İdealda linqvistik konstrukt fonetik və semantik substansiyalara müraciət etmədən nəzərdə tutulmuş hadisələr üçün lazım olan anlayışlardır. Bu, o demək deyil ki, məna linqvistik nəzəriyyənin əsası ola bilməz. Belə ki, dilin əsas funksiyası fikri nəql etmək və semantik modellərin qurulmasıdır ki, bu da tam təsvirin ayrılmaz hissəsidir.

Hər hansı model, eləcə də, linqvistik model formal olmalıdır. Modeldə ilkin obyektlər onları əlaqələndirən müddəalar və onlarla rəftar qaydaları aşkar şəkildə verilirsə, model formal hesab edilir. İdealda hər hansı formal modeldə müəyyən mənada formallıq anlayışı riyazilik anlayışı ilə kəsişir. Formallıq, dəqiqlik və birmənalılıq nəzəriyyədə ifadə olunan dilin xüsusiyyətləridir. Nəzəriyyənin dəqiqliyi onu təsdiq və ya inkar edən birmənalı eksperimentlərin qoyulmasını qəbul edir, lakin nəzəriyyənin dəqiqliyi və həqiqiliyi arasında heç bir məntiqi əlaqə yoxdur.

Modeli şərh etmək müəyyən predmet sahəsinin, məsələn, dilin obyektlərinin qoyuluşunun həqiqətə uyğunluğu və qanunlarını göstərmək deməkdir.

d) Hər hansı bir linqvistik model izahedici xüsusiyyətlərə malik olmalıdır. Ə.Rəcəbli yazır: *"Model aşağıdakı xüsusiyyətlərə malikdir:*

1) Köhnə nəzəriyyənin izah edə bilmədiyi faktları və eksperimentləri izah etməlidir;

2) Əvvəl naməlum olan, prinsipcə obyektin məlum davranışı haqqında qabaqcadan məlumat verməlidir, bu məlumat sonradan müşahidə və yeni eksperimentlərlə təsdiq olunur" [39, s.253]. Buradan görünür ki, həm 1-ci, həm də 2-ci vəziyyətdə modelin gücü nə qədər çoxdursa, təcrübi məlumatlara uyğunluq da bir o qədər çoxdur.

Birinci hala nümunə kimi Eynşteynin nisbilik nəzəriyyəsini göstərmək olar. Bu nəzəriyyə Eynşteynə qədər fizikada A.Maykelsonun müəmmalı görünən təcrübəsini izah etdi [180, s.171]. İkinci hala nümunə isə Mendeleyevin öz zamanında naməlum qalan elementlərinin kəşfini göstərmək olar. Və yaxud U.Leverin günəş sistemində daha bir planet olması haqqında hesablamalarının sonralar Neptun planetini aşkar edərkən sübut olunmasını göstərmək olar.

Dilçilikdə isə, A.İ.Smirnitskinin qeydlərinə nəzər salınır. O, düzəltmə sözlərin strukturu haqqında fərziyyə irəli sürür. O yazır: *"Sözdə kök və şəkilçilər diferensial mənaya malikdirlər. Bu bilavasitə nə birincilərə, nə də ikincilərə əşyavi mənaya malik olmağa mane olmur. Məhz buna görə də kök və şəkilçini eyni əsasda nəzərdən keçirmək lazımdır. Əsasın bölünməsinin şərtləri belə izah olunur: L əsası və onun daxilində A və B kəsikləri mövcuddur. Bu kəsiklər mənaya malikdirlər: bu halda ki, əgər 1) onlardan heç olmasa biri təkcə L əsasında yox, həm də hər hansı M əsasında başqa bir S kəsiyi və ya sıfırla rast gəlinirsə; 2) L və M seçilən ümumi əlamətlərə malik olan əşya və hadisələrə aiddirsə... Nəticədə bu ümumi səs kəsiyinin mənası yaranır, onun L və M əsaslarını fərqləndirən səs kəsikləri, o cümlədən sıfır da, labüd şəkildə L və M vasitəsi ilə işarələnən əşya, hadisə və s. fərqləndirici əlamətləri kimi başa düşülən həmin mənaları alır"* [152, s.25].

Digər bir misalda B.N.Qolovinin əsas düzəldən sözlərin morfoloji təhlil prinsipləri izah edilirdi. Dilçilikdə nadir əsasları olan *машина, смородина* və s. nadir şəkilçilərə malik olan *жен - их, рис - унок, пе - сня* və s. maraqlı nümunələrdir. Birinci növ sözləri o, düzəltmə hesab etmir. İkinci tip sözləri isə düzəltmə hesab edir. B.N.Qolovin kök və affiks morfemlərini məzmun dəyişikliyinə görə fərqləndirir. Kökün mənasını müəyyənləşdirmək üçün onu başqa vasitələrlə əlaqələndirmək olmaz. Biz real həyatda *бужен, малин* - in hansı element olduğunu bilmədiyimiz üçün *бужeнина, малина* sözlərinin kökləri kimi ayıra bilmərik. Əgər *смород - ин - а* və *мал - ин - а* sözlərində *ин* "giləmeyvə" bildirirsə, *мал* və *смород* həmin sözlərdə olan, onları bir-birindən fərqləndirən hansısa məna verir [93, s.34].

Əks düzəltmənin mövcudluğunu isə A.İ.Smirnitskinin tədqiqatlarında görmək olar. İngilis dilində *beggar (dilənçi)* sözündən *to beg (xahiş etmək)* və *chauffeur (sürücü)* sözündən *to chauffe (maşın sürmək)* sözlərini misal göstərmək olar. Hər iki söz fransız dilindən alınmadır. Rus dilində olan *зонтик* sözündən *зонт* sözünün əmələ gəlməsini də misal göstərmək olar. Bu söz holland dilindən rus dilinə keçmişdir *(zonnedek)* [152, s.15].

Linqvistik nəzəriyyə isə təkcə materialı izah etmir, həmçinin əvvəlcədən müşahidə olunmayan faktları qabaqcadan xəbər verir. L.B.Şerba bu haqda yazır: *"Materialın faktlarından mücərrəd sistem qurub onu yeni faktlarla yoxlamaq lazımdır. Nəzərə alınmalıdır ki, bu faktlar həqiqətə uyğundur yoxsa yox. Bu zaman dilçiliyə eksperimental üsul tətbiq edilir. Bu və ya digər sözün, bu və ya digər formanın mənası, bu və ya digər sözyaratma qaydası və s. haqqında fərziyyə irəli sürüləndən sonra onu yoxlamaq lazimdır. Müsbət nəticə postulatın düzgünlüyünü təsdiq edir. Lakin mənfi nəticələr ibrətamiz olur. Canlı dillərin araşdırılması nöqteyi-nəzərindən eksperimentin tətbiqi imkanı böyükdü"* [176, s.308-309].

N.Xomski linqvistik modelin izahedici gücünü eksperiment yolu ilə yoxlamaq təklifini verir: *"Model danışanın nitq fəaliyyətində işlədilmiş dil obyektini deyil, həm də hələ nitq praktikasında təsadüf edilməmiş, lakin prinsipcə yol verilən obyektlərini qurmağı bacarmalıdır. Dinləyənin nitq fəaliyyətini təqlid edən model təkcə modelin*

işlənib hazırlanması üçün ilkin material kimi xidmət edən nitq tələffüzlərini təhlil etmək bacarığına malik olmalıdır" [208, s.98].

İdealda modelin qabaqcadan xəbər verdikləri təcrübədə verilənlərlə yoxlanılır. Əgər göstəricilər kəmiyyət və keyfiyyətcə dəqiq ifadə edilirsə, bu təsdiqlənə bilər. Elmdə bir çox nəzəriyyənin yanlışlığı ona görə sübut edimişdir ki, onlar obyektin kəmiyyətini düzgün göstərməmişdilər. Dilçilikdə həm keyfiyyət, həm də kəmiyyət aspektini sübuta yetirən eksperimentlər tətbiq olunmağa başlanıb.

Beləliklə, modelin tərtibində bunlar nəzərə alınır:

1. Aydınlaşma tələb edən təsbit edilmiş faktlar.
2. Həmin faktları izah edən fərziyyələrin irəli sürülməsi.
3. Faktları qabaqcadan xəbər verən modellər şəklində həyata keçirilməsi.
4. Modelin eksperimentlər vasitəsi ilə yoxlanılması.

Burada təcrübə böyük rol oynayır, əgər müəyyən bir müddəalar sistemini eksperiment yolu ilə yoxlamaq mümkün deyilsə, onu nə model, nə də nəzəriyyə adlandırmaq olmaz.

3.3. Linqvistik modeller

Linqvistik modellərin təsnifatına müxtəlif cür yanaşılır. Təsnifatın birinci növünə nəzər salınsa, 3 cür model ortaya çıxır:

1. Konkret dil prosesləri və hadisələrin tədqiqat obyekti kimi çıxış etdiyi modellər. Bu modellər insanın nitq fəaliyyəti ilə bağlıdır. Bu modellərin hazırlanmasında Praqa strukturalizm məktəbinin səyləri böyükdür. Bu məktəbin dilçiləri nitq fəaliyyətinin səs baxımından öyrənilməsini tədqiq etmişlər. Bu məqsədlə onlar müxtəlif nominativ formalar sayılan sözdüzəltmə, mürəkkəb sözdüzəltmə kimi dil ünsürlərini əmələ gətirən nominasiya üsullarını, söz kateqoriyaları sistemini, onların daxili strukturunu aydınlaşdırmağa çalışmışlar. Nitq fəaliyyəti ilə bağlı olan modellərin aydınlaşdırılmasında bu məktəbin nümayəndəsi V.Mateziusun tədqiqatları bu nəticəni verib ki, konkret söyləm olan cümlə ilə abstrakt model olan cümlənin fərqləndirilməsi birincinin nitqə, ikincinin dilə məxsus olduğunu sübut edir. Praqa dilçilik məktəbi dili səviyyələrə ayırmaq məsələsindən uzaq düşsə də, sonrakı

araşdırmalarında dildə fonoloji, morfoloji, sintaktik və stilistik səviyyələrin olduğunu vurğulayırdı, sintaktik səviyyəyə isə cümləni aid edirdi. Praqa dilçiləri fonologiya və qrammatikanın tədqiqinə oxşar metodları cəlb edərək qrammatikada məna anlayışının mövcudluğunu, fonologiyada da fonemin məna fərqləndirici funksiyasının olduğunu qeyd edir və hər iki şöbənin oxşar mövqedə çıxış etdiyini vurğulayırlar [124, s.42].

2. Müəyyən bir dil hadisəsinin aşkar edilməsinə aparan prosedurların nəzərə alındığı modellər. Bu sahədə Amerika deskriptiv dilçiləri müxtəlif dillərə məxsus universal modellər yaratmaqla ilk ciddi addım atmışlar. Amerika dilçilərindən L.Blumfild və E.Sepir bu sahədə mühüm rol oynamışlar. Əslində dilin modelləşdirilməsi ideyaları E.Sepirə məxsusdur. E.Sepirin tədqiqatları nəticəsində bu qənaətə gəlmək olar ki, insan dünyanı necə dərk edirsə, onu dil vahidi olan cümlə şəklində modelləşdirir [273, s.127].

Yuxarıda qeyd olunan modellərin yaradılması hələ də davam etməkdədir. Belə ki, Şimali Amerikada yaşayan bir sıra qəbilələr üçün əlifbalar, yazı sistemləri yaratmaq, müxtəlif ədəbiyyatları bu dillərə tərcümə etmək hələ də gündəmdə olan tədqiqatlardır. Amerika dilçiliyi tətbiqi mövqe tutduğu üçün bu tədqiqatlarda şimali və mərkəzi Amerikada yaşayan müxtəlif yerli xalqların dillərinə aid toplanan materialların böyük rolu olmuşdur. Bu dillərin strukturu Avropa dillərindən fərqlənir. Mürəkkəb xüsusiyyətləri olan bu dilləri tədqiq etmək üçün xüsusi nəzəri əsaslar yaradılmalı idi. Çox sürətlə sıradan çıxan bu dilləri tədqiq etmək üçün dilin təsviri üsulları işlənib hazırlanmağa başladı. Bununla da, Amerika deskriptiv dilçiliyin əsasları işlənib hazırlanmağa başladı. Bu dilçiliyin nümayəndələri həm fonoloji, həm də morfoloji səviyyədə tədqiqatlar apararkən məna faktorunu kənarlaşdırırdılar. Amerika strukturalizm məktəbi olan transformasion təhlil dil təsvirinin yeni modelini vermişdir və əsas məqsədi sintezləşdirmədir. Transformasion dilçiliklə deskriptiv dilçilik arasında böyük fərqə rast gəlinməmişdir, çünki transformasion dilçilik fonologiya və morfologiya səviyyələrində deskriptiv təhlilin nəticələrini qəbul edir.

Ümumiyyətlə, deskriptiv dilçilik dil modellərinin izaha ehtiyacı olmayan təsvir modelini verir. Amerika dilçiliyində model və modelləşdirmə problemi ilə F.Boas məşğul olmuşdur. Onun tədqiqatlarına hind dillərinin sistemli təsviri üçün yazdığı

əsərlərində rast gəlmək olur [198, s.131]. Hindu dillərinin struktur və sisteminin ənənəvi təsvir üsulları Amerika deskriptivistlərinə münasib gəlmirdi və yeni üsullar axtarmağa başlamışdılar. Belə ki, ənənəvi təsvir modelləri linqvistik strukturları tarixilik baxımından tədqiq etməyi üstün tuturdusa, sonra yaranan modellər dilin müasir şaraitdə inkişaf mexanizmini nəzərə almağa başladı. Həmin modellərin yaranmasında Z.Harris, C.Hokket, C.Teycer və başqalarının rolu böyükdür.

3. Artıq hazır olan linqvistik təsviri obyekt kimi nəzərdən keçirən modellər. Bu üçüncü tip model meta-nəzəriyyə hesab edilir. Bu modellərin hazırlanmasında ilk ciddi addımları qlossematiklər atmışlar. Bu məktəbin mütəxəssisləri dəqiq elmlərin metodlarını humanitar elmlərə tətbiq edərək dilçiliyin cəbrini yaratmağa cəhd göstərmişlər [262].

Bu məktəbin nümayəndəsi olan L.Yelmslev dili müstəqil struktur kimi öyrənməyi təklif etmişdir. Bu isə yalnız dilin strukturunu təşkil edən dil vahidləri arasındakı daxili əlaqələri təsvir etməklə mümkün ola bilər. Dil vahidləri dedikdə isə təkcə səslər, hərflər və ya mənalar nəzərdə tutulmur, onların arasındakı qarşılıqlı münasibətlər şəbəkəsi nəzərdə tutulur [97, s. 68].

Dil müxtəlif cür nitq kimi təzahür edə bilər. Belə ki, teleqraf, morze əlifbası, dəniz bayraqları, işıqlar və s. formasında anlaqlı ola bilər. Onlar bütün bu hallarda informasiya mübadiləsi rolunu oynayır. Lakin əsl elmi təhlil ilə yanaşılarsa, dilin strukturunu təşkil edən vahidlər və həmçinin həmin vahidlər arasındakı münasibətlər sistemi nəzərə alınmalıdır.

Dilçilik ədəbiyyatında qeyd olunur: *"Küçə hərəkətlərini tənzimləyən işıq siqnallarının, Morze əlifbasının, qüllə saatları siqnallarının, mənalı tıqqıltıların və s. qlossematik öyrənilməsi dilçiliyə çox xeyir verə bilər, çünki təbii insan dilinə məxsus mürəkkəbliklərdən məhrum olan bu strukturlar ibtidai modellər şəklində təzahür edir"* [40, s.132].

İnformasiyanın çatdırılması baxımından da modellər müxtəlif ola bilər. Birinci mərhələdə çıxış informasiyası kimi model rolunda təkcə mətn iştirak edə bilər. Bu mətni törədən sistem, yəni dil haqqında bütün məlumat mətn məlumatlarından hasil olunur. İkinci mərhələdə model rolunu təkcə mətn yox, həm də dilin başqa ifadələri

oynaya bilər. Bu mərhələdə dilçi və ya informant xüsusi rola malikdir. İnformant informasiya məqsədi daşıyan hər hansı bir ifadənin düzgün olub-olmadığını yoxlayır. Üçüncü mərhələnin modellərinə isə semantik invariantlar daxildir. Bu mərhələdə informant və ya dilçi hər hansı bir ifadənin informasiya üçün düzgün seçilib-seçilməməsini deməkdən əlavə, iki hər hansı ifadənin eyni məna verib-verməməsini də yoxlamalıdır.

Nitq fəaliyyəti modelləri məsələsinin müzakirəsinə ehtiyac var. Amerika deskriptiv məktəbinin nümayəndələrinin fikrinə görə sözün konkret mənası dilçini maraqlandırmamalıdır, belə ki, bu sözün strukturuna daxil deyil. Dilçini *benzin* və *benzol*, *potron* və *neytron* arasındakı fərqlər maraqlandırmamalıdır. Birinci ilə kimyaçı, ikinci ilə fizik məşğul olmalıdır. Burdan belə bir nəticə çıxarmaq lazımdır ki, məna hər hansı dilin strukturuna daxil deyil, dilə yiyələnmə danışanın qrammatik cəhətdən düzgün ifadələr qurmasında və dinləyənin isə həmin ifadələri qavramasındadır. Məsələn: "Yarpaqlar töküldülər" ifadəsi səhvdir, lakin "Alma yarpağı yedi" isə tam düzdür. Bu baxışı əsaslandırmaq üçün maraqlı bir fakta nəzər salaq:

Ç.Frizin qurduğu cümlələrə baxılsa, bu nümunələr İngilis dilini mükəmməl bilənlər üçün asanlıqla struktur baxımından başa düşülür:

1. Woggles ugged diggles.
2. Uggs woggled digs.
3. Woggs diggled uggles [219, s. 245].

İngilis dilinin qrammatikasının qaydalarından (artikl, feili sifət 2, tək və cəm isimlər məsələsi) aşağıdakı ifadələr alınır:

4. A woggle ugged a diggle.
5. An ugg woggles digs.
6. A diggled woogle ugged a woggled diggle [219, s.246].

Bu ifadələrin anlanılması mətnin janrının müəyyənləşdirilməsində, ilkin formalarının göstərilməsində, cümlə üzvlərinə sual verilməsində və cavab alınmasında, yeni düzgün ifadələrin qurulmasında özünü göstərir. Lakin təkcə qrammatik məfhum və kateqoriyalar nəzərə alınmamalıdır, nəzərdə saxlamaq lazımdır ki, mənası olmayan ifadələr vasitəsi ilə effekli ünsiyyət qurmaq olmaz. Lakin bu eksperiment

qrammatik qaydaların dilin strukturuna daxil olmadığı fikrinə gəlmək üçün kifayət deyil. Lakin bu da düzgün deyil ki, qrammatik qayda yox, təkcə məna dilin strukturuna daxildir. Qrammatik cəhətdən düzgün formalaşmamış mətnlər də öz mənasını itirir. Belə ki, əgər dil ünsiyyət vasitəsidirsə, onda məna müəyyən mənada dil strukturuna daxildir. Dil mənaları isə *qrammatik* və *qeyri-qrammatik* olmaqla 2 tipə bölünür. Məna həmin dildə hökmən ifadə olunursa, qrammatik sayılır. Geniş şəkildə izah olunarsa, hər hansı bir söyləmdə mənası həmin qrammatik məna ilə birləşə bilən vahid varsa, bu *qrammatik* məna sayılır. Buna misal olaraq Azərbaycan, rus, ingilis dillərindəki kəmiyyət mənasını göstərmək olar. Belə ki, bu dillərdə hər hansı ismin mütləq kəmiyyət göstəricisi olur. Məsələn, *uşaqlar, children, ðemu*. Lakin çin dilində kəmiyyət mənası *qeyri-qrammatik* mənadır, yəni çin dilində əşyaların sayını göstərməyə ehtiyac olmadıqda kəmiyyət mənası ifadə edilməmiş qalır.

Nitq fəaliyyəti modellərinə isə *semantik* və *qeyri-semantik* modelləri aid edirlər. *Qeyri-semantik* model dedikdə, qrammatikaya yiyələnməyi üstün tutan xalis sintaktik, *semantik* modellər dedikdə isə, dil daşıyıcılarını cümlələri anlamağa və anlaşılan cümlələr qurmağa xidmət edən modellər nəzərdə tutulur.

Modelləşdirmənin obyektinin müəyyənləşdirilməsi baxımından nitq fəaliyyəti modellərinə *təhlil* və *sintez* modellərini əlavə etmək olar. Müəyyən dilin sonsuz sayda cümlələrini təhlil etməyə imkan verən sonsuz sayda qaydalar *təhlil modeli* adlanır. Sonsuz sayda düzgün cümlələri qurmaq üçün sonlu sayda qaydalar isə *sintez* modelləri adlanır. Analiz və sintez modelləri arasında aralıq mövqe tutan *törədici modellər* də mövcuddur. Əlifbanın ünsürlərindən ehtiva edərək sonlu sayda ifadələrin yaranmasına, verilmiş dilin sonsuz sayda düzgün cümlələrini qurmağa və onların hər birini müəyyən struktur səciyyəsinə aid etməyə xidmət edən modellərə *törədici modellər* deyilir.

Bütün bu model nümunələri qrammatik qaydalardan istifadə edərək düzgün ifadələr qurmaq, fikri anlaşılan şəkildə çatdırmaq, yeni tədqiqat işləri aparmaq üçün vacib məsələlərdir.

3.4. Sintaktik-struktur modellərin təhlil yolları

Struktur dilçilik XIX-XX əsrlərdə müqayisəli-tarixi metoda qarşı yaradılmış ən öndəgedən dilçilik cərəyanlarından biridir.

Tarixi-müqayisəli dilçilik dili tarixi baxımdan öyrənmiş və qohum dillər arasındakı münasibət və oxşarlığı aşkar edib, təhlil etməyə cəhd göstərmişdir. Elə bu kimi səbəblərdən bu dilçilik cərəyanı dilin dəqiq tədqiqatını verə bilməmişdir. Belə ki, bu cərəyan dili fonoloji və morfoloji səviyyələrdə tədqiq etmiş, sintaksis məsələsi isə həll olunmamış qalmışdır. Bu dilçiliyin nümayəndələri dilin sistemliliyi prinsipini nəzərə almadan öz tədqiqatlarını dil vahidlərini tarixi cəhətdən araşdırmaq istiqamətinə yönəltmişlər.

Bütün bu çatışmazlıqların aradan qaldırılması ehtiyacı yeni bir cərəyanın yaranmasını zəruriləşdirdi. Həmin cərəyan isə strukturalizm adı ilə tanındı.

Müasir struktur dilçilik məktəblərini birləşdirən ümumi cəhət dili əlaqələr sistemi kimi qəbul etməkdir, ən əsas cəhət isə qrammatikanın tədqiqində göstərdikləri səylərdən ibarətdir. Fikirlərə aydınlıq gətirmək üçün dilçilik ədəbiyyatında qeyd olunan struktura və sistem anlayışına nəzər yetirmək lazımdır: *"Müasir kibernetika elminə görə, struktura müəyyən ünsürlər çoxluğunun təşkilinə, yəni onların birləşmə qaydalarına deyilir. Funksiya isə ünsürlərin bir-birindən qarşılıqlı asılılığı və bir-birinə qarşılıqlı təsiridir. Struktur ilə funksiya birlikdə sistem təşkil edir. Struktur dilçiliyin əsas müddəası belədir ki, dil sistem təşkil edir, bu sistem də struktur və funksiyanın vəhdətindən ibarətdir"* [40, s.20].

Struktur məktəblərindən Praqa, Kopenhagen və Amerika deskriptiv məktəbləri dilçiliyə böyük töhfələr vermişdir. Lakin bunlardan dili sintaktik cəhətdən geniş tədqiq edən Amerika deskriptiv məktəbinin nümayəndələri olmuşlar. Amerika dilçiliyinin ən görkəmli ilkin nümayəndələri L.Blumfild və E.Sepir olmuşdur. E.Sepir tədqiqatlarında belə bir qənaətə gəlmişdir ki, insan dünyanı dil vahidləri ilə qavrayır [255, s. 200]. Onun ardıcılları bu nəzəriyyəni inkişaf etdirmişdir. Əslində dilin modelləşdirməsi probleminə ilk əvvəl E.Sepir toxunmuşdur. L.Blumfild isə dilin sinxron təsvirini vermək üzərində tədqiqatlar aparmışdır və nəticədə deskriptiv dilçilik prinsipləri yaranmışdır. Dilin deskriptiv nöqteyi-nəzərdən təhlili daha çox

cümlədə linqvistik vahidlərin yerləşməsinə, onların struktur xüsusiyyətlərinə yönəldilir və onların mənasını nəzərə almır. L.Blumfildin fikrincə, cümlənin mənası onu təşkil edən sözlərdən asılı deyil [78, s.211].

Amerika deskriptivizmi öz ideyalarını Avropa strukturalizmindən götürmüş və bir növ F.de Sössür ideyalarından bəhrələnmişdir. Bu öz əksini L.Blumfildin "Dil" əsərində də tapır. Bununla yanaşı, Amerika dilçilərinin tədqiqatları daha çox əməli və praktiki əhəmiyyət daşıyır. Elə buna görə də, onlar tədqiqatlarında tarixi-müqayisəli dilçiliyin xüsusiyyətlərinə toxunmamışdılar. Deskriptiv dilçiliyin bir sıra nümayəndələri əsas məqsədlərinin dili təsvir etmək olduğunu qeyd etmişlər. Yəni izahdan qaçaraq dil hadisə və faktlarını müəyyən konstruksiyalara uyğun düzürlər. Bu cərəyanın digər nümayəndələri isə (B.Blok, G.Treycer, Z.Harris) hesab edirdilər ki, dilçiliyin əsas məqsədi qeydə almaq və təsnif etməkdən ibarətdir.

Amerika strukturalizminin ən əsas məktəblərindən biri transformasion təhlil məktəbi olmuşdur. Onun başlıca nümayəndələri N.Xomski, R.Liz və başqaları olmuşdur. "Dilçilik problemləri"ndə qeyd olunur: *"Transformasiya nəzəriyyəsi əslində vasitəsiz iştirakçılar metodunun təkmilləşdirilməsi nəticəsində meydana gəlmişdir"* [40, s.146].

Yaranmasının ilk dövrlərində əslində bu məktəbin ən görkəmli nümayəndəsi Z.Harris olmuşdur. Bir tərəfdən ayrı bir sahə hesab olunsa da, transformasion qrammatika generativ qrammatikaya nisbətən deskriptivizmə daha çox meyillidir. Çünki transformasion dilçilik fonologiya və morfologiya səviyyələrində deskriptiv təhlilin bir sıra nəticələrini qəbul edir [231, s.240].

Qrammatikanın digər bir sahəsi olan sintaksisin deskriptiv cəhətdən təhlili bir qədər qarışıq prosesdir. Sintaksisin ən məhsuldar tərkib hissəsi söyləm olduğundan məhz onun təsvir qaydaları deskriptiv dilçilik cəhətdən irəli sürülmüşdür. Bu sahədə əsas tədqiqatlar L.Blumfild və Z.Harrisə aiddir. L.Blumfildin əsaslandığı prinsip ondan ibarətdir ki, söyləm tədricən tərkib hissələrə bölünür və bu bölgü nəticəsində artıq bölünməsi mümkün olmayan ünsürlər ortaya çıxır [197, s.136]. Z.Harrisin proqramında isə təhlil sadədən mürəkkəbə doğru gedir, yəni morfemdən cümləyə doğru. Bu, daha mürəkkəb morfem ardıcıllığı ilə eynilik təşkil edir [231, s.241].

Amerika dilçisi R.Uellzin fikrincə, dilin qrammatik modeli elə qurulmalıdır ki, onun köməyi ilə cümlələr arasında maksimum miqdarda semantik fərqlər təsvir və izah olunsun. Sonradan transformasion qrammatika bu ideayanı inkişaf etdirməyə başlamışdır [168, s. 96].

Z.Harris "zəncirvarı təhlil" metoduna istinad edərək belə qənaətə gəlmişdir ki, hər bir cümlə bir mərkəzdən və ona sağdan və soldan qoşulmuş üzvlərdən ibarətdir. Həm mərkəz, həm də qoşulmuş üzvlər söz zəncirləri əmələ gətirir ki, həmin sözlər müxtəlif siniflərə aid edilir. Zəncirdəki hər söz də müvafiq sinfə məxsus simvolla əvəz edilsə, onda zəncirin modeli alınar. Sintaktik modelləri tərtib etmək üçün ilk öncə müvafiq dildə lazım olan cümlə strukturlarının təhlili aparılmalıdır [231, s.175].

Məsələn, *Universitetin ictimai işlərində fəal iştirak edən tələbələr hər ilin sonunda təltif edilməlidirlər*. Bu cümlənin sintaktik mərkəzi *tələbələr təltif edilməlidir* hissəsidir. Kənarda qalan bütün ünsürlər isə həmin mərkəzin ifadə etdiyi fikri genişləndirən üzvlərdir. Həmin zəncirvarı metoda istinad edərək dildə olan bütün cümlələr bu şəkildə təhlil oluna bilər. Göründüyü kimi zəncirvarı təhlil yığcamlaşma yolu ilə aparılır. Bu yığcamlaşma isə baş və ikinci dərəcəli üzvlərin bir-birindən ayrılması yolu ilə aparılır.

Z.Harrisə aid olan ikinci sintaktik təhlil metodu isə genişlənmə metodudur. Yəni cümlənin strukturunu azdan çoxa doğru - morfemdən cümləyə doğru aparmaq ideyasıdır. Birinci metod analiz idisə, burda sintezləşmə özünü göstərir. Kiçik vahidlərin həcmcə böyük vahiddə tədrici birləşməsi (sintezləşdirmə) substitusiya metodu ilə həyata keçirilir. Z.Harris bu üsula tədricən, əvvəlcə morfemlər sinfini fərqləndirərək, yəni onların sintaktik eyniyyətini müəyyənləşdirərək müraciət edir. Beləliklə, cümlənin strukturu get-gedə daha mürəkkəb morfem birləşmələri şəklində təzahür edir. Dilin sintaktik quruluşu sadə və mürəkkəb vahidlərin (morfemlərin və morfem birləşmələrinin) sinifləri şəklində təsvir olunur. Z.Harris tədricən vahidlərin siniflərini öyrənməkdən onların söyləm daxilindəki mövqeyini öyrənməyə keçir. O, öz mülahizələrində müəyyən mənada transformasion metodu öz mənşəyinə görə substitusiya metodu ilə əlaqələndirir [231, s.177].

Amerika məktəbinin digər bir görkəmli nümayəndəsi Ç.Friz sintaktik bütövün bir növ ünsiyyət funksiyasını nəzərə alır və bu da dilin struktur təhlili üçün etibarlı dayaq rolunu oynaya bilmir. Onun fikrincə, cümlənin struktur təhlilindən məqsəd cümlələrin əsas struktur modellərini müəyyənləşdirməkdir. Bu məqsədə çatmaq üçün o, söyləmin tərkibinə daxil olan sözlərin formal siniflərini müəyyənləşdirir. Belə ki, bir leksik vahid kimi söz yox, məhz nitq hissəsi cümlənin quruluşunu və son nəticədə həm də onun mənasını müəyyənləşdirir. O, substitusiya yolu ilə dörd formal sinif müəyyənləşdirir. Bunlar da ənənəvi terminologiyada isim, sifət, feil və zərflərə uyğun gəlir. Friz onlara ad vermir, yalnız nömrəsi ilə qeyd edir: I sinif, II sinif, III sinif, IV sinif. Dörd sinifdən başqa Ç.Friz həm də funksional sözlərin olduğunu qeyd edir və onları on beş qrupa bölür. Bunların ən əhəmiyyətlisi determinantlar (artikllar, yiyəlik, işarə və kəmiyyət əvəzlikləri, adların yiyəlik forması və.s) hesab olunur. Ç.Friz cümlə üzvləri olan mübtəda, tamamlıq və təyinin strukturunu onların formal xüsusiyyətləri baxımından ətraflı təsvir edir. O, sintaktik təhlildə əsas vahid olaraq sözü nəzərə alır. Bu baxımdan onun təlimi deskriptiv qrammatikadan daha çox ənənəvi təsvir modelinə yaxınlaşır. Onun təlimində deskriptiv təhlil metodları ilə ənənəvi dilçiliyin əsas vahidləri uğurlu şəkildə birləşdirilir [219, s.182].

Strukturalizm nə qədər ənənəvi prinsipləri təkzib etsə də, bütün mənbələrdə qrammatikanın iki sahədən ibarət olduğu qeyd edilir – morfologiya və sintaksis. Morfologiya nitq hissələrinin yaranması və işlədilməsi qaydalarından, sintaksis isə söz birləşmələri və cümlələrin struktur-semantik xüsusiyyətlərindən bəhs edir. Sintaksis dildə cümlələrin yaranması prinsipi və qaydalarından bəhs edən bir elmdir. Ümumiyyətlə, dil nəzəriyyəsində linqvistik səviyyə deyilən bir terminə tez-tez rast gəlinir. Fonoloji, morfoloji, sintaktik səviyyələr birlikdə dilin əsas informasiya bazası olan cümlə mexanizminin yaranmasında əlaqəli şəkildə bir-birini tamamlayır. Həmin səviyyələrin bir-birindən asılı olması və bir-birindən törəməsi güclü qrammatik təsvir modellərinin yaranmasına səbəb olur.

Hər bir dil özlüyündə məhdud və qeyri-məhdud sayda olan elementlərdən ibarətdir. Bütün təbii dillərin şifahi və yazılı formalarında məhdud sayda fonem vahidlərinə rast gəlmək olar. Cümlələr isə bu məhdud saylı fonemlərin

birləşməsindən törəyən vahidlər olmasına baxmayaraq onlar dildə qeyri-məhdud şəkildə və sayda işlənir. Dildə qrammatik qaydalar toplusunun ardıcıllığı dilin qrammatikasını yaradır. Qrammatikanın əsas məqsədini mənimsəmək üçün ilk əvvəl cümlə və bitmiş fikir ifadə etməyən elementləri bir-birindən ayırmaqdan başlamaq lazımdır. Belə ki, heç də bütün fonem ardıcıllıqları cümlə yaratmaq qabiliyyətinə malik deyil.

Ümumiyyətlə, qrammatiklik anlayışını mənalılıq və semantiklik anlayışlarından uzaq tutmaq lazımdır. Məsələn, N.Xomskinin fikrinə əsaslansaq, aşağıdakı iki cümləni bu baxımdan təhlil etmiş olarıq:

Colourless green ideas sleep furiously.

Furiously green ideas sleep colourless [209, s.15].

İstənilən ingilisdilli şəxs dərhal cümlələrin yalnız birincinin qrammatik cəhətdən düzgün olduğunu anlayacaq. Lakin onu da qeyd etmək zəruridir ki, bu cümlələrdən heç biri ingilis diskursunda özünə yer tapa bilməz. İngilis dili daşıyıcıları ikincidən fərqli olaraq birinci cümləni adi cümlə intonasiyasına uyğun şəkildə, ikinci cümləni isə bitmiş fikir ifadə etməyən söz yığını şəklində düşən tonla ifadə edəcəklər. Beləliklə, birinci cümlə heç bir məna kəsb etməməsinə baxmayaraq, daha tez yadda qalacaq və asan tələffüz olunacaq. Lakin ikinci cümlə adi danışıq dilində cümlə şəklində heç bir məna ifadə etməyən sadə bir söz yığınından ibarətdir.

Sintaktik analizin əsas prinsipi müxtəlif qrammatik kateqoriyalara aid olan və qrammatik funksiya daşıyan tərkib hissələrin birləşib söz birləşmələri və cümlələri tədqiq etməkdən ibarətdir. Bunu aydınlaşdırmaq üçün belə bir misala nəzər yetirmək lazımdır: *Students protested vehemently* [207, s.247]. Bu cümləni təşkil edən sözlərdən hər üçü xüsusi qrammatik kateqoriyaya aiddir (*students* cəm şəklində olan isim, *protested* keçmiş qeyri-müəyyən zamana aid olan feil, *vehemently* tərzi-hərəkət zərfi) və hər üçü xüsusi qrammatik funksiya daşıyır (*protested* xəbər, *students* həmin xəbərin ifadə etdiyi hərəkətin icraçısı, *vehemently* hərəkətin tərzini bildirən zərflik). Bütövlükdə isə cümlə sadə, geniş olmaqla yanaşı, həm də hər hansı bir hadisə haqqında məlumat verən, təsdiqdə olan nəqli cümlə kimi xarakterizə olunur.

3.4.1. Funksional kateqoriyalar

Modellərdə öz əksini tapan qrammatik kateqoriyalar əsasən isim (noun), feil (verb), sözönü (preposition), zərf (adverb), sifət (adjective) və onların yaratdığı ismi və feili birləşmələrdən ibarətdir (NP və VP). Burada N ismin (noun), V feilin (verb), P sözönünün (preposition), A sifətin (adjective), ADV isə zərfin (adverb) göstəricisidir. Funksional kateqoriyalardan ən önəmlisi isə təyinedicilik (determinantlıq) kateqoriyasının daşıyıcısı olan D kateqoriyasıdır. D bəzən DET kimi də göstərilir. Təyinedicilər daha çox isimlərdən əvvəl işlənərək onların informativlik xüsusiyyətini təmin edir. Bunlara aşağıdakı misalları göstərmək olar:

1. ***The*** *village store is closed.*

2. ***This*** *appaling behaviour has got to stop.*

3. ***That*** *dog of yours is crazy* [260, s.241].

Məsələn, birinci cümlədə təyinedicilik funksiyasında çıxış edən müəyyənlik artiklının (the) aid olduğu ismin (village store) artıq danışan və dinləyənə məlum olan bir əşya və hadisəyə aidliyi öz əksini tapır.

Təyinedicilərin digər qrupu isə **quantifier** adlandırılaraq **Q** ilə işarə olunur. Bunlar isə aşağıdakı nümunələrdə göstərilmişdir.

(a) ***Most*** *good comedians tell some bad jokes* [253, s.25].

(b) ***Many*** *students have no money* [253, s.42].

(c) ***Every*** *true Scotsman hates all Englishmen* [260, s.71].

(d) ***Each*** *exercise contains several examples*.

İşarələnmiş sözlər kəmiyyət mənası ifadə etdiyi üçün *quantifier* adlanırlar. Belə bir ziddiyyətli sual ortaya çıxa bilər ki, baxmayaraq ki, təyinedicilər və kəmiyyət bildirən təyinedicilər sifət kimi ismin qarşısında işlənir, nə üçün sifət kimi göstərilmir? İlk səbəb kimi onların sintaktik cəhətdən sifətdən fərqli funksiyalara malik olduğu qeyd olunur. Məsələn, ismin qarşısında eyni zamanda bir və bir neçə sifət nizamlı şəkildə təkrarlana bilər. Məsələn:

Handsome stranger;

Dark handsome stranger;

Tall dark handsome stranger;

Sensitive tall dark handsome stranger [205, s.112].

Lakin təyinedicilərin heç bir növü ismin qarşısında bu cür sıralana bilməz. Baxmayaraq ki, kəmiyyət bildirən təyinedici ilə müəyyənlik artiklı eyni bir anda bir isimlə işlənə bilər *(both the twins),* lakin onlar heç vaxt bu şəkildə sıralana bilməz: *the these books, all both twins*. Lakin həm təyinedicilər, həm də sifətlər və kəmiyyət ifadə edən sözlər eyni anda bir ismə aid ola bilər:

The *same old* excuses (**determiner**+*adjective*+*adjective*+noun) [205, s.114].

İsim və ismi birləşmələrin əvəzediciləri rolunda çıxış edən əvəzliklər (pronoun) isə **PRN** şəklində sxemləşdirilir. Məsələn:

(a) John has a blue car and Jim has a red ***one****.*

(b) I'll take the green apples if you haven't got any red ***ones*** [253, s.82].

Misallardan göründüyü kimi *one* və *ones* cümlənin əvvəlində işlənən isimlərin (*car* və *apples*) anaforaları kimi çıxış edir. Bəzi əvəzliklər sırf ismi xüsusiyyət daşıyaraq ismi əvəz etdikləri üçün **N-pronouns** (pronominal noun) adlandırılır.

(a) All guests are welcome/ ***All*** *are welcome.*

(b) Many miners died in the accident/ ***Many*** *died in the accident.*

(c) Several protesters were arrested/ ***Several*** *were arrested.*

(d) Each son was envious of the other/ ***Each*** *was envious of the other.*

(e) I don't have any cigarettes/ I don't have ***any****.*

(f) We have no bananas/ We have ***none*** [207, s.341].

Hər bir nümunənin ilk cümləsində verilən *all, many, several, each, any, no* ismin kəmiyyət təyinediciləri rolunda çıxış edir (pronominal or noun-preceding). Sonraki cümlələrdə isə *guests, miners, protesters, son, cigarettes, bananas* isimlərinin yerində işlənən əvəzedici sözlərdir, yəni əvəzliklərdir (pronominal). Və həmin bu əvəzliklər kəmiyyət mənası ifadə etdiyi üçün *Q-pronouns* adlanır.

Morfem əvəzləyiciləri xüsusi səciyyəyə malikdir. Əvəzliyin ənənəvi kateqoriyası distributiv dilçilik terminlərində təyin edilə bilmir. Mən, sən, o və s. sözləri onlar üçün səciyyəvi xüsusiyyətlərinə görə adətən N sinifinə aid edilir. Fərdi əhatəni nəzərdən keçirərkən aydın olur ki, əvəzlik ayrı sinif təşkil edir. Rezvin yazır: *"Məsələn, rus dilində* ***Птица которая (...)*** *və ya* ***Я опознал птицу которая (...)***

konstruksiyalarında ***которая*** *morfemindən sonra* ***пела, летела, взмыла, разбилас*** *və s. feillər işlənə bilər.* ***Стена которая (...)*** *ardıcıllığında* ***обвалилас, треснула, было разрушена*** *və s. feilləri təzahür edə bilər.* ***Стена (...)*** *ardıcıllığından sonra da həmin feillərə rast gəlmək olar. Rus dilində ümumiyyətlə,* ***которая*** *morfeminin sağ V əhatələri verilən cümlədə* ***которая*** *morfemindən bilavasitə əvvəl gələn N sinfi V sinfi ilə eynidir. Əgər* ***которая*** *N yarımsinfinin hər hansı bir üzvündən sonra rast gəlinirsə, onda* ***которая*** *sözünün sağ V əhatəli bütün üzvlərinin işlənmələrinə bərabərdir"* [139, s.90]. Digər əvəzliklər də bu xüsusiyyətlərə malikdir. Buradan ümumiləşdirmək olar ki, hər bir cümlədə elə həmin cümlədə ona münasibətdə müəyyən mövqe tutan Y sinfinin X əhatəsi ilə eyni olan və X əhatənin bütün təzahür hallarında məcmusu Y sinfinin bütün üzvlərinin X əhatələrinin məcmusuna bərabər olan morfemlər mövcuddur. Bu morfemləri Y sinfinin morfemlər - əvəzləyicilər və ya pro-morfemlər, Y vəziyyətini isə antesedent vəziyyəti (antecedent "əvvəlki üzv") adlandırırlar. Pro-morfemi hər bir cümlədə onun antesedentinin pozision variantı kimi nəzərdən keçirmək olar.

Müasir ingilis dilində əsas feilin ifadə etdiyi leksik mənadan uzaq olan, yalnız qrammatik məna ifadə edən, zaman və tərz kateqoriyalarının formalaşmasında xüsusi rol oynayan köməkçi feillər də vardır ki, onlar **auxiliary** adlanır və **AUX** kimi işarələnir.

(a) He ***has/had*** *(gone)*

(b) She ***is/was*** *(staying at home)*

(c) They ***are/were*** *(taken away for questioning)*

(d) He really ***does/did*** *(say a lot)*

Bu kateqoriyanın formalaşmasında modal feillər də vardır:

(a) You ***can/could*** *(help us)*

(b) They ***may/might*** *(come back)*

(c) He ***will/would*** *(get upset)*

(d) I ***shall/should*** *(return)*

(e) You ***must*** *(finish your assignment)*

(f) You ***ought*** *(to apologise)*

Yuxarıdakı nümunələrdə köməkçi feillərdən (a,b)-də verilən *have* və *be* müvafiq şəxsə uyğun bitmiş və davamedici zamanları, (c)-də məchul növü, (d)-də do keçmiş və indiki zamanları və (e, f, h, g, i, j)-də isə *can/could, may/might*, *will/would, shall/should, must/ought* isə modallıq yaradan köməkçi feillərdir.

Beləliklə, yuxarıda izahı verilmiş və aşağıda göstərilən ingilis dilində mövcud olan funksional və leksik kateqoriyalara əsasən cümlələrin və ifadələrin sintaktik strukturuna aid modellər belədir:

N = noun

V = verb

A = adjective

ADV = adverb

P = preposition

D/DET = determiner

Q = quantifier

PRN = pronoun

T = tense-marker (e.g. auxiliary/infinitival *to*)

3.5. Transformasion təhlil modelləri

Bir dil vahidinin digəri ilə dəyişməsinin sadə operasiyaları təbii dil fəaliyyətinin bütün sahələrində özünü büruzə verir. Bu növ dəyişmə dili mənimsəmə proseslərində və onun məhsuldarlığında əsas yer tutur. Lap erkən uşaq yaşında dilin mənimsənilməsindən başlayaraq ayrı-ayrı sözlərin, söyləmlərin dəyişməsini və əvəz edilməsini müşahidə etmək olar. Çox vaxt uşaq mətni hərfən təkrarlamır, sadəcə olaraq ona bəzi dəyişikliklər əlavə edir. Tez-tez müşahidə olunan üsullardan biri söz ardıcıllığının dəyişməsidir. Bəzən "sözlərin sinonimik dəyişməsi", bəzən də mətnin bəzi hissələrinin buraxılması baş verir ki, bu da müəyyən mənada söyləmin ümumi anlaşılması üçün kifayətdir.

Dəyişmənin bu cür prosedurları yazılı mətnin təkrar edilməsində, redaktəsində, başasalmada, söz və ifadələrin xaricilərə və az təhsilli adamlara açıqlanmasında istifadə olunur. Bir dildən başqa dilə tərcümə mətnin dəyişməsi kimi nəzərdən

keçirilir. Bir dilə yiyələnmə danışanın öz fikrinin ifadəsi zamanı müxtəlif vasitələrdən istifadəetmə qabiliyyətini ortaya çıxarır. Dili mənimsəmə nə qədər mükəmməldisə, onun sinonimika sistemindən istifadə bir o qədər geniş olur.

Beləliklə, ünsürlərin dəyişməsi spontan xarakter daşıyır, onlar dil fəaliyyətinin normal şərtidir. Dil daşıyıcıları şüurlu olmayaraq və həmişə danışıq prosesində dəyişmədən istifadə edir.

XX əsrin 50-ci illərinin ortalarında Amerika dilçiliyində qrammatik modelləşdirmənin yeni mərhələsi başlayır ki, bu da transformasion qrammatikanın yaranması ilə bağlıdır. Transformasion metod başlanğıcda deskriptivizmin ən görkəmli nümayəndəsi olan Z.Harris tərəfindən irəli sürülmüşdür. Həmçinin onun tələbəsi N.Xomski də törədici qrammatikanın transformasion modelini yaratmaq üzərində çalışmışdır. Lakin deskriptivizmin bəzi müddəalarına əsaslanmağına baxmayaraq, N.Xomskinin qrammatik müddəaları deskriptiv dilçilikdən qəti surətdə fərqlənir. N.Xomski klassik deskriptivizmin əsas qüsurunu onda görürdü ki, onun məqsədi yalnız təhlil prosesində fərqləndirilən ünsürləri yalnız təsnif etməkdən ibarətdir. Həmin dövrdə faktları yalnız qeyd etməklə kifayətlənirdilərsə, artıq 50-ci illərdən sonra onları izah etmək zərurəti meydana çıxdı. Transformasion qrammatikanın uğur qazanmasının bir səbəbi də, artıq deskriptiv modellərin imkanlarının tükənməsi olmuşdur [209, s.20]. Deskriptivistlərin izah edə bilmədiyi faktları transformasion qrammatika aşkarlamağa çalışırdı. Transformasion metod sintaktik strukturları ən əvvəl paradiqmatik aspektdən təhlil edir. Məhz bu aspekt deskriptiv təhlilin bacara bilmədiyi bir metoddur. İlk dəfə transformasion metodu Z.Harris irəli sürüb onu deskriptiv dilçiliyə əlavə kimi göstərsə də, onu əvəz edən metod kimi göstərməmişdir [231, s.251]. N.Xomski isə sintaktik bütövün komponentlər üzrə təhlili metodu təhlili metodu kifayət etmədiyi üçün transformasiya metodundan istifadə etmişdir. Deskriptiv metodla transformasion metodun başlıca fərqi ondan ibarətdir ki, deskriptiv metod daha kiçik dil vahidlərindən necə cümlə yaratmaq lazım olduğu qaydalarını öyrədir. Transformasion qrammatika isə söyləmin struktur dəyişmələr nəticəsində bir tipdən başqa tipə çevrilmə qaydalarını öyrədir.

"Dilçilik problemləri"ndə qeyd olunur: *"Törədici qrammatikanın transformasion modeli belə qurulur: tərkibinə görə bu model iki hissəyə (sintaktik və fonoloji) və ya komponentə bölünür. Öz növəsində sintaktik komponent də iki subkomponentdən ibarət olur. Bunlardan birincisi cümlənin ünsürlərinin təsnifi və öz aralarında birləşmə qaydalarıdır. İkinci subkomponent mürəkkəb əməliyyatlardan ibarətdir; bu əməliyyatlar cümlənin qrammatik strukturunun dəyişdirilib, başqa şəklə salınmasıdır"* [40, s.165]. Bu əməliyyatların köməyi ilə daha sadə cümlələr daha mürəkkəb sintaktik strukturlara transformasiya edilir.

Əgər dildə sadə və həmcins dəyişmə semantik əlaqələr tələbinə cavab verirsə, bu, transformasiyadır. Yəni tam transformasiyalı dil və həmcins sadə dil anlayışları bir-birinə yaxındır.

Beləliklə, transformasion qrammatikada birinci yerdə cümlənin konstituyent səviyyədə təhlili durur ki, onun üzərində transformasion yarus ucaldılır.

Transformasiya nəzəriyyəsinə görə dildəki bütün cümlələr iki bərabər olmayan kateqoriyaya bölünür. Bunların bir qismi strukturca çox sadə olur və nüvə cümlələr adlanır. Digər kateqoriya isə nüvə cümlələrin qrammatik strukturunu dəyişməklə əldə edilən düzəltmə cümlələrdir. Beləliklə, dilin bütün cümlələri bir sıra nüvə cümlələr üzərində əməliyyatlar aparmaqla düzəlir. Transformasion modellər əməliyyat nəticəsində dilin sadə strukturlarından mürəkkəb strukturlar alınmasına səbəb olur. Bu əməliyyatlar nəticəsində cümlənin strukturu dəyişdirilir, o ya yığcamlaşdırılır, ya da genişləndirilir. Bütün bu dəyişikliklər cümlənin təşkil olunduğu vahidlər sistemini dəyişmir, onun yalnız qrammatik strukturunu dəyişir. Transformasiya qaydaları əsasında aparılan başlıca əməliyyatlar aşağıdakılardır:

1. Permutasiya (vahidlərin yerinin dəyişdirilməsi). Məsələn:

Evdən köçdünüz? - Köçdünüz evdən?

2. Substitusiya (bir vahidin digəri ilə əvəz edilməsi). Məsələn:

Biz onunla yolda dostu ilə söhbət edərkən rastlaşdıq. - Biz onunla rastlaşdıq.

3. Adyunksiya (əlavə). Məsələn:

Bir kəsi görmədim. - Heç bir kəsi görmədim.

4. Ellipsis (vahidlərin azaldılması). Məsələn:

Səndən soruşuram ki, bu kimin fikridi? - Soruşuram ki, bu kimin fikridi?

Dilçilikdə sinonimiya problemi ən vacib məsələlərdən biridir. Müəyyən məqamda əvəzetməyə imkan verən sözlər sinonimlər adlandırılır.

Mətnin transformasion təhlili sinonimiyanın ənənəvi, xüsusən, qrammatik və sintaktik məsələlərini əhatə edir. Sinonimiya və transformasiya arasındakı əsas fərq metodik səciyyə daşıyır. Təsviri dilçilik mətndən istifadə edib dil faktlarını toplayaraq sinonimlər haqqında məlumatlar əldə edir. Struktur dilçilik dil ünsürlərinin potensial xüsusiyyətlərini ortaya çıxarmaq üçün mətn vahidlərinin dəyişməsi üsulundan sistematik olaraq istifadə edir.

Transformasion metodların ilkin şərti ayrı-ayrı dillərin praktik qrammatikasını öz tərkibində saxlamasıdır. Müəyyən sintaktik ifadələrin başqa ifadələrə keçməsi formanın qrammatik təsvirini öz tərkibinə daxil edir. Beləliklə, təsirli feillər təsirsiz feillərdən aktiv və passiv ifadələr yaratması ilə fərqlənir. Məsələn: *Dülgərlər ev tikirlər: Ev dülgərlər tərəfindən tikilir*, lakin *dülgərlər işləyirlər.*

Hər transformasiya ayrı-ayrı əlaqələr toplusundan ibarətdir. Bu əməliyyatın düzgün aparılması üçün ilkin verilmiş cümlənin strukturu təhlil olunmalıdır. Sintez mərhələsindən əvvəl analiz mərhələsi olmalıdır. Analiz dedikdə o nəzərdə tutulur ki, cümlə onu təşkil edən vahidlərə bölünür və həmin vahidlər arasında sintaqmatik əlaqələr aşkar edilir. Cümlənin komponentlər üzrə təhlili sintaktik ağac kimi təsvir olunur və onun budaqları müxtəlif vasitəsiz iştirakçılara uyğun gəlir. Həmin vasitəsiz iştirakçılar üzrə təhlil apararkən bütöv mərhələlərin bir sxemdə birləşdiyini görmək olar.

Transformasion qrammatika üçün əvvəlcə transformasiyanın tətbiq edilmə sahəsi müəyyənləşdirilir, yəni cümlənin paradiqmatik sırası müəyyən edilməlidir. Cümlələr arasında formal əlaqələr müəyyənləşdirilməlidir, bir cümlə strukturunun başqa cümlə strukturuna transform olunduğunu müəyyən edə bilən formal əlaqələr tapılmalıdır. Transformasiyanın bütün növlərində tələb ondan ibarətdir ki, bütün dəyişmə növlərində sintaktik əlaqələrin invariantı, ən əsası isə məna invariantı qorunmalıdır. Bunu belə aydınlaşdırmaq olar: elə cümlələr vardır ki, onlarda fərdi ünsürlər vardır və onlara transformasiya tətbiq edilə bilməz. Məsələn, tərkibinə və

komponentlər arasındakı sintaktik əlaqənin eyniliyinə görə çox yaxın olsalar da, aşağıdakı cümlələr arasında transformasiya mümkün deyil:

Dünən getdim və *Sabah gedəcəm*. Bu cümlələrdə feillər müxtəlif zamanlarda işləndiyinə görə transformasiya ola bilməz. Məsələn, *Dünən gedirəm* və *Sabah getdim* mümkün deyil. Bu cümlələrdən heç biri digərinin transformu deyil. Deməli, prinsipcə ilkin cümlədə işlənə bilməyən heç bir söz transformda işlənə bilməz.

Substitusiya metodu ilə əldə edilən cümlə törənişi də buraya daxil edilmişdir. Halbuki substitusiya yenidən qurulmuş, yeni şəkildə başqa cür təşkil olunmuş cümlələr deyil, sintaktik invariantlığı saxlamaqla bir ünsür formasının dəyişməsi ilə başqa ünsür formasının dəyişməsini nəzərdə tutur: *Mən danışıram. – Mənim danışığım onun xoşuna gəlmir. Qız rəqs edir. – Qızın rəqsi.* Bütün verilən transformasiya modellərinin əsasında isə nüvə cümlələrin miqdarı dayanır.

Sadalanan nümunələrən aydın olur ki, transformasion qrammatika tərəfdarları nəzəriyyənin empirik tərzdə yoxlanılması üsullarına diqqət yetirirlər. Belə yoxlama üsullarının əsas ölçülərindən biri modelin dilə məxsus düzgün cümlələr qurmaq qaydalarını törətməkdir. Belə ki, həmin modellər söyləmlər toplusundan yalnız o söyləmləri seçir ki, onlar müvafiq dilə məxsusdur və həmin dil daşıyıcıları tərəfindən işlədilir. Demək transformasion qrammatika üçün qrammatik düzgünlük anlayışı mühüm əhəmiyyət daşıyır.

Deskriptiv qrammatikanın xüsusiyyətlərinə nəzər yetirəndə görmək olur ki, qrammatikanın bu yeni forması ənənəvi formadan daha maraqlı modellərlə çıxış edir. Həmin modellər aşağıdakılardan ibarətdir:

1) Sentence ⟶ NP + VP

2) NP ⟶ T + N

3) VP ⟶ verb + NP

4) T ⟶ the

5) Noun ⟶ man, ball, etc.

6) Verb ⟶ take, hit, etc.

Həmin modellərin izahını budaqlanma yolu ilə *The girl bought the book* (292,41) cümləsi üzərində izah etmək olar.

(1) Sentence

NP + VP

T + N + VP

T + N + verb + NP

The + N + verb + NP

The + girl + verb + NP

The + girl + bought + NP

The + girl + bought + the + N

The + girl + bought + the + book

Sxem 3.1 İsmi və feili birləşmələrin modeli

Verilmiş sxemin hər növbəti sətri özündən əvvəl gələn tərkib hissələrin açılışından ibarətdir. Həmin sxemi diaqram şəklində də vermək olar:

(2)



Sxem 3.2. İsmi və feili birləşmələrin modeli

Lakin diaqram yuxarıda göstərilən sxemdən daha məhdud informasiya ifadə edir. Çünki ilk əvvəldə verilmiş (1) sxemə uyğun olaraq biz diaqramı (2) hazırlaya bilərik, verilmiş diaqram (1) sxemini qurmağa şərait yaratmır. Diaqram şəklində göstərilən *The girl bought the book* cümləsi ayrı-ayrı ismi və feili birləşmələr şəklində ifadə olunmuş sxemin budaqlarla təkrarından və açılışından ibarətdir. Həmin sxemlərdə verilmiş funksional kateqoriyaların açılışı bundan ibarətdir ki, bütün

transformasion modellərdə ideoqrafik işarələr elə qrammatik kateqoriyaların baş hərfləri ilə göstərilir.

Söz birləşməsi strukturu sadə bir element kimi həmişə cümləni yaradan bir vasitə kimi çıxış edir.

Cümlənin strukturu cümləni başa düşmə üsulundan asılıdır, bu da öz əksini modeldə tapır. Anlamanı modelləşdirmək üçün bizə cümlədəki münasibətləri gözdən keçirmək lazımdır: *f* ifadəsi *g* ifadəsinin mənası ilə eynilik təşkil edir. Bunu da qeyd etmək lazımdır ki, müəyyən ifadəni anlamaq üçün verilən *f* ifadəsinin bütün mənalarından istifadə etmək lazım deyil; burada verilən ifadənin arxasındakı dilxarici fəaliyyət və onun kateqorial mənası əsas deyil, əsas olan onun perifrastik mənasıdır, yəni verilən *f* frazasının mənasının başqa *g* frazasının mənası ilə başa düşülməsi və eyniliyi maraqlıdır.

Transformasiya geniş mənada linqvistik vahidlərin və ya ünsürlərin dəyişməsidir. Sintaktik vahidlərin ünsürlərinin sadə dəyişməsi yerdəyişmənin, əvəzetmə və substitusiyanın, əlavənin və qısaltmanın nəticəsidir. Bunlar mətnin distributiv təhlilinin inkişafı kimi formalaşıb.

Bütöv konstruksiyaları tədqiq etmək çox çətindir, belə ki, cümlədən sağda və solda hər hansı söyləmlərə rast gəlinməsi vacib məsələdir. Transformasion təhlil metodunun ideyası ifadələrarası əlaqələrin tədqiqi ilə, təktərkibli cümlədən daha uzun olan söyləmlərin tədqiqi ilə bağlıdır. Əgər cümlənin ardıcıllığı nəzərə alınsa, onda söyləm formasının seçimində bəzi tənzimliyi görmək olar.

Dilin cümlələri konkatenasiyanın köməyi ilə qurulur. "Konkatenasiya" termininin _^ və ya + simvollarının və ya sadə müsbət ifadələrin köməyilə keçirilən binar operasiyadır. Bu operasiyanın mənası belədir: əgər X və Y ifadədirsə, onda onlardan Y-i X-dən sağda yazaraq yeni X^Y, X+Y və ya XY ifadəsini almaq olar. Məsələn, əgər X a-dırsa, Y b-dirsə, onda biz *ab*, əgər X aab-dirsə, Y bba-dırsa, onda *aabbba* alacağıq. Konkatenasiya üçün assosiativlik səciyyəvidir:

(X + Y) + Z = X + (Y + Z) (282)

Qrammatika - rekursiv olaraq dilin sayılan cümlələrini əmələ gətirən çoxlu qaydalardır. Hər bir qayda ümumi formaya malikdir:

$$\varphi 1 \ldots\ldots\ldots, \varphi n \longrightarrow \Psi$$

Bu formada φ1, Ψ bu və ya digər strukturdur, $\longrightarrow$ münasibəti o faktı doğurur, rekursiv sayılma prosesində φ1 ....., φn strukturu baş qaldırırsa, onda bu Ψ strukturunu da doğurur.

Dildə cümlələrin rekursiv sayılmasından əlavə, qrammatika yaranan hər bir cümləni struktur təsvirlə təmin etməlidir. Struktur təsvir cümlənin hansı ünsürlərdən qurulması, bu ünsürlərin düzülmə qaydası, onların əlaqəsi informasiyasından əlavə, kommunikasiya prosesində cümlənin istifadəsi zamanı onda olan müxtəlif tip informasiya ilə təchiz etməlidir.

Z.Harris transformasiya anlayışını leksik tərkibin ekvivalentliyinə və onların ünsürləri arasındakı sintaktik əlaqələrinə dayanan söyləmin dəyişkənlik xüsusiyyəti kimi anlatmışdır. Dilçi müəyyən dil materialının təsvirində transformları və transformasiyanın fəaliyyət dairəsini fərqləndirməklə qarşılaşır [231, s.71].

Transformasiyanın dairəsi konstruksiyadır, belə ki, hər bir sinfin fərdi çevrəsini konstruksiyaya xüsusi münasibətlə səciyyələndirmək olar. Məsələn, AN konstruksiyasında N və A əlaqələri və ya NV konstruksiyasında N və V əlaqələri; hər iki konstruksiya birlikdə böyük ANV konstruksiyasını əmələ gətirir. A və V arasında əlaqə olmadığına görə onlar konstruksiya əmələ gətirə bilmir. Bütövlükdə konstruksiya bir-biri ilə əlaqəli olan siniflər zənciridir. Yarımkonstruksiya isə bir və ya bir neçə sinfin zənciri ola bilər.

Morfemlərin müstəqil istifadəsi hadisələrinin tədqiqi xüsusilə vacibdir, belə ki, onların birinin dəyişilməsi digərlərinin də dəyişilməsinə səbəb olur. Məsələn, NV zəncirində sayın uzlaşması hadisəsinə diqqət yetirilsə: *Dülgər ev tikdi*, lakin *Dülgərlər ev tikdilər*. Feilin zaman göstəricilərindəki müxtəlifliyə nəzər salınsa: *Bugün dülgərlər ev tikirlər*, lakin *Dünən dülgərlər ev tikdilər*.

Əgər morfemlərdən başqa, hər bir ünsürdə eynilik təşkil edən iki konstruksiya mövcuddursa, onların eyni bir konstruksiyanın pozitiv variantları olduğu qəbul edilməlidir.

İki konstruksiya arasında başqa bir bağlılıq da tapmaq olar, onlardan birinin tərkibində olan xüsusi morfemin və ya sinfin digər konstruksiyada olmaması bağlılığıdır.

Birləşdirici sinfin üzvləri *(azərbaycanca: və, lakin, dan, dən, ingiliscə: and, but, then)* onunla səciyyələnir ki, onlar iki eyni konstruksiya arasında rast gəlinir. Əgər tərkibində C olan ifadə verilibsə, C-nin qarşısında X konstruksiyasını və C-dən sonra Y konstruksiyasını tapmaq olar ki, X və Y böyük konstruksiyada eyni statusa malik olacaqdır. Məsələn, N-A qrupunda iki A - *pale, but cheerful face "solğun, lakin sevinc dolu bir sifət"* və ya mürəkkəb konstruksiyanın tərkibində iki cümlə: *Either I go or you go "Ya mən, ya da siz gedəcəksiniz."* [42, s.263]. X də, Y də XCY olan əhatədə işlənə bilir. Hərdənbir C-nin eyni olmayan konstruksiyaları birləşdirə bilməsi güman ediləcək. *We got there in time but not he "Biz ora vaxtında gəldik, o isə yox"* [42, s.265]. Həqiqətdə isə, daha qısa konstruksiya daha uzun konstruksiyada təmsil olunan sinfin sıfır vəziyyətini təşkil edir.

XY cütlüyü birlikdə rast gəlinməsinə baxmayaraq eyni əhatədə olmaya da bilər. Məsələn, Oksigen və hidrogen suyu təşkil edir [13, s.222]. Bu hadisələri digərlərindən ayırmaq lazımdır, onların xüsusiyyətlərini öyrənərək ayrı yarımsinfə ayırmaq olar.

Sadə cümlədə mürəkkəb strukturlu, məsələn, iki feilli konstruksiyalar da işlədilir. Transformasiya əsasında belə strukturların bir neçə tipini, uyğun olaraq feillərin bir neçə tipini və uyğun olaraq feillərin bir neçə yarımsinfini ayırmaq mümkündür.

İngilis dilinin timsalında iki feilli konstruksiyalar daha effektli təhlil verir:

1. The mother made the child wake up early.

2. I want to write.

3. The grandma took her grandchild to walk a bit [289].

Təhlili V əhatə dairəsini müəyyənləşdirməkdən başlamaq lazımdır. Birinci nümunədə V1 əvvəl gələn N1 morfeminin sahəsinə daxildir, V2 isə N2 morfeminin sahəsinə daxildir. İkinci nümunədə V2 morfemi N2 morfeminə daxildir. Hər

cümlənin düstur şəkli yazılsa və siniflər arasındakı asılılıqlar göstərilsə, aşağıdakı diaqram alınar:



Sxem 3.3. Səbəb mənalı, arzu-istək mənalı və hərəkət bildirən feillər

Belə təsvir göstərir ki, hər üç konstruksiya fərqli struktura malikdir. Birinci tipdə səbəb mənası ifadə edən feillər *(to make)*, ikinci tipdə arzu-istək mənalı feillər *(to want, to wish, to dream, etc.)*, üçüncü tipdə hərəkət feilləri (*to go, to take, to carry, etc.)* işlədilir.

Birinci konstruksiyanı iki sadədən əmələ gəlmiş kimi qəbul etmək olar: N1V1N2 + N2V2V1 özlərindən sonra tamamlıq tələb edən feillərə aiddir. N1 yalnız V1-in yanında, N2 yalnız V2-nin yanında mübtəda olur.

İkinci konstruksiyanın təkcə bir subyekti var, lakin konstruksiyanı iki tam zəncirdən alınmış kimi nəzərdən keçirmək olar: N1V1 + N1V2. İki yarımkonstruksiyada N1 morfeminin məzmununa onların xətti yaxınlığında uyğun gəlməsi N morfeminin ikinci işləmədə sıfır morfemi ilə əvəzlənməsinə gətirmişdir.

Üçüncü konstruksiyada daha mürəkkəb əlaqələr var. Onu iki konstruksiyadan qurulma kimi təsəvvür etmək olar: N1V1N2 + N2V2 birincidən fərqli olaraq yarımzəncir N2V2 N1V1-in sahəsinə daxil olur. V2 eyni zamanda N2 və N1-in subyektidir.

Beləcə cümlənin dəyişmə əlamətləri daha bəsit konstruksiyalar zəncirindən mətnin qurulma prosesini düzəltməyə kömək edir. Belə təhlil struktur xüsusiyyətlərin dərinliklərinə girməyə və konstruksiyanı daha adekvat təyin etməyə imkan verir.

Sadə cümlənin dəyişməsindən çıxan ümumi nəticə transformasiyanın fəaliyyət dairəsinin geniş olduğunu bir daha sübuta yetirir. Bir-birinə yaxın konstruksiyaları müqayisə edərək birini digəri üçün tipik olmayan hadisə kimi nəzərdən keçirmək olar. Buradan ümumiləşdirmə olar: transformasiya ilə bağlı A və B olan iki konstruksiya verilibsə, A konstruksiyası həmin B konstruksiyasını və hansısa X morfemini təcəssüm etdirir, yəni A=B (±X). Dilçinin vəzifəsi iki konstruksiyanın ekvivalentlik dərəcəsini təyin etməkdən, əgər onlar eynilik təşkil etmirsə, bir konstruksiyanı digərindən ayıran əlavə X ünsürünü tapmaqdan ibarətdir.

Dəyişmələr ümumi vəziyyətdə konstruksiyanın dəyişmə operasiyası kimi nəzərdən keçirilsə, onda nəzəri olaraq operasiya imkanları əvəzetmələrə, yerdəyişmələrə, əlavələrə və bəzi ünsürlərin təyin olunmasına gətirib çıxarır. Transformasiyanın sadə və mürəkkəb cümlədə əvvəlcədən təhlili göstərir ki, mətndə dəyişmənin tipik göstəriciləri bunlardır: morfemlər – əvəzləyicilər, paralel cümlələrdə təkrarlanan komponentlərdə müxtəlif birləşdiricilərlə kombinə olan sıfır formalar; sual ünsüründən sonra inversiya; əlaqəli ünsürlərin əlavəsi və substantivasiya zamanı bir sıra morfem siniflərin buraxılması. Transformasiyanın bütün bu göstəricilərini transformasiya operatoru adlanan anlayışda ümumiləşdirmək olar. Operator işlənən obyektdən asılı olaraq transformasiyanın müxtəlif nəticələrini əldə etmək olar.

Z.Harris transformasiyanın cümləyə qoşulmasının üç tipini ayıraraq transformasiyanın növlərini göstərir: asılı olmayan cümlələrdə transformasiya ($\Sigma \longrightarrow \Sigma$), asılı cümlələrdə ardıcıllıq ($\Sigma 1 \longrightarrow \Sigma 2$) və transform digər cümlənin daxilində müəyyən mövqe tutduqda hisslərin qarşılıqlı asılılığı hallarında dəyişmələr, N ($\Sigma \longrightarrow$ N) [98, 320].

Cümlənin tərkibinin tədqiqi ilə xətti qrammatika (Linear grammar) və tərkib qrammatikası (Intermediate Grammar IG) məşğul olur. Xətti qrammatika cümlənin yaranmasını 3 elementdən ibarət olan çox sadə bir model üzərində qurur: S+V+O (bəzən isə V-nin əvəzinə P də işlədilir.)

Tərkib qrammatikası isə (IG) hər bir linqvistik bütövün iki tərkib hissədən ibarət olduğunu irəli sürür. Həmin tərkib hissələrin əsasları isə NP və VP-dir.

Tərkib qrammatikası xətti qrammatikadan daha güclü mövqeyə malikdir. Çünki onun model yaratmada üstünlükləri daha çoxdur, belə ki, burada verilən tərkib hissələr özləri də tərkib hissələrə bölünərək budaqlanma prinsipinə əsaslanır.

3.6. Sadə cümlədə transformasiya qaydaları

Transformasion qrammatika iki əsas prinsipə əsaslanır: nüvə cümlənin (kernel sentence) təşkili və transformasiya qaydaları nəticəsində linqvistik bütövün başqa formaya çevrilməsi. Birinciyə Z.Harrisin təsnifatını misal göstərmək olar. O nüvə cümlələri isə yeddi kateqoriyaya ayırır:

1. NvV (Bella is writing)
2. NvVPN (Bella is writing about nature)
3. NvVN (Bella is writing an essay)
4. N is N (Bella is a master)
5. N is A (Bella is beautiful)
6. N is PN (Bella is at the party)
7. N is D (Bella is there)

Z.Harris daha az nəzərə çarpan konstruksiyaları da transformasiyalara əlavə edib. Məsələn, "N is between N and N".

Nüvə cümlənin struktur modellərinə aşağıdakılar da əlavə olunub:

NvVNN (The teacher gave him his pen)

NvVND (He threw his coat on the sofa).

Nüvə cümlələr əsasən iki qrupa istinad edir: V (əsas feil) və “BE” ilə olan.

Bəzi qrammatiklər “BE” modelini V sinfinə daxil etmirlər. “BE”-ni konkret və ayrı vahid kimi götürürlər, çünki feilə aid bir sıra qrammatik qaydalar mövcuddur ki,

onlar “BE” modelinə aid olmur və həmçinin “BE”-yə aid bəzi xüsusiyyətlər də feilə aid olmur. Həmin bu fərqli xüsusiyyətlərin bölgüsü nüvə cümlələrin transformasion qaydalarının daha dəqiq verilməsinə şərait yaradır.

Bütün nüvə cümlələr də bir qayda olaraq tərkib qrammatikasının (IG) qaydalarına uyğun olaraq yaradılır. Burada "transformasion qayda" və transformlar" terminlərinə tez-tez rast gəlmək olur.

Həmin transformasion qaydalar bir vahidin dəyişilməsini, əlavəetmə və xaricetmə və s. prinsiplərdən necə istifadə etmək qaydalarını izah edir. Transformasion qaydalar həmçinin törəmə qaydaları kimi başa düşülür. Çünki onlar nüvə cümlələrdən cümlə strukturlarını və ismi strukturları yaradır.

Bu proses bir növ söz nüvəsindən yeni söz yaranmasına bənzəyir. Məsələn, "love" sözündən yaranan törəmələr müəyyən qaydalar əsasında yaranır, belə ki, bura müxtəlif morfemlərin söz kökünə əlavəsi aiddir.

Love (N) →	love (V)
Lovely (A)	loving (A) ↔ lovingly (D)
Loveliness (N)	lovable (A)
Loveless (A)	loved (A)
	beloved (A)
	lover (N)

Buradan belə nəticəyə gəlmək olur ki, bir kök sözdən bir neçə yeni söz yaratmaq olar.

Nüvə cümlələrinin əmələ gətirdiyi struktur modellərə aid nümunələrə isə aşağıdakıları misal göstərmək olar:

S ↔ NP	S ↔ S
The work of the machine	*The machine does work.*
The machine's work	*Does the machine work?*
The machine work	*What works?*
The working machine	*The machine does not work.*
For the machine to work	*The machine did not work, etc.*

The machine's working

The machine working [205, s.151]

Bütün yuxarıda verilən söz birləşmələri və cümlələr *The machine works* cümləsinin müxtəlif şəkilli transformasiyasına uğramış formalardır.

Sadə cümlənin transformasiyaları zəruri və qeyri-zəruri (obligatory və optional) olmaqla iki yerə bölünür. Zəruri transformasiyalar morfoloji səviyyənin məşğul olduğu məsələlərdir və cümlə yaradılmasında ilkin mərhələ rolunu oynayır.

Sadə cümlələrin transformasiya qaydalarına nəzər saldıqda T-AUX tərkib hissəli modellər də diqqəti cəlb edir. Belə ki, burada AUX köməkçi feilləri göstərən bir model kimi verilir. T-AUX təsriflənən əsas feilin (V-nin) aşağıdakı xüsusiyyətlərə malik olmasını tələb edir:

1) müvafiq zamanın seçilməsi;

2) kəmiyyət və şəxs kateqoriyasının nəzərə alınması; məsələn, NP-yə uyğun olaraq V-nin indiki qeyri-müəyyən zamanda III şəxsin təkində feilin *-s* suffiksini qəbul etməsi. Lakin NP cəmdə işlənərsə, V sıfır morfem qəbul edir. (*John has been laughing; The boys have been laughing.* [252, s.271])

3) modallıq əlamətinin işlədilməsi; yəni mənaya uyğun olan modal feilin işlədilməsi. (*The boys must have been laughing; The boys will be laughing; They ought to be crying* [254, s.172])

4) tərz kateqoriyasının seçilməsi;

a) bitmişlik mənasını ifadə edən "have + en" strukturunun işlədilməsi. *(You have seen that);*

b) davamedicilik mənasını ifadə edən "be + ing" strukturunun işlədilməsi. *(She was smiling.* [252, s.24]*)*

Təsriflənən feilin (V) köməkçi feillə birgə yaratdığı T-AUX modelinin ümumi formulu aşağıdakı kimidir:

AUX $\longrightarrow$ tense (M) ("have - en", "be - ing") (V/BE)

V/BE göstərir ki, bütün transformasiyalar morfem səviyyəsində feillərə və BE tərkibinə tətbiq olunur.

M işarəsi göstərir ki, modal feillər nəzərdə tutulub. (can, may, will, shall, must, ought to).

AUX zaman kateqoriyasını bildirir. Zaman kateqoriyası isə məlum olduğu kimi təsriflənən feili birləşmələrə aid edilir. O həmçinin özündə transformasiyalar zamanı kəmiyyət və şəxs kateqoriyalarını birləşdirir:



Sxem 3.4. Köməkçi feillərin indiki və keçmiş zaman formaları

Hər bir qrammatik morfem özündən əvvəl gələn vahidə qoşulur. Məsələn, əgər cümlənin strukturundakı V indiki zamanda verilirsə, bu, aşağıdakı qaydada başlamalıdır: The man - elementi ilə başlayan cümlə modallıq tələb etmirsə, (M) işarəsi atılır və "have" elementinə -s əlavə olunaraq "has" formasına düşür; növbəti -en elemnti "be"-yə artırılaraq "been" vahidini yaradır. Diaqramda verilən növbəti

element isə -ing elementidir ki, bu da əsas feilin kökünə artırılaraq (walk-walking) bu sintaktik bütövü yaradır: *The man has been walking.*

Yuxarıda verilmiş sintaktik bütövə must modal feilini əlavə edərkən nəzərə almaq lazımdır ki, bu modal feil kəmiyyət və şəxs kateqoriyası daşımır və özündən sonra gələn have elementinin dəyişməzliyinə birbaşa təsir edir: *The man must have been walking.*

Əgər cümlənin mənası keçmişə aidliyə əmin olunan bir hadisəni ifadə edirsə, "may" modal feilindən istifadə edilir və sintaktik bütöv bu formaya düşür: *The man might have been walking.*

Eyni qaydalar "BE" üçün də tətbiq oluna bilər.

1. He must be here.

2. I am being polite.

3. I must have been here before.

4. He has been absent for a week.

N is N strukturlu nüvə cümlələrdə asanlıqla dəyişiklik etmək olar. Belə ki, hər iki N cəm kateqoriyasıda işlənərək -s qəbul edirsə, V də həmçinin tək haldan cəm hala keçilir (are, were, have been). Məsələn:

1. The girls are friends.

2. The ladies are actresses.

Sadə cümlələrdə qeyri-zəruri olan transformasiyalar isə (optional transformations) birbaşa sintaktik səviyyəyə aiddir. Bu növ transformasiyalar dil daşıyıcısı tərəfindən cümlənin məna və intonasiyasına görə növünə uyğun seçilir.

Əgər nüvə cümlə nəqli cümlədirsə, o faktlarla əlaqəli informasiya daşıyır. Həmin cümlə asanlıqla təsdiq mənası ifadə edən təsdiq cümlə və inkar mənası daşıyan inkar cümlə şəklində transformasiyaya uğraya bilər. Həmin bu transformasiyalar da özləri inkar və təsdiq mənası ifadə edən sual cümlələrinə çevrilə bilərlər. Təsdiq cümlələrin transformasiyaları bir qayda olaraq **T-A** ilə işarələnir. Həmin konstruksiyalar köməkçi feil olmasına baxmayaraq, do elementini də nüvə cümlənin tərkibinə daxil etməyin mümkünlüyünü göstərir. Məsələn:

I love summer - (NP VT NP) *I do love summer.*

Burada köməkçi feilin yeri V işarəsinin önündə olmalıdır. (bu zamandan və şəxsin hansı kəmiyyətdə işlənməsindən asılı olaraq did və ya does da ola bilər.) Məsələn: *She does love sweets.*

You do know it.

He did say it.

I do hate winter.

Bu cümlələrdə *do* köməkçi feilinin əsas funksiyası qüvvətləndiricidir.

BE olan cümlələrin strukturuna isə *do* əlavə olunmur, lakin elə d*o* kimi vurğu qəbul edib.

İnkar transformasiyaları isə T-NOT kimi işlənir. Bu ondan qaynaqlanır ki, inkar cümlələrin tərkibində "not" inkar ədatı və yaxud onun qısaldılmış variantı olan "n't" işlədilir. Həmin ədat DO, BE, HAVE köməkçi feillərindən və digər modal feillərdən sonra işlədilir. Məsələn:

She did not see him.

The girl didn't see him.

She was not (wasn't) happy.

İnkar transformasiyalarının yaranmasının aşağıdakı yolları var:

1) İsmi əvəz edən inkar əvəzləyicisindən istifadə edərək:

Somebody saw that. ⟶ *Nobody saw that.*

I saw a man there. ⟶ *I saw none there.*

2) "Never, nowhere" tipli zaman zərflərindən istifadə etməklə:

You can tell. ⟶ *You never can tell.*

I see him there. ⟶ *I see him nowhere.*

T-Q ilə işarələnən transformasiyalar isə nəqli cümlənin sual cümləsinə çevrilməsindən yaranırlar. T-A modelindən sual cümləsi yaratmaq asandır. T-Q modelinin yaranması nəqli cümlədə olan söz sırasının dəyişilməsi nəticəsində yaranır. Köməkçi feil olan do öz yerini dəyişərək NP-nin önünə keçir və aşağıdakı transformasion modellər yaranır:

Do you love summer?

Did he say it?

Does she love sweet?

Bu tipli transformasiyalar, yəni söz sırasının dəyişməsi ilə yaranan transformasiyalar permutasiya adlanır.

Lakin heç də bütün sual cümləsi yaradan transformasiyalar söz sırasının dəyişməsi ilə yaranmır. Fərqli yollar aşağıdakılardır:

1) İntonasiyanın dəyişməsi ilə yaranan cümlələr: *You know it?*

2) İntonasiyanın dəyişməsi ilə yaranan cümlələrə həm də nidanın əlavə olunması ilə: *You know it, eh?*

3) Ayırıcı sual hissəciyinin əlavə olunması ilə; Həmin ayırıcı hissə də cümlənin zaman formasına uyğun olan köməkçi feil tələb edir:

You met my people, didn't you?

4) Modallıq ifadə edən hissəciklərin əlavə edilməsi ilə:

You are waiting for her, I suppose?

BE və HAVE feillərinin sual cümlələrində işlənməsi xüsusi qaydaya tabedir. Eyni qaydada onlar NP-dən əvvəl gələ bilərlər, lakin "have" feili "malik olmaq" mənasını ifadə edərkən sual funksiyasında NP-nin əvvəlində müstəqil işlənə bilmir və bu zaman do köməkçi feilindən istifadə etmək lazım gəlir:

Do you have any more questions?

Does he have any friends?

T-W isə nəqli cümlənin xüsusi sual cümləsinə çevrilmə transformasiyasını ifadə edir. Xüsusi sual cümlələri xüsusi sual sözləri ilə ifadə olunur, onların çoxu Wh ilə başlayır. Bu zaman aşağıdakı iki vəziyyət ortaya çıxır:

1) Əgər Wh cümlənin mübtədası yerində işlənən NP-ni əvəz edirsə, onda köməkçi feilin işlənməsinə ehtiyac qalmır. Məsələn,

Peter has come. ⟶ *Who has come?*

The wind is singing in the trees. ⟶ *What is singing in the trees?*

2) Cümlənin mübtədasından başqa bütün üzvlərinə sual verdikdə isə müvafiq köməkçi feilin işlədilməsi zəruridir. Məsələn, *"Do you know the song?"* cümləsindəki NP V-yə aiddir və tamamlıq yerində çıxış edir, ona isə sualı what sual sözü ilə vermək lazım gəlir.

T-EX modeli isə nida cümlələrinin göstəricisidir. Nida cümlələrini yaradan xüsusi transformasiyalar aşağıdakılardır:

1) *The girl is pretty.* ⟶ *How pretty the girl is!*

Burada A (adjective) nida bildirən sözdən sonra işlənir.

2) *He is a boy.* ⟶ *What a boy he is!*

Burada isə nəqli cümlənin ikinci N-i nida cümləsində what qüvvətləndirici sözündən sonraya keçir.

3) *The rain is beautiful.* ⟶ *How beautiful is the rain!*

Burada isə oxşar strukturlara malik olsalar da, bu transformasiya NP-nin yerinə görə birinci nümunədən fərqlənir.

T-PASSİVE məchul növdə olan transformasiyları göstərir. Bu zaman NP1 vV NP2 strukturunda dəyişiklik baş verir, belə ki, cümlənin tamamlığı (NP2) cümlənin mübtədasının yerinə keçir (NP1) feil (V) isə "be - en" formasına düşür və nəticədə aşağıdakı model alınır:

NP1 tense (be-en) (by N1)

T-SEP modeli isə tərkibi feillərdəki qoşmanın (post-position) transformasiya nəticəsində yerinin dəyişdiyi cümlələrin şərti işarəsidir. Məsələn:

They brought in the prisoner. *They brought the prisoner in.*

He turned off the radio. *He turned the radio off.*

Bu nümunələrdən görünür ki, transformasiyanın postposition tutması qoşma ilə əlaqəlidir.

3.6.1. BE olan cümlələrdə transformasiyalar

V və BE işlənən cümlələrin transformasiyalarında oxşar olduğu kimi fərqli cəhətlər də var. Bunlar aşağıdakılardır:

T-ART modeli daha çox NP is NP tipli nüvə cümlələrin ayrılmaz tərkib hissəsidir. Əgər bu tipli cümlələrdə ikinci NP hər hansı bir sinfə məxsus olursa, təklik bildirirsə, haqqında ilk dəfə danışılırsa, bu zaman onun qarşısında (a, an) artiklı işlədilir. Məsələn, *Mr. West is an artist; This is a lizard; A lizard is a reptile*

T-ART dan başqa da BE tipli cümlələrdə başqa xüsusiyyətlərə də rast gəlmək olar.

Nüvə cümlələrdən NP is A əşya və şəxsin xüsusiyyət və keyfiyyətini ifadə edir. Məsələn: *The voice is soft. The man is kind. The car is powerful. The girl is pretty*.

BE cümlələrdə "grow, become, turn" ilə də əvəz oluna bilər. Bu zaman cümlənin mənası dəyişilir. Bu zaman cümlədəki şəxs və əşyanın keyfiyyətini bildirən A göstərir ki, həmin keyfiyyət getdikcə dəyişir. Məsələn, *The girl grew pretty. The voice become soft*.

BE-nin *seem, look, appear, smell, sound, taste* kimi sözlərlə əvəz olunması əşyanın və ya şəxsin keyfiyyətinin dərəcəsi ilə ölçülür. Həmin feillər N is N modelinin transformasiyası zamanı "like, as" sözlərinin işlənməsi ilə birgə yaranır. Məsələn:

She was a teacher. → *She sounded as a teacher.*
She was a teacher. → *She looked like a teacher*.

This is milk. → *This looks like milk*.

"Seem" feilindən sonra BE işlənməsi mümkündür. Məsələn: This seems to be milk. The man seems to be busy.

T-INTRODUCER modeli daha çox BE strukturlu cümlələrə aid olur və bu zaman "there" və "it" sözləri işlədilir. "A cup is on the table" tipli cümlələr ingilis dilinin leksik və qrammatik quruluşuna uyğun olmadığı üçün "introducer" kimi there sözünün işlədilməsi ilə cümlə bu şəkildə transformasiyaya uğraya bilər:

A cup is on the table. → *There is a cup on the table*.

T-INTRODUCER modelinin sadə şəkilli NP birləşməsindən cümləyə transformasiyası da mümkündür. Məsələn:

A lecture → *There will be a lecture.*

A cup on the table → *There is a cup on the table.*

A lecture → *It is a lecture.*

Winter → *It is winter.*

Fine ⟶ *It is fine.*

T-INTRODUCER həmçinin iki cümlənin bir strukturda transformasion olmasına səbəb olur. Məsələn:

It is me speaking. It is the boy who has done it. It is here that we parted.

T-REDUCTION modeli daha çox əmr cümlələri və T-W cümlələrinin tədricən qısaldılmasını əhatə edir. Məsələn:

You give me your hand! ⟶ *Give me your hand!* ⟶ *Your hand!*

You come here! ⟶ *Come here!* ⟶ *Here!*

What am I to do? ⟶ *What to do?*

Where are we to go? ⟶ *Where to go?*

Bu bölmədə modellərin modelləşməsi onların tədricən qısalması səbəbindən baş verir.

3.6.1.1. Nominallaşmanın transformasiyası

Bu tipli transformasiyalar cümlələrin ismi birləşmələrə çevrilməsini göstərir. Bu zaman transformasiyalar icraçı-hərəkət (doer-action), hərəkət üzərində görülən iş (the action thing acted upon) və mənsubluq kateqoriyasını (the category of possession) kimi mənaları ifadə edir. Məsələn:

The seagull shrieked. ⟶ *the shriek(ing) of the seagull; (doer-action)*;

He loves pictures. ⟶ *his love for pictures; (doer-action-thing acted upon)*;

The man has a son. ⟶ *the man`s son (the relation of possession)*.

İsimləşmə transformasiyaları ən çox məlum növdə olan nüvə cümlələrindən yaranır. Məchul növdə olan cümlələrin ismi transformasiyalara çevrilməsinə nadir hallarda rast gəlinir.

Nüvə cümlələr də əsasən iki cür təzahür edir: əsas feil və BE cümlələr. V ilə olan cümlələr təsirli və təsirsiz olmaqla iki növdə təzahür edir. BE isə cümlədə işlənən NP-dən asılı olaraq onun keyfiyyətini və vəziyyətini bildirir.

Nüvə cümlələr ismi transformasiyaların yaranmasına baza yaratsa, heç də bütün cümlələr ismi birləşmələrə çevrilə bilmir. Belə ki, çevrilmə zamanı heç də məna və sözlərin uyğunluğu üst-üstdə düşmür.

N-transformasiyalarında müxtəlif şəkillər yaranır. Məsələn:

He owned the shop → *The owner of the shop*

He owned the shop → *The landlord of the shop*

Birinci transformasiyada qaydalı şəkildə çevrilmə, ikincisində isə uyğun mənalı sözlərin əvəzlənməsi müşahidə olunur.

BE işlənən cümlələrin transformasion prosedurları əsas feil (V) işlənən cümlələrin strukturundan müxtəlif yollarla fərqlənir. Məsələn, "do" köməkçi feili T-A, T-Q, T-W, T-not kimi strukturlarda işlənmir, BE-nin keçmiş və indiki zamana uyğun olan müvafiq tək və cəm formaları mövcuddur. Transformasiya zamanı isə BE sintaktik bütövün tərkibindən atılır və NP yaranır:

A. 1) NP is A ⟶ TAN (T-təyinedici). Proses belə baş verir. BE-nin atılması; A-nın NP-nin tərkib hissəsi olan T və N-nin arasında işlənməsi. Məsələn:

The girl is pretty ⟶ *the pretty girl*

The man is kind ⟶ *the kind man*

The sea is rough ⟶ *the rough sea*

NP-nin tərkib hissəsi olan A iki məna xüsusiyyəti ilə fərqlənə bilər:

(1) keyfiyyət bildirən A; (2) hal-vəziyyət bildirən A.

(2) növün əsasən ismi transformasiyalarına nadir hallarda rast gəlinir, belə ki, icraçı-hərəkət (doer-action) münasibəti ifadə etmir, yalnız əşya və onun keyfiyyəti (thing-its quality) münasibətini ifadə edərkən, icraçı-hal-vəziyyət (doer-state) münasibətini ifadə edə bilmir. Məsələn, aşağıdakı cümlələri isimləşdirmək olar:

Her smile is cold ⟶ *a cold smile*

Her voice is fine ⟶ *a fine voice*

Lakin aşağıdakı sintaktik bütövlər isimləşərkən mənasından uzaq düşür:

The baby is cold; The baby is asleep; The man is right; Mother is angry və s.

2) NP is A strukturlu cümlələr başqa cür də transformasiyaya uğraya bilər:

NP is A ⟶ TN/A of NP; buradakı N/A modelindəki N A-dan düzələn isimdir. Məsələn:

The task was difficult. ⟶ *the difficulty of the task*

The expedition was dangerous. ⟶ *the danger of the expedition*

The day was lovely. ⟶ *the loveliness of the day*

The man is wise. ⟶ *the wisdom of the man.*

Bu nümunələrdə baş verən proseslər iki səviyyədə dəyişikliyə uğrayır:

1) Morfoloji səviyyədə A-nın xüsusi suffiks qəbul etməklə N-ə çevrilməsi;

2) Sintaktik səviyyədə nüvə cümlənin NP strukturunun of sözönü vasitəsi ilə sonradan yaranan TN/A-ya qoşulması.

B. NP is NP ⟶ NPNP; Yenidən proses BE-nin atılması ilə başlayır və bu zaman iki NP yanaşı struktur yaradır. Məsələn:

Mr. West is a teacher. ⟶ *Mr. West a teacher.*

Spot is a dog. ⟶ *Spot a dog.*

C. 1) NP is of NP ⟶ NP of NP; BE-nin atılmasından sonra alınan nümunələr aşağıdakılardır:

The book is of importance. ⟶ *the book of importance.*

The information is of some value ⟶ *the information of some value.*

2) Həmin strukturlu cümlələrin "of"-dan başqa sözönü ilə də transformasiyası mümkündür:

The cup is for coffee. ⟶ *the cup for coffee* ⟶ *the coffee cup* ⟶ *a coffee cup*

The bowl is for sugar. ⟶ *the bowl for sugar* ⟶ *the sugar bowl* ⟶ *a sugar bowl.*

Proses ilk əvvəl BE-nin atılması, sonrakında sözönünün atılması, sonra permutasiya, ən nəhayətdə isə ümumiləşmə nəticəsində müxtəlif transformasiyalar aşkarlanır.

Həmin proseslərə həmçinin -ing qəbul etmiş N/V strukturlu cümlələrdə rast gəlinir. Məsələn:

The hall is for dancing. ⟶ *the (a) hall for dancing* ⟶ *a dancing hall*

The stick is for walking. ⟶ *the (a) stick for walking* ⟶ *a walking stick.*

D. NP is D ⟶ NPD

The boy is here. ⟶ *the boy here*

The man is in the garden. ⟶ *the man in the garden.*

E. NP1 is like NP2 ⟶ NP2 of NP1; proses BE-nin atılması ilə başlayır, sonra iki NP-nin yerdəyişməsi və "of" sözönünün əvəzinə "like"-ın işlənməsi ilə davam edib bitir. Məsələn:

The woman is like a sparrow. ⟶ *a sparrow of a woman*

She is like a terrifying mountain. ⟶ *a terrifying mountain of a woman*.

Bu transformasiyalar daha çox poetik və bədii ədəbiyyatda işlənir.

F. İki növ ismi transformasiya vardır ki, onlar bütün növ nüvə cümlələrə tətbiq oluna bilər: 1) BE ilə olanlar; 2) HAVE ilə olanlar.

Birincidə morfoloji səviyyədəki dəyişikliyə uyğun olaraq təsriflənən feilin (V) V-ing-ə çevrilməsi və NP tərkibində sahiblik, yiyəlik mənasını daşıması.

Bu transformasiya həmçinin BE işlənən cümlələrə şamil olunur:

I remember his being a teacher.

The document being of importance made me lock the draw very carefully.

İkinci növ transformasiya isə bütün növ cümlələrə tətbiq edilə bilər. Belə ki, morfoloji səviyyədə təsriflənən feil (V) V-to formasına çevrilir və sintaktik səviyyədə NP ilə for sözönü vasitəsilə yanaşır. Əgər NP şəxs əvəzliyidirsə, o, obyekt halda olan əvəzliyə çevrilir. Məsələn:

It is important for the man to be wise.

I arranged for the woman to be there at seven.

It is so good for him to be married.

Təkcə yuxarıda verilən transformlar yox, bütün BE-nin törədicisi olduğu N-transformlar başqa bir cümlənin NP-si rolunda çıxış edə bilər:

1) NP1 vəzifəsində (mübtəda)

The kind man helped the child.

Mr. West, a teacher, lived on the same floor

The information of some value was received on the following day.

The man in the garden continued to watch the door.

Where is my sparrow of a woman?

The terrifying mountain of a woman was seen coming in.

There was a sugar bowl on the top shelf.

2) NP2 vəzifəsində (tamamlıq)

I saw a pretty girl there!

Will you meet Mr. West, our teacher?

We received information of great value.

We watched the man in the garden narrowly.

He looked at the road ahead.

He called her the sparrow of a woman.

He saw a terrifying mountain of a woman.

3) N-in BE-dən sonra işlənməsi.

He is a very kind man.

This is Mr. West, the teacher.

That was information of great value.

That is the man in the garden.

That was the road ahead of us.

This is my angel of a wife.

3.6.2. HAVE ilə olan transformasiyalar

V-HAVE başqa feillərdən struktur cəhətdən fərqlidir. HAVE ilə olan feillər aşağıdakı siniflərə bölünür:

1) Sahiblik, yiyəlik ifadə edən cümlələrdə:

The man has a son; A dog has four legs.

2) "There" sözü ilə əvəz oluna bilən və sahiblik mənasını ifadə edən cümlələrdə:

There room has three windows. ⟶ *There are three windows in the room.*

The boy has a book in his hand. ⟶ *There is a book in the boy's hand.*

3) Eyni informasiyanı verən və əsas feilin "tutum" mənasını ifadə edən cümlələr:

The cup has tea in it. ⟶ *The cup contains tea.*

A. Yiyəlik bildirən cümlələrin transformasiyaları:

NP1 have (has) NP2 → NP1's NP2

NP1 have (has) NP2 → NP2 of NP1

Göründüyü kimi, yiyəlik bildirən cümlələr iki eyni məna ifadə edən ayrı-ayrı N transformlar yaradır.

Birinci transformun yaranmasının ilk prosesi HAVE-in atılması və - `s vahidinin artırılması ilə gerçəkləşir. Məsələn:

The man has a stepson. ⟶ *the man's stepson*.

Mary has a brother. ⟶ *Mary's brother*.

İkinci transformasiyada isə HAVE-in atılmasından sonra "of" sözönünün işlədilməsi:

The man has a stepson. ⟶ *the stepson of the man*.

The girl has a brother. ⟶ *the brother of the girl*.

The table has three legs. ⟶ *the legs of the table*.

Bəzi mənbələrdə göstərilir ki, - 's qoşulan NP1 canlı isimlərlə, of sözönünün aid olduğu NP1 isə cansız isimlərlə mümkündür.

B. NP1 HAVE (HAS) NP2 (D)

The room has three windows (in it). ⟶ *The room with three windows*.

The boy has a pencil (in his right hand). ⟶ *The boy with a pencil*.

Yuxarıda göstərilən cümlələri which və who sözlərinin köməyi ilə aşağıdakı strukturlarla da göstərmək olar:

The room which has three windows.

The boy who has a pencil in his right hand.

Həmin cümlələrin inkar transformasiyaları aşağıdakı kimidir:

The man has no hat on. ⟶ *the man without a hat.*

The room has no windows. ⟶ *the (a) room without windows*.

Proses HAVE-in atılması və "with" və "without" sözönülərinin işlənməsi ilə yaranır.

C. NP1 HAVE (HAS) NP2 (in it)

Bu tipli cümlələrdəki HAVE "tutum" mənası ifadə edən feillərlə (V) işlənir.

Məsələn:

The bottle has (contains) milk (in it). ⟶ *a bottle of milk.*

The cup has (contains) tea. ⟶ *a cup of tea.*

Bəzi transformasiyaların mənbəyindən görünür ki, HAVE və "contain" feili ilə işlənən cümlələr BE ilə işlənən cümlələrdən məna cəhətdən fərqlənir. Məsələn:

The bottle is for milk. ⟶ *the bottle for milk* ⟶ *the milk bottle.*

Bəzi N-transformasiyaları vardır ki, məna cəhətdən ziddiyyət yaradır. Belə ki, Z.Harrisin araşdırmalarına əsasən "John's picture" kimi NP BE və HAVE ilə işlənən iki nüvə cümlədən qaynaqlana bilər.

John has a picture. ⟶ *The picture was of John.*

Lakin elə cümlələr vardır ki, onlar yalnız bir məna ifadə edən NP strukturları yarada bilər:

The figure was of Samson. ⟶ *the figure of Samson.*

The picture was of everyday life. ⟶ *the picture of everyday life.*

The picture was of a young man. ⟶ *the (a) picture of a young man.*

Birinci iki transformasiya uyğun olduqları nüvə cümlələrlə yaxın məna ifadə edir. Lakin "a picture of a young man" və "a young man's picture" ifadələri eyni mənaları ifadə etmir. İkinci NP yiyəlik mənasını bildirmir, Azərbaycan dilində tərcümə olunmuş kimi hansısa növ portretdən bəhs olunur. Məsələn, "kişi portreti", "qadın portreti".

D. HAVE ilə işlənən cümlələr V-ing və ya V-to şəklində ismi transformasiyaya uğraya bilər:

NP1 V-ing-dən əvvəl işlənən sahiblik mənası verən təyinedicinin köməyi ilə və yaxud əgər V-V-to-ya çevrilərsə, "for" sözönünün iştirakı ilə transformasiyaya uğraya bilər.

1) The man has a son. ⟶ the man's having a son

The man having a grown up son surprised her.

2) The man had much experience in teaching. ⟶ for the man to have much experience in teaching.

It's important for the man to have much experience in teaching.

3.6.3. Təsirsiz feilli cümlələrin transformasiyaları

NP VI (D) ⟶TN/V of NP (N/V-də verilən N feildən düzələn isimdir.)

A. *The bird sings.* ⟶ *the song of the bird*.

Little Nell died. ⟶ *the death of little Nell*.

Proses iki səviyyədə, morfoloji və sintaktik səviyyədə baş verir: belə ki, morfoloji səviyyədə V özündən düzəlmiş N-lə əvəz olunur. Sintaktik səviyyədə isə iki NP "of" sözönü ilə əlaqələndirilir:

B. VI olan cümlələrə tətbiq edilən digər transformasiyalar bunlardır: VT-ing of NP; NP's V-ing.

Morfoloji səviyyədə V V-ing-ə çevrilir, sintaktik səviyyədə isə iki N of sözönünün və ya 's-in köməkliyi ilə yaxınlaşır.

The bird sings. ⟶ *the singing of the bird; the bird's singing*.

The girl dances. ⟶ *the dancing of the girl; the girl's dancing*.

Bu transformasiyalarda icraçı-hərəkət (doer-action) əlaqəsi mövcuddur. Növbəti transformasiyalardan "the singing bird" və "the dancing girl" həmin strukturlardan törəyən ifadələrdir.

Lakin - 's-lə yaranan konstruksiyalar heç də bütün cümlələrə uyğunlaşdırıla bilmir. Məsələn, "the chimney's smoking" qəbuledilməzdir, çünki "chimney" cansız əşyanı bildirir. "The smoking girl" birləşməsi də qəbulolunmazdı, çünki smoking VT kimi yox, VI kimi qəbul edilir.

C. Morfem səviyyəsində V V-to-ya çevrilir, sintaktik səviyyədə isə "for" sözönü N-in qarşısında işlənir:

The bird sings. ⟶ *for the bird to sing.*

The baby fell. ⟶*for the baby to fall*.

Əgər cümlənin NP qeyri-müəyyən şəxslə göstərilirsə, (one, people, everybody) "for NP" birləşməsi buraxılır:

It's pleasant to read a good book.

It's a pleasure to hear a good song.

D. N-transformları "əşya-yer" (thing-place) əlaqəsini ifadə edir:

The road was (stretched) ahead (to the station). ⟶ *the road to the station*.

BE-yə sinonim olan V atılır.

Bütün transformlar NP yerində bu cür işlənir:

1. NP1 vəzifəsində (mübtəda):

The death of the man changed everything.

The barking of the dogs became louder.

The girl's dancing was beautiful.

A smoking chimney loomed in the distance.

For the bird to sing is natural.

2. NP2 vəzifəsində (tamamlıq):

She heard about the death of the man.

I suggest for us to sing a song.

We admired the girl's dancing.

I heard a barking dog.

We must avoid for the baby to fall.

3. BE-dən sonra işlənən NP:

This is the barking of the dog.

That was a smoking chimney.

The best thing was the dancing of the Polovetz girls.

It was the fall of the man that frightened me.

4. A (sifət)-dən sonra:

It is harmful for a man to drink much.

It is natural for a dog to bark.

3.6.4. Təsirli feilli cümlələrin transformasiyaları

Bu tipli cümlələrin N-transformları aşağıdakı strukturları ifadə edir: icraçı-hərəkət (doer-action), hərəkət-obyekt (action-object), hərəkət-yer (action-place of action) və yaxud hərəkət-zaman (action-time of action) münasibətləri.

A. NP1 V1 TNP2 ⟶ TN/V (er) of NP2

They lead the party. ⟶ *the leaders of the party*.

He manages the bank. ⟶ *the manager of the bank.*

Proses belə baş verir: 1) morfoloji səviyyədə isim (N) eyniköklü feildən (V) düzəlir; 2) sintaktik səviyyədə NP2 N/V-yə "of" sözönü ilə qoşulur.

B. Eyni tipli cümlələr müxtəlif tipli N-transformasiyalar yarada bilər; morfoloji səviyyədə VT V-ing şəklində sintaktik səviyyədə NP isə Np's şəklinə düşüb:

Their leading the party; his managing the bank.

Bu transformasiyalar bütün VT işlənən cümlə strukturlarına tətbiq edilə bilər:

NP1 VT NP2 ⟶ NP's V-ing NP2

The girl reads the poem. ⟶ *the girl's reading the poem.*

The man said it. ⟶ *the man's saying it.*

Bu transformlarda "icraçı-hərəkət-obyekt" münasibəti aşkar edilir.

Növbəti transformasiyalarda isə hərəkət-obyekt əlaqəsi mövcuddur. Bu transformlar iki cür həyata keçirilir: morfoloji səviyyədə N/V söz yaradıcılığı, sintaktik səviyyədə isə NP2 həmin N/V ilə "of" vasitəsilə yanaşır.

C. Formul aşağıdakı kimidir:

NP1 VT NP2 ⟶ NP's TN/V of NP2

They loved the beautiful. ⟶ *their love of beautiful.*

He composed his stories. ⟶ *the composition of his stories.*

D. Məlum növdə olan konstruksiyalar əvvəlcə məchul növə çevrilib, sonra isimləşə bilir:

They smoke fish. ⟶ *Fish is smoked.* ⟶ *The smoked fish.*

He wrote a poem. ⟶ *The poem was written.* ⟶ *The written poem.*

E. "Make", "form" feilləri işlənən cümlələrin xüsusi isimləşmə qaydaları var:

The ice made a film on the pond. ⟶ *A film was made by ice (on the pond)* ⟶ *A film of ice.*

The foam formed a line. ⟶ *A line was formed of foam.* ⟶ *A line of foam.*

Yuxarıdakı nümunələrdən göründüyü kimi, məlum növdə olan konstruksiyalar əvvəlcə məchul növə çevrildi, sonra sözönü "of" ilə əvəz olundu və nəhayət V "make" və "form" tamamilə strukturdan kənar edildi. Bu tipli N-transformlar ingilis

dilində çox işlənir: "a streak of yellow", "a cloud of dust", "a heap of grain", "a line of snowy mountains peaks", "a pool of water".

F. Zaman və ya yer zərflərinin feillə olan əlaqəsi aşağıdakı cümlələrdə və N-transformlarda göstərilib:

He studies six more years. ⟶ *his six more years of study.*

The man came from the East. ⟶ *the man from the East.*

G. V-to ilə olan transformlar:

They loved the beautiful. ⟶ *for them to love the beautiful.*

They lead the soldiers. ⟶ *for them to lead the soldiers.*

Bütün bu ismi transformları başqa cümlələrdə NP vəzifəsində çıxış edə bilər:

H. NP1 vəzifəsində (mübtəda):

Lovers of books often visit secon-hand book shops.

His managing the bank was a success.

The man's saying it put me on my guard.

Their love for children was genuine.

For them to love the beautiful was essential.

The killed bear was enormous.

I. NP2 vəzifəsində (tamamlıq):

We admired the girl's reciting that poem.

I was afraid of his seeing us.

I love smoked fish.

We were disgusted with their cruel treatment of the children.

I heard of his six more years of study.

J. NP-nin BE-dən sonrakı vəzifəsi:

They are lovers of books.

This was their love for children that made them take the risk.

This was the killed bear.

Bütün bu ismi transformasiyaların mexanizmi onu göstərir ki, sintaktik səviyyəyə aid olan prosedurlar aşağıdakılardır:

1. BE və HAVE həmçinin eyni qrupa məxsus olan feillərin (contain, consist,

lie, stretch) atılması.

2. Əsasən "of" sözönünün 2 NP arasında işlənməsi.

3. NP1 və NP2-nin permutasiyası.

Morfoloji səviyyədə:

1. Müvafiq düzəltmə ismin (N) feildən (V) və sifətdən (A) düzəlməsi: compose-composition, govern-government.

2. V-finite strukturunun V-ing strukturuna çevrilməsi.

3. V-finite strukturunun "for N" ilə işlənmiş V-to strukturuna çevrilməsi.

3.7. Törədici modellər

Törədici (generativ) qrammatika dilçilikdə xüsusi bir cərəyan olub, XX əsrin 50-ci illərində meydana gəlmişdir və N.Xomskinin "Sintaktik strukturlar" əsəri ilə əlaqədar olmuşdur. Həmin vaxta kimi əsasən ənənəvi və struktur qrammatikanın prinsipləri aparıcı mövqe tuturdu [231, s.122].

Ənənəvi qrammatika əsasən ana dilinin yazılı mənbələrinin materiallarını tədqiq edərkən dilçi o dildə bu və ya digər vahidlərin olub-olmadığını müəyyən-ləşdirir, onları müəyyən məqsəd və prinsiplər əsasında təsnif edir, onların mətndə və nitqdə işlənmə qaydalarına diqqət yetirirdi. Dil vahidlərini təsnif edərkən və ya qruplaşdırarkən əsas meyar olaraq onların mənasına və məzmun cəhətinə fikir verilirdi. Demək, bu dövrdə qrammatik nəzəriyyələr dil vahidlərinin məna və funksional xüsusiyyətlərinə əsaslanırdı.

Dilə bir bütöv kimi yanaşmaları və dil hadisələrinin semantik cəhətlərinə maraq göstərmələri ənənəvi qrammatikanın müsbət xüsusiyyəti və keyfiyyəti hesab olunur. Ona görə də struktur dilçilik tərəfindən tənqid edilməsinə baxmayaraq, ənənəvi qrammatikanın bir sıra müddəalarını və qaydalarını sonralar törədici qrammatika mənimsəmiş və məhz bunları inkişaf etdirməyə başlamışdır.

Törədici qrammatikanın meydana gəlməsi və inkişafı qrammatik nəzəriyyənin yeni mərhələsinə - sintez mərhələsinə daxil olduğunu göstərir.

Törədici qrammatikanın sintezi anlayışını belə izah etmək olar:

1. Qrammatik nəzəriyyənin – dilin strukturunun dərketmə obyekti çox səciyyə-

vidir, bu obyekt abstrakt obyektdir. Hərfi mənada hər hansı bir dil sintezləşdirilə bilməz. Lakin dil öz real varlığını nitqdə təzahür etdirir və nitq ünsiyyətinin ən kiçik vahidi cümlə hesab olunur. Ona görə ki, cümlənin sintezi qaydalarını müəyyən-ləşdirmək, yəni cümləni müəyyən ilkin ünsürlərdən düzəltmək olar və lazımdır.

Törədici qrammatika məhz bu işlə məşğuldur. Törəmə texnikasının mahiyyəti bütövü hissələrdən almaqdan ibarətdir. Struktur qrammatikadan fərqli olaraq törədici qrammatika hazır cümlələrin – yəni mətndə işlənən, mövcud cümlələrin təsviri ilə məşğul olmayıb, müəyyən dilə məxsus qrammatik cəhətdən düzgün cümlələrin düzəlmə qaydalarının formalaşmasını öyrənir. Deməli, struktur qrammatikadan fərqli olaraq törədici qrammatika deduktiv metoda əsaslanır. Struktur qrammatikada isə induktiv metoda əsaslanırlar.

2. "Cümlənin sintezi" anlayışı məhz dilə aiddir, dil sistemi ilə əlaqədardır, insanın nitq fəaliyyətini əks etdirmir. "Törədici" termini riyaziyyat elmindən götürül-müşdür. Bu termin riyaziyyatda müəyyən çoxluğun üzvlərinin formal hesablanma əməliyyatını bildirir. Bu və ya digər dilin cümlələri (qrammatik cəhətdən düzgün qurulan bütün cümlələr çoxluğu) bu dilin qrammatikası tərəfindən nitq aktında tələffüz olunur. Törədici qrammatika heç bir cümlə yaratmır, müvafiq dilin cümlələ-rini qurmaq üçün müəyyən qaydaları özündə ehtiva edir və o dildə danışanlar həmin qaydalar əsasında qrammatik cəhətdən düzgün qurulmuş cümlələri həm tələffüz edir, həm də qəbul edib anlayır. Beləliklə, törədici qrammatikanın sintezi dedikdə, biz məhz o qrammatikaya aid təsvir üsulunu nəzərə alırıq, nitq fəaliyyətinin xarakterini nəzərə almırıq. Törədici qrammatika nitq fəaliyyəti problemləri ilə məşğul olmur.

Deməli, törədici qrammatikanın birinci tələbi elə əməliyyat irəli sürməkdir ki, bundan istifadə etməklə müvafiq dildə qrammatik cəhətdən düzgün olan cümlələri qrammatik cəhətdən səhv cümlələrdən fərqləndirmək mümkün olsun. Burada zəruri şərt belədir ki, qrammatika nəinki qrammatik cəhətdən düzgün cümlələri səhv cümlələrdən fərqləndirməlidir, həm də bu düzgün cümlələrin bu və ya digər şəkildə struktur təsvirini verməlidir. Bu iki məqsəd bir-biri ilə əlaqədardır. Qrammatik cəhətdən düzgün cümlələrin strukturunu təsvir edən qrammatika bununla da həmin struktura daxil ola bilməyən cümlələri səhv cümlələr sırasına daxil edir. Unutmaq

olmaz ki, "qrammatik cəhətdən düzgün" dedikdə, heç də fikrin, məzmunun düzgünlüyündən söhbət getmir. "Çəngəl ilə divarı rənglədim" cümləsi məzmunca mənasızdır, lakin qrammatik cəhətdən düzgündür.

N.Xomski və ardıcılları göstərirlər ki, törədici qrammatikanın təsvir obyekti danışanın dil səriştəsi və ya "kompetensiya"sıdır, yəni dilə məxsus qaydaları bilməsidir. Bu baxımdan "kompetensiya" və "işlədilmə" anlayışlarının fərqləndirilməsi zəruridir. Kompetensiya - danışanın həmin dilin qayda-qanunlarını bilməsinə deyilir. "İşlədilmə" isə danışanın nitq prosesində həmin biliklərdən istifadə etməsinə deyilir. Danışan şəxs müvafiq dilin qaydalarını bilə bilər, lakin istifadə prosesində müxtəlif səbəblərdən bunları poza bilər. *Kompetensiya* anlayışı dilə aiddir, *istifadə* anlayışı isə nitqə aiddir. Beləliklə, bir tərəfdən "törəmə" və "tələffüz", digər tərəfdən "kompetensiya" və "istifadə" arasında tam paralelizm vardır [208, s.157].

Struktur qrammatika dil iyerarxiyasının ən kiçik vahidlərinin təhlilindən, identifikasiyasından və təsnifindən başlayır və daha iri vahidlərə doğru – fonemlərdən morfemlərə və daha sonra "konstruksiyalara", yəni sözlərə, söz birləşmələrinə və cümlələrə doğru gedir. Törədici qrammatika isə dil strukturunun ali mərhələsindən (yarusdan) - cümlədən başlayıb aşağı mərhələlərə doğru, əvvəlcə söz birləşməsi, sonra söz, lap axırda sözün morfoloji strukturu istiqamətində təsvir aparır. Nəzərə alınmalıdır ki, struktur qrammatikada, xüsusilə deskriptiv qrammatikada, ənənəvi qrammatikadakı kimi, dil təsvirinin əsas vahidləri sözlər və cümlələrdir.

Struktur qrammatika ənənəvi qrammatikanı tənqid edir, onu dilçiliyin inkişafında "elməqədərki" mərhələnin nəticəsi hesab edir. Əksinə, törədici qrammatika ənənəvi qrammatikaya bəraət qazandırır, onun anlayış və prinsiplərini əsaslandırmağa çalışır. N.Xomski və "generativ" qrammatikanın digər nümayəndələri strukturalistləri dilə səthi, üzdən yanaşdıqları üçün tənqid edirlər. Əslində, törədici qrammatika formallaşdırılmış ənənəvi qrammatikadan başqa şey deyildir [202, s.172].

XX əsr dilçilik cərəyanlarını müqayisə edib qarşılaşdırdıqda əslində, generativ qrammatika çox şeyi struktur qrammatikadan əxz etmişdir. Törədici qrammatika linqvistik təsvirin eksplisit, ziddiyyətsiz, tam əhatəli və sadə olmasını tələb edir ki, bunların hamısı əslində struktur qrammatikadan götürülməlidir. Deməli, N.Xomski-

nin generativ qrammatikası əslində struktur dilçilik tədqiqatlarına, onun nailiyyətlərinə əsaslanır. Yarandığı dövrdən bəri törədici qrammatika inkişafa meylli olmuş, getdikcə struktur dilçilikdən uzaqlaşmışdır. Törədici qrammatikanın ilkin variantı N.Xomskinin məşhur "Sintaktik strukturlar" əsərində verilmişdir. Belə ki, deskriptiv dilçiliyin təsiri ilə əlaqədar N.Xomski semantikanı qrammatikadan kənar hesab edir, qrammatikanı da sırf formal əsasda qururdu [207, s.305].

N.Xomskinin "Sintaktik nəzəriyyənin aspektləri" adlı fundamental əsərini nəşr etdirir və burada törədici qrammatika nəzəriyyəsi müəllif tərəfindən əsaslı şəkildə və yenidən işlənilir, əvvəlki müddəalar yenidən nəzərdən keçirilib dəqiqləşdirilib. Bu yeni variantda törədici qrammatika "standart nəzəriyyə" adlanmaqla sintaktik, semantik və fonetik hissələrdən ibarətdir. Bunlardan törəmə prosesində yalnız bir komponent – sintaktik komponent iştirak edir, digər iki komponent isə interpretasiya rolu oynayır. Sintaktik komponentin tərkibinə bunlar daxildir: baza komponent (bu da özlüyündə iki subkomponentdən – kateqorial komponent və leksikondan ibarətdir) və transformasion komponent. Baza komponent cümlənin dərindəki strukturunu üzdəki struktura çevirir. Semantik komponent cümlənin dərindəki strukturunu interpretasiya edərək onun mənasını müəyyənləşdirir; fonoloji komponent isə cümlənin üzdəki strukturunu interpretasiya edərək onun səslənməsini müəyyənləşdirir. Bu mərhələdə törədici qrammatikanın əsas məqsədi cümlənin anlamı ilə onun səs forması arasındakı əlaqəni müəyyənləşdirməkdən ibarətdir.

Qeyd olunduğu kimi, generativ qrammatika ənənəvi qrammatikanın təqdim etdiyi informasiyadan qaynaqlanaraq öz nəzəriyyəsini yaratmışdır. Məsələn, ənənəvi qrammatika cümlə haqqında aşağıdakı kimi mülahizə irəli sürür: (N.Xomskinin göstərdiyi nümunə əsasında)

Sincerity may frighten the boy [205, s.63].

Bu cümləni nəzərə alaraq ənənəvi qrammatikanın verdiyi mülahizə aşağıdakı kimidir:

1. Verilən söz sırası bitmiş fikri ifadə edən cümlədir. *Frighten the boy* - VP feil birləşməsidir və əsas feil olan *frighten* (V) və *the boy* ismi birləşməsindən (NP) ibarətdir. *Sincerity* NP-si isə yalnız bir isimdən (N) ibarətdir. Bundan başqa, *the*

müəyyənlik artiklı (ART); *may* isə köməkçi modal feil hesab olunur (AUX); bu həmçinin modal feil kimi də götürülür (M) [205, s.64].

2. Həmin nümunədəki birləşmələrin sintaktik funksiyalarına da nəzər salmaq əhəmiyyətlidir. Məsələn, NP kimi çıxış edən *sincerity* cümlənin mübtədası kimi çıxış edirsə, VP olan *frighten the boy* isə xəbər vəzifəsində çıxış edir. Parçalanmalara nəzər salınsa, VP-nin tərkib hissəsi kimi fəaliyyət göstərən NP - *the boy* həmin VP-yə aid olan tamamlıqdır. Əsas feil olan *frighten* ayrı götürülsə, o cümlənin mübtədası ilə uzlaşaraq Subject-Verb cütlüyü *(sincerity frighten)*, tamamlıq ilə yanaşaraq isə Verb-Object cütlüyü *(frighten the boy)* yaradır [205, s.64].

3. Cümləni təşkil edən sözlərin məna cəhətinə nəzər yetirilsə isə, aşağıdakı nəticələrə gəlmək olar. Cümlənin N kimi işlənən üzvü *boy* sayılan (count) və ümumi (common) isimdir. Bu həmçinin canlı varlıqları bildirən isimdir (animate); *frighten* isə özündən sonra tamamlıq tələb edən təsirli (transitive) feildir və özündən əvvəl mücərrəd mübtəda və canlı varlıqları bildirən tamamlıq tələb edir.

Yuxarıda verilən informasiyaların hamısı budaqlanmalı sxem vasitəsilə aşağıdakı kimi verilə bilər:



[205, s.65].

Sxem 3.5. Mübtəda-feil cütlüyü

Göründüyü kimi, yuxarıda verilən diaqram simvollar sistemi üzərində qurulub. Bu simvollar sisteminə formativlər (*the, boy*) və kateqorial simvollar daxildir (S, NP, V). Formativlər də öz-özlüyündə leksik (*sincerity, boy*) və qrammatik (*bitmiş, davamedici zaman formalarının göstəriciləri*) olaraq iki yerə bölünür. Formativlər və kateqorial simvollar müstəqil xüsusiyyətə malikdir. Belə ki, hər bir dilin

qrammatikasına uyğun olaraq xüsusiləşdirilir.

Budaqlanmanı əhatə edən baza komponentləri bir-birindən törəyən aşağıdakı zəncir və ardıcıllıqlardan ibarətdir:

(I) S ⟶ NP ^ AUX ^ VP
VP ⟶ V ^ NP
NP ⟶ DET ^ N
NP ⟶ N
DET ⟶ the
AUX ⟶ M

(II) M ⟶ may
N ⟶ sincerity
N ⟶ boy
V ⟶ frighten

[205, s.68].

Göründüyü kimi, bu simvollar və formativlər *"Sincerity may frighten the boy"* sintaktik bütövündən *"Boy may frighten the sincerity"* kimi cümlə də yaratmaq imkanına malikdir.

3.8. Funksional amillər

NP-dən fərqli funksiya daşıyan "mübtəda" məfhumu qrammatik kateqoriyadan çox qrammatik funksiya kimi çıxış edir. Ənənəvi terminlərlə sincerity, yəni NP cümlənin "Subject-of" funksiyası vəzifəsini daşıyır. Funksional terminlər olan "mübtəda", "xəbər", "ismi birləşmə", "feil" kimi kateqorial terminlərdən kəskin surətdə fərqlənir və eyni məfhumlara aid olmurlar. Bunların fərqini aşağıdakı sxemlə izah etmək olar:



[205, s.69]

Sxem 3.6. Ənənəvi terminlərlə funksional terminli sxem

Eyni cümlənin ikinci budaqlanma sxemi bir az daha fərqli prinsip üzərində qurulub. Lakin bu quruluş iki cəhətdən yalnışdır. Birinci ona görə ki, bu sxem kateqorial və funksional elementlərə eyni status verir. İkinci bir tərəfdən isə, mübtəda, xəbər, əsas feil, tamamlıq artıq kateqorial işarələrin daxilində öz əksini tapıb və onları təqdim etmək üçün yeni budaqlardan istifadə etmək də lazım gəlmir.

Bu sxemdə cümlənin mübtədasını "subject-of" termini ilə ifadə etmək lazımdır, çünki göründüyü kimi "of" cümlənin NP-nin digər üzvlərlə birbaşa əlaqəsini göstərir. Məsələn, NP ^ AUX ^ VP kimi. "Object-of" isə VP-nin tərkibindəki NP-nin V ^ NP şəkilli əlaqəsini əks etdirir.

Lakin elə cümlələr də vardır ki, onların tərkibində çoxlu qrammatik funksiyalar aşkarlanır. Məsələn, aşağıdakı cümlələrə nəzər yetirilsə:

(a) Jane was made by Bill to leave.

(b) Jane was made by Bill to be examined.

(c) What disturbed Jane was being regarded as incompetent.

(a) cümləsindəki *Jane make* feilinin "object-of" və *leave* feilinin "subject-of"-u vəzifəsindədir. (b) cümləsindəki *Jane make* feilinin və *examine* feilinin "object-of"-u vəzifəsindədir. (c) cümləsində isə *Jane disturb* "predikativ"in, *regard* feilinin "object-of"-u və *incompetent* sifəti predikativ kimi götürüldüyü halda onun "subject-of"-u vəzifəsində çıxış edir.

Həm (a), həm də (b)-də *Bill* cümlənin məntiqi mübtədası vəzifəsində çıxış edir, halbuki Jane cümlənin qrammatik mübtədası adlanır və bu da cümlənin səthi (surface) strukturundan qaynaqlanır. Dərin (deep) strukturda qrammatik funksiyaların əhəmiyyətliliyi isə səthi strukturdan tamamilə fərqlənir.

Aşağıdakı nümunələrdə qrammatik nümunələr yeni törədici baza birləşmələrinin yaranması nəticəsində yaranır və dərinlik strukturunun səthi strukturdan fərqini bir daha sübut edir. Belə ki, *Jane was made by Bill to leave* sintaktik bütövü *Bill made Jane leave* bütövünün fərqli şəkildə səthi strukturda göstəricisidir, lakin onların dərinlik strukturları eynidir. Bunu nəzərə alaraq aşağıda bir neçə əsas strukturun törədici qaydalarına nümunə olan cümlələr göstərilir.

a) S ⟶ Adverbial ^ NP ^AUX ^ VP (Naturally, Jane will leave)

b) S ⟶ NP ^ AUX ^ VP (Jane will leave)

c) VP ⟶ V ^ NP (examine Bill)

d) VP ⟶ V (leave)

e) VP ⟶ V ^ NP ^ sentence (persuade Bill that John left)

f) VP ⟶ Copula ^ Predicate (be President)

g) Predicate ⟶ N (President)

Nümunələrdən göründüyü kimi (a) və (b) cümlələrində cümlənin mübtədası rolunda *Jane* durur. (c) və (e) cümlələrində isə *Bill* tamamlıq vəzifəsində çıxış edir. (c), (d), (e) cümlələrindəki *examine*, *leave* və *persuade* isə həmin cümlələrin əsas feili vəzifəsində çıxış edir.

Cümlələrdə verilən informasiyanın eksplisit şəkildə, yeni aydın şəkildə çatdırılması cümləni təşkil edən vahidlərdən asılıdır. Həmin informasiya şaxələnmədən çox yaxın kateqoriya kimi səciyyələnir. Həmin kateqoriyalar da cümləni təşkil edən leksik formativlərin tərkib hissələridir. Cümlənin kateqoriyalara bölünməsi törədici qrammatikanın ilkin və yeni cəhdlərindən biri sayılır. Məsələ burasındadır ki, yarımsiniflərə bölünmə iyerarxik prinsiplərdən çox keçici təsnifata əsaslanır. Məsələn, ismin ingilis dilindəki yarımsinif təsnifatı belədir: xüsusi isimlər (John, Egypt), yaxud ümumi isimlər (boy, book); canlı varlıqları bildirən isimlər (John, boy), yaxud cansız varlıqları bildirənlər (Egypt, book). Müəyyən qaydalar toplusu vardır ki, onlar yalnız bir sinifə aid olur. Məsələn, artiklların xüsusi isimlərlə işlənmə zamanı yaranan məhdudiyyətlər, yiyəlik halının canlı və cansız varlıqları bildirən isimlərə fərqli şəkildə tətbiq edilməsi.

Əgər xüsusi/ümumi yarımsinfi araşdırılarsa, aşağıdakı struktur əldə edilər:

N ⟶ Proper

N ⟶ Common

Proper ⟶ Pr-Human

Proper ⟶ Pr-nHuman

Common ⟶ C-Human

Common ⟶ C-nHuman [205, s.82].

Hər bir leksik formativ özünəməxsus sintaktik xüsusiyyətlər daşıyır. Məsələn, boy isminin sintaktik xüsusiyyətləri (+common), (+human)-dır. Belə ki, leksik kateqoriyalar olan N, V və s. daha mürəkkəb simvollar tərkibində (NP, VP) analiz edilir. Məsələn, aşağıdakı qrammatik qaydalar toplusuna əsaslanaraq [205, s.83]:

a) N ⟶ (+N, ±Common)

b) (+Common) ⟶ (±Count)

c) (+Count) ⟶ (±Animate)

d) (-Common) ⟶ (±Animate)

e) (±Animate) ⟶ (±Human)

f) (-Count) ⟶ (±Abstract)

Burdan belə bir fikir ortaya çıxır ki, (+Common) kimi xarakterizə olunan mürəkkəb simvol Q özünə aid olan digər xüsusiyyətlərlə birgə çıxış edir. ((+Count) və yaxud (-Count)). Bunu budaqlanma sxemi ilə də (Sxem 3.7.) göstərmək olar [205, s.83]:



Sxem 3.7. Leksik-formativ model

Sincerity may frighten the boy cümləsini nəzərə alaraq onu təşkil edən isimlərin sinfi bölgülərinə nəzər salmaq olar:

(sincerity, (+N, -Count, +Abstract)

(boy, (+N, +Count, +Common, +Animate, +Human))

(may, (+M))

Bundan da aşağıdakı düzüm alınır:

(+N, -Count, -Abstract) ^ M ^ Q ^ the ^ (+N, +Count, +Animate, +Human)

Buradan alınan yeni bir sxem isə (Sxem 3.8.) aşağıdakı kimidir [205, s.86]:



Sxem 3.8. Mücərrəd, sayıla bilən, cansız və canlı isimlərin modeli

Feilin mürəkkəb simvol (VP) tərkibində xüsusiyyətləri də maraqlıdır. İlk öncə feilə aid olan xüsusiyyətlər nəzərə alınmalıdır. Bunlardan biri onun təsirli, yaxud təsirsiz olmasıdır. Aşağıdakı modelə əsasən:

V ⟶ (+V, ±Progressive, ±Transitive, ±Abstract-Subject, ±Animate-Object)

Məsələ burasındadır ki, V, yəni feil təsirli olduğu halda əhatəsindəki NP ilə birgə mürəkkəb simvol yaradır. Həmin NP isə mücərrəd mübtəda və mücərrəd tamamlıq ola bilər. Araşdırmalar aşağıdakı törədici modelləri ortaya çıxarır:

1) V ⟶ (+V, +Transitive) / - NP

2) V ⟶ (V, -Transitive) / - ≠ [205, s.91].

Mürəkkəb mübtəda və tamamlığı nəzərə alaraq yaradılan modellər:

1) (+V) ⟶ (+(+Abstract)-Subject) / (+N, +Abstract) AUX -

2) (+V) ⟶ (+(-Abstract)-Subject) / (+N, +Abstract) AUX -

3) (+V) ⟶ (+(+Abstract)-Object) / -DET (+N, +Abstract)

4) (+V) ⟶ (+(-Abstract)- Object) / -DET (+N, -Abstract) [205, s.91].

Feilin yarımsiniflərə bölünməsi isə aşağıdakı kimi xarakterizə oluna bilər. Bu da VP daxilindəki NP-nin nə ilə ifadə olunmasından asılıdır.



[205, s.94].

Həmin modelin misallarla verilməsi aşağıdakı kimidir [205, s.94]:

1) eat, (+V, +-NP)

2) elapse, (+V, +-≠)

3) grow, (+V, +-NP, +-≠, +-Adjective)

4) become, (=V, +-Adjective, +-Predicate-nominal

5) seem, (+V, +-Adjective, +-Like ^ Predicate-Nominal)

6) look, (+V,+-(Prepositional-Phrase) ≠, +-Adjective, +-Like ^ Predicate-Nominal)

7) believe, (+V, +-NP, +-that ^ S')

8) persuade (+V, +-NP (of ^ DET ^ N) S')

Verilən feillərə uyğun cümlə nümunələri isə aşağıdakılardır [205, s.94]:

1) John *eats* food.

2) A week *elapsed*.

3) John *grew* a beard; John *grew*; John *grew* sad.

4) John *became* sad; John *became* president.

5) John *seems* sad; John *seems* like a nice fellow.

6) John *looked*; John *looked* at Bill; John *looks* sad; John *looks* like a nice fellow.

7) John *believes* me; John *believes* that is unlikely.

8) John *persuaded* Bill that we should leave; John *persuaded* Bill of the necessity for us to live.

Törədici modellər nəticəsində alınan VP modelləri sonda bu formaya düşə bilər [205, s.96].

1) V (elapse)

2) V NP (bring the book)

3) V NP that-S (persuade John that there was no hope)

4) V Prep-Phrase (decide on a new course of action)

5) V Prep-Phrase Prep-Phrase (argue with John about the plan)

6) V ADJ (grow sad)

7) V like Predicate-Nominal (feel like a new man)

8) V NP Prep-Phrase (save the book for John)

9) V NP Prep-Phrase Prep-Phrase (trade the bicycle to John for a tennis racket)

NP-nin NP (DET) N (S') vəziyyətində isə yarımsinifləri 4 cür olur [205, s.100]:

1. (DET - S’)
2. (DET -)
3. (- S’)
4. (-)

(DET - S’) modelində NP-dən sonra gələn tamamlayıcı cümləni xarakterizə edir. Məsələn,

The idea that he might succeed.

The fact that he was guilty [205, s.100].

(DET -) ümumi isimlərin göstəricisidir.

(-) xüsusi isimlərin göstəricisidir.

(- S’) şəxssiz cümlələrin (it əvəzliyi ilə başlayan cümlələr) göstəricisidir.

Məsələn,

It strikes me that he had no choice.

It surprised me that he left [205, s.100].

V (feil) yarımsiniflərinə nəzər saldıqda Verb-Prepositional-Phrase konstruksiyası diqqəti cəlb edir. Bu da feil və onu müşaiyət edən sözönülü ifadənin arasındakı bağlılıqla xarakterizə olunur. Məsələn, belə bir cümləyə baxaq:

He decided on the boat [205, s.101] iki məna ifadə edə bilər. Burada da *He chose the boat* və *He made his decision while on the boat* mənalarını ifadə edə bilər. Hər iki tipli ifadə isə bir eyni cümlədə birləşərsə, nəticə belə olar:

He decided on the boat on the boat. – He chose the boat while on the boat [205, s.101] mənasını verir. Aydın görünür ki, ikinci sözönülü ifadə yer zərfliyidir və feillə bilavasitə bağlılığı yoxdur. Zaman və yer zərfləri feil birləşmələrində daha sərbəst bir mövqeyə malikdir. Lakin başqa tipli sözönülü ifadələrə rast gəlmək olar ki, bunlar əsas feillə daha yaxın bağlılığa malikdirlər. Bütün bu xüsusiyyətləri özündə birləşdirən aşağıdakı model əlverişlidir [205, s.102]:

1) S ⟶ NP ^ Predicate-Phrase

2) Predicate-Phrase ⟶ AUX ^ VP (Place) (Time)

3) VP ⟶ V
- ⟶ be Predicate
- ⟶ (NP) (Prep-Phrase) (Prep-Phrase) (Manner)
- ⟶ ADJ
- ⟶ S'
- ⟶ (like) Predicate-Nominal

4) Prep-Phrase
- ⟶ Direction
- ⟶ Duration
- ⟶ Place
- ⟶ Frequency

5) V ⟶ CS

Dash - into the room (V - Direction)

Last - for three hours (V - Duration)

Remain - in England (V - Place)

Win - three times a week (V - Frequency)

Törədici qrammatikanın xüsusiyyətləri nəzərə alınarsa, aşağıdakı yekun modelin işlənməsi daha məqsədəuyğun olar [205, s.107]:

1) S ⟶ NP ^ Predicate-Phrase

2) Predicate-Phrase ⟶ AUX ^ VP (Place) (Time)

Copula ^ Predicate

3) VP ⟶ V (NP) (Prep-Phrase) (Prep-Phrase) (Manner)

S'

Predicate

4) Predicate ⟶ Adjective

⟶ (like) Predicate-Nominal

5) Prep-Phrase ⟶ Direction, Duration, Place, Frequency

6) V ⟶ CS

7) NP ⟶ (DET) N (S')

8) NP ⟶ CS

9) (+DET-) ⟶ (±Count)

10) (+Count) ⟶ (±Animate)

11) (+N, +-) ⟶ (±Animate)

12) (+Animate) ⟶ (±Human)

13) (-Count) ⟶ (±Abstract)

14) AUX ⟶ Tense (M) (Aspect)

15) DET ⟶ (pre-Article ^ of) Article (post-Article)

16) Article ⟶ (±Definite)

Nəhayət, *Sincerity may frighten the boy* cümləsinin yuxarıda göstərilən model əsasında generative modeli aşağıdakından ibarətdir:

(sincerity, (+N, +DET-, +Count, +Abstract,...))

(boy, (+N, +DET-, +Count, +Animate, +Human,...))

(frighten, (+V, +-NP, +(+Abstract) AUX - DET (=Animate), +Object-deletion...))

(may (+M,...)) (200, 103)

IV FƏSİL

İNVARİANT MODELLƏR

Oxşar sinkretik törəmələr diaxron və sinxron keçidlərin, sözəmələgəlmənin morfoloji üsullarının, nümunə üzrə söz düzəltmələrinin nəticəsidir. Onların əmələ gəlmə səbəbləri müxtəlif amillərlə şərtlənir – bu, mövcud dil vasitələri hesabına hər hansı informativ semantika komponentlərinin ifadə olunması tələbatıdır. Ş.Balli hesab edir ki, *"... kateqoriyalararası əvəzetmələr hesabına fikir azad olunur, ifadə isə zənginləşərək müxtəlif çalarlar qazanmış olur"* [72, s.120]. Buna görə *after, before, since* sinkretizmlərinin diaxronik tədqiq etmək, qeyd edilən vahidlərin dəyişmə dinamikasını izləmək, xüsusi halda isə zaman münasibətlərinə diqqət yetirmək məqsədəuyğundur.

4.1. After, before, since - söz önlüyü, bağlayıcı və ya zərflər rolunda

Bu leksemlərin qrammatik statusunun tədqiqi maraq doğurur. İndiki zamanadək *after, before, since* leksemlərinin qrammatik statusu müəyyən edilməmiş qalır. Germanşünasların əksəriyyəti onları omonimik söz önlükləri, bağlayıcılar və ya zərf nümunələri kimi göstərirlər. Bəzi alimlər, məsələn R.Pens və D.Emeri, budaq cümləni əlaqələndirdikdə *after, before* leksemlərini bağlayıcılara deyil, zərflərə aid edirlər. Fikrimizcə, L.Skupçenkonun mövqeyi maraq doğurur: o, *after, before* sözlərini daxil edən sintaktik modelləri təhlil edərək, bu leksemlərin bağlayıcı funksiyası daşımadığı qənaətinə gəlmişdir, *after, before, since* sözlərinin istifadə olunduqları sintaktik modellər vasitəsilə təyin edilməsi həqiqətən maraq doğurur, çünki sözlərin dəyişməzliyi və onların paradiqma sıralarının olmaması səbəbindən qrammatik mənasının sintaktik tətbiqi ilə sıx əlaqədədir. Bir sıra hallarda isə nitq hissələrinin haçalanması (xüsusən dəyişməz nitq hissələrinin) bütövlükdə sintaktik əlamətlər üzərində qurulur [145, s.9].

Skupçenkonun təsnifatına əsaslanaraq *after, before, since* leksemlərinin olduğu sintaktik modellərin təhlili, onların qrammatik statusunun təyin edilməsi və onların

modellərinin ayrılmasına diqqət yetirək [145, s.6]:

Cədvəl 4.1.

Model 1. *After* leksemli sintaktik modellər

I	Sintaktik modellər	Nümunələrin sayı	Faizlə
1	After + $S_{(elli)}$	1250	66.9
2	After + C1	323	17.3
3	After + Phr	255	13.6
4	After + Ger	7	0.4
5	P_{str} + after After + $S_{(elli)}$	11	0.6
6	After+ P_{str} After + $S_{(elli)}$	9	0.5
7	S + After S_1 + (after +$S_{2\ (elli)}$	10	0.5
8	Pstr + $(D + after)_{phr}$ After + $S_{(elli)}$	4	0.2

Burada: S substantivdir (isim, əvəzlik, say);

S_1 - cümlə hissəsi olmayan ilkin predikasiya strukturu;

Phr predikasiya strukturu olmayan sözlərin qoşması;

Ger - gerund;

P_{str} - ilkin predikasiya strukturu;

D zərf

Model 2: After + $S_{(elli)}$

Example: Jane came up to me and said after a moment: What are you doing?

I am sure he will write to her after this conversation.

He jerked his head toward the after part of the seat.

Aydındır ki, after lekseminin bu misallardakı qrammatik statusu fərqlidir: birinci iki misalda, o, sözönü funksiyasını yerinə yetirir, üçüncüdə isə - *after* sifətdir.

Model 3. After + C1

1. After the conversation was over I asked Jane who she had talked to.→
After that I asked Jane who she had talked to.
2. He made a lot of dough in the undertaking business after he got out of college. → He made a lot of dough after having got out of college → after that.

After lekseminin qrammatik statusu ilə əlaqədar ingilis dilçiliyində yekdil rəy mövcud deyil. Ənənəvi nöqteyi-nəzərə görə, bu, bağlayıcıdır, lakin bir çox dilçilər (O.Yespersen [240, s.51], G.O.Kerm [215, s.21], L.N.Skupçenko [145, s.84]) hesab edirlər ki, qeyd edilən modeldə *after* sözönü kimi fəaliyyət göstərir. İş ondadır ki, bu sözün arxasında gələn tabe olan cümlə germanşünaslıqda substantiv kimi təqdim edilir. Ondan əvvəl gələn leksem isə bağlayıcı deyil, məhz sözönü kimi tətbiq edilir.

Model 4. After + Phr

1. I think it is wonderful to be happy after being married to the same man for so many years. → after that.

2. After five years of efforts on Jimmy's part she rewarded him by leaving him for another man. → after that.

Aydındır ki, after+Phr modelinin bütün variantlarında bu leksem sözönüdür.

Model 5. After + Ger

1. After eating Jane fell asleep. — after that.

Şübhəsiz, after - sözönüdür.

5, 6, 7, 8 sintaktik modelləri problemlidir, çünki ikimənalı şərh olunmaya yol verirlər.

Model 6: P_{str} + after

After + $S_{(elli)}$

It is safer to pay now. If you don't do it now you'll have to pay twice as much

after. → a) you'll have to pay twice as much afterwards - zərfdir; b) You'll have to pay twice as much after now sözönüdür.

Model 7: S + after

S_1 + (after + $S_{2(elli)}$

We want these machines not the next year, not the year after, but now. → a) The year that will come afterwards - zərfdir; b) the year after the next year - sözönüdür.

Model 8: After + P_{str}

After + $S_{(elli)}$

After we had come back home we felt fine, and then after, we felt very happy. → a) and that afterwards we felt very happy zərfdir; b) and then, after that, we felt very happy - sözönüdür.

Model 9: P_{str} + (D + after) $_{phr}$

After + $S_{(elli)}$

At first sight of her you felt a kind of shock of gratitude... and then in the next second forever after a kind of despair. → a) and forever afterwards zərfdir; b) and forever after that second (moment) - sözönüdür.

L.N.Skupçenko *after* zərfini eyni zamanda sözönü də hesab etməyə çağırır, çünki: *"bu cümlələlər kontekstdən birbaşa bərpa olunan substantivli elliptik cümlələr kimi şərh edilə bilərlər"* [145, s.15].

Cədvəl 4.2.

Model 10. *After* lekseminin qrammatik statusu

I	Qrammatik status	Nümunələrin sayı	Faizlə
1	Söz önlüyü	1830	97,9
2	Sifət	5	0,3
3	Zərf Söz önlüyü	34	1,8

Cədvəl 4.3.

Model 11. *Before* leksemli sintaktik modellər

I	Sintaktik model	Nümunələrin sayı	Faizlə
1	Before + C1	748	42.4
2	Before +S	402	22.8
3	Before + Phr	111	6.3
4	Before + Ger	17	1.0
5	Prep + before	1	0.1
6	Pstr(elli) before + Before + S(elli)	316	17.9
7	S+ before Sı + before + S2(elli)	147	8.3
8	Pstr + (D + before) Phr Before +S(elli)	15	0.9
9	Before +Pstr Before +S(elli)	7	0.4

Model 12. Before + C1

1. Had you heard anything about Jack Wales before you met each other for the first time? → before you first meeting →before that - sözönüdür.

Model 13. before + S

1. My report comes before yours söz önlüyüdür.
2. I shall try to find him before the meeting - sözönüdür.

Model 14. Before + phr

1. He told me to telephone him before the beginning of the concert → before

that sözönüdür.

Model 15. Before +Ger

1. Drink a cup of milk before going to bed → before that sözönüdür.

Beləliklə, göstərilən 4 modeldə before leksemi söz önlüyü kimi fəaliyyət göstərir.

Model 16: Prep + before

I felt no different from before. I had not changed → from that time.

Bu modeldə before isim kimi çıxış edir. Lakin belə hallara olduqca az rast gəlinir və izahlı ingilis dili lüğətlərində qeyd edilməmişdir.

Növbəti 4 modeldə *before* sözönünün istifadə nümunələri göstərilmişdir ki, onun qrammatik statusu birmənalı deyildir (zərf və sözönü), bu isə *after* lekseminin 5, 6, 7, 8 modellərinin analoqu kimi çıxış edir.

Model 17. $P_{str(elli)}$ + Before

Before + $S_{(elli)}$

I have never seen him before - a) before – zərfdir, b) before that (day) sözönüdür.

Model 18. S + Before

S1 + Before + $S_{2(elli)}$

I don't remember when it happened, but not the last year and not the year <u>before</u>

a) → not the year that had been before – zərfdir

b) → not before the last year before that – sözönüdür

Model 19. P_{str} + $(D + before)_{phr}$

Before + $S_{(elli)}$

I hadn't had such a feeling even before. a) before – zərfdir, b) before that – sözönüdür

Model 20. Before + P_{str}

Before + $S_{(elli)}$

The rain influenced my mood greatly because before, I felt fine. A) before – zərfdir, b) before that – sözönüdür.

Cədvəl 4.4.

Model 21. *Before* lekseminin qrammatik statusu

I	Qrammatik status	Nümunələrin sayı	Faizlə
1	Sözönü	1279	72.5
2	Zərf Sözönü	485	27.5

Cədvəl 4.5.

Model 22. *Since* lekseminin sintaktik modelləri

I	Sintaktik model	Nümunələrin sayı	Faizlə
1	Since + C1	370	67.0
2	Since + S	100	18.1
3	Since + Phr	36	6.5
4	Since 4- C1 before	1	0.2
5	Pstr+ since Since + S(elli)	25	4.5
6	Pstr + (D + since)phr Since + S(elli)	18	3.3
7	S + since Sı + (since + S2(elli))	2	0.4

Model 23. Since + C1

1. I haven't read a single book by Pushkin since I was at school → since that time → since that - sözönüdür.

They knew now, since they were not fools, that the news had become known to Den.

Bu cümlədə predikasiya strukturu cümlənin semantik mənası və sintaktik vəhdəti pozulmadan substantivlə əvəz edilə bilmir, bu isə sübut edir ki, burada since - səbəb mənası ilə bağlayıcıdır.

(Since + S), (since + Phr) və (since + $C1_{before}$) modellərində leksemin söz önlüyü statusu vardır və bunların təhlili after və before sözlərinin analoji sintaktik modellərinin təhlili ilə eynidir.

Yerdə qalan üç modelin ikili şərholunma əlaməti vardır, bu modellərdə Since leksemi ya zərf, ya da söz önlüyü kimi fəaliyyət göstərir.

Model 24. Pstr+ since

Since +$S_{(elli)}$

That row in 1995 was the turning point in our relationship and we never met since. a) → since, afterwards zərf; b) → since that day -+ since that – sözönü

Model 25: P_{str} + $(D + since)_{phr}$

Since +$S_{(elli)}$

I liked the show of "Moulin Rouge'' very much. I have not seen anything like that ever since. a) → ever since - zərfdir (from that tirne on); b) →ever since that show - sözönüdür.

Cədvəl 4.6.

Model 26. *Since* lekseminin qrammatik statusu

I	Qrammatik status	Nümunələrin sayı	Faizlə
1	Sözönü	285	51.6
2	Bağlayıcı	222	40.2
3	Zərf Sözönü	45	8.2

After, before, *since* sinkretizmləri ilə sintaktik modellərinin təhlili nəticəsində aydın oldu ki, mütləq əksəriyyət təşkil edən hallarda onların daşıdığı funksiya - söz önlüyüdür. Leksemlərin qrammatik statusu zərf kimi təyin edildiyi modellər başqa cürə şərh edildikdə onlar söz önlüklərinə çevrilmiş olurlar. Bir sıra anqlisistlərin nöqteyi nəzərindən bağlayıcı statusunda yalnız *since* sözü və yalnız kauzativ mənaya malik olanda çıxış edə bilər. Zaman tabeli cümlələrdə *after, before, since* leksemlərinin statusu – söz önlüyü, baxmayaraq ki, ənənəvi nöqteyi-nəzərdən onlar bağlayıcılardır [16, s.140]. Böyük Oksford lüğətində isə qeyd edilir ki, bu sözlər

mürəkkəb tabeli cümlələrdə bağlayıcı kimi hələ qədim ingilis dövründən işlədilirlər.

Model 27. Sözönü və zərf kimi işlənə bilən sözlər.

Müasir ingilis dilində elə sözlər var ki, onlar eyni morfoloji formada həm sözönü, həm də zərf kimi işlənir. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar: *about, above, along, behind, below, in, inside, off, outside, over* və s.

Bu sözlərdən hər birinin sözönü və ya zərf kimi işlənməsi onların cümlədə işlənmə məqamından və daşıdığı funksiyadan asılı olur: onlar ismin (və ya əvəzliyin) qarşısında işlənərək müxtəlif qrammatik əlaqə ifadə edərkən sözönü, feilə aid işlənərək hərəkəti xarakterizə edərkən isə zərf olur.

Bunu aşağıdakı cədvəldə verilmiş misallardan aydın görmək olar:

Cədvəl 4.7.

***About* və *above* sözlərinin sözönü və zərf funksiyasında işlənməsi modeli**



along

Let's walk along the river.

Come along!

behind

They sat behind us.

We were walking behind.

below

The temperature was below zero yesterday.

We heard a terrible noise below.

in

There is nothing in the box.

She came in with a letter in her hand.


inside
The girls were inside the house.
The children are playing inside because it is very cold.


off
She took all the things off the table.
You must be off the table.


outside
I was outside the house to meet my friend.
It was dark outside.


over
A large lamp was hanging over the table.
He pushed me and I fell over.

4.2. Modal feilli modellər (yarımmodal feillər)

Müasir ingilis dilində yarımmodal feillər vardır ki, bunlar müxtəlif mənada invariant yaratma qabiliyyətinə malikdir.

4.2.1. *Shall* yarımmodal feili

Digər modal feillərdən fərqli olaraq, *shall* feili spesifik xüsusiyyətə malikdir; o heç vaxt sırf modallıq (danışanın icra edilən hərəkətə münasibəti) bildirmir. Shall yarımmodal feili məzmunca ikili xarakterə malikdir. Məsələn: *Shall I read the text?* cümləsində *shall* feili modallıqla bərabər həm də gələcək zaman mənası bildirir. Belə ki, bu cümlədə bir tərəfdən danışan hərəkətin icrası üçün icazə istəyir (modallıq), digər tərəfdən də hərəkətin icrası gələcəyə aid edilir. Bu qrammatik mənaların hər ikisi də ancaq *shall* feili vasitəsilə ifadə edilir. Bu da, yuxarıda deyildiyi kimi, *shall* feilinin ikili xarakterə malik olduğunu göstərir.

Shall yarımmodal feili aşağıdakı mənaları ifadə etmək üçün işlədilir:

1) məcburiyyət və ya qəti əmr bildirmək üçün, məsələn:

*He **shall** go off tomorrow. You **shall** not leave the room before you finish your work. You **shall** read an English book.*

2) hədə və ya xəbərdarlıq bildirmək üçün. Məsələn:

*You **shall** never see me again. No man **shall** drive me from a place by terror.*

3) vəd bildirmək üçün. Məsələn:

*No one **shall** come here without your entire consent. You **shall** not be punished. "You **shall** have it" he answered.*

Shall modal feili Azərbaycan dilinə adətən feilin qəti gələcək zaman şəkilçiləri (-acaq, əcək) vasitəsilə tərcümə olunur. Adi gələcək zamandan fərqli olaraq bu halda *shall* feili məntiqi vurğuya malik olur. Məsələn:

*"You `**shall** read these books" said the teacher decidedly. - Müəllim qətiyyətlə dedi: "Siz bu kitabları **oxuyacaqsınız**."*

*"You `**shall** be punished for your behaviour" said the chairman. - Sədr dedi: " Siz öz hərəkətinizə görə **cəzalanacaqsınız**."*

4.2.2. *Should* yarımmodal feili

Should yarımmodal feili öz inkişafı nəticəsində, shall feilindən fərqli olaraq, yeni məna – məsləhət bildirmək mənası kəsb etmişdir:

*You **should** go to high school. You **should** never look at one woman when you are talking to another one.*

Should yarımmodal feili **ought** modal feili kimi Azərbaycan dilinə **gərək** sözü vasitəsilə tərcümə olunur. **Should** feilindən sonra məsdər qeyri-müəyyən formada işləndikdə **should** feilindən sonra işlənən əsas feil dilimizə indiki zamanda (1), bitmiş formada işləndikdə isə keçmiş zamanda (2) tərcümə olunur. Məsələn:

*1) You **should learn** this poem. - Siz/ Sən **gərək** bu şeiri **öyrənəsiz/ öyrənəsən.***

*2) You **should have learned** this poem. - Sən/ Siz **gərək** bu şeri **öyrənmiş olaydın/ olaydınız.***

4.2.3. *Will* yarımmodal feili

Will yarımmodal feilinin iki zaman forması var: indiki zaman forması *will*, keçmiş zaman forması *would*

Will feilinin inkarı *not* inkar ədatı ilə düzəldilir. *Will* inkarda həm tam, həm də qısa şəkildə işlədilir.

tam inkar şəkli: *will not*

qısa inkar şəkli : *won't*

Will (**would**) yarımmodal feili ən çox birinci şəxsin təkində işlədilir və aşağıdakı mənaları bildirir:

1) arzu və ya istək, məsələn:

*I **will** be the man. I **will** make myself the man. I **will** make good. I **will** go and lie down, Carino. I **will** make a few steps with our friend, and then I **will** come back. I **will** call you and your young man at seven o'clock.*

2) qətilik, inad, təkid, məsələn:

*I **will** tell you nothing at all. I swear to God I **will** never set eyes on him again. I **will** prove to you that my love has grown. I **will** go and tell him.*

3) xahiş, nəzakətli tələb. Bu halda will yarımmodal feili, bir qayda olaraq, ikinci şəxsə aid olur və sual cümlələrində işlədilir, məsələn:

Will *you have a cigarette? asked Mr. Strickland.* ***Will*** *you have a minute while I look through the manuscript?* ***Will*** *you come this way, sir?*

Will modal feili ifadə etdiyi mənadan asılı olaraq Azərbaycan dilinə müxtəlif vasitələrlə tərcümə edilir:

1) arzu, istək bildirərkən, **istəmək** feili vasitəsilə, məsələn:

I ***will*** *sleep in the open air. - Mən açıq havada yatmaq* ***istəyirəm****.*

I ***will*** *tell you something interesting. - Mən sənə/ sizə maraqlı bir şey demək* ***istəyirəm****.*

2) inad, qətiyyət, təkid bildirərkən, **-acaq, -əcək** şəkilçiləri vasitəsilə, məsələn: *I* ***will*** *tell you nothing at all. - Mən sənə/ sizə heç bir şey* ***deməyəcəm****.*

I ***will*** *prove that I am right. - Mən sübut* ***edəcəyəm*** *ki, mən haqlıyam.*

3) xahiş və ya nəzakətli tələb bildirərkən feilin müzareli keçmiş zaman forması ilə, məsələn:

Will *you give me a lump of sugar? - Mənə bir parça qənd* ***verərsənmi/ verərsinizmi?***

Will *you drink a cup of tea? - Bir fincan çay* ***içərsənmi/ içərsinizmi****?*

4.2.4. *Would* yarımmodal feili

Would yarımmodal feili **will** feilinin keçmiş zaman forması olub əlavə məna kəsb etməmişdir, **will** yarımmodal feilində olduğu kimi, **would** feili də arzu, istək, yaxud təkid, inad bildirir, məsələn:

I'd *do anything for you.* ***Would*** *you open the window?*

Will feilində olduğu kimi, would feili də iltifat, nəzakət bildirmək üçün işlədilir. Lakin would modal feili ifadə etdiyi iltifat, nəzakət daha qüvvətli məna çalarına malik olur, məsələn:

Will *you pass the salt please?* cümləsi dilimizə *Zəhmət olmasa, duzu mənə ötürə bilərsinizmi?* deyə tərcümə edilirsə, ***Would*** *you pass the salt, please?* cümləsi *Zəhmət olmasa, duzu mənə ötürə bilərdinizmi?* kimi tərcümə edilir ki, bu da ikinci

cümlədə modallığın - iltifatın, nəzakətin daha yüksək olmasını göstərir.

4.2.5. *Dare* yarımmodal feili

Dare feili ikili xüsusiyyətə malikdir. O, müasir ingilis dilində həm modal feil, həm də əsas feil kimin işlənə bilir. Əsas feil kimi işlənərkən o, adi feil kimi, şəxslər üzrə dəyişir, üçüncü şəxs təkdə **-s** şəkilçisi qəbul edir (dares), keçmiş qeyri-müəyyən zaman forması **-ed** şəkiçisi ilə düzəlir (dared), məsdər formasına malik olur (to dare), indiki zaman feili sifəti **-ing** şəkilçisi ilə düzəldilir (daring), feilin mürəkkəb zaman formalarında işlənə bilir (We shall dare, I have dared), sual və inkar formaları **to do** köməkçi feili vasitəsilə düzəldilir, məsələn:

*How does she **dare** to return home so late? Why didn't you **dare** it before? I **have dared** to do.*

Dare feili yarımmodal feil kimi işləndikdə, digər modal feillər də olduğu kimi, şəxssiz formalara malik olmur, indiki qeyri-müəyyən zamanın üçüncü şəxs təkində **-s** qəbul etmir, özündən sonra məsdər **to** ədatsız işlənir, sual və inkar forması to do köməkçi feilsiz düzəldilir, məsələn:

*How **dare** you **suggest** that I copied your notes? It's a card I **dare not throw** away. I **dare not be** alone at night. "I **dare not insist**." said the nurse.*

Dare feili bir işi görməyə cəsarət etmək mənası bildirir və əsasən *how* sözü ilə başlanan sual və inkar cümlələrdə işlənir. Məsələn:

***How dare** you come here so late? **How dare** you say that? He **dared not raise** his head.*

Bununla belə, dare yarımmodal feili təsdiq cümlələrdə də, xüsusən birinci şəxsin təkində tez-tez işlədilir, məsələn:

*"I **dare** say you've got business to talk over", he said.*

*"I **dare** say you're dull at home", he said.*

Dare feili hər iki halda, yəni həm əsas, həm də yarımmodal feil kimi işlənərkən, Azərbaycan dilinə **cəsarət etmək** feili ilə tərcümə edilir, məsələn:

*I didn't **dare** to speak to him for some time. - Mən bir müddət onunla danışmağa **cəsarət etmədim**.*

*She **dare** not travel alone. - O təkbaşına səyahətə çıxmağa **cəsarət etmir**.*

Dare yarımmodal feilindən sonra məsdər ancaq qeyri-müəyyən formada işlənir.

4.2.6. *Need* yarımmodal feili

Need feili də **dare** feili kimi ikili xarakterə malikdir. O da müasir ingilis dilində həm əsas, həm də modal feil kimi işlənə bilir, məsələn:

*They do not **need** to go there. That hardly **needs** saying.*

*I've a friend up there. But we **needn't** see her. I **need** say nothing here.*

Need feili yarımmodal feil kimi işləndikdə lazımlılıq, ehtiyac bildirir, əsasən inkar və sual cümlələrdə işlədilir. **Need** yarımmodal feilindən sonra məsdər həm qeyri-müəyyən, həm də bitmiş formada işlənə bilir. **Need** yarımmodal feili inkar cümlələrdə bitmiş məsdərlə işlənərkən icra edilmiş hərəkətə ehtiyac olmadığını, onun icrasının lazımsız olduğunu, arzu edilmədiyini bildirir, məsələn:

*You **needn't** have come so early, I think. - Məncə, sənin/ sizin belə tez gəlməyinə/ gəlməyinizə ehtiyac yox idi.*

*You **needn't** have hurried. - Sənin/ Sizin tələsməyinə/ tələsməyinizə **ehtiyac yox idi.** We **needn't** go home yet. - Bizim hələ evə getməyimizə **ehtiyac yoxdur**.*

Need feili hər iki halda, yəni həm əsas, həm də yarımmodal feil kimi işlənərkən Azərbaycan dilinə **ehtiyacı olmaq, lazım olmaq** feilləri vasitəsilə tərcümə edilir, məsələn:

She **needs** a new coat. – Ona təzə palto **lazımdır**. (Onun təzə paltoya **ehtiyacı var**.) **Need** I tell you everything in detail? – Mənim hər şeyi sənə/ sizə təfərrüatı ilə deməyimə **ehtiyac varmı?** (Mənim sənə / sizə hər şeyi təfərrüatı ilə deməyim **lazımdırmı**?)

Model 28. Feilin vasitəli şəkli sadə cümlədə variant yarada bilir.

1) Arzu ifadə edən sadə cümlələrdə subcanktiv I işlədilir:

Long live our country! - May our country live long!

Long live the Azerbaijan Army! - May Azerbaijan Army live long!

All happiness attend you! – May success attend you!

2) Güzəşt bildirən sadə cümlələrdə subcanktiv I işlədilir:

Be it so! – So be it! – Let it be so!

3) Mübtədası qeyri-müəyyən əvəzliklə və ya *one of you* birləşməsi ilə ifadə olunan əmr, xahiş bildirən sadə cümlələrdə subcanktiv I işlədilir:

Somebody come to the board. – Let somebody come to the board.

One of you answer my question. – Let one of you answer my question.

Model 29. Məsdər isim kimi sintaktik funksiyada işlənə bilir və bu zaman o invariant yarada bilir:

To master English isn't easy. – For me to master English isn't easy. - It isn't easy to master English.

Model 30. Participle I.

Reading I found some mistakes. – While reading I found some mistakes. – When reading I found some mistakes.

Model 31. Müstəqil feili sifət tərkibində bəzən feili sifət işlənmir:

The lesson having been over, the children rushed out. – The lesson over, the children rushed out.

Model 32.



Sxem 4.1. İsmi müstəqil feili sifət tərkibli model

Model 33.



Sxem 4.2. *Will* – köməkçi feil kimi

Model 34.



Sxem 4.3. Artikl modeli

Model 35.

a. Mary will probably go (adverb in post-auxiliary position)



Sxem 4.4. Modal sözlü modellər

b. Mary probably will go (adverb in pre-auxiliary position)



Sxem 4.5. Zərf və yarımmodal feilli modellər

Model 36.

Mary could probably have gone (adverb in post-auxiliary position)

a. adverb adjoined above Modal head



Sxem 4.6. Zərf + yarımköməkçi feilli bitmiş zaman fonunda model

b. adverb adjoined above Perfect head



Sxem 4.7. Mübtəda + modal feil və "perfect tense" (bitmiş zaman) modeli

Model 37.

Mary probably could have gone (adverb in pre-auxiliary position)



Sxem 4.8. mübtəda + modal söz +modal feil + bitmiş zamanlı model

a. Mary will probably have gone



Sxem 4.9. İsim + köməkçi feil + modal söz + indiki bitmiş zamanlı model

b. Mary probably will have gone.



Sxem 4.10. isim + modal söz + köməkçi feil +indiki bitmiş (yəni iki köməkçi feilli) model

4.3. Əmr cümləli model

Müsahibə bu və ya digər hərəkəti icra etdirmək məqsədi ilə işlədilən cümləyə əmr cümləsi deyilir. Məsələn:

Shut the door!

Shut the door, please!

Will you shut the door?

Would you mind shutting the door?

I wonder whether you would mind shutting the door.

Müasir Azərbaycan dilində olduğu kimi, ingilis dilində də əmr cümlələri əmr, xahiş, təkid, rica və s. məna çalarları bildirir [60, s.38]:

Keep close behind me and hold your tongue.

Never mind the big, long letters. Throw them under the table. Read me small letters.

"Send me to school", Mrs. Reed.

"Come and help me, pick my books, Joe.

Əmr cümlələri əmr, təkid bildirərkən düşən, xahiş, rica bildirərkən isə qalxan tonla deyilir. Məsələn:

Leave me ↓alone. Don't speak at the ↓lesson.

Do leave me ↑alone. Do come to my ↑place today.

4.4. Nida cümləli model

Müəyyən məna ilə yanaşı, həm də qüvvətli hiss, həyəcan bildirən cümləyə nida cümləsi deyilir. Müasir ingilis dilində işlənən nida cümlələrini iki qrupa bölmək olar: 1) törəmə nida cümlələri, 2) əsli nida cümlələri.

Tembr dedikdə, L.E.Armstronq və İ.C.Uardın adlandırdığı "səs növü" və R.Kinqdonun adlandırdığı "səs keyfiyyəti" kimi başa düşülür. Əslində hər iki şərh müəmmalı, qaranlıqdır. L.V.Şerba "səs tembrinin emosional çalarından" danışır. L.E.Armstronq, İ.C.Uard emfaza yaratmaq metodu kimi bir neçə əlavə mənaları sadalayırlar: "Digər anlayışlar arasında səs uzunluğu, səslərin qısaldılması, təkrarlar, jest, üz ifadələri, səs növü" ifadələrin adlarını çəkmək olar [176, s.198; 191, s.112; 247, s.87].

L.V.Şerba özünün "Fransız dilinin fonetikası" adlı kitabında intonasiyanın tərifini ənənəvi planda vermişdir. Lakin o, "Böyük Sovet Ensiklopediyası" məqaləsində daha mütərəqqi fikir irəli sürür. L.V.Şerba intonasiyanı tonun, gərginliyin, səs davamlılığının və səs tembrinin variativliyi ilə müəyyən edir. Müxtəlif intonasiya növləri müxtəlif nitq elementləri ilə ifadə olunur, sual, əmr, xahiş, kinayə, səmimiyyət və digər məna çaları kimi [176, s.120].

İntonasiyanın daha mürəkkəb tərifi sonralar L.V.Şerbanın tələbələrindən biri olan Moskva professoru S.İ.Bernşteyn tərəfindən verilib.

S.Bernşteyn nitq intonasiyasını daha çox "tona" aid edilən dilin fonetik vasitələrinin konqlomerasiyası və aşağıdakı funksiyaları hesab edir: (1) rabitəli nitqi birləşmələrə və sintaqm kimi mühüm elementlərə bölmək vasitəsilə onu fonetik cəhətdən təşkil etmək; (2) birləşmələrin üzvləri arasında semantik əlaqə yaratmaq; (3) birləşmələri və ya onun mühüm seqmentlərini nəqli, sual və ya əmr mənalarına bölmək; (4) müxtəlif emosiyaları ifadə etmək [77, s.116].

İntonasiyanın fonetik vasitələri aşağıdakılardır (intonasiya modelləri): dinamik gücün sözlər arasında paylanması, (həmçinin ekspirator vurğu), nitq melodiyası, pauzalar, rabitəli nitqin tempi və ya rabitəli nitqin hissələri, aydın və uca nitq və ya onun hissələri, səs tembrinin emosional çalarları.

O.İ.Dikuşinanın "English Phonetics" kitabında intonasiyaya verdiyi tərif digər müəlliflərin verdiyi təriflərdən fərqlənmir. İntonasiyanın təsviri fəslində, bir neçə əlavə mühüm vasitələr qeyd edilir [95, s.70].

Bu vasitələr səs tonu modifikasiyasının mühüm rolunu onu, intonasiya anlayışına daxil etmək tam məntiqi sayılır. Beləliklə, bu terminə daha geniş şərh vermək olar.

İntonasiyanın funksiyasını və mürəkkəb təbiətini sadə linqvistik təcrübə ilə sübut etmək olar. Biz bir qrup sözləri və ya cümlələri bir not üzərində, eyni vurğu dərəcəsi ilə, cümlələr və sözlər arasında heç bir pauza etmədən, eyni temp və eyni ritmlə tələffüz etməyə cəhd etsək, nəticə anlaşıqsız olacaq.

Eyni zamanda, ayrıca götürülmüş söz leksik dəyəri ilə yanaşı, əldə edilmiş kommunikativ dəyər olmadan tələffüz oluna bilməz; heç bir söz xüsusi intonasiya olmadan tələffüz oluna bilməz, məsələn suala cavab (`Meri); sual kimi (¸Meri?); nida kimi (`Meri!). Beləliklə, hər hansı müəyyən linqvistik funksiyası olan kommunikativ vahid müəyyən intonasiya tələb edir. Bu münasibətlə D.N.Yunusov qeyd edir ki, *"... sintaktik vahidlər konkret situasiyalarda və kontekstlərdə bu və ya digər dərəcədə variativliyə uğraya bilər. Bu variativlik öz ifadəsini hər şeydən əvvəl, intonasiya cəhətdən formalaşmada tapır"* [52, s.222].

Geniş mənada intonasiya adlandırdığımız rabitəli nitq xüsusi strukturdur. Bu aşağıdakı vasitələrdən təşkil olunur: (1) rabitəli nitqin sintaqmlara, ritmik qruplara və sintaktik vahidlərə bölünməsi (2) cümlə vurğusu (3) müəyyən kommunikativ növləri ifadə edən melodik konturlar (4) müvafiq ton və vurğu xüsusiyyətləri.

Bütün göstərilən vasitələr eyni dərəcədə vacib və qarşılıqlı surətdə asılıdırlar. İntonasiyanın hər bir komponentinin özünə xas xüsusiyyətləri var, məhz buna görə də onlar haqqında müxtəlif fəsillərdə bəhs edilir. Danışıq dilində onlar mürəkkəb vahid şəklində mövcud olur və bir-birindən ayrıla bilməzlər.

Dildə intonasiyanın rolu çox vacibdir. Onun aşağıdakı funksiyaları var:

1. O, sintaqmları müəyyən edir, bununla da nitqimizi anlaşılan edir;

2. İntonasiyanın semantik funksiyaları var, çünki o cümlənin kommunikativ növlərini müəyyən edir;

3. Onun qrammatik funksiyaları da var, çünki cümlənin qrammatik növlərini və ya budaq cümlələri müəyyən edir;

4. İntonasiya bizə emosiyalarımızı, insanlara və əşyalara olan münasibətimizi ifadə etməyi mümkün edir [270, s.183].

Bizim dediklərimizin mənası istifadə etdiyimiz sözlərdən daha çox intonasiyadan asılıdır. Məsələn:

'Please be ˏseated

kimi tələffüz olunduqda xahişdir; lakin

həmin sözlər eynin ardıcıllıqla, lakin enən tonla tələffüz olunduqda

kimi tələffüz olunduqda isə əmr ifadə edir.

D.Counz qeyd edir ki, hətta ən sadə sözlər, məsələn "Yes" müxtəlif mənaları ifadə edə bilər, əgər o müxtəlif cür tələffüz olunarsa: məsələn: 'ˋYes- bu belədir mənasını verir.

ˋ "Yes - Əlbəttə, bu belədir

ˏ Yes? - Bu həqiqətən belədir?

˜ Yes - Bu belə ola bilər [243, s.279].

"All right" ifadəsi intonasiyadan asılı olaraq müxtəlif mənalar ifadə edə bilər,

'All ˋright dedikdə bu razılıq bildirir; lakin bu cür

\All ˏright tələffüz etdikdə hədə bildirir.

İntonasiyanın qrammatik funksiyası tam aydındır. Biz gördük ki, intonasiya vasitəsilə cümlənin qrammatik növləri müəyyən olunur.

İngilis nitqi haqqında danışarkən biz növbəti iki suala cavab verməliyik.

1. Səs tonu səviyyəsində variativliyi öyrənərkən nəyi müşahidə edə bilərik?

2. Müşahidə etdiyimiz hadisənin linqvistik əhəmiyyəti nədir?

Bu suallar sadə şəkildə bu cür də verilə bilər:

1. İntonasiya forması nədir?
2. İntonasiyanın funksiyası nədir?

Biz intonasiyanı nitqin qısaca bir hissəsi olan tək hecanın deyilişini müşahidə edərkən qiymətləndirə bilərik. Beləliklə, bir neçə təkhecalı sözün intonasiyasına nəzər yetirmək lazımdır. Bu, bizə mövzunun sadə müqayisəli şərhini verir.

Birhecalı "yes" və "no" sözlərinə nəzər yetirmək lazımdır. İlk olaraq bu sözlərin həm sabit, dəyişməz tonla, həm də qalxan və enən tonla tələffüzünə diqqət yetirilməlidir. Əgər "yes" və "no" sözlərini sabit, dəyişməz tonla desək, (sanki biz sabit bir notda oxumağa çalışırıq) qeyri-təbii səslənişin şahidi oluruq və eyni zamanda qeyd edək ki, ingilisdillilər birhecalı sözlərdə əksər hallarda sabit tondan istifadə etmirlər. Əsasən variativ tonlardan istifadə edirlər. Əgər ingilisdillilər "yes" və "no" sözlərini müəyyən, bitkin tərzdə deyirlərsə, onda onlar enən tondan istifadə edirlər – bu, səs tonunun yüksəkdən alçağa doğru hərəkətidir. Əgər onlar "yes" və "no" sözlərini sual tərzində demək istəyirlərsə, onda yüksələn tonla deyirlər – bu, alçaq tondan yüksək tona qalxan hərəkətdir [270, s.152].

Ton variativliyi haqqında danışarkən onun funksiyası haqqında da müəyyən qədər məlumat verilmişdir; danışan tərəf nəzərə almalıdır ki, o, öz nitqində emosiyaları, fikirləri düzgün ifadə etməkdə ona uyğun tondan istifadə etsin. Bu zaman birhecalı sözlərin müxtəlif tonlarla deyilişi zamanı müxtəlif səslənmələr vasitəsilə müxtəlif mənaların ifadə olunmasının şahidi oluruq. Müasir dilçilikdə intonasiyanın elmi tədqiqi onun hər bir aspektinin funksiyasını müəyyən etmək və xarici dilləri öyrənənlərə, ana dilində danışanlar kimi, intonasiyadan istifadə etmək qaydalarının öyrədilməsində müəyyən nailiyyətlər əldə edilməsi gözlənilir. İndi hələ çox az insan bunun mümkün olacağına inanır. Lakin hal-hazırda bunun üçün bəzi ümumi qaydalar artıq mövcuddur. Bununla belə, əlbəttə, bu cür qaydaların tam olaraq necə istifadə edilməsini göstərmək hələ buna nail olmaq deyil. Zənnimizcə, ingilis dilini öyrənən xarici tələbələrin ingilis intonasiyasını dərk etmələri və onu olduğu kimi ifadə etmək üçün xüsusi məşğələlər keçirilmələri zəruridir. Dilin intonasiya-

sından istifadə etməyin yeganə real təsirli yolu uşağın öz milli dilinin intonasiyasını mənimsədiyi dildir və yuxarıda qeyd edilən məşğələ növləri yeniyetmələrə İngilis intonasiyasına eyni yolla yiyələnməsinə ləng də olsa, kömək edər. Bunun üçün ingilisdililərə qulaq asıb və danışmaq vacibdir. Təbiidir ki, bunu etmək çətindir, lakin əsl ingilisdililər ilə davamlı olaraq danışa bilməyən ingilis dilini öyrənə bilməz; İngilis danışıq dilinə qulaq asa bilməyənlər ingilis intonasiyasını öyrənə bilməzlər. Onlar seqment vahidlərin düzgün intonasiyasını öyrənsələr də və vurğudan düzgün istifadə edə bilsələr də, yenə arzuolunan nəticəni əldə edə bilməzlər.

Artıq intonasiya formasının bəzi detalları təsvir edildi, indi isə intonasiyanın bəzi funksiyalarından bəhs edək. Təsəvvür edək ki, nitqimizdə bütün hecalar eyni səs tonu səviyyəsindədir, nə fasilələr var, nə də sürət və ya ucalıqda dəyişiklik var. Bu elə bir nitq növüdür ki, biz onu "mexaniki nitq" qurğusu vasitəsilə ifadə edirik və burada cümlələr təcrid edilmiş sözlərin ardıcıl qeydiyyatı kimi qurulur. Bunu izah edərkən görərik ki, intonasiyanın dinləyiciyə danışanın nə demək istədiyini başa düşməsinə kömək edir. İntonasiya vasitəsilə bunları icra etmək yolları çox mürəkkəbdir və burada çoxlu müxtəlif funksiyaları fərqləndirmək yolları təklif edilmişdir. Ən çox təklif edilənlər aşağıdakılardır [270, s.154]:

1. Kommunikativ funksiya;
2. Sintaktik funksiya;
3. Modal funksiya;
4. Məntiqi funksiya.

Piter Rouç intonasiyanın bu funksiyaları haqqında bəhs edir, lakin fərqli terminlərdən istifadə edir. Kommunikativ funksiyanı o, mühakimə və ya diskurs termini ilə, sintaktik funksiyanı qrammatik, modal funksiyanı münasibət bildirmə funksiyası ilə, nəhayət, məntiqi funksiyanı vurğulayıcı funksiya termini ilə adlandırmışdır.

Burada həmin anlayışlar haqqında qısaca məlumat verək.

1. Nitq aktına nəzər salarkən, görürük ki, dinləyici üçün intonasiya hansı informasiyanın yeni, hansının isə artıq məlum olduğunu bildirmək işarəsidir; eyni zamanda danışanın hansı növ ziddiyyəti və ya materialı başqa ton vahidi ilə əlaqələndirməsini və dinləyicidən hansı cavabın gözləndiyini bildirə bilər. Bu

funksiya kommunikativ funksiya adlanır, Piter Rouçun dili ilə desək, mühakimə (diskurs) funksiyası adlanır.

2. İntonasiya vurğulu kimi qavranılan hecaların qabarıq effektini ifadə etməyə kömək edir və lazımi hecada tonal vurğunu qoymaqla tonal vahidə mənsub ən vacib sözü nəzərə çarpdırır. Bu isə intonasiyanın məntiqi (vurğulayıcı) funksiyası adlanır.

3. İntonasiyanın özündə saxladığı informasiyanı istifadə etməklə dinləyici qrammatikanı və sintaktik quruluşu daha yaxşı dərk edir: məsələn, cümlələr, budaq cümlələr və ya birləşmələr arasında fərqi və qrammatik əlaqələr göstərilə bilər. Bu, intonasiyanın sintaktik funksiyası (qrammatik funksiyası) adlanır.

4. İntonasiya vasitəsilə emosiyalarımızı və münasibətimizi ifadə etmək imkanı verir və bu şifahi nitqə xüsusi "məna" verir. Bu əsasən intonasiyanın modal funksiyası adlanır, Piter Rouçun təbirincə desək, bu, intonasiyanın münasibət bildirmə funksiyası adlanır [270, s.129].

İntonasiyanın modal funksiyası üzrə indiyədək xeyli işlər yazılsa da, onun haqqında ayrıca danışmaq lazım gəlir. Əslində, nəticədə aydın olur ki, modal funksiya kommunikativ funksiya ilə üst-üstə düşür. Digər üç funksiyaya gəldikdə, bu, hələ də mübahisəlidir. Onlar haqqında ayrı-ayrılıqda bəhs etmək olar; məsələn, tonal vurğunun yeri ilə yeni informasiyanın təqdim edilməsi sıx əlaqəlidir, sual/nəqli cümlənin fərqli və ziddiyyətin göstərilməsi, sintaktik və kommunikativ funksiya ilə bərabər əhəmiyyətə malikdir. Məntiqi, sintaktik və diskurs funksiyaları arasında ümumi cəhətin olması əlamətdar hadisədir; intonasiya vasitəsilə linqvistik elementlər ilə mətn arasındakı əlaqəni aydın görmək olar.

5.3.1. İntonasiyanın kommunikativ və diskursiv (mühakiməyürütmə) funksiyası

İntonasiyanın kommunikativ funksiyası sayəsində hər hansı bir cümlənin verilmiş şəraitdə, hər hansı sual növü, əmr, xahiş və ya nida cümləsi olmasını

müəyyən etmək mümkündür. Beləliklə, intonasiya cümlənin kommunikativ növlərini müəyyən edir. Onlar:

1. Əmr cümləsi (əmrlər, xahiş, xəbərdarlıq və s.);
2. Nəqli cümlə (bütün növ nəqli cümlələr);
3. Sual cümləsi (suallar: ümumi, xüsusi, təkrar edilən suallar və s.);
4. Nida cümləsi (nida və bütün nida növləri).

Əgər intonasiyanın kommunikativ, mühakiməyürütmə funksiyasını nəzərdən keçirsək, iki əsas fəaliyyət sahəsi müəyyən edərik: bunlardan biri dinləyənin diqqətini informasiyanın ən vacib aspektində mərkəzləşdirməkdir, digəri isə danışıq tərzinin nizama salınmasıdır. Birinci halda lazımi vurğunun lazımi hecanın üzərində qoyulması vacibdir.

| She ˈwent to `Scotland |

Tonal vurğu daha çox informasiya daşıyan sözün üzərinə qoyulur.

1.| I've ˌgot to ˌtake the `dog for a ˈ walk |

2.| I've ˌgot to ˌtake the ˌdog to the `vet|

"Vet" sözü daha çox informasiyaya malikdir nəinki "walk". Beləliklə, biz tez-tez ton yerləşən sözün "vaciblik" və ya "informasiya" bildirməsini müəyyənləş-dirməkdə çətinlik çəkirik. Məsələn, aşağıdakı buna misal ola bilər:

Your coat's on fire	The wing's breaking up
The radio's gone wrong	Your uncle's died

Beləliklə, bir çox ingiliscə danışanlar tonal vurğunu ismi mübtəda üzərində qeyd edirlər, baxmayaraq hər bir cümlədə sonuncu sözdən bunun daha necə vacib olduğunu görmək çətindir. Tonal vurğunun yeri hələ də həll edilməmiş olaraq qalır.

Biz diqqəti çəkmək üçün intonasiyanın ən azı iki müxtəlif yolunu göstərə bilərik. Seçilən ton yerləşdiyi ton vahidində ya informasiyanın təqdim edilməsi, ya da verilmiş informasiyanın dinləyicinin və danışanın həmin informasiyanın qavranılmasını göstərir.

İkincisi, istifadə olunduğu sahəyə gəldikdə qeyd etmək lazımdır ki, intonasiya iki insanın danışıq əlaqəsi üçün də vacibdir. Bu zaman danışanın danışan zaman nə etdiyini müəyyən etmək olur – sual verir, məsləhət verir, cəsarətləndirir və s.

Bu funksiya vasitəsilə intonasiya danışıq aktına dinləyicilərə hansı informasiyanın "yeni", hansının artıq məlum olan informasiya olduğunu siqnal edə bilər. Digər tərəfdən intonasiya danışanın kontrast ifadə etməsini, yaxud söhbət zamanı digər ton vahidi ilə bunun əlaqəli olmasını siqnal edir [270, s.184].

Cümlələrdə yeni və məlum olan informasiyanın müəyyənləşməsində tonların rolu vardır. İntonasiyanın diskurs funksiyasına dair fikir söyləyənlər belə hesab edirlər ki, qalxan və düşüb-qalxan tonla ifadə olunan informasiya məlum, enən tonla ifadə olunan informasiya isə yeni informasiyadır [270, s.199].

5.3.2. İntonasiyanın sintaktik (qrammatik) funksiyası

İntonasiya cümlənin sadə, tabeli mürəkkəb cümlə və ya tabesiz mürəkkəb cümlə olmasını müəyyən edir. O, eləcə də cümlədə həmcins üzvlərin olub-olmamasını, ara sözləri və birləşmələri göstərir, vasitəsiz nitqi müəllif sözlərindən ayırır.

"Qrammatika" sözü burada çox geniş mənada işlənir. Qrammatik funksiyanı cümlələri ixtira etməklə göstərmək olar. Bu cümlələrdəki anlaşıqsızlığı və ikimənalılığı intonasiya variativliyi ilə aradan götürmək olar. Buna tipik bir nümunə "Having sold quickly, they made a profit" cümləsidir. Bu iki müxtəlif yolla göstərilə bilər:

1. | ˈHaving ˈsold ˬ quickly| they ˌmade a ˎ profit |
2. | ˈHaving ˬ sold |ˌquickly they ˌmade a ˎ profit |

Ton vahidi sərhədlərinin yer müxtəlifliyi məna fərqinə səbəb olur. O cümlələri bu cür parafraz edə bilərik:

1. A ˈprofit was ˏ made |by ˈselling the ˈgoods ˋquickly.
2. A ˈprofit was ˋquickly ˏ made |by ˈselling the˖ goods.

İntonasiyanın digər qrammatik əhəmiyyətə malik komponenti tonal heca üzərindəki tondur. Ən məşhur nümunə sual cümlələrində işlənən yüksələn tondur. Bir çox dillərdə yüksələn tonu enən tonla əvəz etməklə sual cümləsini nəqli

cümləyə çevirirlər. Bu bir çox hallarda ingilis dilində istifadə edilmir, çünki cümlələr qrammatik cəhətdən formalaşır və buna aşağıdakı cümlə misal ola bilər. Məsələn, “the price is going up” cümləsini bu cür nəqli cümləyə çevirmək olar:

│ The ˏprice_ is going up │

(tonal vurğu eyni dərəcədə “up” sözü üzərində ola bilərdi). Bəzi ingilis dialektlərində bu cür sual vermək tamamilə qəbul ediləndir:

(Why do you want to buy it now?) │The ˏprice_ is ˏgoing up

5.3.3. İntonasiyanın modal (münasibətbildirmə) funksiyası

Araşdırmalar göstərir ki, ingilislərdə korlarda toxunma təmas hissi kimi eyhama və üstü örtülü danışmağa qarşı sayıqlıq son dərəcədə inkişaf etmişdir. Bəlkə də, bu səbəbdəndir ki, ingilis dili sayca çoxlu ton və ton birləşmələri, müxtəlif istiqamətli və səciyyəli melodik şkalalar və müxtəlif takt önü elementlərlə səciyyəvidir. Odur ki, ingilis dilində hər kommunikativ cümlə növü ilə mümkün qədər modal-emosional məna çalarları və münasibətləri vermək, ötürmək olur. Linqvistik mənbələrə əsasən demək olar ki, ingilis dilində nəqli cümlə vasitəsilə altmış modal-emosional məna, münasibət çaları vermək olur [143, s.162].

Bütün bu mənalar və modal münasibətlər ingiliscə danışıqda intonasiya vasitəsilə mübadilə edilir, qəbul olunur və ötürülür. Bu baxımdan ingilis dilçiləri intonasiyanın modal (münasibət) funksiyasını ön plana çəkirlər.

İntonasiya vasitəsilə danışanın verilmiş cümləyə, həmçinin onun fikri və dinləyənə və ya auditoriyaya münasibəti məhz bu funksiya vasitəsilə ifadə olunur [192, s.129].

Bir çox dilçilər belə bir fikir irəli sürür ki, intonasiya münasibət və hisslərimizi ifadə etmək üçün istifadə edilir, məsələn, eyni bir cümlə müxtəlif yollarla deyilə bilər, “darıxdırıcı”, “əsəbi”, “xoşbəxt”, “sevincli” səslənə bilər. Artıq çox geniş tədqiqatlardan sonra məlum olub ki, müxtəlif dillərdə intonasiyanın forması müxtəlifdir; isveç, italyan və hindu dillərinin intonasiyasının ingilis dilinin intonasiyasından fərqli olduğu seçilir. Buna görə də, ingilis dilini öyrənən

xaricilərin ingilis dilinin intonasiyasını öyrənmələri vacibdir. Əgər xarici tələbə verilən situasiyaya uyğun intonasiya işlətməyi öyrənməsə, onun istəmədən kiminsə xətrinə dəymək riski var; məsələn, tələbə minnətdarlıq, məhəbbət ifadə etmək əvəzinə, darıxdırıcı və narazılıq ifadə edən intonasiyadan istifadə edə bilər. İntonasiya haqqında bu səhv anlayış tələbənin lazım olduğu halda dilə görə narahatlığına səbəb olur.

İlk öncə, intonasiyanın münasibətbildirmə funksiyasını təhlil etməkdən başlayaq. Analitik quruluşlu dillər üçün ilkin imkan çoxlu sayda cümlələr icad etmək və onları müxtəlif intonativ modellərlə deməyə çalışaraq (yəni şkala və tonun müxtəlif kombinasiyaları), eyni zamanda hər bir hadisəyə uyğun intonasiyanın hansı münasibəti ifadə etdiyini qeyd etmək lazımdır; əlbəttə ki, bu zaman nəticələr subyektiv ola bilər və danışıq nitqinə az oxşarlığı olan süni istifadəyə əsaslana bilər. Alternativ olaraq, tədqiqatçı bu müxtəlif cümlələri dinləyici qrupu ilə yoxlaya bilər və onlardan onların fikrincə burada hansı münasibətin ifadə edildiyini yazmaqlarını onlardan xahiş edə bilər; bununla belə, biz çoxlu sifətlər vasitəsilə bu münasibətləri qeyd edə bilər və bu qrupun bir çox nümayəndələri elə sifətləri də qeyd edə bilərlər ki, onlar tədqiqatçını "pompous" (lovğa, dəbdəbəli) və "stuck up" (təkəbbürlü) və ya "sycophonatic" (yaltaq) və "obsequious" (yaltaq) kimi sifətlərin sinonim və ya müxtəlif münasibətləri bildirən sifətlər olduğunu müəyyən etmək problemi ilə üzbəüz qoya bilər. Bu çətinliyin öhdəsindən gəlmək üçün qrup nümayəndələrindən tədqiqatçının verdiyi sifətlər arasında seçim etmələri xahiş edilə bilər; bu zaman nəticələr kəmiyyəti müəyyən etmək üçün son dərəcə asan olacaq (yəni, müxtəlif cavabları hesablamaq asan olacaq), lakin artıq nəticələrdə dinləyicinin qeydləri müstəqil seçim kimi təqdim edilməyəcək. Alternativ proses tədqiqatçı tərəfindən danışanların qeydlərinə əsasən müxtəlif cümlələrin siyahısını verib, onlarda hansı ümumi intonativ xüsusiyyətlərin olduğunu nəzərə çatdırmaq olar (məsələn, bir nəfər neçə nəfərin "hostile" (düşmən) mənası kəsb edən cümlələri alçaq şkala ilə dediyini hesablaya bilər). Bu cür eksperimentlərin sayı müxtəlif olur və onları şərh etmək çətin olur.

“Emosiya və ya münasibət” ifadə etmək anlayışı özü çox mürəkkəbdir. Birincisi, emosiya könüllü və könülsüz ifadə edilə bilər; əgər mən nəyi isə “xoşbəxt” şəkildə ifadə edirəmsə, bu mənim xoşbəxt olmağımla və eyni zamanda sənə xoşbəxt olduğumu bildirmək üçün də ifadə edə bilərəm. İkincisi, ifadə edilən münasibət dinləyiciyə, dostcasına deyilirsə, deyilən söz (cümlə) isə “şübhəli” və ya “ikimənalı” şəkildə deyilirsə situasiyaya görə ola bilər ki, dinləyən “narazı” və ya “etiraz edə” bilsin.

Bununla belə qeyd etdiklərimizdən daha vacib və fundamental olan bir problem də var. İnsanlar hamı üçün ümumi olan müəyyən emosiya və münasibətlər vasitəsilə özünü biruzə verir və dinləyiciyə ötürülür. Odur ki, danışanın nitqinin ritmik-melodik axınından, səs tonundan və s. adamların müsahibinə münasibətini, habelə psixoloji vəziyyətini müəyyən etmək olar. Dil daşıyıcılarının bir-birini başa düşməsi üçün onlar eyni linqvistik bazaya, o cümlədən ümumi məfhum toplusuna, ehtiyatına malik olduğu kimi, intonasiya konturlarına da malikdir. Həmin konturlar vasitəsi ilə dil daşıyıcıları müsahibinə və ətraf aləmə öz münasibətini ifadə edir. Belə ki, eyni bir cümlə müxtəlif emosional münasibətlər doğurur. Məsələn, “I want to buy a car” cümləsi həm qəmginlik, həm hirs, sevinc, həm də qürur kimi emosiyaları ifadə edə bilər. İngilis dilində sadə şkalalar müxtəlif münasibət mənaları ifadə edir. İngilis dilində on beş intonasiya konturu daha işlək model hesab edilir və bunlar dili öyrənənlər üçün vacib sayılır. İngilis dilində nüvə tonlar həm şkala ilə, həm də şkalasız işlənir və bu zaman ifadə olunan münasibətlərdə fərq yaranır. İngilis dilində birinci intonasiya modeli cümlənin əsas kommunikativ (nəqli, əmr, nida, sual) tipləri ilə işlənir və alçaq enən tonla səciyyəvi olur. Bu intonasiya modeli bitkinlik, qətilik ifadə edir [270, s.186].

Alçaq enən ton şkala ilə işləndikdə münasibət mənaları da dəyişir. Belə ki, enən ton pilləli və yüksək şkalalarla işləndikdə münasibət mənaları da müxtəlif olur. Alçaq qalxan ton şkalasız işləndikdə, yəni yalnız nüvədən ibarət olduqda, nəqli cümlələrdə qeyri-qətilik, qeyri-bitkinlik ifadə edir, müsahibəni, söhbəti davam etdirməyə ruhlandırır və s.

Nəqli cümlələr alçaq səviyyəli şkala ilə və alçaq enən tonla ifadə edildikdə cümlənin məzmununda müsahibinin fikrinə qarşı rəğbətsizlik, soyuqluq, biganəlik kimi münasibətlər ifadə olunur. Məsələn: *You could have my book – I ˌdidn`t ˌthink about it beˏfore.*

Alçaq şkala qalxan tonla ifadə edildikdə isə cümlənin məzmununa etinasızlıq, töhmət, mühafizəedici münasibət mənaları gətirir.

I am just back from seeing my mother – I ˌtrust you ˌ find herˏ well.

Nəqli cümlələr yüksək şkala və qalxıb-düşən tonla ifadə edildikdə təsirlənmə, çağırış, özündən razı, tələbkar münasibətləri ifadə edir.

İngilis dilində tonlar müxtəlif şkalalarla işlənərək müxtəlif çalarlı münasibətlər ifadə edir.

Biz ucalıq (hündürlük) və surət variasiyalarından istifadə edə bilərik; bizim səs tonumuzun hərəkəti çox dar çərçivədə və ya əksinə çox geniş çərçivə arasında ola bilər; əgər geniş səs tonu səviyyəsindən istifadə etmiriksə, müxtəlif aparıcı tonlardan istifadə edə bilərik: Aparıcı yüksək ton (high key) – səs tonu səviyyəsinin yüksək hissəsindən, orta aparıcı ton (mid key) – səviyyənin orta hissəsindən, aşağı aparıcı ton (low key) – aşağı hissəsindən istifadə edilə bilər. Siz hətta müxtəlif mimikalardan, jestlərdən və bədən hərəkətlərindən də istifadə edə bilərsiniz. Bütün bu faktlar münasibət və emosiya ifadə etmək üçün böyük əhəmiyyətə malikdir. İngilis tələffüzünə aid ənənəvi kitablar bu məsələlərə etinasız münasibət bəsləyir [270, s.187].

Əgər biz bu faktorların vacibliyini nəzərə alsaq, bu zaman onların intonasiya ilə əlaqəsini və eləcə də, intonasiyanın nədən ibarət olduğunu müəyyənləşdirməliyik. Biz bu zaman üç dəyişkən müxtəlif supraseqmenti (elementi) bir-birindən fərqləndirməliyik.

Ardıcıllıq: İntonasiyanın aşağıdakı komponentləri bir-birinin ardınca gələn elementlərdir (onlar heç vaxt qəfil, birdən meydana çıxmır). Bunlar:

1. Takt önü, şkala, tonal heca və takt ardı (bunlar səs tonu səviyyələri imkanları ilə bağlıdır);

2. Fasilələr;

3. Ton vahidi sərhədləri.

Prosodika: Bunlar nitq zamanı müşahidə edilə biləcək və bütövlükdə təmsil olunan nitqin xarakterik komponentləridir. Ən vacibləri:

1. Genişlənmiş səs tonu diapazonu;
2. Əsas ton;
3. Ucalıq;
4. Sürət;
5. Səs keyfiyyəti [270, s.187].

Kiminsə səsində səs tonu diapazonu, ucalıq, sürət və səs keyfiyyəti dərəcəsi və ya tipi olmadan danışmaq mümkün deyil (pıçıltılı nitqdə səs tonu səviyyəsi faktorlarının istisnası mümkündür). Müxtəlif insanların özlərinə xas səs diapazonu və keyfiyyəti var.

5.3.4. İntonasiyanın məntiqi (vurğulayıcı) funksiyası

Bu məsələ haqqında yazan dilçilər deyəndə ki, intonasiyanın məntiqi (Piter Rouç bu funksiyanı vurğulayıcı adlandırır) funksiyası var, onlar demək istəyirlər ki, vurğunun yeri intonasiya vasitəsilə müəyyənləşir. Lakin bu fikir mübahisə doğura bilər. Çünki bəzi kitablarda vurğu müstəqil element kimi göstərilir və əvvəldə də qeyd etdiyimiz kimi, intonasiya quruluşu vurğulu hecalar vasitəsilə mümkün olur. Bu o deməkdir ki, tədqiqatlar göstərir ki, intonasiya növünün seçiminə qədər vurğu müstəqil olur. Belə ki, vurğunun xüsusi aspekti olan ton intonasiyanın bir hissəsi kimi təqdim edilə bilər: bu ton vahidi daxilində tonal vurğunun yerləşməsidir. Belə nəticə çıxarmaq olar ki, söz vurğusu intonasiyadan asılı deyil, tonal hecanın yeri isə intonasiyanın funksiyasıdır (məntiqi funksiya). Bəzi köhnə kitablarda bu "cümlə vurğusu" kimi adlandırılmışdır. Fikrimizcə bu düzgün deyil, uyğun ad deyil, çünki cümlə qrammatikanın mövzusudur, lakin tonal vurğunun yeri ton vahidinə aid olduğu üçün fonologiyanın vahididir.

İntonasiyanın aksentual funksiyası (pulsasiya) hecalarda qabarıqlıq effektinin yaranmasına xidmət edir. Bununla da aksentuasiya vurğulu hecaların qavranılmasına kömək edir. Digər tərəfdən, intonasiya konturunda tonik vurğunu xüsusi hecaların

üzərində yerləşdirməklə intonasiya qrupunda ən əhəmiyyətli sözü qabarıq şəkildə qeyd edir, bu da intonasiyanın məntiqi (vurğulayıcı) funksiyası adlanır [270, s.183].

Tonal hecanın yeri linqvistik cəhətdən mühüm əhəmiyyətə malikdir. Onun yeri əksərən tonal vahidin sonuncu leksik sözlərində olur (məsələn, köməkçi sözlərdən fərqli olaraq isim, sifət, feil, zərf). Opozitiv məqsədlər üçün isə istənilən söz tonal vurğu daşıyıcısı ola bilər. Tez-tez qeyd edilir ki, tonal hecanın yeri informasiyanın mərkəzini göstərir. Növbəti misallarda tonal vurğunun 1) normal və 2) opozitiv yerini görə bilərik:

1. | I ˌwant to ˌknow the ˌplace of his ˎ travelling |
2. (I ˌdont want to ˌknow the place of his ˏtravelling).
   | I ˌwant to ˌknow about the ˌplace of his ˎ travelling |

Birinci cümlədə tonik vurğunun yeri adi qaydada göstərilir. Sonrakı cümlələrdə vurğunun yeri dəyişir.

1. | She was ' wearing a ' red ˎ dress |

(She ' wasn't ˈ wearing a ˏ green · dress | She was ˈ wearing a ' red ˎ dress).

Eyni ilə daha vurğulu etmək üçün tonik vurğunu başqa yerdə də qoya bilərik, 1) qeyri-emfatik və 2) emfatik:

1. | It was ' very ˎ boring |
2. | It was ˎ very · boring |
1. | You ˈ mustnt ' talk so ˎ loudly |
2. | You ˎ mustnt · talk so · loudly |

Lakin belə iddia etmək səhv olardı ki, tonal vurğunun sonuncu leksik sözün üzərinə düşməsi halı yeganə emfatik və kontrast vəziyyətlərdə olur. Tonal hecanın normal olaraq ton vahidindən əvvəl gəldiyi hallar çox azdır. Ən gözəl nümunə "I have plans to leave" cümləsidir; bu cümlə ikimənalıdır:

1. | I have ' plans to ˎ <u>leave</u> |

(i.e I am planning to leave).

2. | I have ˎ <u>plans</u> to · leave |

(i.e I have some plans/diagrams/drawings that I have to leave).

Versiya (2) kontrastlı və ya emfatik kimi təsvir edilə bilməz. İkinci misala oxşar çoxlu misallar var; əlbəttə ki, bunu göstərmək üçün ən gözəl qayda tonal hecanın ton vahidinin sonuncu leksik hecasında gəlməsinə meyilli olmasıdır, lakin əgər deyiləcək daha vacib söz varsa, o ton vahidinin əvvəlində də ola bilər. Bu daha çox ton vahidinin sonuncu hissəsində verilən məlumatın əvvəl qeyd edilməsi nəticəsində baş verə bilər. Məsələn:

1. | ' Heres that ˎ book you · asked me to · bring |

(The fact that you asked me to bring it is not new).

2. | I've ˌgot to ˌtake the ˎ dog for a · walk |

(Əgər cümlə "to the vet" ilə bitərsə tonal heca "vet" də olar).

Məhz bu səbəbdən tonal vurğunun yeri çox vacibdir və intonasiya ilə sıx bağlıdır.

S.Babayev də məntiqi funksiyanı IV funksiya kimi qeyd edir və göstərir ki, intonasiya söyləmin məntiqi mərkəzinin harada olduğunu bildirir. Söyləmin məntiqi mərkəzi əsas nitq hissəsindən ibarət olan sözdən hər hansı digər sözün üzərinə keçə bilər [192, s.129].

İntonasiya cümlənin məntiqi mərkəzinin harada yerləşdiyini müəyyən edir. Məntiqi mərkəz əsas sözdən başqa ikinci dərəcəli sözə keçə bilər və bəzən bu əsas söz əhəmiyyətsiz olur, ikinci dərəcəli söz isə vacib məntiqi xəbərə çevirir. Bu funksiyalar yalnız modallıqda fərqlənən cümlənin müəyyən kommunikativ tiplərindən yaranır. Bu funksiyalar intonasiya tiplərində birləşən müxtəlif intonasiya modelləri vasitəsilə reallaşır. Bu cür hallarda intonasiyanın üçüncü və dördüncü funksiyaları müxtəlif, birinci və ikinci funksiyaları isə eynidir.

5.3.5. İntonasiyanın əsas tərkib ünsürləri

İntonasiya prosodik və ya supraseqment nitq elementlərinin mürəkkəb birliyi kimi müəyyən edilir. Əsas prosodik elementlər intonasiyanın komponentləri adlanır. İntonasiyanın mühüm komponentləri bunlardır: nitq melodiyası, cümlə vurğusu, nitq tempi, səsin tembri [192, s.129].

İntonasiya danışanın emosiyalarını, cümlənin mənasını və məzmununa olan münasibətini bildirməyə kömək edir. İntonasiya cümlə quruluşunun və onun müxtəlif cümlə növlərinin və tiplərinin formalaşmasında mühüm rol oynayır. Biz cümləni konkret intonasiyasız təsəvvür edə bilmərik. Beləliklə, intonasiya cümlənin zəruri elementidir. İntonasiyanın hər bir komponentinin cümlənin ifadə olunmasında müəyyən funksiyası var.

Nitq melodiyası intonasiyanın tonal komponentidir. Bu sözlərin və səslərin rabitəli nitqdə musiqili düzülüşüdür. İnsan danışanda onun səsi monoton deyildir. Onun tonallığı həmişə dəyişkənliyi saxlayır. Tonallıq cümlədə və ya məna qrupunda müəyyən melodik xətt çəkərək qalxır və enir. Əgər tonallıq bu cür dəyişməsə, deyilən hər cümlə monoton səslənər və danışanın nitqi mühüm ifadəlikdən məhrum olar.

Cümlə vurğusu xüsusi nəzərə çarpdırma dərəcəsidir ki, onun vasitəsilə cümlənin mühüm sözləri müntəzəm intervallarla ifadə olunur. Vurğulu və vurğusuz hecaların uzunluğu və qısalığı və həmçinin məna qrupunda vurğuların distribusiyası onun ritmik quruluşunun formalaşmasında mühüm rol oynayır. Vurğunun dəyişməsi cümlənin mənasını və qabarıqlığını dəyişə bilər. Hər hansı cümləyə xüsusi emfaza və qabarıqlıq verərkən vurğu və tonallıq bir-birilə sıx əlaqədə olur. Cümlə vurğusunun cümlədəki sözlərin nisbi semantik vacibliyinə əsasən onları vurğulamaq funksiyası var.

Bir qayda olaraq, söz nə qədər vacib və əhəmiyyətlidirsə onun vurğusu bir o qədər güclüdür. Cümlə vurğusu cümlənin ritmik quruluşunun əsasını təşkil edir. Başqa sözlə, İngilis nitqinin ritmi vurğulu hecaların az və ya çox müntəzəm vaxt intervallarında təkrarlanması və vurğulu və vurğusuz hecaların alternasiyası (əvəzlənməsi) vasitəsilə formalaşır.

Nitqin tempi cümlə və ya onun bir hissəsinin tələffüz olunduğu zaman vahidi ilə ölçüdür. Ritm nitqin tembi ilə sıx əlaqədədir. O, vurğulu hecaların müəyyən intervallarda meydana çıxdığı cümlənin müntəzəm hərəkəti kimi başa düşülür [192, s.130].

Səs tembri intonasiyanın keyfiyyət komponentidir. O, müxtəlif cümlələrin və məna qruplarının tələffüzü zamanı nitqə emosional çalarlıq verir. O, nitq prosesində

müxtəlif səs keyfiyyətlərinin akustik təəssüratıdır. Səs tembri danışana sevinc, kədər, hirs, qorxu, məyusluq kimi emosiyalarını ifadə etməyə kömək edir. Tembr həmçinin müəyyən dərəcədə səs ucalığından da ibarətdir. Tembr vasitəsilə müxtəlif insanların səslərini fərqləndirmək olur.

Praktik məqsədlər üçün intonasiya iki formaya bölünür: ifadəli (emosional) intonasiya və qeyri-emfatik (adi) intonasiya [192, s.130].

Canlı danışıqda intonasiyanın komponentləri fikrin ifadə edilməsində vəhdət yaradır. Onlar həmişə birlikdə işləyir və bir-birindən ayrıla bilməzlər. Xüsusilə nitq melodiyası və cümlə vurğusu – İngilis intonasiyasının bu iki mühüm ünsürü arasındakı əlaqə daha sıxdır.

5.4. İngilis dili tonlarının bəzi funksiyaları

Yuxarıda ingilis intonasiyasının struktur hissələri haqqında danışıldı. İndi təcrid edilmiş məhdud kontekstli "yes" və "no" sözlərinin hansı şəraitdə müxtəlif tonlarla işlədilməsini müəyyən etməyin mümkün olub-olmadığını yoxlayaq. Bəzi tipik dəyişikliklərə nəzər yetirsək, burada ton yüksəkliyinə aid misallar əsasında səs tonu səviyyəsindəki nisbəti müəyyənləşdirə bilərik.

Enən (Fall) ˎyes ˎno

Bu ton danışıq zamanı az işlənən tondur və bu ton az ya çox "neytral" hesab edilir. Əgər kiməsə sual verilirsə və cavab ˎyes və ˎno olursa, bu zaman bu o deməkdir ki, suala cavab verilib və əlavə nə isə deməyə ehtiyac yoxdur. Enmə "sonluq" təəssüratının yaradılması üçün deyilə bilər.

Yüksələn (Rise) ˏyes ˏno

Müxtəlif yolla işlənən bu ton yenə bundan sonra nəinsə gələcəyinin təəssüratını yaradır; bunun ən tipik nümunəsi aşağıda müşahidə etdiyimiz iki danışan arasındakı dialoqdur ki, biz onları A və B adlandıracağıq.

A: (B-nin diqqətini cəlb etmək istəyir): Ex `cuse me.

B: ˏYes.

(B-nin cavabı "sizə nə lazımdır?" ilə ekvivalentdir). Digər daha bir ümumi şərait bu cür olar:

A: Do you know John Smith?

B tərəfindən mümkün cavablardan biri ˏ yes ola bilər ki, bu da A-ya B-nin John Smith-i tanıdığını bildirdikdən sonra söhbətin davam etdirilməsi üçün dəvətdir. Onun əvəzinə ˏ yes cavabı isə "sonluq" hissiyyatını yaradır, "söhbətin sonu"; əgər A-nın John Smith haqqında nə isə demək istəsə də, enən tonlu cavabdan sonra A üçün bunu etmək daha çətin olacaq.

Söhbəti "davam etməyə dəvəti" bir sıra təlimat istiqamətli cavablarda görmək olar. Məsələn:

A: You start off on ring road ...

B: ˏ Yes.

A: Turn left at the first round about ...

B: ˏ Yes.

A: And ours is the third house on the left.

A-nın cümləsinə B nə cavab versə də, bu ˏ yes-dən fərqli bir şey olacaq, çünki artıq öz təlimatını bitirib və onu yenidən davam etməyə təhrik etmək mənasız olacaq.

"No" ilə də eyni funksiyanı görə bilərik. Məsələn:

A: Have you seen Ann?

Əgər B ˎno cavabı versə, o tam aydın bildirər ki, bu mövzuda söhbəti davam etdirmək istəmir. Lakin ˎno cavabı A-nı Ann niyə axtardığını izah etməyə dəvət edəcək və ya o niyə onun harada olduğunu bilmir.

Eynilə kim isə elə bir sual verə bilər ki, bu yeni bir informasiya təqdim etməyə hazırlıq tələb etsin. Məsələn:

A: Do you know when the longest balloon flight was?

Əgər B ˎno cavabı versə, bu o deməkdir ki, A-nın ona cavab verməsini gözləyir, bu halda ˎno cavabını o vermir və deyilməsini də gözləmir. Bu bir faktdır ki, ingilis dilində söhbət A-nın sualı informasiya almaq təklifidir, "yox" informasiyası almaq üçün verilən sual deyil.

Fall-rise ˅ yes və ˅ no [270, s.157].

Enib-yüksələn ton ingilis dilində çox işlənir və bəzi xüsusi funksiyaları var. Hal-hazırda məzmunca biz yalnız sadə birisindən bəhs edəcəyik, o "könülsüz

razılıq” və ya “ehtiyatla cavab vermək” kimi təsvir edilə bilər. Misallarla bunu aydınlaşdırmağa çalışacağıq:

A: I’ve heard that it’s a good school.

B: ˬ Yes.

B-nin cavabı onun A-nın dediyi ilə tam razı olmadığı deməkdir və A gözləyəcək ki, B izah etsin ki, niyə razılaşmaqda könülsüzdür. Eyni ilə də

A: It’s not really an expensive book, is it?

B: ˬ No.

B-nin cavabındakı enib-qalxan ton göstərir ki, o, A ilə tam razı deyil. Enib-yüksələn tonun yaratdığı bu cür məzmun demək olar ki, “güzəştə getmək” ya “razılaşmaq” və eyni zamanda “tərəddüd” ya da “ehtiyat” etməyi bildirir [270, s.157].

Rise-fall ˆ yes ˆ no

Aşağıda göstərilən ton daha çox, daha güclü razılıq, narazılıq və təəccüb bildirmək üçün işlədilir. Bu ton adətən xarici öyrəncilər üçün vacib ton sayılmır, baxmayaraq ki, bu onu başqa tonlardan ayırmaq üçün faydalı təcrübədir. Burada buna aid bir sıra misallara müraciət edək [270, s.158]:

A: You wouldn’t do an awful think like that; would you?

B: ˬ No.

A: Isn’t the view lovely!

B: ˆ Yes.

A: I think you said it was the best so far.

B: ˆ Yes.

Sabit _ yes _ no

Bu ton növü əlbəttə ki, ingilis dilində kifayət qədər məhdud məzmunda işlənir: o, demək olar ki, həmişə bir hecalı sözlərdə darıxdırıcı, maraqsız və s. hissləri yaradır. Məsələn, müəllim həmişə jurnal üzrə şagirdləri çağırarkən hər adı sabit tonla deyir və şagird də ona _ yes cavabını verir. Eyni ilə, kim isə digərinə müəyyən məqsədlə bir sıra suallar verir – məsələn, sığorta siyasətini yerinə yetirmək üçün bu suallara yenə eyni sıra ilə _ no cavabını verə bilər.

Bu növ tonlar məhdud “mənalar” edir. Bundan başqa, belə fikirləşmək səhv olardı ki, yuxarıda qeyd edilmiş misallar yalnız göstərilən tonlara uyğundur, belə ki, ümumiyyətlə elə bir kontekst tapmaq mümkün deyil ki, orada bir ton digərini əvəz etməsin. Bu o demək deyil ki, istənilən ton istənilən yerdə işlənə bilər: əsas məsələ ondadır ki, mətndə tonu istənilən yerdə işlədəsən. Biz daha mürəkkəb intonasiya nümunələrini nəzərdən keçirərkən görürük ki, intonasiyanın mənalarını müəyyən etmək o qədər də asan deyil.

5.4.1. Ton vahidi və onun quruluşu

Ton dillərində müəyyən sözdə və ya morfemdə bir tonu başqası ilə əvəz etsək bu sözün və ya morfemin (lüğətdə) leksik mənasını dəyişə bilər və ya müəyyən aspektdə onun qrammatik kateqoriyalaşmasında dəyişikliyə səbəb ola bilər. Baxmayaraq ki, ton və ya səs tonu səviyyəsindəki fərqlər ayrı-ayrı məqsədlər üçün işlədilir, ingilis dili o dillərdəndir ki, onda tondan bu yolla istifadə edilmir. Bu cür dillərə bəzən intonativ dillər deyilir [270, s.162]. Ton dillərində əsas supraseqmental vahid tondur və bu vahid əsasən fonoloji vahid olan heca ilə əlaqəlidir. Qeyd etməliyik ton dillərində tonun funksiyasını və bölünməsini təhlil edən bu əməliyyatı heca ilə yoxlayır, hər bir hecaya müstəqil dəyişkən vahid kimi baxılır. Yuxarıda biz ingilis dilində bir hecalı ifadələrdə olan beş ton haqqında danışmışıq; əgər ingilis dili ayrı-ayrı tək hecalılarla danışılsa idi, onda ton təhlili daha çox ton dillərdəkinə oxşar olardı. Belə ki, biz ingilis rabitəli nitqinə nəzər salarkən bu tonları yalnız çox az hecalarında görmək olar. İntonasiyanı təhlil etmək məqsədilə hecadan daha böyük vahid lazımdır ki, bu da ton-vahidi adlanır; özünün kiçik formasında ton-vahidi bir hecadan ibarət ola bilər. Bir və ya iki nümunə bizə anlayışı başa düşməyə kömək edə bilər. Yuxarıda qeyd etdiyimiz kimi, intonasiya transkripsi qrafik şəkildə verilir və burada durğu işarələrindən istifadə edilmədiyini görmək olar. Buna səbəb isə intonasiya və vurğunun yazılı durğu işarələrinin səs ekvivalenti olmasıdır.

Aşağıdakı bir hecalı ifadəyə nəzər salaq:

“ ˏ you”

Üstünə ton düşən hecanın altından xətt çəkilən ifadəyə nəzər salaq:

ˈIs it ˏ you?

Digər ikisindən daha çox üçüncü heca nəzərə çarpır və qalxan tonla müşahidə olunur. Digər iki heca normal olaraq daha az nəzərə çarpır və sabit ton səviyyəsi ilə deyilir. Bu zaman nə üçün "is" və "it" hecalarının hər biri sabit tonla deyilir? Bu daha sonra tədqiq ediləcək çətin sualdır; hələlik isə hecanın bu cür nəzərə çarpacaq sabit tonla deyilməsi qeyri adidir. "İs it ˏ you" tədqiqinə yekun vuraraq, demək olar ki, bir ton-vahidi olan üç hecalı ifadədir, yeganə tona malik olan üçüncü hecadır. Bundan sonra tonu olan vurğulu hecaya tonal vurğulu heca deyiləcək. Artıq dəfələrlə qeyd edilmişdir ki, tonik hecaların yüksək nəzərə çarpma dərəcəsi var. Nəzərə çarpma tonik hecaların xüsusiyyətidir və tonik hecalarda təkcə ton deyil, həmçinin tonik vurğu adlanan vurğu növü də olur (bəzi müəlliflər nüvə və nüvə heca terminlərini tonik heca və tonik vurğunun yerinə işlədirlər). Məsələn:

˘ John / ˈis it ˏ you.

Cümlə xitabla başlanarsa xitab sözündə enib-qalxan tonun işlənməsi bir qaydadır. Əgər "˘ John" və "is it ˏ you" arasında aydın fasilə varsa, yuxarıdakı ifadəyə verilən tərəfə görə onun iki cür ifadəsi ola bilər: çox güman ki, danışan "˘ John is it ˏ you" cümləsini fasiləsiz deyəcək, belə ki, dörd heca bir ifadə kimi deyilsin. Pauzanın yoxluğuna baxmayaraq, yenə ifadə normal olaraq iki ton-vahidinə bölünmüş kimi görünəcək: "˘ John" və "is it ˏyou". Ümumiyyətlə, ton vahidləri arasında sərhədləri müəyyən etmək üçün şəraiti dəqiqləşdirmək çətindir. Ton-vahidlərinin iyerarxik əlaqədə olan fonoloji vahidlərin silsiləsində ton-vahidinin yerinin harada olduğunu görmək mümkündür: nitq bir neçə ifadədən ibarət olur: hər ifadə bir və ya bir neçə futdan ibarət olur; hər fut bir və ya bir neçə hecadan ibarət olur; hər heca bir və ya bir neçə fonemdən ibarət olur.

Heca kimi, ton-vahidinin də dəqiq müəyyən edilmiş daxili quruluşu var. Görüləcək ən birinci iş tonal hecanın ton-vahidindəki rolunu daha da dəqiq müəyyənləşdirməkdir. Bir çox tonal vahidlər sadə adlandırdığımız tonal vahidlərdir. Hər bir sadə tonal vahidin bir və yalnız bir tonal hecası var; bu o deməkdir ki, tonal

heca ton vahidinin vacib və ən mühüm komponentidir. (müqayisə üçün saitin hecadakı rolunu yada sala bilərik) [270, s.164].

İndi isə intonasiya strukturunda başqa komponentlər haqqında bəhs edək.

Məsələn, əsas komponent şkala (The head) haqqında.

Növbəti bir hecalı ifadəyə nəzər yetirək:

ˎ Those

Məhz bu tonal hecanı uzun ifadədə də görmək mümkündür (yenə də tək ton-vahidi kimi).

He ' gave me ˎ those.

Ton-vahidinin vurğulu hissəsi bu misalda the head-şkala adlanır. Diqqət yetirmək lazımdır ki, ikinci hecada vurğu işarəsi var; bu vacibdir. Birinci vurğulu hecadan tonal hecaya qədər olan ton-vahidinin bütün hissəsi şkala adlanır. Buradan da aydın olur ki, tonal hecadan əvvəl vurğulu heca yoxdursa, bu zaman şkala ola bilməz. Yuxarıdakı misalda, birinci iki heca (söz) ton-vahidinin şkalasıdır. Növbəti misalda şkala ilk beş hecadan ibarətdir:

' Bill ' called to ' give me ˎthese.

Yuxarıda qeyd etdiyimiz kimi, tonal hecaya qədər vurğulu heca yoxdursa bu zaman şkala da olmur. Buna növbəti ifadəni misal gətirə bilərik:

In an ˎ hour.

Tonal hecadan əvvəl gələn iki hecanın heç biri vurğulu deyil. “in an” hecaları takt önü (pre-head) yaradır, ton-vahidinin bu komponenti növbəti şərh ediləcək məsələdir.

Takt önü (the pre-head)

Ton-vahidində ilk vurğulu hecaya qədər olan bütün vurğusuz hecalar takt önünü təşkil edir. Beləliklə, takt önü əsasən iki şəraitdə olur:

1. Şkala olmadıqda (tonal hecadan əvvəl vurğulu heca olmur), növbəti misaldakı kimi:

In an ˎ hour.

2. Şkala olduqda isə struktur bu misalda olduğu kimi yaranır:

In a ' little ' less than an ˏ hour.

Bu misalda “in a” takt önü, “ ' little ' less than an” şkala və “ ˏ hour” isə tonal hecadır.

Takt ardı (the tail)

Bəzən müşahidə olunur ki, tonal hecadan sonra başqa hecalar gəlsin. Tonal heca ilə ton vahidinin sonu arasında olan bütün hecalar takt ardı adlanır. Növbəti misalda, hər ton vahidi ilkin tonal hecadan və takt ardından ibarətdir:

ˋ Look at it.

ˋ Both of them were here.

ˏ What did you say.

Takt ardında vurğunu qeyd etmək lazım gələrsə, biz xüsusi simvol olan, qalxmış nöqtədən, istifadə edəcəyik, səbəbini isə sonra izah edəcəyik. Yuxarıdakı misallar bu zaman bu cür təsvir ediləcək:

ˋ Look at · it/

ˋ Both of them were · here.

ˏ What did you · say.

Bu ton vahidləri siyahısını tamamlayır. Əgər fakultətiv komponentləri göstərmək üçün mötərizələrdən istifadə edilsə (bu elə komponentlərdir ki, onları göstərmək də olar, göstərməmək də olar), o zaman ton vahidi quruluşunu bu cür cəmləşdirmək olar.

(takt önü) (şkala) tonal heca (takt ardı)

Piter Rouça görə, daha asan yolla intonasiyanın tərkib hissələrini qeyd etmək olar: (TÖ) (Ş) TH (TA) yəni ((PH- pre-head), (H-head), TS-tonic syllable, (t-tone)) [270, s.166].

Nitqin uzun hissələrini təhlil edəndə, ton-vahidi sərhədlərinin harada olduğunu işarə etmək vacib olur (bu, bir ton-vahidinin qurtarıb digərinin isə başladığı yer və ya ton-vahidi qurtardığı və fasilənin başlandığı, ya da fasilədən sonra ton vahidi başlanan yerdir). Yuxarıda da qeyd etdik ki, ton vahidləri bəzən fasilə ilə ayrılır, bəzən isə yox; fasilə tipli sərhədlər iki şaquli xəttlə (‖) işarələnir və qısa fasilə tipli sərhədlər bir şaquli xəttlə (|) işarələnir. Praktik cəhətdən parçanın əvvəlində və sonunda fasiləni işarə etmək vacib deyil. Parçadaxili sərhədlərin işarələnməsi daha

çox vacibdir. Məsələn:

‖' Nearer to the ˬ front ‖on the ˏ left │there`s a ' bit of ˎ forest │' coming ' down to the ˎ waterside ‖

Biz onların quruluşunu simvolik olaraq bu cür işarə edə bilərik:

‖ Ş ¦ TH ‖ TÖ ¦ TH │ TÖ ¦ Ş TH ¦

‖ ´ Nearer to the ¦ˬ front ‖ on the ¦ˏ left │there`s a ¦ ' bit of ˎ for¦

TA¦ Ş ¦ TH ¦ TA ‖

est ¦' coming ' down to the ¦ ˎ wa ¦ terside ‖

Beləliklə, yuxarıdakı parça dörd ton vahidini təşkil edir. Burada üçüncü ton vahidi, daha çox tonal hecadır, nəinki tonu olan söz, "forest" sözünü iki hissəyə bölmək vacibdir, "for" for və "est" ist (mübahisə oluna bilər ki, əslində "fo" və "rest" hecalarına bölünməlidir, lakin bizim mövzumuzda bu bir o qədər də vacib deyil). Bu misalda aydın görünə bilər ki, fonoloji tədqiqatın vahidləri bəzən qrammatik tədqiqatın vahidlərindən fərqli ola bilər.

5.4.2. Səs tonu səviyyəsinin hüdudları

Artıq qeyd etdiyimiz kimi, ton tonal heca üzərində olur və indi bu haqda daha ətraflı danışmaq lazımdır. Buna keçməzdən əvvəl, başqa ümumi bir məsələni qeyd etməliyik (və bu da öz növbəsində geniş izahat tələb edir): intonasiya ton vahidində yaranır [270, s.167].

Bir hecalı ifadələrdə, tək heca artıq qeyd etdiyimiz kimi dörd tondan biri ilə işlənməlidir. Bir hecadan artıq hecadan təşkil edilmiş ton vahidində tonal heca bu tonlardan biri ilə işlənməlidir. Əgər tonal heca sonuncu hecadırsa, bu zaman ton bir hecalı ton-vahidindəkindən fərqli səslənmir. Məsələn: "here" sözü növbəti misalda eyni cür deyilir:

ˏ Here we ' shall ' sit ˏ here.

Lakin, əgər tonal hecadan sonra başqa hecalar varsa (yəni takt ardı), bu zaman biz müşahidə edə bilərik ki, tonun səs tonu səviyyəsinin hərəkəti tonal hecada bitmir. Qalxan tonla takt ardı tonal hecadan sonra gəlirsə, bu zaman müşahidə edə bilərik ki, takt ardının hecası və ya hecaları tonal hecanın səs tonu

səviyyəsindən yuxarıya doğru hərəkət etməyə davam edir. Məsələn, əgər “say” sözü qalxan tonla deyilərsə, (“˛say”), səs tonu alçaq səviyyədən tədricən yuxarıya doğru hərəkət edir.

“I ˋwant to ˛say” – dörd hecalı cümlə bu cür deyiləcək:

Takt ardındakı hecaların səs tonu səviyyəsi daha da yüksəyə qalxır. Bu cür hallarda, tonal heca tonun səs səviyyəsinin hərəkətinin başladığı hecadır, lakin səs tonu səviyyəsinin hərəkəti ton-vahidinin qalan digər hissəsində tamamlanır (yəni takt halında). Əgər hündürə proqressiv qalxarkən, səs tonu səviyyəsi danışanın normal səs tonu səviyyəsinə çatırsa, bu zaman qalan hecalar yüksək səviyyədə davam edəcəklər.

Biz eyni hadisəni enən tonda da müşahidə edə bilərik. Tək hecalı “ ˎsay” sözündə səs tonu səviyyəsi bu cür enə də bilər:



Lakin əgər onun davamında hecalar varsa, enmə tonal hecada bitməyə də bilər: ˎ I want to ˎ say.

Yenə də, əgər danışanın ən aşağı səs tonu səviyyəsinə takt ardının sonundan tez çatıbsa, səs tonu səviyyəsi ən aşağı səviyyədə davam etdiriləcək. Bu halda, takt ardından sonra gələn hecalar da həmin səviyyədə deyiləcək; sabit ton adət edilməmiş ton olduğundan onun haqqında çox danışmayıb daha mühüm məsələlərə toxunmaq məqsədə uyğun hesab edilir. Takt ardından enib-qalxan və ya qalxıb-enən ton gəldikdə situasiya daha da mürəkkəbləşir.

5.4.3. Mürəkkəb tonlarda səs yüksəkliyi dərəcəsi

Biz birhecalı ingilis sözləri ilə işlənə biləcək üç sadə tonla tanış olduq: sabit, yüksələn və alçalan. Bununla belə, digər mürəkkəb tonlar da istifadə olunur. Ən çox rast gələn tonlardan. biri alçalıb-yüksələn tondur (fall-rise): bu zaman ton əvvəlcə enir, sonra yenidən yüksəlir. Digər nisbətən az rast gəlinən mürəkkəb ton yüksəlib-alçalan tondur (rise-fall), bu zaman əks hərəkət baş verir. Burada digər mürəkkəb tonları müzakirə etmirik, çünki onlar tez-tez istifadə olunmur və daha az əhəmiyyətə malikdir.

Burada başqa bir mürəkkəbləşməyə nəzər yetirməliyik. Hər bir danışanın özünə aid normal səs tonu səviyyəsi var: yüksək səviyyə - danışan tərəfindən istifadə edilən ən yüksək səviyyə və aşağı səviyyə - danışan bu səviyyədən aşağı getmir. Adi nitqdə, intonsiya danışanın aşağı səs tonu səviyyəsinə meyl edir, lakin güclü emosi-yalar yaradan şəraitlərdə adətən əlavə səs tonu səviyyəsindən istifadə edilir [270, s.155]. Məsələn, əgər biz yüksək və alçaq səs tonu səviyyəsini göstərmək üçün iki paralel xətt çəksək, bu zaman normal qeyri-emfatik “yes” bu cür sxemləşdirilə bilər:



Lakin güclü, emfatik “yes” isə bu cür:



Transkripsiyada həmçinin əlavə səs tonu yüksəkliyini göstərmək üçün yeni bir simvoldan ↑ (şaquli yuxarı yönləndilmiş ox) istifadə edilir:

ˋ Yes və ↑′ Yes – sözlərini bir-birindən fərqləndirmək olur.

Bu bölmədə göstərilən bütün tonlar əlavə yüksəklikdə də işlənə bilər.

5.5. İngilis dilində intonasiya tipləri

İngilis dilində intonasiya tiplərinin sayı və adları haqqında fonetistlər arasında yekdil fikir yoxdur. Məşhur ingilis metodisti F.R.Palmer onların sayının 6 olduğunu qeyd edib. O, hər tipə özünəməxsus ad verib. Onun fikrincə, bu adlar səsin hərəkətinin xarakterini təcəssüm etdirir.

1. Kaskad (cascade);
2. Dalma (dive);
3. Xizək tullanması (skijump);
4. Dalğa (wave);
5. İlan (snake);
6. Qu quşu (swan) [230, s.196].

Müəyyən etmək çətin deyil ki, F.R.Palmerin intonasiya tiplərinə verdiyi adlar, ədəbiyyatlarda daha sonralar hamı tərəfindən tanınan adlara uyğundur.

Enən ton (Falling tone) – Kaskad

Qalxan ton (Rising tone) – Dalğa və s.

J.D.O`Konor və Z.Arnold tərəfindən intonasiya tiplərinin verilən sayıF.R. Palmerin verdiyi sayla eyni olsa da, adlar fərqlidir.

1. Alçaqdan Enən (Low Fall);
2. Yüksəkdən Enən (High Fall);
3. Qalxıb-Enən (Rise-Fall);
4. Alçaqdan Qalxan (Low Rise);
5. Yüksəkdən Qalxan (High Rise);
6. Enib-Qalxan (Fall-Rise) [266, s.62].

Bu cür intonasiya tipi sisteminin xüsusiyyəti diapazon üzrə ton fərqlənmələridir: yüksəkdən və alçaqdan enmə, yüksəkdən və alçaqdan qalxma.

Enmə və qalxmanın bütün növ müxtəlifliklərini J.D.O`Konor və Z.Arnold 10 ton qrupunda verib.

R.Kinqdon daha sadə, çox rahat və ölkənin linqvistik ədəbiyyatında qəbul olunanlara daha yaxın olan əsas intonasiya tiplərinin adlarını təklif edir:

1. Yüksələn ton;
2. Alçalan ton;
3. Enib-Yüksələn ton;
4. Yüksəlib-Enən ton;
5. Yüksəlib-Enib-Yüksələn ton [247, s.35].

İşdə R.Kinqdon tərəfindən təklif edilən intonasiya tipləri adlarından istifadə

edirik, çünki sintaqmda əsas tonda baş verən dəyişiklikləri daha yaxşı və dəqiq ifadə etmək olur. Kinqdonun 5 tonundan ilk ikisi qeyri-emfatik, son üçü emfatikdir. R.Kinqdona görə, ingiliscə yaxşı intonasiya ilə danışmaq üçün 3 tipdən istifadə etmək kifayətdir: I, II və III. Ona görə də o, intonasiya təlimini iki perioda bölür: başlanğıc – I, II və III tiplərin öyrənilməsi üçün R.Kinqdon ingilis dilinin öyrənilməsinin başlanğıc mərhələsində də emfatik intonasiya tipindən istifadə etməyin lazımlı olduğunu qeyd edir (Tone III). Bununla əlaqədar olaraq ölkənin linqvistik ədəbiyyatında R.Kinqdondan fərqli olaraq alçalan tonu intonasiya tipi I adlandırmaq qəbul olunub (Tone I), yüksələn tonu isə – II intonasiya tipi (Tone II) adlandırırlar; bu işdə biz hamı tərəfindən qəbul edilmiş nömrələmədən istifadə edəcəyik [247, s.35].

Müasir ingilis dili təliminin əsasında tam formalaşmış intonasiyanı tələb edən, dil fəaliyyətinin əsas növlərindən biri olan şifahi nitq durur. Buna görə də emfatik intonasiyanın birinci mərhələdə tədris proqramından çıxarılması və sonrakı mərhələyə keçirilməsi düzgün hesab edilə bilməz. Yalnız əsas kursun başlanğıcında çətinlikləri bölüşdürmək məqsədilə – qrammatik modellərin formalaşdırılmasında istifadə edilən qeyri-emfatik intonasiya tipləri ilə məhdudlaşdırmaq məqsədəuyğundur.

Qeyri-emfatik intonasiya tipləri: ingilis dili qeyri-emfatik intonasiya tipləri öz sadəliklərinə baxmayaraq, azərbaycanlı tələbələr üçün məlum çətinlikləri törədir.

I tip ingilis intonasiyasının əsas xüsusiyyətlərinə nəzər yetirək (Falling tone). Onun əsas xarakteristikası – tonun tədricən vurğulu hecaların üzərində enməsidir. We'll (45) go to the (34) cinema to- (31) morrow

Ən yaxşı halda bu cür intonasiya formalaşması ingilis dilində emfatik ifadənin üsullarından birinə uyğun ola bilər (Scandent Scale). Bunu aşağıdakı misalda görə bilərik. We'll $_{(45)}$ go to the $_{(34)}$ cinema to- $_{(31)}$ morrow

I tip ingilis intonasiyasında sintaqmın digər vurğulu hecaları ilə müqayisədə birinci vurğulu heca ən yüksək tona malik olur.

It's $_{(4)}$ cold and $_{(3)}$ windy to- $_{(31)}$ day



It's $_{(3)}$ cold and $_{(3)}$ windy to- $_{(31)}$ day



I tip intonasiya sonuncu vurğulu heca üzərinə ton yüksəkliyinin qəfil enməsi ilə xarakterizə olunur (tonun dəyişilməsində böyük interval).

5.6. İngilis dilində təksintaqmlı cümlələrin melodiyası

1. İngilis dilində qeyri-emfatik nitqin melodik quruluşunu ümumi təhlil edərkən belə qərara gələ bilərik ki, aşağıdakı faktorlar xüsusi əhəmiyyət kəsb edir: sintaqmda vurğunun paylanması, sintaqm çərçivəsində səsin musiqili sürüşməsinin xüsusiyyətləri və sintaqmın sonunda səsin melodik hərəkəti: bütün bunlar onun semantik tipini müəyyən edir [104, s.115].

İngilis dili üçün ümumiyyətlə, sintaqmın birinci vurğulu hecasından başlayaraq sonuncusuna qədər səsin tonunun bərabər şəkildə tədricən enməsi xarakterikdir.

Musiqili ton əsasən vurğulu hecalarda dəyişir; məhz buradan da vurğu ilə intonasiya arasında asılılıq yaranır. Əgər sintaqm daxilində vurğu dəyişirsə onda tonal istiqamət də dəyişir. Sintaqmın melodik xətti ən yüksək vurğulu heca ilə başlayaraq, sonra gələn hecalar boyu enmə baş verir. Beləliklə, sanki şkalada tədricən enmə sırasını yaradır. Sintaqmın vurğulu hecalarından əvvəl gələn vurğusuz hecaları adətən vurğulu hecalardan daha aşağı tonda tələffüz olunur; alçaq rəvan tonda və ya vurğulu hecadan nisbətən aşağı tonda olmaq şərtilə nisbətən yüksək tonda ola bilər.

Sintaqmın hər bir hecası fərqli notda tələffüz olunur, aralıq vurğusuz hecalar isə normal olaraq enməni davam etdirir və ya həmin ton yüksəkliyini saxlayır.

İngilis dilində qeyri-emfatik nitqdə əsasən 2 melodik forma istifadə olunur: enən ton və yüksələn ton.

Enən ton onunla xarakterizə olunur ki, sintaqmın sonuncu vurğulu hecası yalnız tonca aşağı enmir, həmçinin enən intonasiyaya malik olur. Başqa sözlə, onun sərhədləri çərçivəsində kifayət qədər uzun çəkə bilən tonun enməsi reallaşır.

Yüksələn tonlu sintaqmın melodik xətti eynilə tədricən enmə xarakterini saxlayır, aşağı notda tələffüz edilən enmə birinci vurğulu hecadan başlayaraq sonuncu vurğulu hecayadək davam edir, yüksəlmə isə son vurğulu hecada və ya vurğusuz hecalarda həyata keçirilir. Əgər sintaqmın sonuncu hecası vurğuludursa və ondan sonra vurğusuz heca yoxdursa, bu zaman yüksəlmə bu hecada baş verir; bu halda sintaqm tədricən aşağı notla başlayır, onun sonu isə nisbətən yüksəlməyə malik olur.

İngilis dilində musiqili tonun qalxması və enməsi semantik cəhətdən əhəmiyyət kəsb edir. Əsas tonun enməsi müəyyənlik, dəqiqlik, bitkinlik, qətilik bildirir; musiqili tonun qalxması qeyri-müəyyənlik, bitkinsizlik, qətiyyətsizlik ifadə edir.

2. Cümlənin tipləri: cümlənin dörd kommunikativ tipi vardır: Nəqli, Sual, Nida və Əmr cümləsi. Hər tip də törəmə növlərə bölünür (bu işdə yalnız nəqli cümlə intonasiyasından bəhs edilir).

Nəqli cümlə:

Nəqli cümlə aşağıdakı yarımnövlərə bölünür:

a) Kateqorik nəqli cümə – qətilik ifadə edir. Bu cür cümlələrdə informasiya qətiyyət məzmunu kəsb edir. Bu cümlələr alçaqdan və yüksəkdən düşən geniş diapazonlu tonla deyilir.

He ar ' rived at ˎ ten.

b) Səbirsizlik ifadə edən nəqli cümlələr – çağırış, səbirsizlik, etiraz ifadə edən nəqli cümlələr kimi nəzərdə tutulur.

Bəzən onlar təəssürat yaradıcı, qorxu və ya özündən razı qalmaq kimi səslənir. Bu növ cümlələr əsasən yüksəlib alçalan tonla tələffüz olunurlar.

She ' posted the ' letter ˆ yesterday (and you say she has not written it).

c) Qeyri-kateqorik (səthi) nəqli cümlələr – danışanın hadisəyə səthi, təsadüfi münasibətini bildirir. Onlar üçün alçaqdan yüksələn ton xarakterikdir.

I'll ˏwait for him.

d) Cəlbedici nəqli cümlələr – danışan dinləyənin sözlərini birbaşa ifadə etmədiyi, mənanı başa düşməsini istəyir. Bu cümlələr enib-yüksələn və ya ortadan yüksələn tonla tələffüz olunur.

I've⌣never ˇmet, them / but I've heard of them /

She is a ˏgood girl / probably she is./

e) İşarəedici nəqli cümlələr – yüksəlib-enib-yüksələn tonla tələffüz olunur. Bu növ ton cümlənin cəlbedici və eyni zamanda, xoşa gəlimli və nikbin ifadə olunmasına səbəb olur.

He'll ˘come ⟋⟍ soon.

Aşağıda bir sıra şkala növlərinə aid nümunələr göstərəcəyik:

Pilləvari enən şkala:

1. You 'ought to 'know the 'way to ˎ say it.

2. I 'asked him to ˋdo it for me.

3. He 'did his 'best to ˎ help them.

4. He 'want to 'go to her 'aunt ˎ today.

5. It's 'time the 'children 'went to ˎ bed.

6. He 'used to 'play it 'very ˎ well.

7. I can't 'do the 'thing he ˎ said.

8. That's 'not the 'way to 'fold a ˎ coat.

Uzun cümlələrdə pilləvari sınan şkala işlənir:

1. 'Mr. 'Brown ↑ leaves 'home ↑early in the ˎmorning.
2. She could 'say ↑nothing about the ↑yesterday 's ˎ accident.
3. I 'went 'home ↑that 'evening 'feeling ↑very ˎ worried.
4. This 'system of 'buying 'goods be came ↑ very common during the ↑ first half of the ↑twentieth ˎ century.

Tədricən pilləvari enən şkala və pilləvari enib sınan şkala:

1. I 'never 'ask 'questions a' bout your 'private af 'fairs.
2. I 'never 'ask 'questions a' bout your ↑private af 'fairs.

Sınıb enən pilləvari şkala:

1. He 'used to 'work ↑very `hard.
2. I 'saw them 'going ↑to the `museum.
3. He 'did his 'best to ↑help the `child.
4. You'll 'have to 'explain ↑all a `gain.
5. He 'has to 'come 'home at ↑six o`clock.
6. I 'want to 'read an ↑ other `book.

Eyni sintaktik struktura malik cümlədə işlənən müxtəlif şkalalar:

1. 'Doctor 'comes to 'hospital at 'nine o ˎclock.
2. 'Doctor ↘ 'comes to ↘ 'hospital at ↑nine o ˎclock.
3. ˏDoctor ˎ comes to ˎ hospital at ` nine o ´clock.
4. Doctor comes to hospital at nine o ˎclock.

5. ˌDoctor ˌcomes to ˌhospital at ˌnine o ˎclock.

6. ↗Doctor ↗comes to ↗hospital at ↗nine o `clock.

7. 'Doctor 'comes, to ˌ hospital at `nine o ˎclock.

Aşağı səviyyəli enən şkala:

1. I ' thought you were ' going to 'make the `tea.

2. I ˌthought you were ˌgoing to ˌmake the ˎ tea.

Tədricən enən pilləvari ton.

1. He ˌ passed his ˌexam to- ` day.

2. I ' said him about my 'departure ' last ˎ week.

3. She is ˌ going to ˌwrite to him to `morrow.

4. I ˌ haven't ˌfinished my ˎ work yet.

5. I ˌ can't ˌfind it ` anywhere.

3. Kateqorik (qəti hökm bildirən) nəqli cümlələr üçün əsasən təmkinli, soyuqqanlı, laqeyd münasibəti ifadə edən alçaqdan enən tonlu melodiya xarakterikdir [251, s.96]. Məsələn, ˎYes, I'm ˎ tired. Əgər cümlə alçaqdan qalxan tonla tələffüz olunursa, bu zaman o özünə inam, təskinlik vericilik ifadə edir.

Əgər cümlə yüksəkdən qalxan tonla tələffüz olunursa, bu zaman o həyat eşqi, şən, maraq ifadə edir. Məsələn, I'm sure. Alçaqdan vurğu ilə tələfüz olunduqda isə o, etiraz ifadə edir. Məsələn: ˌNobody´s ´ sure.

Enib-qalxan tonla tələffüz olunan cümlələr eyham ifadə edir. Əgər enib-qalxan ton parçalanıbsa, bu zaman o, üzrxahlıq, peşmanlıq, canıyananlıq ifadə edir. Məsələn: ` Mother isn't ˏsure.

5.7. Sadə nəqli cümlə növlərinin intonasiya variativliyi

Sadə nəqli cümlə təsdiq və ya inkar faktını bildirir. Bu cür cümlələr əsasən enən tonla tələffüz edilir. Onlar bir və ya bir neçə məna qrupundan ibarət olur. Adətən, uzun cümlələr bir neçə məna qrupuna bölünür. Cümlədəki məna qruplarının kəmiyyəti sintaktik mənadan, qrammatik quruluşdan və tələffüz tərzindən asılı olur. Sürətli nitqdə məna qruplarının sayı azalır, ixtisar olunur, lakin asta nitqdə onların sayı artır:

1. Təsdiq və ya inkar formasında olan nəqli cümlələrdə, bir məna qrupundan ibarət olan, enən tonlu sonluq olur.

Məsələn: He is ' always ˎ ready



The ' bell ' rings at ˎ ten



We 'don't 'know his a'dress



2. Bir neçə təyin mübtəda qrupu olan, zaman və yer zərfliyi, bir neçə sintaktik birləşmələri və konstruksiyaları olan sadə nəqli cümlələr aşağıdakı kimi tələffüz olunur:

a) Bir neçə təyini olan uzun mübtəda qrupu qalxan tonla tələffüz olunur, lakin sonda enən tonla bitir [192, s.138]. Məsələn:

A ' fair-haired ' young 'girl in a ' blue ˏ dress | ' took the ˎ floor



b) Əvvəldə gələn yer və zaman zərfliyi olan sadə nəqli cümlələr qalxan tonla tələffüz olunsalar da, sonda enən tonla bitir. Məsələn:

' Early in the ˏ morning | he was 'doing his 'morning ˎ exercises



At the ' age of ' six ˏteen | he be'came a ˎ student



On the 'left of the ˏsofa | there 'stood a ˎpiano



On the 'river ˏbank | I saw a small ˎboat



c) Cümlənin əvvəlində və ya ortasında gələn cerund və feili sifət birləşmələri adətən qalxan tonla tələffüz olunur [192, s.138].

'Having ' read the ˏpage | he ' closed the ˎbook



'Entering the ˏroom | she 'switched 'on the ˎlight



While 'dusting the ˏroom, |he 'found 'several coins



The ˏteacher,| 'standing before a ˏmap, | was ex`plaining something



The 'river 'being ˏoverflown 'reached the em `bankment



Qeyd: Feili sifət birləşməsini qabaqlayan əsas cümlənin bir hissəsi qalxan tonla tələffüz olunur. Məsələn:

A 'tall-'man in a 'black ˏsuit,| 'standing in the 'middle of the ˏroom, |was a ˎwaiter.



3. Bir neçə həmcins üzvləri olan sadə nəqli cümlələr aşağıdakı kimi tələffüz olunur: sonuncu olmayan hər bir üzv qalxan tonla, lakin sonuncu üzv isə enən tonla tələffüz olunur. Bəzən sonuncu üzvdən əvvəl gələn üzv neytral, düz xəttli tonla tələffüz olunur və dərhal enən tonla izlənilir [192, s.139]. Məsələn:

You can 'see ˏrivers, | ˏlakes, | ˏseas| and `oceans on the ˏmap



You can 'see ˏrivers, ˏlakes, | seas and `oceans on the ˏmap



Qeyd: Bəzi hallarda sadalanan hissələr enən tonla tələffüz olunur. Bu xüsusən qabarıqlıq ifadə edən cümlələrdə müşahidə olunur. Məsələn:

He can 'imitate 'other 'people's ˎspeech, their ˎaccent,their ˎmannerisms, their ˎtones



4. Əgər cümlədə sərbəst və ya ayrılmış əlavə varsa, biz onu bir neçə mənaqrupuna bölə bilərik. Əlavənin özünün vurğusu və melodiyası olur və cümlənin ortasında və ya axırında gələ bilər. Cümlənin ortasında gələn əlavə yüksələn tonla tələffüz olunur, lakin sonunda isə enən tonla tələffüz olunur. Məsələn:

Mr. ˏBrown,| my 'son-in-law, is a 'good ˎpainter



We ar'rived in ˎ Baku,| the 'capital of ˏ Azerbai ˎjan



'This is Mrs. White, the landlady



'That is Mr. ˏ John, the ` headmaster



5.7.1. Sadə nəqli cümlələrin intonativ variativliyini şərtləndirən əsas melodik konturlar (MK)

İngilis dili fonetik ədəbiyyatında bir sıra müəlliflər M.A.Antipova [190], V.D.Arakin [64], M.A.Sokolova [155], S.M.Babayev [20], F.H.Zeynalov [297], P.Roach [270] "Melodik kontur" terminini "Melodic contour (MK)", "İntonation contour (İK)", "İntonation pattern (İP)", "tone unit (TU)" kimi işlətmişlər. Biz öz işimizdə "melodik kontur (MK)" terminindən istifadə etməyi nəzərdə tuturuq.

Müasir ingilis dilində sadə nəqli cümlələrin semantik variativliyini təmin edən altı melodik konturdan istifadə edilir.

İngilis dilinin qeyri-emfatik nəqli cümlələrində, bir qayda olaraq, bir saylı melodik kontur-MK-1 işlənir. Bu melodik konturda ifadə olunan sadə nəqli cümlələr fikir bitkinliyi, müəyyənlik, qətilik (kateqoriklik), obyektiv fakt, təsdiq bildirir. Bu növ cümlələrdə tonal sonluq adi enən şkala ilə realizə olunur.

Məsələn: He ´left the ´ room without a ˏword.

He ' wasn't `there.

I am ˏ sure about it.

Bu növ cümlələrdə işlənən MK-1 adətən neytral informasiyanı ötürür.

Lakin həmin MK-1 vasitəsilə mənfi hisslər oyadan informasiyalar da verilə bilər. Bu zaman danışanın nitqində bir soyuqluq, sıxıntı, laqeydlik, quruluq, bədbinlik hissləri də ifadə oluna bilər. Yəni qeyd etdiyimiz bitkinlik, müəyyənlik, qətilik və s. bildirən melodik kontura həmin hissi çalarlar da əlavə oluna bilər.

Məsələn: I ' didn't ex`pect it from you.

I 'don't 'like such an ˏattitude.

It’s 'out of the ˏquestion.

MK-2: Bu melodik kontur ingilis dili sadə nəqli cümlələrdə danışan tərəfindən sakitləşdirici, yüngülləşdirici, arxayın salıcı, işin əhəmiyyətsizliyi haqqında fikir yaratmaq kimi hissi çalarlar təlqin edilir, digər tərəfdən, çox hallarda dinləyiciyə ürək-dirək vermək, narahat olmamaq, onu ovundurmaq məqsədilə işlənir. Bu növ cümlələr adi qalxan sonluqla deyilir.

Məsələn: ' Never ˏmind. It`s ' all ˏright.

There is ' nothing to ˏworry about.

It’s an ' ordinary ˏcase.

We ' all ' make ' mistakes ˏsometimes.

Bu melodik kontur həm də sonuncu olmayan, qeyri terminal sintaqmların deyilişi üçün xarakterikdir. Bu zaman sintaqmda qalxan sonluqdan istifadə olunur və o, fikrin davam edilməsini bildirir.

MK-2 melodik konturun “a” variantı isə mövzu üzrə danışığın davamını bildirir və bu İK tənqid, inciklik, dözülməzlik və s. mənfi hiss çalarlarını ifadə edir. Bu cür cümlə növləri müsahibə və mükalimə kontekstlərində işlənir və özünü qoyulan suallara verilən cavablar şəklində özünü göstərir.

Stimula verilən cavablar (reaksiyalar) qalxan tonal sonluğa malik olur. Məsələn: You shouldn’t go there – The 'reason 'isn’t ′clear to me.

I think the student’s answers was correct – It was 'definitely 'not the 'correct ˏ ′answer.

The shoes seem to be just your size – But they are 'rather ˏtight.

MK-3: Bu melodik kontur adi danışıq dilində çox geniş işlənir. Bu kontur çox zaman şəxslərarası münasibətlər kimi qavranılır. Söhbət çox canlı, maraqlı səslənir, həmsöhbətlər bəzən qoyulan problemə həvəslə müsbət münasibətini, bəzən isə, əksinə ciddi narazılığını bildirir. MK-3 pilləvari şkala ilə realizə olunaraq, isti və yumşaq münasibət ifadə edir. Məsələn:

I 'couldn’t 'sa y ˎ no to you.

It is 'always 'better to ˎ wait.

We 'haven’t 'seen him for ˎyears.

'Skating is the 'sport for ˏ you.

MK-4: Bu melodik kontur sadə nəqli cümlələrdə işlənərkən, əsasən əks-səda və ya danışanın dediyinin dinləyici tərəfindən olduğu kimi təkrarı kimi səslənir. Bu zaman stimul təsdiq və ya sual formasında olsa da, reaksiya "sual" kimi səslənir. Məsələn:

It is quit ready – It's 'quite ˏready?

Mother is coming - ' Mother is ˏcoming?

She doesn't like it – She 'doesn't ˏlike it?

MK-5: Beşinci melodik kontur adətən implikasiya (örtülü məna) tutumlu cümlələrlə ifadə olunur. Başqa sözlə, danışanın nəzərdə tutduğu məsələ onun özünə və həm də dinləyiciyə tam aydın olur, çünki bu aydınlıq mövcud situasiyadan, söhbətin mövzusundan irəli gəlir, lakin implikasiyanın verbal ifadəsi tələb olunmur. Məsələn:

I didn't 'ask you to 'come ˏtoday ("but tomorrow, in two days or so").

İmplikasiya ifadə edən cümlələr adətən qalxan sonluğa malik olur.

MK-5 melodik konturun başqa bir emfatik növü də mövcuddur. Bu zaman aşağıdakı tipik münasibətlər verbal şəkildə çox qısa şəkildə mürəkkəb tonlarla ifadə olunur:

a) həmsöhbətin yanlış fikrini nəzakətlə düzəldən zaman;
b) təklifi könülsüz qəbul edərkən;
c) nədənsə özünmüdafiə tərzində imtina edərkən;
d) kimdənsə (nədənsə) inciklik bildirərkən;
e) tərəddüd edərkən.

Məsələn:

a) There were eight students in the room- ˇ Ten.
b) I would like to give them a lift- 'I ˇwouldn't.
c) He won't do you any harm - 'He ˇ will.
d) Sorry, I couldn't come in time. – You could ˇ phone.
e) I think you've heard the latest news – Not ˇ exactly.

MK-5 yayılan düşüb-qalxan tonlu sadə nəqli cümlələrdə emfatiklik daha çox artır. Bu zaman münasibət çaları verbal kontekstə və situasiyaya görə ifadə olunur. Belə hallarda sadə nəqli cümlə üzrxahlıq, minnətdarlıq, təəssüf, simpatiya, inandırmağa cəhd, qəmginlik və bu kimi hissləri ifadə edir.

Melodik konturun əsas funksiyası cümlənin semantik mərkəzini xüsusi bir emfaza ilə müəyyənləşdirməkdən ibarətdir. Bununla yanaşı, cümlənin semantik mərkəzindən sonra gələn əlavələrdən olan mühüm məna kəsb edən bir sözü cümlənin birinci hissəsində ifadə olunan fikri daha qüvvətləndirmək məqsədilə qabarıq tərzdə ifadə olunur.

Sadə nəqli cümlələrin sonuna qoşulan qısa əlavə ifadələr (afterthoughts) əsas cümlədəki fikri dəqiqləşdirmək, aydınlaşdırmaq məqsədilə işlənir. Onlar formaca budaq cümlələrə bənzəsələr də, məzmunca əlavə ifadələrdir. Məsələn:

- I can ' not re'member ex ˏactly, I`am afraid (təəssüf).
- I 'quite 'share your ˏgrief (simpatiya).
- In your 'place I 'wouldn’t ' go there ˏnow (inandırma).
- There is no word about it (dəyərləndirmə) və s.

MK-6: Bu tip melodik kontur zamanı tonal yüksəlmə qüvvətli düşən tona keçir. Bu zaman fikir müəyyənliyi və bitkinliyinə bir növ isti münasibət, məftunluq, sarkazm, qəzəb kimi hisslər əlavə olunur, beləliklə yaranmış situasiyaya uyğun ya müsbət, ya da mənfi emosiyaları qabarıq şəkildə ifadə edilir. Danışan özü də olduqca çox mütəəssir olur. Məsələn:

- May I take this seat? -ˆ Certainly. ˆ Surely.
- Will you help me? - ˆ Willingly ˆ Gladly.
- Did you have a good time? – Aˆmarvelous time.
- Wasn’t it a good lectures? - ˆ Very good [192, s.137; 295, s.147].

5.8. Sadə nəqli cümlənin emfatik intonasiya (emfazası) forması

Emfaza sözləri, söz birləşmələrini və cümlələri xüsusi olaraq vurğulamaq üçün istifadə edilir. Canlı danışıqda emfazanın vacib məntiqi və emosional funksiyası vardır. Adi normal danışıqdan fərqli olaraq vurğunun daha qüvvətli edilməsi ilə

cümlədəki bir və ya neçə sözün, həmçinin bütün cümlənin mənasını daha qabarıq və ifadəli etmək olar. Hər hansı bir cümlə intonasiyanın bütün komponentlərini dəyişməklə emfatik (ifadəli) edilə bilər. Məsələn:

We 'saw a mag `nificent ¸house

Cümləni və ya sintaqmı (məna-qrupunu) vurğulayarkən şkala genişlənə və ya darlaşa bilər və sintaqmın tonal səviyyələri qalxa və ya enə bilər [192, s.158].

Şkalanın genişlənməsinə sintaqmın bütün vurğulu hecalarının tonal səviyyəsinin qalxması və onların hər biri üzərində son dərəcə qüvvətli vurğu işlətməklə nail olmaq olar.

Şkalanın darlaşmasına tonal səviyyənin enməsi və cümlənin hər vurğulu hecasında son dərəcə qüvvətli vurğudan istifadə etməklə nail olmaq olar.

Beləliklə, hər ikisi şkalanın genişlənməsi və darlaşması müxtəlif emosional çalarlıqları ifadə etmək üçün istifadə edilir. Lakin onlar arasında əsas fərq sintaqmın vurğulu hecaları arasındakı intervalın ölçüsündədir. Darlaşmış şkalada vurğulu hecalar arasındakı zaman (temporal) intervalı genişlənmiş şkaladakından daha böyükdür.

Emfatik (ifadəli) nitqdə biz əsasən aşağıdakı ton növlərindən istifadə edirik.

1. İfadəli enən ton (yüksəkdən enən) – [`]
2. İfadəli qalxan ton (alçaq səviyyədən orta səviyyəyə qəfil qalxan) – [¸]
3. Yüksəkdən enib qalxan ton (enib-qalxan) – [ˇ]
4. Qalxıb enən ton – [ˆ]
5. Qalxıb-enib-qalxan ton (qalxıb-enib-qalxan) – [∧]
6. Emfatik alçaqdan enən (qalxıb-enən-qalxan) – [ˎ]
7. Yüksəkdən geniş qalxan – [´] [192, s.159].

Emfatik vurğu cümlənin hər hansı sözünün üstünə düşə bilər. O, hətta adi şəraitdə vurğusuz olan sözlərlə də işlənə bilər. Beləliklə, emfatik vurğu vasitəsilə köməkçi sözlər və morfemlər semantik cəhətdən vacib olur. Məsələn:

'John has 'taken the ˏ bag ⟶ He has 'taken the ˏ bag.

Adi danışıqda

``John has ˌ taken the ˌ bag ⟶ `` He has ˌ taken the ˌ bag.

Məntiqi emfaza

Birinci halda, adətən olduğu kimi, şəxs əvəzliyi “he” vurğusuzdur və özünün zəif və qısaldılmış formasında tələffüz olunur. Lakin ikinci halda “he” semantik cəhətdən vacib olur və son dərəcə qüvvətli vurğu və böyük qabarıqlıqla deyilir. Həmçinin qeyd etmək lazımdır ki, emfatik danışıqda sintaqmda olan bəzi vurğulu sözlərdən başqa sözlər daha az vacib, daha az əhəmiyyətli olduqda öz vurğularını itirə bilər. Emfatik danışıqda bəzi hallarda söz vurğusu dəyişə də bilər. Məsələn, situasiyadan asılı olaraq zəif prefikslər emfatik vurğu qəbul edə bilər:

The 'word is 'spelt as ` “explain”, 'not ˏ “ixplain”

Bu cümlədə “ex'plain” və “explain” sözlərində “ex” [Iks] və [eks] vurğulu prefiksləri var və adi nitqdə onlar həmişə vurğusuz və zəifdilər. Lakin yuxarıdakı misalda onlar daha qüvvətli tələfüz olunaraq təzadlı emfaza yaradırlar.

İfadəli nitqdə saitlər və cingiltili samitlər adətən qeyri-emfatik nitqdən daha uzun və gərgin olurlar. İki növ emfaza var: qüvvətləndirmə emfazası və qarşılaşdırma emfazası. Canlı danışıqda onlar bir-birindən qarşılıqlı şəkildə asılıdır.

5.8.1. Qüvvətləndirmə emfazası

Cümlədə bir və ya bir neçə sözün mənanı qüvvətləndirmək məqsədilə vurğulanmasına qüvvətləndirici emfaza deyilir. Adətən bütün cümlənin mənasının xüsusi nəzərə çarpdırılmasına hecaların adi qeyri-emfatik nitqdən daha qüvvətli vurğu ilə deyilməsi ilə nail olmaq olar. Başqa sözlə, emfatik nitqdə cümlənin mənası dəyişilmir, o yalnız verilmiş situasiyada qüvvətləndirilir, qabardılır. Bu halda cümlədə və ya sintaqmda vurğuların bölünməsi eyni ilə qalır, lakin vurğulu

hecalar qüvvətli olur. Qüvvətləndirici emfaza əksərən ölçü, kəmiyyət və xüsusi keyfiyyət bildirən sözlərlə işlənir [192, s.160].

1. Növbəti keyfiyyət sifətləri ilə: gigantic, huge, wonderful, enormous, tremendous, splendid, excellent, awful, brilliant, appaling, tyny, absurd, killing, breaking, deafening, marvelous, lovely, hateful, disgusting və s.

2. Növbəti zərflər ilə: particularly, extremely, badly, hopelessly, passionately, awfully və s.

3. Növbəti cəm isimlər ilə: quantities, masses, heaps, tons, hundreds, thousands, millions və s.

4. Növbəti feillər ilə: rush, squeeze, hate, despise, adore, smash, crash və s.

Eyni zamanda bütün cümlənin mənasını vurğulamaq məqsədilə müxtəlif fonetik vasitələrdən istifadə olunur.

Canlı danışıqda bütöv cümlənin mənasını daha çox vurğulamaq üçün aşağıdakı fonetik vasitələrdən istifadə olunur.

1. Şkalanın genişlənməsi;
2. Şkalanın darlaşması;
3. Vurğunun qüvvətlənməsi [192, s.160].

Bu üç fonetik vasitənin modifikasiyası müxtəlif emosional çalarlıqların ifadə olunması ilə nəticələnə bilər.

Sintaqmın şkalasının genişlənməsində hər bir vurğulu hecanın tonal səviyyəsi yüksəlir, vurğulu hecalar arasında temporal intervallar böyüyür və sonuncu vurğulu hecanın qalxması və ya enməsi adi nitqdən daha geniş şkalalı sintaqm əldə edilir. Şkalanın genişlənməsi ilə biz sevinc, məmnuniyyət, heyranlıq, hirs, qəzəb, xoş təəccüb kimi emosiya növlərini ifadə edən cümlələrdən istifadə edə bilərik. Məsələn:

What a "marvellous `theatre! (məmnunluq)



"Awfully 'glad to `see you! (xoş təəccüb)



I 'mean 'this "quite `seriously (qəzəb)

Sintaqmın şkalasının darlaşmasında hər bir vurğulu hecanın tonal səviyyəsi enir, vurğulu hecalar arasında temporal intervallar qısalır və sonuncu vurğulu hecanın qalxması və ya enməsi adi nitqdən daha darlaşmış şkalası yaradır. Beləliklə, biz cümlədə daha dar şkalalı sintaqm əldə edirik. Şkalanın darlaşması ilə biz kədər, məyusluq, ümidsizlik, nifrət, yorğunluq kimi emosiya növlərini ifadə edən cümlələrdən istifadə edə bilərik. O, həmçinin bəzən heyranlıq və böyük ehtiras da ifadə edə bilər. Bu növ emfaza danışan bir insana müraciət etdikdə, başqa insanlar tərəfindən eşidilmək istəməyəndə daha ifadəli olur [192, s.161]. Məsələn:

He is an `` ugly ˌ creature (nifrət)

I am 'out of `` breath (yorğunluq)

You are an 'awful ``liar (qəzəb, hiddət)

It`s a `` sad 'state of ˎ feeling (kədər)

Beləliklə, şkalanın darlaşması vasitəsi ilə biz boğulmuş və sevincsiz emosiyaları ifadə edə bilərik.

Bütün cümlənin mənası cümlə vurğusunun qüvvətlənməsi ilə vurğulana bilər. Bu anda hər normal vurğulu heca qüvvətli akustik təəssürat yaradan əlavə qüvvətlə ifadə olunur və bəzi emosiya növləri ilə nəticələnir: lakin sintaqmın melodiyası dəyişilməz qalır. Bu növ emfaza eləcə də müxtəlif emosional çalarlıqların ifadə edilməsində istifadə olunur. Məsələn:

We 'did it ↑ `all in ˎ vain



Our 'team 'plays ex'tremely ˎ well



Cümlədə sintaqmın adi düşən şkalası bəzən vacib sözün tonallığının qalxması ilə sınır. Normal vurğulu hecaların tədricən enən tonal səviyyəsi qəflətən verilmiş sintaqmın vacib sözü üzərində yüksəlir. Sintaqmın qalan hissəsi isə həmin nöqtədən adi qaydada yenidən enir. Emfatik söz əlavə qüvvətləndirici vurğu ilə deyilir və cümlədə böyük qabarıqlığa malik olur. Adi enən şkalanın sınması ilə cümlədə bir və ya bir neçə söz vurğulana bilər [192, s.162]. Məsələn:

It 'kept 'raining the ↑ " whole ˎ night



I have ↑ never 'met such ↑ nice 'people be ˎ fore



5.8.2. Qarşılaşdırma emfazası

Kontrast emfaza qüvvətləndirici emfaza ilə sıx bağlıdır: o, bir sözü başqa sözlə və ya əvvəl qeyd edilmiş bir fikirlə və ya asanlıqla işarə edilə bilənlə qarşılaşdırılması üçün işlədilir. O, həmçinin danışan ziddiyyətli fikir ifadə etdikdə də işlədilir.

Kontrast emfaza çox vaxt qeyri-fonetistlər tərəfindən “məntiqi vurğu” və ya “məntiqi-emfaza” adlandırılır. Baxmayaraq ki, kontrast emfazanın mənası məntiqi vurğudan daha genişdir. Məntiqi vurğu kontrast emfazanın elementlərindən biri kimi göstərilə bilər [192, s.162].

Cümlədə hər bir söz, hətta vurğusuz vəziyyətdə olan sözlər də kontrast emfaza vasitəsilə qabardıla, vurğulana bilər.

Kontrast emfaza cümlədə bir və ya bir neçə söz ilə işlədilə bilər. Kontrast söz cümlədə istənilən yerdə gələ bilər: əvvəldə, ortada və sonda. Bu növ emfaza hər iki cümlə ilə - qalxan və enən sonluqlu cümlələrlə işlənə bilər.

Aşağıdakı hallarda kontrast emfaza yüksəkdən enən ton formasında işlədilir:

1. Enən intonasiya ilə tələffüz olunan cümlələrdə sonuncu vurğulu söz tonallığın adi nitqdən daha hündür səviyyədən qəfil enməsi ilə vurğulana bilər. Emfatik enmədən sonra gələn bütün sözlər vurğusuz hecalar kimi göstərilir və enən tonla tələffüz edilir. Bu cür hallarda emfatik söz nəzərdə tutulan başqa söz və ya fikirlə müqayisə (kontrast) edilir.

Məsələn:

He 'took me for a doctor (but it turned out that I was a teacher)



The as `sistant will test the de ˌvice (not the professor)



It ' happened on ˎ Sunday (not on Saturday)

2. Cümlədə istənilən söz danışanın niyyətindən asılı olaraq kontrast emfaza ilə deyilə bilər. Bu cür hallarda emfatik sözdən sonra gələn bütün sözlər vurğusuz deyilir. Kontrast sözün emfatik hecası yüksəkdən enən tonla tələffüz olunur. Buna görə də cümlədəki digər sözlərin hamısı proklitik (ritmik qrupda vurğulu hecadan əvvəl gələn vurğusuz hecalar) kimi göstərilir.

Cümlədə kontrast emfazanın rolu böyükdür. Eyni bir cümlə məntiqi emfazanın yerindən asılı olaraq müxtəlif semantik mənalar ifadə edə bilər. (187, 163)

3. Bəzən cümlədə bir neçə söz vurğulu hecanın yüksəkdən enən tonla tələffüz edilməsi ilə kontrast edilə bilər; lakin emfatik hecalardan biri vacibliyindən asılı olaraq daha yüksək səviyyədən enən tonla tələffüz oluna bilər. Məsələn:

He ' wasn`t the one to` solve it (He was not so wise)



He `never did the `right thing (though you knew it was not polite to act so)



4. Bütün cümlənin mənası da həmçinin əvvəlcədən nəzərdə tutulmuş fikirlə kontrast edilə bilər. Bu növ kontrast şkalanın genişlənməsi və cümlədəki sonuncu vurğulu hecanın yüksəkdən enən tonla tələffüz edilməsi vasitəsilə, qüvvətləndirici emfazadan istifadə etməklə əldə edilə bilər. Cümlənin melodiyasında heç bir dəyişiklik olmur. Məsələn:

I ` warned you ` not to ` touch it



Qarşılaşdırma emfazası əksərən şübhə, xəbərdarlıq, qorxu, ziddiyyət, işarə etmək, inam ifadə etdikdə enib-qalxan sonluqla nəticələnə bilər. İntonasiyanın bu növü qalxan tonun modifikasiyasıdır. Bu halda emfaza edilmiş aşağı tonal səviyyə yüksəkdən-enən tonla tələffüz edilir və bu enmə dərhal tonallığın yüksəlişi ilə müşahidə olunur.

Cümlədə, sintaqmda və ya sözdə bu cür iki tonun kombinasiyası enib-qalxan ton adlanır [192, s.164].

Enib-qalxan ton sözün bir hecasında da, iki və daha çox hecasında da, həmçinin sintaqmda və cümlədə də ola bilər.

Enib-qalxan tonlu kontrast emfazaya biz aşağıdakı hallarda rast gələ bilərik.

1. Uzun monoftonqlar və diftonqlar emfatik hecanın sonunda gələndə onlar daha uzun və gərgin olurlar və enib-qalxan ton orada yaranır. Məsələn:

He has gone 'just ˇnow (he was waiting for you)



You 'seem to 'eat it ˇall (I was wrong)



2. Burun samitləri [m, n] və dilyanı samiti [l] emfatik hecanın sonunda gələndə uzun olur və qalxan səs tonu ilə tələffüz olunur və beləliklə, saitdə enmə və sonorda isə qalxma baş verir [192, s.165]. Məsələn:

The 'book is 'not ˇmine (may be it is hers)



'Yesterday he 'went ˇhome (but not to rest-room)



The 'goods are on ˇsale (you may see them at the window)



3. Emfatik hecada qısa saitdən sonra cingiltili samit gələndə cingiltili samitin artikulyasiyası zamanı qalxma baş verir, enmə isə onu qısa saitdə qabaqlayır. Məsələn:

He 'bought 'only ˇten (I thought he would buy more)



Lakin emfatik hecada qısa saitdən sonra kar samit gələrsə, enib-qalxma saitdə baş verir. Bu halda qalxma çox qısa olur və güclə eşidilir; lakin o yalnız diqqətli və məşq edilmiş qulaqlar tərəfindən sezilə bilər. Məsələn:

'Anyone can 'do ˇthat (but you are not sure to succed it)

You could 'solve it on the ˇspot (though you thought it impossible)



4. Aşağıdakı misallarda çoxhecalı sözdə emfatik hecada enib-qalxma iki və ya üç hecada baş verir. Məsələn:

I 'found it ˇesay (but I was afraid not to succed it)



It is 'not very ˇdifficult (but we must try much)



5. Cümlənin əvvəlində və ortasında gələn qarşılaşdırılan söz yüksəkdən enən tonla deyilir və cümlənin qalan hissəsi yumşaq sürüşən qalxma ilə tələffüz olunur. Beləliklə, enib-qalxma bütün cümlə boyu baş verir. Məsələn:

I `didn`t ˌquite ˌmean ˏthat



Yuxarıdakı misallarda gördüyümüz kimi, onların hər ikisində intonasiyanın quruluşu qalxma-enmə-qalxma vasitəsilə düzəlib.

5.8.3. Tonardı işlənən enib-qalxma və qalxıb-enmə

Qalxan və ya enən tonu müəyyən etmək çox asandır, belə ki, o ya bir heca üzərində ya da tonal hecadan sonra takt ardı gəlirsə, bir çox hecalar boyu enir. Enib-qalxan və qalxıb-enən ton isə takt ardına qədər uzandıqda onu müəyyən etmək çətindir, çünki xarakterik səs tonu səviyyəsi hecaların quruluşu ilə bağlıdır. Məsələn "˘some" sözündə səs tonu səviyyəsinin hərəkəti buna oxşar olacaq:



Əgər biz buna bir heca da əlavə etsək, bu zaman enib-qalxmanın "enmə" hissəsi bir hecada, "qalxma" hissəsi isə ikinci hecada baş verəcək. Nəticədə isə bir hecalı hallara oxşar səs tonu səviyyəsinin davamlı hərəkəti olacaq. Əgər səslənmənin qırılmasına səbəb olacaq kar orta samit yoxdursa, bu oxşarlıq baş verə bilər; əks halda fərqli olacaq. Məsələn:

˘some •chairs

Bu halda "some" sözündə enən ton və "chairs" sözündə qalxmanın olduğunu demək mümkündür. Buna baxmayaraq, bir çox ingilisdillilər bu halda səs tonu səviyyəsinin hərəkətin digər ikisi ilə eyni olduğunu güman edirlər; "Ballon" "moon" ilə qafiyələndiyi kimi, deyə bilərik ki, "˘some •chairs" ilə "˘some" arasında tonal qafiyə adlandırılan əlaqə yaranır.

Əgər iki və daha çox hecalarda takt ardı varsa, normal səs tonunun səviyyəsi tonal hecada düşür, çünki takt ardındakı sonuncu vurğulu hecaya qədər bu səviyyə aşağıda qalması ilə xarakterikdir. Səs tonu səviyyəsi sonra həmin nöqtədən ton vahidinin sonuna qədər qalxır. Əgər takt ardında vurğulu heca yoxdursa, qalxma sonuncu hecada baş verir [270, s.172]. Burada bir neçə misala nəzər yetirək:

1) I ˘might •buy it



I ˇmight have •thought of •buying it

2) ˇmost of them

ˇMost of it was for them

Qalxıb-enən tonla da biz eyni halı müşahidə edə bilərik: əgər tonal heca takt ardında tək heca ilə müşayiət olunursa, qalxma birinci tonal hecada, enmə isə ikinci də baş verəcək. Bu cür:

ˆ no ˆno one ˆ no sir

Əgər takt ardında iki və ya daha çox heca varsa, tonal hecadan sonra gələn ilk heca həmişə yüksək və sonrakı hər hansı heca alçaqda olur. Məsələn:

ˆBeaut i ful

ˆ All of them went

ˆ That's a nice way to speak to your mo ther

Buradan aydın olur ki, danışanın takt ardındakı səs tonu səviyyəsinin formasında heç bir seçimi yoxdur. Bu tamamilə tonal hecadakı ton seçim ilə müəyyən edilir.

5.8.4. Yüksək və alçaq səviyyəli şkalalar

Artıq şkala haqqında bəhs edərkən qeyd etdik ki, tonal heca daxil olmaqla ton vahidinin bütün vurğulu hecaları şkalanı təşkil edir. Bizim indiyədək intonasiya haqqındakı şərhimizdə ton vahidindəki yeganə səs tonu səviyyəsinin kontrast tonal heca üçün mümkün olan tonların seçimi olmuşdur. Buna baxmayaraq, şkala üçün müxtəlif səs tonu səviyyələrini müəyyən etmək mümkündür. Burada onlar iki – yüksək və alçaq şkala arasında məhdudlaşıb. Yüksək şkala ilə bağlı halda olan şkalanı başlayan hecanın səs tonu səviyyəsi yüksəkdir; bu adətən səs tonu səviyyəsinin başladığı tonal hecadakı tondan yüksək olur. Məsələn:

The 'bus was ˏlate

Cümlə başlanğıcındakı vurğulu hecanın səs tonu səviyyəsi bu halda aşağı olur; başqa sözlə, bu adətən tonal hecadakı tonun başlanğıc səs tonu səviyyəsindən aşağıdır. Aşağı səviyyədə olan şkalada bu vurğulu hecanı işarələmək üçün “low” sözü kimi biz müxtəlif simvollardan da istifadə edə bilərik [270, s.174]. Misal kimi, yuxarıdakı cümlənin şkalalarını yüksəkdən aşağı səviyyəyə dəyişə bilərik.

The 'bus was ˏlate

Bu iki müxtəlif versiya İngilis dinləyiciləri üçün yüngül fərqlə izah edilə bilər, lakin burada fərqin nə olduğunu demək çox da asan deyil.

Vurğusuz hecaların onlardan əvvəl gələn vurğulu hecanın səs tonu səviyyəsini davam etdirməsi adi haldır. Növbəti misalda üç vurğusuz heca “if it had” onlardan əvvəl gələn vurğulu “asked” hecasının səs tonu səviyyəsini davam etdirir.

1. yüksək şkala ilə

We 'asked if it had ˏcome

2. aşağı şkala ilə

We 'asked if it had ˏcome



Şkala çərçivəsində birdən çox vurğulu heca olduqda bu zaman bir vurğulu hecanın səviyyəsindən digərinə doğru səs tonu səviyyəsi tədricən dəyişir, bu dəyişiklik tonal hecanın səviyyəsindən başlanğıc istiqamətində olur. Bunu göstərmək üçün burada uzun misallardan istifadə edilir. Lakin adətən nitqdə bu uzun şkalalara tez-tez rast gəlmək olmur. Birinci nümunədə yüksək şkalanın vurğulu hecaları nüvə tonunun başlanğıcına çatmaq üçün aşağıya doğru proqressiv addım-addım enir:

The 'rain was 'com ing 'down 'fairly ˏhard



Növbəti misalda şkala aşağı səviyyəlidir, bu zaman tonun qalxması aşağı səviyyədən başlayır və şkalada yuxarıya doğru hərəkət qısa olur:

ˌThat’s ˌnot the ˌsto ry you ˌtold in ˏcourt



Şkala enən alçaq tonlu olduqda, tonunun vurğulu hecaları düşən səs ton başlanğıc səviyyəsinə doğru yuxarı hərəkət edir:

ˌI could have ˌbought it for ˌless than a ˎ pound



Əlbəttə ki, biz çoxhecalı şkalaların intonasiyasını tədqiq edərkən göstərilən bu sadə nümunələrdən daha böyük variativliklərə rast gəlirik. Bununla belə ümumi tip kimi ən əsas bölgü aşağı və yuxarı səviyyəli şkalalar hesab edilir. Tədrisdə əgər bu fərqlər ingiliscə danışanlar tərəfindən qəbul edilmirsə, bu zaman fərqləri təqdim etmək üçün daha mürəkkəb sistem qurmaq mənasız olar [15, s.53]. Bəzi müəlliflər iddia edirlər ki, nisbətən yüksək şkalada başlayan və tədricən ifadə boyu

səs tonu səviyyəsi aşağı düşən intonasiya modeli ən əsas normal intonasiya modelidir; bu hərəkət əsasən enən meyillilik adlanır. Meyilliliyin bütün dillərdə, həmçinin ingilis dilində də işarələnməməyin iddiası ən güclü iddiadır [270, s.175]. Bu iddianın müdafiəsi üçün regional və milli müxtəlifliklərin tam diapazonunda daha çox dəlil görmək yaxşı olardı.

Qeyd edilməlidir ki, vurğuya aid iki işarə ['] və [ˌ] bu işdə və bir çox fonetika kitablarında müxtəlif məqsədlər üçün işlədilir. Vurğu haqqında danışsaq, qeyd etməliyik ki, birinci ['] əsas vurğunu, ikinci isə [ˌ] ikinci dərəcəli vurğunu göstərir. İntonasiyanı işarələmək məqsədilə ['] işarəsi yüksək şkalada vurğulu hecanı, [ˌ] işarəsi isə aşağı şkalada vurğulu hecanı göstərmək üçün işlədilir. Təcrübədə bu ona görə çaşdırıcı sayılmır ki, bunların hər biri vurğu səviyyələrini və ya intonasiya xəttini qeyd edir. Yuxarı və aşağı ['] və [ˌ] işarələri intonasiyanı qeyd etmək üçün işlədilərkən bir söz çərçivəsində müxtəlif vurğu səviyyələrini göstərmək mümkün olmur. Beləliklə, ton-vahidi səviyyəsində nitq axınında biz adətən bununla maraqlanmırıq; burada əsas fərqi tonal vurğulu heca ilə qeyri tonal vurğulu heca arasında axtarmaq lazımdır [270, s.176].

Onu da qeyd etmək vacibdir ki, intonasiyanı işarə edərkən, yalnız vurğulu hecalar işarələnir. Bu o deməkdir ki, intonasiya bütövlükdə ton vahidinin vurğulu hecaları vasitəsilə təşkil olunur və vurğusuz hecaların səs tonu səviyyəsi adətən vurğulu hecalar səviyyəsində olduğu üçün o qədər də əhəmiyyət kəsb etmir. Ona görə də onları qeyd etməyə belə dəymir.

Qeyd etməliyik ki, iki xətt arasında səs tonu səviyyələrini və hərəkətini göstərməklə, misallarda verilən informasiya yalnız bu nümunələri aydın etmək məqsədi daşıyır. Əslində isə bizim təsvir sistemimizlə intonasiya haqqında ən vacib məlumatlar mətndə göstərilmiş işarələrlə verilməlidir.

5.8.5. İntonasiya konturunda tonal hecanın müəyyən edilməsi

Britaniya tədqiqatçılarının ingilis intonasiyasına yanaşma metodu ilə bizim bu digər fəsillərdə təqdim etdiyimiz intonasiya formasının tədqiqi metodu demək olar ki, eynidir. Bir sıra çətinliklər var ki, onları müqayisə etmək yolu ilə bir-birindən

fərqləndirmək və təhlil edərək hansının daha əlverişli olduğunu müəyyən etmək lazımdır.

Fonetik ədəbiyyatda tez-tez deyilir ki, tonal hecanı müəyyən etmək asandır, çünki ton vahidində o yeganə hecadır ki, səs tonu səviyyəsinin hərəkətini göstərir; lakin bu həmişə asan olmur. Biz gördük ki, tonal hecadan sonra takt ardı gəldikdə bir neçə vurğulu heca ilə birgə takt ardını təşkil edir. Bu halda bəzən praktiki olaraq vurğulu hecaların hansında səs tonunun hərəkətini müəyyən etmək çətin olur. Vurğulu hecaların tonları neytral olaraq, sabit səviyyədə olur, səs tonunun hərəkəti isə tonal hecada baş verir. Buna görə də, burada qeyd etmək lazımdır ki, tonal heca sadəcə ən vacib və tanınan heca sayılır.

Əlavə olaraq, bəzən bəzi ton vahidləri bir yox, iki tonal hecaya malik olur və demək olar ki, həmişə onlardan birincisində ton düşür, ikincidə isə qalxır. Buna misal: I have ˎseen ˏhim



Bu misalda "seen" və "him" bərabər hüquqlu görsənir. Əlbəttə ki, demək olar ki, bu aşağıdakı misal ilə eynidir.

I have ˏ seen him



Halbuki, qeyd edilmişdi ki, bu iki versiya bir neçə variantla müxtəlifdir. "Him" birinci variantda daha çox gözə çarpandır, o daha zəif forma olan "ım" şəklində ola bilməz, "hım" kimi tələffüz olunmalıdır; danışıqda tələffüz (2) "aıv ˏ si:n ım" kimi olur. İki versiya iki müxtəlif mənaya malikdir. Birinci versiya

aşağıdakı nümunədə olduğu kimi, söhbət zamanı kiminsə adını eşitmək şəklində deyilməlidir.

A: John Cleese is a very funny actor.

B: ' Oh, yes | I’ve ˏ seen ˎ him.

İkinci versiyada isə “seen” sözünə daha böyük əhəmiyyət verilib və bu zaman ifadə elə səslənir ki, sanki danışan yenə nəsə demək istəyir və əlavəsi var:

A: Have you seen my father?

B: I’ve ˏseen him | but I 'haven’t had 'time to talk to him.

Eyni şeyi “her” sözündə də görə bilərik, məsələn:

I’ve ˏseen ˎ her. (aıv ˏsi:n ˎ h3:)

Müqayisədə I’ve ˏseen ˎher. (aıv ˏsi:n ə)

Bu, həqiqətən də, mübahisəli və çətin problemlərdən biridir, çünki əvvəldə biz iddia edirdik ki, hər bir ton vahidində yalnız bir tonal heca ola bilər.

5.8.6. Tonal hecanın sərhədləri

Qrammatik təhlil zamanı ümumi qəbul edilmiş prinsip ondan ibarətdir ki, söyləm bir və ya bir neçə cümlədən ibarət ola bilər və biz bir cümlənin qurtarıb digərinin başladığı yeri qrammatik qaydaya əsasən müəyyənləşdirə bilərik. Eyni şeyi fonetikaya da aid etmək olar, yəni bir ifadə bir neçə ton vahidindən ibarət ola bilər və bir ton vahidinin harada qurtarıb digərinin harada başladığını biz fonetik və ya fonoloji qaydalara əsasən müəyyən edə bilərik [270, s.179]. Lakin, ton vahidlərinin bir-birindən fasilələrlə ayrıldığı halı çıxmaq şərtilə, digər hallarda ton vahidlərinin sərhədlərini müəyyən etmək üçün qaydalar göstərmək asan deyil. Adətən bu məsələdə iki prinsip qeyd edilir: bir ton vahidinin sonunda səs tonu səviyyəsinin digər səs tonu vahidinin əvvəlində qəfildən dəyişməsini bir çox hallarda müəyyən etmək mümkündür. Növbəti ton vahidinin başlanğıcını ona görə müəyyən etmək asan olur ki, P.Rouçun təbirincə danışan “evə qayıtmağa” meyilli olur, yəni ton vahidinin əvvəlindəki dəqiq səs tonu səviyyəsinə qayıdır. Ton vahidlərinin sərhədlərini müəyyənləşdirmək üçün istifadə edilən ikinci prinsip isə ritmdir: iddia edilir ki, ton vahidi daxilində müəyyən ritm var və bu ritm ton vahidi

sərhəddində qırılır və ya kəsilir. Yuxarıda göstərilən hər iki prinsip yaxşı qaydadır, lakin adi nitqi tədqiq edərkən biz elə hallarla rastlaşa bilərik ki, aydın qərar vermək yenə də mümkünsüz və ya çətin olaraq qalır; bununla belə qeyd edilməlidir ki, aparılan tədqiqatlarda heç bir yekun dəlil yoxdur.

Buna baxmayaraq, kiminsə bu məsələyə dair hərtərəfli struktur təsviri ola bilər və işin içində isə uyğun gəlməyən halların olması labüddür. Məsələn enib-qalxıb-enən və ya qalxıb-enib-qalxan kimi digər tonlar şəraitlə əlaqədar olaraq meydana çıxır. Şkalada bəzən elə hallara rast gəlirik ki, orada vurğulu hecaların hamısı yüksək və ya alçaqdan deyilmir, məsələn aşağıdakı nümunədəki kimi:

After ˌone of the 'worst 'days of my ˏlife



Hətta bəzən elə olur ki, danışanın nitqi kəsilir və tonal hecanı natamam qoyur-yüksələn tonal hecaya qədər çatmır. Qrammatikadakı analogiyaya qayıtsaq, buna rast gələ bilərik, lakin bu filologu normal cümlə quruluşunu təsvir etməsindən yayındıra bilməz. Baxmayaraq ki, problemlər və istisnalar labüddür, biz ton sərhəddinə tanına biləcək, müəyyən ediləcək və təsvir edilə biləcək bir şey kimi yanaşırıq.

NƏTİCƏ

Müasir ingilis dilində sadə cümlələrin invariant modelləri və variativliyinə həsr olunmuş tədqiqat aşağıdakı nəticələrə gəlməyə imkan verir.

1. Orta və erkən ingilis dili dövründə morfoloji quruluşunda baş verən dəyişikliklər dilin sintaksisinə böyük təsir göstərərək qədim ingilis dili üçün xarakterik olan fleksiyanın orta ingilis dilində get-gedə pozulmasına, nəticə etibarilə qədim ingilis dilində sözlər arasındakı sintaktik münasibətlərin ifadə vasitəsi olan uzlaşma və idarə əlaqəsinin rolunun orta ingilis dilində azalmasına, yeni ifadə vasitələrinin (sözlər arasındakı yanaşma əlaqəsi və söz sırası) meydana çıxmasına gətirib çıxarmışdır.

2. Orta və erkən yeni ingilis dilində sonluqların neytrallaşması və ya düşməsi ilə əlaqədar olaraq cümlədəki söz sırasının funksional yükü də dəyişmiş, sözlər arasındakı əlaqə məhz sözönüləri və söz sırasının köməyi ilə verilmişdir. Qədim ingilis dilindən fərqli olaraq orta ingilis dili dövründən hər bir cümlə üzvünün cümlədəki yeri sabitləşməyə başlayır.

3. Müasir ingilis dili ilə müqayisədə orta ingilis dili dövründə sadə cümlədə söz sırasının kifayət qədər sabit olmamasının səbəbini həmin dövrdə dilin qrammatik sisteminin formalaşmasının davam etməsilə və Norman işğalından sonrakı yazı ənənəsində baş vermiş qırılmalarla əlaqədar olmuşdur. Orta ingilis dilinin əvvəllərindən başlayan söz sırasının sabitləşməsi prosesi XVI-XVII əsrlərə qədər davam etmişdir.

4. Qrammatik kateqoriyalarda baş verən dəyişikliklər nəticəsində qədim ingilis dili üçün xas olan sintetiklik tədricən analitikliklə əvəz olunur. Analitikliyin ilk əlamətləri orta ingilis dilində özünü göstərməyə başlasa da, bu hadisə sonrakı dövrlərdə inkişaf edərək ingilis dili qrammatikasının vacib bir xüsusiyyətinə çevrilmişdir.

5. İngilis dilində sadə cümlənin strukturunun, həmçinin onun tərkib elementlərinin formalaşması mürəkkəb prosesdir. Müxtəlif tarixi dövrlərdə sadə cümlənin strukturu daha da mürəkkəbləşir. Bu isə cümlənin mürəkkəb üzvü kimi

